**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

**ABBAS MƏSİMOV**

# "BP-AZƏRBAYCAN" BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN YARANMASI VƏ FƏALİYYƏTİ

**Bakı - Elm və Təhsil - 2018**

*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu D.01.161 Dissertasiya Şurasının 5 iyul 2017-cı il tarixli qərarı (14 saylı protokol) ilə çap olunur*

**Elmi redaktoru** **Cəbi Əmirvar oğlu Bəhramov**
tarix üzrə fəlsəfə doktoru,
dosent

**Rəyçilər** **Ədalət Qasım oğlu Qasımov**
tarix üzrə elmlər doktoru
**Samir Fikrət oğlu Quliyev**
tarix üzrə fəlsəfə doktoru

**Məsimov Abbas Xuda oğlu.**
**BP-Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yaranması və fəaliyyəti.** – Bakı: Elm və Təhsil, 2018. – 256 s. + 32 s. ill.

Monoqrafiyada, Əsrin müqaviləsinin imzalanmasından, Sovet imperiyasının süqutu və Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının neft strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi, "Əsrin müqaviləsi"nin imzalanması və Azərbaycan Respublikasının neft ixrac edən ölkəyə çevrilməsi məsələlərindən, habelə ABƏŞ-in yaradılması və onun Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda ARDNŞ-lə birgə fəaliyyətə başlamasından, Azərbaycan neftinin dünya bazarlarına ixracı məsələlərindən – bu neftin dünya bazarlarına nəql edilməsi üçün neft-qaz kəmərlərinin çəkilişinə başlanılmasından – Bakı-Supsa neft kəməri, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, eləcə də Xəzər neftinin dünya bazarlarına ixracı və Azərbaycan Respublikasının beynəlxalq siyasi və iqtisadi mövqelərinin möhkəmlənməsindən bəhs olunur.

**ISBN 0000000000000000**

**© Məsimov A.X., 2018**

# GİRİŞ

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dünya birliyinin həqiqi üzvü kimi özünün suverenlik hüquqlarını həyata keçirərək, dünya ölkələrinin əksəriyyəti ilə siyasi və iqtisadi əlaqələr qurmağa başladı. Müstəqilliyin ilk illərində özünün ən çətin anlarını yaşayan Azərbaycan Respublikası ölkəni hərtərəfli bürüyən böhran vəziyyətindən çıxarmaq üçün özünün ən qiymətli təbii sərvəti olan neft amilindən istifadə edərək dünyanın ən yüksək inkişaf etmiş aparıcı dövlətləri və iri neft şirkətləri ilə əlaqələr yaradıb müstəqil sosial-iqtisadi və siyasi xətt həyata keçirməyə başladı.

Ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən, məqsədyönlü və ardıcıl həyata keçirdiyi çoxşaxəli iqtisadi siyasəti nəticəsində milli sərvət olan neft Azərbaycan xalqına xidmət edərək, ölkəmizin siyasi müstəqilliyinin və dövlətçiliyinin möhkəmləndirilməsinə, iqtisadi inkişafın sürətləndirilməsinə və insanların rifahının yaxşılaşdırılmasına yönəldilmişdir. Bu baxımdan Azərbaycan neftinin xarici neft şirkətləri ilə müştərək işlənməsi, xarici bazarlara daşınması və ölkəmizə böyük miqdarda mənfəət gətirməsi tarixinin öyrənilməsi çox aktualdır.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində sənaye üsulu ilə çıxarılan Bakı neftindən bütün dünyada istifadə edilmişdir. Bundan sonrakı sovet hakimiyyəti illərində isə ümummilli lider Heydər Əliyevin dediyi kimi “Azərbaycan xalqının ən böyük sərvəti olan neftdən Sovet İttifaqının mənafeyi naminə istifadə edilmişdir” [60, 256].

Azərbaycan xalqı yalnız XX əsrin sonlarında istiqlaliyyət qazandıqdan sonra öz təbii sərvətlərindən bəhrələnmək imkanı əldə etmişdir.

Qədim neft diyarı olan Azərbaycan neftçilərinin təcrübəsindən bütün dünyada istifadə edilmişdir. Sovet imperiyası dövründə isə Bakı neftçiləri müxtəlif regionlarda yerləşən neft yataqları aşkarlamışdılar. Hətta Bakı neftçiləri dünyada ilk dəfə olaraq Xəzər dənizində neft yataqları aşkar edərək neft çıxarmağa başlamışdılar.

Hələ 1949-cu ildə Bakıdan 100 kilometr məsafədə yerləşən Neft Daşlarında dünyada ilk dəfə açıq dənizdə neft çıxarılmağa başlanılmışdır. Xəzər dənizində neft yataqlarının kəşfi və istifadəyə verilməsi Azərbaycanın neft sənayesinin inkişafında çox önəmli hadisə oldu.

SSRİ-nin süqutundan öncə Azərbaycan neftçiləri Xəzər dənizinin bütün sektorlarında axtarış kəşfiyyat qazma işləri aparmış, Türkmənistan sektorunda 5, Rusiya sektorunda 1, Qazaxıstan sektorunda 1 neft yatağı aşkar etmişdilər [12, 6].

Lakin müstəqilliyin ilk dövrlərində kənardan ola biləcək müdaxilə təhlükəsi, habelə vətəndaş müharibəsi təhlükəsi üzündən xarici dövlətlər və onların iri neft şirkətləri Azərbaycanla sıx iqtisadi əlaqələr yaratmaqdan çəkinir və riskə getmək istəmirdilər.

XX əsrin 60-cı illərindən başlayaraq Sovet İttifaqının başqa ərazilərində, xüsusilə də Qərbi Sibirdə yeni neft yataqlarında ucuz xammal çıxarılması ilə əlaqədar olaraq Azərbaycanda yanacaq sənayesinin inkişafına Mərkəz tərəfindən az vəsait ayrıldığı üçün respublikada neft hasilatı ilbəil azalmağa başladı. 70-80-ci illərdə ümummilli lider Heydər Əliyevin respublikaya ilk rəhbərliyi dövründə Xəzərin Azərbaycan Respublikası sektorunda geoloji-kəşfiyyat işlərinin genişləndirilməsi nəticəsində zəngin karbohidrogen ehtiyatlarına malik olan yeni yataqlar kəşf edildi.

Onun təşəbbüsü ilə Xəzər dənizinin böyük dərinliklərində iş aparmaq üçün 11 ədəd qazma qurğusu, müxtəlif texniki vasitələr, 400-dən artıq müxtəlif profilli müasir gəmilər gətirilərək, dərin sahələrdə qazma-kəşfiyyat işləri aparıldı və dənizin 80-350 metr dərinliklərində “Azəri”, “Çıraq”, “Kəpəz” və hazırda Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) hasil etdiyi neftin 65 faizdən çoxunu verən dərinsulu “Günəşli” kimi neft yataqları kəşf edildi. [12, 6-7] Həmin dövrdə Azərbaycanda neft hasilatının həcmi uzun müddət ildə 13 milyon ton həcmində saxlanıldı. Azərbaycanın neft sənayesinin Xəzər dənizi hesabına böyük gələcəyi nəzərə alınaraq, son dərəcə mühüm bir tədbir olan dərin dəniz özülləri zavodu tikildi. Ölkəmizdə qaz çıxarılması sahəsində də uğurlar qazanıldı və 1980-ci ildə qaz hasilatı 14 milyard [41, 182-183] kubmetrə çatdırıldı.

Monoqrafiyada araşdırılan dövrdə əlverişli geosiyasi mövqeyə malik olan ölkəmizin Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda böyük neft və qaz ehtiyatlarının olması ilə əlaqədar olaraq kütləvi informasiya vasitələrində (KİV) məlumatlar verildikdən sonra bir çox ölkələrin Azərbaycana marağı artmışdır.

1993-cü il iyun hadisələrindən sonra ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikasının siyasi və iqtisadi həyatında əsaslı dəyişikliklərin başlanması, AXC-Müsavat hakimiyyəti dövründə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında aparılmış danışıqlar nəticəsində hazırlanmış neft müqaviləsi layihəsinin ölkənin mənafelərinə uyğun gəlmədiyi üçün respublika rəhbərliyi tərəfindən danışıqların dayandırılması haqqında qərar qəbul edilməsi, həmin il iyulun axırlarında yenidən danışıqlara başlanılaraq London, Bakı, İstanbul, sonrakı mərhələdə isə ABŞ-ın Hyuston şəhərində davam etdirilməsi və nəhayət hər iki tərəfin mənafelərinə uyğun gələn müqavilə la-

yihəsinin hazırlanması probleminin həlli uğrunda mübarizə və mübahisələrin təhlil edilməsi sahəsinin tarixinin tədqiq edilməsinin böyük əhəmiyyətə malik olduğunu göstərir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) və xarici ölkələrin iri neft şirkətləri arasında üç il davam edən danışıqlardan sonra ölkənin mənafeyinə uyğun gələn Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" (Azəri-Çıraq-Günəşli) yatağının dənizin dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, birgə işlənməsi və Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) yeni layihəsinin hazırlanması və bu müqavilə layihəsinin qəbul edilməsi üçün ümummilli lider Heydər Əliyevin rəsmi görüşləri, işgüzar müzakirələri və bununla bağlı tərəflərin mövqelərini yaxınlaşdıraraq, razılaşdırmaq uğrunda onun prinsipial və qətiyyətli mövqeyinin həlledici rol oynaması və nəhayət 1994-cü il sentyabrın 20-də 8 ölkəni təmsil edən 11 xarici neft şirkətinin iştirakı ilə yaradılan konsorsiumun, ARDNŞ-lə imzalanmış Hasilatın Pay Bölgüsü (HPB) Sazişinin öyrənilməsi mühüm elmi əhəmiyyət kəsb edir.

"Əsrin müqaviləsi" adını almış Hasilatın Pay Bölgüsü Sazişini yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev demişdir "Azərbaycanın azad iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə getməsi üçün, dünya iqtisadiyyatına sıx bağlanması üçün bu sənədin çox böyük əhəmiyyəti var" [60, 230].

Yeni neft strategiyasının uğurlu başlanğıcı olan Hasilatın Pay Bölgüsü Sazişi – "Əsrin müqaviləsi" Heydər Əliyevin təkidi və möhkəm iradəsi sayəsində imzalandı.

Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı demişdir: "Əsrin müqaviləsi"nin imzalanması Heydər Əliyevin neft strategiyasının başlanması demək idi. Məhz onun uzaqgörənliyi, müdrikliyi və qətiyyəti, cəsarəti sayəsində bu müqavilə imzalandı" [85, 100].

1995-ci il fevralın 24-də "Əsrin müqaviləsi"ni həyata keçi-

rən Rəhbər Komitənin ilk iclasında ARDNŞ-lə tərəfdaşlıqda işləyib səhmdarlar adından neft sazişini həyata keçirmək üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) təsis edilməsi və onun uğurlu fəaliyyətə başlaması nəticəsində ölkəmizə inamın daha da artması və yeni neft müqavilələrinin imzalanmasına zəmin yaratması tədqiqat işində xüsusi qeyd edilmişdir.

Elmi tədqiqat işi yerinə yetirilərkən AÇG yataqlarının kəşfiyyatı, işlənməsi və Hasilatın Pay Bölgüsü Sazişindən başlayaraq 2001-ci ilədək Xəzərin Azərbaycan Respublikası sektorunda “Şahdəniz” yatağının, “Dan Ulduzu” və “Əşrəfi” strukturlarının, “Lənkəran dəniz”, “Talış dəniz” və başqa yataqların işlənməsinə dair ARDNŞ-lə xarici neft şirkətləri, o cümlədən 11 xarici neft şirkətinin birləşdiyi konsorsium arasında Bakıda və dünyanın böyük paytaxtlarında 21 neft sazişinin imzalanması, bu sazişlərdə Azərbaycanın neft-qaz sənayesinə on milyardlarla ABŞ dolları həcmində investisiyalar yatırılmasının nəzərdə tutulması, yeni neft strategiyasının uğurlar qazanmağa başlamasında ABƏŞ-in rolu böyükdür. Bu strategiyanın hazırlanması ilə bağlı ümummilli lider Heydər Əliyev demişdir. “Neft strategiyasını yaratmaq və onun əsasını qoymaq, çox böyük təcrübəyə, böyük potensiala, böyük maliyyə vəsaitinə malik olan şirkətləri Azərbaycana cəlb etmək asan proses, asan iş deyildi. Bunun üçün Azərbaycanda ictimai-siyasi asayişi təmin etmək lazım idi” [33].

Respublikamıza ən müasir qabaqcıl texnika və texnologiyaların gətirilməsində, neft sənayesi infrastrukturunun yenidən qurulmasında, köhnə platformaların və qurğuların modernləşdirilərək bərpa edilməsində, yeni platformaların tikilməsində, ölkəmizin neft sənayesi üçün yüksək peşəkar kadrların hazırlanmasında və s. ən mühüm işlərin yerinə yetirilməsində ABƏŞ-in fəal iştirak etməsi ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Elə bu baxımdan ABƏŞ-in fəaliyyəti tarixinin öyrənilməsi son dərəcə aktualdır.

Monoqrafiyanın yazılmasının aktuallığını artıran əlamətlər-

dən biri də qloballaşma dövrü olan 1993-2010-cu illərdə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) yaradılması və onun ARDNŞ-lə tərəfdaşlıqda Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda fəaliyyətinin əsas cəhətlərinin araşdırılaraq, tarix elminin ən müasir dövrünə daxil edilməsidir.

Monoqrafiya 1993-2010-cu illəri əhatə edir. Bu dövr həm də Avropada və dünyada böyük əhəmiyyətə malik olan hadisələrin baş verməsi ilə xarakterikdir. Ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının neft strategiyası məhz bu dövrdə formalaşdırılmış, "Əsrin müqaviləsi"ni həyata keçirmək üçün Rəhbər Komitə, onun ilk iclasında isə ABƏŞ yaradılmış və hərtərəfli fəaliyyətə başlamışdır. Bu dövrdə Azərbaycan Respublikasının dövlət müstəqilliyi möhkəmlənmiş, silahlı dövlət çevrilişi cəhdlərinin qarşısı alınmış, ölkə daxilində ictimai-siyasi sabitliyə nail olunmuş, cəmiyyətdə demokratik yeniliklər baş vermiş, bazar iqtisadiyyatı münasibətlərinə keçidə başlanmış, dünya iqtisadiyyatına inteqrasiya üçün əlverişli şərait yaradılmışdır.

Göstərilən tarixi dövrdə Azərbaycan Respublikasında neft-qaz yataqlarının kəşfiyyatı, işlənməsi və nəqli ilə bağlı ən iri enerji layihələrinin uğurla həyata keçirilməsində ABƏŞ başlıca rol oynamışdır.

Azərbaycan neft sənayesinin tarixinin elmi cəhətdən daha geniş miqyasda öyrənilməsinə dövlət müstəqilliyi əldə edildikdən sonra başlanılmışdır. Neft sənayesi tarixinin öyrənilməsinin nəzəri əsaslarının başlıca müddəaları ümummilli lider Heydər Əliyevin çoxcildlik "Müstəqilliyimiz əbədidir" əsərlərində verilmişdir. Onun əsərlərində 1993-cü ilin iyunundan 2003-cü ilin oktyabrınadək olan dövrdə çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məruzələri, müraciətləri və fərmanları nəşr edilmişdir.

Heydər Əliyevin "Azərbaycan nefti dünya siyasətində" adlı beş cildlik əsəri Azərbaycanın neft sənayesinin müasir tarixinin

öyrənilməsi nöqteyi-nəzərindən qiymətli əsərdir. Əsər beş kitabdan ibarətdir və neft sənayesinin tarixinə dair maraqlı məlumatlarla zəngindir. Birinci kitabda [54] Azərbaycan neft sənayesinin ən qədim dövrlərindən bəri inkişafından, onun Yaxın Şərq və digər ölkələrin iqtisadi və ictimai-siyasi baxımdan formalaşmasındakı rolundan bəhs edilir. Səyyahların Azərbaycan nefti haqqında məlumatları da kitabda öz əksini tapmışdır. Xarici ölkələrin Azərbaycan neftinə olan maraqları və digər məlumatlar araşdırılmışdır. Kitabın ikinci cildində [55] XIX əsrin ikinci yarısından başlayaraq Bakıda neft sənayesinin inkişafından, neftin əsrin yanacağına çevrilməsindən, neft emalı və neft kimyasının inkişafından, Bakı neft sənayesinə xarici kapitalın axınından, neftin nəqlinin müasir tələblərə çatdırılmasından, sonrakı cildlərdə [56-57] isə Azərbaycan müstəqillik əldə etdikdən sonra "Qarabağ" strukturuna aid, "Şahdəniz" yatağı və başqa yataqlar üzrə müqavilələr haqqında, neftin daşınması və onun problemləri, Xəzər dənizinin statusu haqqında, Bakıda neft-qaz üzrə keçirilmiş beynəlxalq sərgilər, ABŞ-Azərbaycan ticarət palatasının fəaliyyətindən, ABŞ-Azərbaycan əlaqələrindən, Rusiya-Azərbaycan iqtisadi münasibətlərinin yeni mərhələsindən və digər ölkələrlə əməkdaşlığın möhkəmlənməsindən verilən məlumatlardan tədqiqat işinin yazılmasında istifadə edilmişdir.

Heydər Əliyevin məruzələrində, çıxışlarında və çoxcildlik "Müstəqilliyimiz əbədidir" əsərlərində yeni neft strategiyasının hazırlanmasına xüsusi diqqət yetirilmişdir. 1994-cü il sentyabrın 20-də dünyanın iri neft şirkətləri ilə ARDNŞ arasında imzalanan Hasilatın Pay Bölgüsü Sazişi müstəqil Azərbaycan Respublikasının şanlı səhifəsini açmış oldu. "Əsrin müqaviləsi" adını alan bu neft sazişinin imzalanması ilə Heydər Əliyevin yeni neft strategiyası başlanır. Həmin vaxtdan başlayaraq yeni neft strategiyasının inamla həyata keçirilməsinin davam etməsi əvvəlki sətirlərdə göstərilən və sonra qeyd edilən əsərlərdə öz əksini tapmışdır.

İki hissədən ibarət olan "Heydər Əliyevin Neft Strategiyası" kitablarında ümummilli lider Heydər Əliyev irsinin öyrənilməsinə aid qiymətli məlumatlar verilmişdir və araşdırılan mövzunun elmi cəhətdən tədqiqində bu əsərlərin böyük əhəmiyyəti vardır. "Heydər Əliyevin neft strategiyası"nın birinci kitabında [96] 2001-ci ilədək olan dövrdə ARDNŞ-lə xarici neft şirkətləri arasında imzalanmış bütün müqavilələr şərh edilmiş və əslində yeni neft strategiyası hazırlanaraq, həyata keçirilməyə başlanıldığı göstərilmişdir. Kitabda milli neft strategiyasının yaradılmasına hələ 70-ci illərdən başlanılması maraqlı faktlarla göstərilmişdir.

"Heydər Əliyevin neft strategiyası" kitabının ikinci hissəsində [97] ümummilli lider Heydər Əliyevin xarici ölkələrin rəsmi nümayəndələri və iri neft şirkətlərinin rəhbərləri ilə görüşlərində neft məsələləri ilə bərabər, beynəlxalq problemlər də müzakirə edildiyi göstərilmişdir. Xatırladaq ki, Heydər Əliyev 1996-cı il aprelin 14-də Bakıda "AMOKO" şirkətinin prezidenti Don Steysini və vitse-prezidenti Lük Kelleri qəbul edərkən ABŞ Konqresinin 1992-ci ildə Azərbaycana qarşı qəbul etdiyi ədalətsiz 907-ci maddənin ləğv olunması yolunda birgə səyləri artırmağı xahiş etmişdi [97, 293]. 1997-ci il avqustun 4-də isə Heydər Əliyev Çikaqoda "AMOKO" korporasiyasının Direktorlar Şurasının sədri Lourens Föller ilə görüşdə ABŞ Konqresinin "Azadlığı müdafiə aktı"na 1992-ci ildə qəbul etdiyi ədalətsiz 907-ci düzəlişin tezliklə ləğv olunacağına möhkəm inandığını nəzərə çatdırmışdır [97, 298].

"Azərbaycan-ABŞ: Dostluq və tərəfdaşlıq yollarında" [8] kitabı Heydər Əliyevin 2000-ci il fevralın 12-dən 28-dək ABŞ-da işgüzar səfərdə olmasına həsr edilmişdir. Heydər Əliyevin fevralın 15-də ABŞ Prezidenti Bill Klintonla görüşündə Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınması, BTC və Transxəzər boru kəməri layihələri və s. məsələlər müzakirə edilmişdir. Söhbət zamanı ABŞ Konqresinin 1992-ci ildə qəbul etdi-

yi ədalətsiz 907-ci düzəlişin ləğv edilməsinin vacibliyi xüsusi olaraq diqqətə çatdırılmışdır. Kitabda verilən məlumatlardan görünür ki, ümummilli lider Heydər Əliyev neft sazişləri ilə bağlı bütün söhbətlərində öz diplomatik məharətindən bacarıqla istifadə edərək 907-ci düzəlişin ləğvinə nail olmağa və Dağlıq Qarabağ münaqişəsini Azərbaycanın maraqlarına uyğun həll etməyə səy göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycanın Xəzər nefti” [148], “Mən istənilən səviyyədə istənilən mübarizəyə hazıram” [88], “Azərbaycanıma inanıram” [81], çoxcildli “İnkisaf məqsədimizdir” kitabları neft problemlərinin öyrənilməsi üçün böyük elmi-nəzəri əhəmiyyətə malik olan əsərlərdir. “Azərbaycanın Xəzər nefti” əsərində neft sənayesinin yenidən qurulması dövründəki problemlər təhlil edilmişdir. Onun hələ Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse prezidenti vəzifəsində olarkən hazırladığı “Mən istənilən səviyyədə istənilən mübarizəyə hazıram” əsərində neft strategiyası və ümummilli lider Heydər Əliyevin xarici siyasətinin reallaşması istiqamətində uğurlu fəaliyyətindən bəhs edilir. 1999-cu ilin iyununda o, Türkiyənin “Nərgiz” televiziya şirkətinə verdiyi müsahibəsində Xəzərin AÇG yataqlarında hasil ediləcək neft haqqında, ARDNŞ və ABƏŞ-in fəaliyyəti haqqında, Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri [88, 346-349] haqqında suallara ətraflı cavabları mövzudakı bəzi məqamları aydınlaşdırmışdır.

“Azərbaycanıma İnanıram” [81] əsərində Prezident İlham Əliyev müstəqilliyin ilk illərinin çətinlikləri, idarəetmədə inzibati amirlik sistemindən imtina edilməsi, bazara keçidlə bağlı yeni qanunların qəbul edilməsi, “açıq qapılar” siyasətinin müxtəlif ölkələrlə əməkdaşlıq üçün təməl yaratması, “Əsrin müqaviləsi”nin imzalanmasından sonra Azərbaycana marağın daha da artması, Azərbaycan Respublikasının iri beynəlxalq layihələri

həyata keçirən ölkəyə çevrilməsi, Xəzərdə AÇG və "Şahdəniz" yataqlarının işlənməsi və karbohidrogen ehtiyatlarının Avropa bazarlarına çatdırılması haqqında ətraflı məlumat verilir və bu məsələlər araşdırılan mövzu ilə sıx əlaqədardır.

Prezident İlham Əliyevin çoxcildli "İnkişaf məqsədimizdir" kitablarının ARDNŞ və ABƏŞ-in Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda fəaliyyətinin öyrənilməsi üçün böyük siyasi-tarixi və elmi əhəmiyyəti vardır. Onun bütün çoxcildli əsərlərində işıqlandırılan xarici ölkələrə rəsmi səfərləri və işgüzar görüşləri zamanı, həmçinin ölkəmizə rəsmi səfərlərə gələn dövlət və hökumət rəhbərləri ilə danışıqlar aparılarkən nitq, məruzə, müsahibə və bəyanatları qiymətli materiallardır. O, rəsmi danışıqlarda neft-qaz məhsullarının istehsalı və nəql edilməsi ilə bərabər Dağlıq Qarabağ münaqişəsini də müzakirə etmiş, problemin həllində prinsipial mövqe tutmuş, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsinə səy göstərmişdir. Çoxcildli "İnkişaf məqsədimizdir" kitablarında nəşr edilmiş müxtəlif materiallar araşdırılan mövzu üçün qiymətli ilk mənbədir.

Ramiz Mehdiyevin "XXI əsrdə Milli dövlətçilik", "Azərbaycan: qloballaşma dövrünün tələbləri", Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti", "Yeni siyasət inkişafa doğru" əsərlərində dövrümüzün ən müasir problemlərinə toxunulmuşdur. Onun "XXI əsrdə Milli dövlətçilik" [113] kitabında SSRİ-nin parçalanıb dağılmasından sonra Azərbaycan cəmiyyətində baş verən yeni siyasi problemlər, hadisələr və Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra dövrün mahiyyəti, milli dövlətçiliyin möhkəmləndirilməsi təhlil edilir. "Azərbaycan: qloballaşdırma dövrünün tələbləri" [114] kitabında müasir Azərbaycan dövləti və cəmiyyətinin siyasi, iqtisadi və sosial problemlərin hərtərəfli təhlili verilir, mütərəqqi islahatları müəyyənləşdirərkən Qərb konsepsiyalarından istifadə yolları, bunun məqbulluq səviyyəsi öyrənilir. "Gələcəyin strategiyasını müəy-

yənləşdirərkən: modernləşdirmə xətti” [115] kitabı Azərbaycanın seçdiyi inkişaf yolunun təməl prinsiplərinin araşdırılmasına həsr olunmuşdur və qeyd edilir ki, Heydər Əliyev tərəfindən müəyyən edilmiş bu prinsiplər hazırkı mərhələdə də ölkənin milli inkişaf strategiyasının əsasını təşkil edir. Ramiz Mehdiyevin ikicildlik “Yeni siyasət: inkişafa doğru” [116] əsərində ölkədəki sosial-iqtisadi tərəqqi, baş verən dəyişikliklər, aparılan islahatlar şərh edilir. Göstərilən əsərlər araşdırılan mövzu üçün əhəmiyyətli elmi-nəzəri mənbədir.

Neft sənayesinin və strategiyasının öyrənilməsilə əlaqədar Ramiz Mirzəyevin “Heydər Əliyev və müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyası” [129] və “Əsrin müqaviləsindən başlanan yol” əsərlərində maraqlı məlumatlar verilmişdir. Onun “Heydər Əliyev və müstəqil Azərbaycan dövlətinin neft strategiyası” əsərində ən qədim dövrlərdən başlayaraq müasir dövrə qədər Azərbaycan neftinin tarixi icmal şəklində verilmiş, müstəqillik əldə edildikdən sonra AÇG yataqlarının işlənməsini nəzərdə tutan “Əsrin müqaviləsi”nin imzalanması göstərilmiş, konkret əməli işlər görülməsi üçün ABƏŞ-in yaradılması xüsusi qeyd edilmişdir. “Əsrin müqaviləsindən başlanan yol” [130] əsərində Azərbaycan dövlətinin yeni neft strategiyasının müəllifi Heydər Əliyevin və bu strategiyanın ən fəal icraçılarından olan İlham Əliyevin gördükləri işlərin həcmi və əzəməti barədə məlumat verilir. Əsərdə Xəzərdəki karbohidrogen ehtiyatlarının çıxarılması və dünya bazarlarına ixracı, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası, ölkəmizə sərmayə qoyuluşu, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi ilə bağlı görülən işlər barədə ətraflı danışılır. Kitabda habelə müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyasının uğurla həyata keçirilməsində İlham Əliyevin səmərəli fəaliyyətindən söhbət açılır.

Yaqub Mahmudovun “Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti” [111] və “Heydər Əliyev ideyalarının zəfər yürüşü”

[112] əsərlərində Heydər Əliyevin dövlətçiliyinin möhkəmləndirilməsi, yeni neft strategiyasını hazırlayıb həyata keçirməyə başlaması ilə əlaqədar fəaliyyəti geniş təhlil edilir və tədqiq edilən mövzu üçün geniş maraq doğurur.

Azərbaycan neftinin tarixi və neft sənayesinin inkişafı məsələlərinə dair yazılmış əsərlərdən biri Natiq Əliyevin "Azərbaycanın sənaye və yanacaq, enerji kompleksinin vəziyyəti və inkişaf istiqamətləri" [90] və rus dilində nəşr edilmiş "XXI əsr Azərbaycan iqtisadiyyatında neft və neft amili" [150] kitabıdır. Əsərdə Azərbaycan neftinin hasilatındakı inkişaf, neft amilinin ölkə iqtisadiyyatında rolu, Xəzər dənizinin neft ehtiyatları və enerji təhlükəsizliyi məsələləri ilə bağlı olması, ölkəmiz tərəfindən irəli sürülmüş enerji layihələrinin investisiyalara cəlb edilməsinə müsbət təsir etməsi şərh edilmişdir. Əsər tədqiq edilən mövzu ilə bağlı qiymətli elmi məlumatlarla zəngindir.

Azərbaycan Respublikasının yeni neft siyasəti ilə əlaqədar sosial-iqtisadi yüksəlişinə aid Müşfiq Atakişiyevin "Azərbaycanın yeni neft strategiyası və iqtisadi yüksəliş" [7] və "Azərbaycan sosial-iqtisadi tərəqqi yolunda" [6] əsərləri diqqəti cəlb edir. Müəllifin bu əsərləri XX əsrin sonlarında Azərbaycanın yeni neft siyasətinin həyata keçirilməsi prosesinin özəlliklərini "Əsrin müqaviləsi"nin imzalanmasından əvvəlki və sonrakı dövrdə baş verən ictimai-siyasi hadisələrin mahiyyətini əks etdirir. Bu əsərlərdə müəllif SSRİ-nin süqutundan sonra postsovet məkanında cərəyan edən proseslərin fonunda respublikamızda müstəqil dövlətçiliyin möhkəmləndirilməsində qarşıya çıxan çətinlikləri, neftlə əlaqədar gedən mübarizəni diqqətə çatdırır.

Azərbaycanın neft strategiyasına dair maraq doğuran kitablardan biri də Rövşən Novruzoğlunun "Azərbaycanın neft strategiyası xarici kəşfiyyatın maraq dairəsində və milli təhlükəsizliyimiz" [136] əsəridir. Əsərdə neft tarixindən və bununla əlaqədar strateji maraqlardan bəhs edilir. Kitabda həm də neft strate-

giyasının milli təhlükəsizliyin möhkəmləndirilməsində rolu izah edilir və göstərilir ki, Azərbaycanın geosiyasi vəziyyəti ilə əlaqədar olaraq NATO-nun Azərbaycanla tərəfdaşlıq əlaqələri daha da möhkəmləndirilməlidir. Əsər informasiya və müxtəlif məlumatlarla zəngin olduğu üçün neft siyasəti ilə məşğul olan diplomatlar, xarici neft şirkətləri, tədqiqatçılar və s. mütəxəssislər üçün dəyərli vəsaitdir.

G.Yüzbaşova və Z.Abdullayevin “Azərbaycanın neft-qaz strategiyası: problemlər və proqnozlar” [146] kitabında ölkəmizin neft strategiyasının başlanması və həyata keçirilməsi ilə əlaqədar tədqiq edilən mövzuya aid maraqlı məlumatlar verilmişdir.

Çapay Sultanovun rus dilində nəşr edilmiş “Bakı nefti itirilsəydi SSRİ və Avropa faşizmə qarşı dura bilərdimi” əsərində [182] faşist Almaniyası üzərində qələbə əldə edilməsində Azərbaycan neftinin həlledici rol oynaması faktlarla göstərilmişdir.

Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasına aid yazılmış maraqlı elmi əsərlərdən biri Çingiz Abbasovun “Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası yolları” [1] kitabıdır. Kitabda dünya iqtisadiyyatına inteqrasiyanın, xarici iqtisadi əlaqələrin inkişaf problemlərinin, ölkəmizə xarici investisiyaların cəlb edilməsində neft amilinin rolu və s. məsələlər, habelə Azərbaycanın neft strategiyası və cənub istiqamətində neft kəmərlərinin inşası, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi ilə əlaqədar problemlər və bir çox mühüm məsələlər maraqlı faktlarla aydınlaşdırılmışdır.

Neftlə əlaqədar problemlərə və neft strategiyasına aid yazılmış elmi əsərlərdən biri də Məmməd Mirzəyev və Canalı Mirzəliyevin altıcildli “Qara qızıl ağ səadət rəngində” kitablarıdır. Birinci kitabda Bakıda keçirilən Beynəlxalq neft-qaz sərgisi və konfransına aid məlumat və 17 oktyabr 2000-ci ildə BTC əsas ixrac boru kəmərinin layihəsi barədə sazişlərin imzalanması mərasimində Heydər Əliyevin nitqi, neft strategiyasının tarixi və

ARDNŞ-in fəaliyyəti, neft strategiyası və "Əsrin müqaviləsi" haqqında məlumat [122] verilir. İkinci kitabda neft sənayesinə aid qısa məlumat, Azərbaycanın neft strategiyası və "Əsrin müqaviləsi"nin uğurla həyata keçirilməsi uğrunda neftçilərin əmək qəhrəmanlığına aid maraqlı məlumatlar [123] geniş yer tutur. Üçüncü kitabda hər il sentyabrın 20-nin Azərbaycan Respublikasında "Neftçilər günü" peşə bayramı kimi qeyd olunması ilə bağlı prezidentin fərmanı və ilk dəfə "Neftçilər günü" münasibətilə keçirilən tədbirlərdə ümummilli lider Heydər Əliyevin nitqi [124] verilmişdir. Bu cilddə Rusiya və Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafında "LUKoyl" şirkətinin böyük rol oynaması göstərilir. Kitabın sonrakı IV-VI cildlərində neft strategiyasının yerinə yetirilməsi [125; 126; 127], BTC əsas ixrac boru kəmərinin təməlqoyma mərasiminə və neftçilərin fədakar əməyinə aid tədqiq edilən mövzu üçün maraqlı olan materiallar işıqlandırılmışdır.

Azərbaycan nefti və onun xarici bazarlara daşınması ilə bağlı Məhərrəm Məmmədovun "III respublika: mili inkişaf modeli və neft strategiyası" [121] kitabında maraqlı məlumatlar vardır. O, bu əsərində dövlət başçısı İlham Əliyevin fəaliyyətinin 4 ili ərzində Azərbaycan nefti və kəmərləri haqqında məlumat verərək göstərir ki, əslində bu kəmərlər yalnız Cənubi Qafqazın, Türkiyənin deyil, bütün Avropanın enerji təhlükəsizliyini təmin etməyə imkan verir. Müəllif kəmərlərin qorunması, tranzit ölkələrdə təhlükəsizliyin təmin olunması, bundan sonra artıq yalnız bu ölkələrin (Azərbaycanın, Gürcüstanın və Türkiyənin) daxili işi olmayıb, Avropanın, daha geniş mənada bütün dünyanın problemi olması fikrini dəlillərlə əsaslandırmağa çalışmışdır.

Azərbaycan neftinin tarixinə aid yazılmış mühüm əsərlərdən biri Miryusif Mirbabayevin "Azərbaycan neftinin qısa tarixi" kitabıdır [121a]. Əsərdə Abşeron yarımadasında ən qədim dövrlərdən başlayaraq neftin olması haqqında antik mənbələrə istinad

edilir. Müəllifin sonrakı əsrlərdə, yəni VIII əsrdən XII əsrədək olan dövrdə ərəb müəlliflərindən Bəlazuri, Məsudi, İstəxri, Əbu Dulaf və başqalarının Bakıda neft quyularının olması haqqında yazılı məlumatları qiymətli ilk mənbələrdir. Əsərdə orta əsrlərdə Bakıda olmuş Avropa səyyahlarının Abşeronda neftin quyulardan çıxarılması, keçi dərisindən tikilmiş tuluqlara doldurularaq qonşu ölkələrə – İran, İraq, Hindistan, Buxara və b. yerlərə satış üçün daşınması haqqında məlumatları qiymətlidir. Kitabda verilən məlumatlardan məlum olur ki, quyulardan qara və ağ neft çıxarılırdı və bundan işıqlandırma, yanacaq, müalicə, hərbi məqsədlər üçün istifadə edilirdi. Məlumatlardan aydın olur ki, Abşeronda qədimdən siyasi və iqtisadi həyat neftlə bağlı olmuşdur.

Şimali Azərbaycan Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra bu yerlərin təbii ehtiyatlarını, xüsusilə Abşeron yarımadasındakı neft quyularının xüsusiyyətlərini öyrənmək üçün ekspedisiyalar təşkil olunaraq xəritələr tərtib edilir və bu qiymətli yanacağın olduğu ehtimal edilən yerlərin müəyyənləşdirilməsi, XIX əsrin 40-cı illərindən başlayaraq sənaye üsulu ilə hasilatına başlamaq cəhdləri haqqında məlumatlar çox qiymətlidir. Müəllif xronoloji ardıcıllıqla neftin sənaye üsulu ilə hasilatına başlanılmasını 1846-cı ildə Bibi-Heybətdə dərinliyi 21 metr olan dünyada ilk neft kəşfiyyatı quyusunun qazılması, Azərbaycanın bu sahədə Amerikanı 13 il qabaqlaması (orada ilk neft quyusu 1859-cu ildə qazılmışdır) sənaye müəssisələrinin neft yanacağı ilə işləməyə başladıqdan sonra bu qiymətli yanacağa tələbatın daha da artması, iltizamçılıq sisteminin hasilatın artmasına mane olması, 1872-ci ildə iltizamçılıq sisteminin ləğvindən sonra neftli torpaqların ayrı-ayrı sahibkarlara icarəyə verilməsindən sonra yanacaq istehsalının artmasını sürətləndirən neft firmalarını yaratması və bundan sonra həm hasilatın, həm də neft emalının təşkili haqqında məlumatlar diqqətəlayiqdir. Daha sonra əsərdə qeyd edilir ki, neftli torpaqlar özəl şəxslərə icarəyə verildikdən

sonra neft hasilatı, emalı və satışını həyata keçirən aşağıda göstərilən neft firmaları və ticarət cəmiyyətləri meydana gəldi: "H.Z.Tağıyev" (1872), "Nobel qardaşları" (1879), "Bakı neft cəmiyyəti" (1874), Rotşildlərin "Xəzər-Qara dəniz cəmiyyəti" (1883), "S.M.Şibayev" (1884), "Xəzər yoldaşlığı" (1887), "Musa Nağıyev" (1887), "A.İ.Mantaşov" (1889), "Şəmsi Əsədullayev" (1893), "Qafqaz" (1896), "İ.A.Haqverdiyev" (1895), "Rus nefti" (1898), "Ortaqlar" (1898), "Abşeron neft cəmiyyəti" (1899), "Aleksander Benkendorf" (1990), "Bibi-Heybət Petroleum$^{Co}$ LTD" (1900), "Balakhani Sindicate$^{Co}$ LTD" (1900), "Moskva-Qafqaz neft cəmiyyəti" (1902)", "Sankt-Peterburq-Qafqaz neft sənayesi və ticarət cəmiyyəti" (1911), "Murtuza Muxtarov" (1913) və b. Əsərdə firmalar və şirkətlərin yaranmasından sonra neft sənayesinin sürətlə inkişaf etdiyi qeyd olunur.

Azərbaycan neft tarixinin ən qədim dövrlərdən başlayaraq müasir mərhələyədək xronoloji ardıcıllıqla öyrənilməsi üçün Miryusif Mirbabayevin "Azərbaycan neftinin qısa tarixi" əsəri çox əhəmiyyətlidir.

Neft-qaz problemlərinin elmi cəhətdən öyrənilməsi üçün ingilis alimi Deniyel Yerginin "Hasilat" əsəri də əhəmiyyət kəsb edir [158a]. İngilis dilində yazılan bu əsər 17 dilə, o cümlədən iki dəfə rus dilinə tərcümə edilmiş və ikinci dəfə 2013-cü ildə Moskvada nəşr edilmişdir. Əsərdə strateji sərvət olan neftin dünya üzrə XIX əsrin ikinci yarısından başlayaraq XX əsrin əvvəllərinədək olan dövrdə 150 illik tarixi tədqiq edilmişdir. Əsərdə neft sənayesinin əsasının Qafqazın Bakı, Maykop, Qroznı yataqlarında qoyulduğu, sonralar Amerikada, İran körfəzində, ərəb ölkələrində və dünyanın bir sıra yerlərində inkişaf edərək dünya iqtisadiyyatında aparıcı rol oynaması tarixi faktlarla göstərilmişdir. Daha sonra XX əsrin əvvəllərində dünyanın ən inkişaf etmiş böyük dövlətlərinin iqtisadiyyatında və siyasətində neftin rolunun daha da artması, I və II Dünya müharibəsində neftin diqqət

mərkəzində olması, sonuncu dünya müharibəsində Almaniya və Yaponiya kimi imperialist dövlətlərinin məğlub olmalarının əsas səbəblərindən biri yanacaq çatışmazlığının olması qeyd edilir. Müəllif Sovet İttifaqının parçalanıb dağılmasından sonra diqqəti dünyada ikinci neft ixracatçısı olan Rusiya Federasiyasında bu sahənin sürətli inkişafına yönəldərək göstərir ki, postsovet məkanında yaranmış müstəqil dövlətlərdə – Azərbaycan və Qazaxıstanda yeni yataqlar aşkarlanaraq neft sənayesi sürətlə inkişaf edir. Dünyanın böyük neft ehtiyatlarının cəmləşdiyi Yaxın Şərqdə bu qiymətli xammal mənbələrini ələ keçirmək uğrunda dəfələrlə müharibələr baş verməsini qeyd edən Deniel Yergin müasir dövrdə də ölkələrin enerji təhlükəsizliyində neft-qaz yanacağının aparıcı rol oynadığını göstərərək qeyd edir ki, 1991-ci ildən 2008-ci ilədək olan dövrdə dünya neft istehlakının 30% artmasına baxmayaraq, son dövrlərdə Çin, Hindistan və digər inkişaf etməkdə olan ölkələrdə neft-qaz yanacağına tələbat ilbəil artmaqdadır. O, öz əsərində nikbin fəlsəfi mühakimələr yürüdərək hələ yerin təkində böyük ehtiyatlar olduğunu, ölkələrin enerji təhlükəsizliyində uzun müddət neft-qaz yanacağının başlıca rol oynayacağı fikrini təsdiq etməyə səy göstərərək, enerji təhlükəsizliyinin hər bir ölkənin qlobal problemi olduğunu qeyd edir.

Dünya ölkələrinin neft-qaz hasilatı problemlərinin və enerji təhlükəsizliyi problemlərinin elmi və nəzəri cəhətdən öyrənilməsi üçün D.Yerginin “Hasilat” əsəri də əhəmiyyət kəsb edir.

Azərbaycan nefti tarixinin öyrənilməsinə həsr edilmiş maraqlı əsərlərdən biri də Elmira Muradəliyevanın rus dilində nəşr edilmiş “Yerin qanı – Azərbaycan nefti və tarix” [176] kitabıdır. Monoqrafiyada neft amili təhlil edilir, neft sənayesinin XIX-XX əsrlərdə inkişafı tarixinə aid dəyərli məlumatlar verilərək göstərilmişdir ki, çar Rusiyası və Sovet İttifaqı imperiya mövqeyindən yanaşaraq Azərbaycanın neft ehtiyatlarını vəhşicəsinə istismar etmişlər.

Neft-qaz problemlərinin öyrənilməsinə dair xarici ölkələrdə nəşr edilmiş əsərlərdən Z.N.Nursultanovanın rus dilində nəşr edilmiş "Müasir Qazaxıstanın neft sənayesi (1991-2010-cu illər)" [177] kitabı da diqqətəlayiqdir. Əsərdə müasir Qazaxıstanın neft və qaz sənayesinin inkişafı məsələləri tədqiq edilmişdir. Monoqrafiyadakı elmi məlumatlar araşdırılan mövzudakı tarixi dövrlə təqribən eyni olduğu üçün maraq kəsb edir.

Müxtəlif səpgidə yazılmış aşağıda adları qeyd edilən əsərlərdə araşdırılan problemə aid maraqlı məlumatlar verilir. Müəlliflərdən Natiq Əliyevin "Azərbaycanın sənaye yanacaq enerji kompleksinin vəziyyəti və inkişaf istiqamətləri", Dünyamalı Vəliyevin "Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası", Habil Həmidovun "Böyük ipək yolu Azərbaycanın beynəlxalq münasibətlərində", Asəf Nadirovun "Azərbaycan iqtisadiyyatının daima yüksələn müstəqillik dövrü", Ağaheydər İsayevin "Neft və qaz sənayesinin iqtisadiyyatı", İsrafil İsmayılovun "Azərbaycan nefti XX əsrdə", Qədir Xəlilovun "Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ekoloji təhlükəsizliyinin beynəlxalq hüquq və dövlətdaxili qanunvericilik problemləri", Səttar Səfərovun "Müstəqillik və iqtisadiyyat", "Yeni Azərbaycan: iqtisadiyyat, siyasət, dinamizm", "İlham Əliyev: ümummilli liderliyə layiq şəxsiyyət" əsərlərində tədqiq edilən mövzuya aid diqqəti cəlb edən faktlar və dəlillər vardır.

Azərbaycan tarixşünaslığında tədqiq edilən dövrün tarixinə aid yazılmış əsərlər də vardır. Gəncə Dövlət Universitetinin əməkdaşı Cavad Tağıyevin "XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycan nefti və neft kəmərləri" [143a] mövzusunda yazılmış namizədlik dissertasiyası, Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi Əli Məmmədovun "Müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi uğrunda mübarizə" [119] adlı doktorluq dissertasiyasında neft strategiyası, neftin xarici bazarlara daşınması və iqtisadi əlaqələrə təsiri, Azərbaycan

dövlətçiliyinin möhkəmləndirilməsində neft amilinin başlıca rol oynaması, mövzuya aid müəyyən məlumatların olmasıdır.

C.Ə.Bəhramovun “Azərbaycan dəniz neftçıxarma sənayesinin yaradılması və inkişafı tarixi” [42] adlı namizədlik dissertasiyası və “Azərbaycan nefti” kitabında ölkənin neft sənayesinin tarixinə dair zəngin məlumatlar verilməklə bərabər, müasir problemlərin izahına da diqqət yetirilir və araşdırılan mövzu ilə əlaqədardır.

Ölkəmizin neft sənayesinin müasir dövrünün tarixi ilə əlaqədar xarici ölkələrdə də külli miqdarda əsərlər yazılmışdır. Rusiyada nəşr olunmuş əsərlərdən M.Ekonomides, R.Olini “Neftin rəngi. Ən iri dünya biznesi: tarix, pul və siyasət” [189], İ.S.Zonn “Xəzər: illüziya və reallıq”, İ.S.Zonn, S.S.Jiltsov, A.İ.Uşakov “Xəzər bölgəsinin geopolitikası”, İ.Zaslavski “Çətin məsələ: Bakı-Tbilisi-Ceyhan və Qazaxıstanın Xəzərdə seçimi”, V.Tarlinski “Boru kəmərləri – geopolitikanın instrumentləri”, S.S.Jiltsov, İ.S.Zonnun “Xəzərin Boru kəməri geopolitikası” [160] və s. əsərlərini göstərmək olar. Həmin müəlliflərin əsərlərində Xəzər dənizinin karbohidrogen ehtiyatları haqqında müxtəlif məlumatlar verilir və neftin xarici bazarlara daşınması ilə əlaqədar geosiyasi mübarizə getdiyi bildirilərək, Qərb şirkətlərinin dəniz neft yataqlarında müştərək iş aparmalarına mənfi münasibət bəslənilir. Göstərilən müəlliflər öz kitablarında Rusiyadan yan keçən alternativ neft-qaz kəmərlərinin çəkilməsi əleyhinə çıxaraq, hətta gələcəkdə çəkilməsi proqnozlaşdırılan Transxəzər layihəsinin baş tutmaması üçün əks təbliğat aparırlar. Onların fikrincə boru kəmərləri layihələrinin həyata keçirilməsi nəticəsində Qərb dövlətlərinin, o cümlədən ABŞ-ın Xəzər dənizində və regionda mövqeyi güclənəcək, Rusiyanın təsiri isə zəifləyəcəkdir. Bununla belə rus müəlliflərinin əsərlərində işlənilən mövzuya aid maraqlı məlumatlar, cədvəllər və s. maraqlı materiallar çoxdur və bunlardan tənqidi şəkildə istifadə edilmişdir.

Problemin elmi səviyyəsini öyrənmək üçün müxtəlif mənbələrdən istifadə olunmuş və münasibət bildirilmişdir.

Monoqrafiya yazılarkən müxtəlif xarakterli mənbələrdən, ümummilli lider Heydər Əliyevin çıxış və nitqlərindəki müddəalardan, fərman və sərəncamlarından, göstərişlərindən, "Müstəqilliyimiz əbədidir" adlı 46 cildliyindən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "İnkişaf məqsədimizdir" və s. əsərlərindən, neft hasilatı ilə məşğul olan idarə və müəssisələrin cari arxivlərindən illik hesabatlarından, müxtəlif səpgidə yazılmış elmi əsərlərdən, ilk mənbələrdən, o cümlədən BP-nin və ARDNŞ-in arxiv materiallarından, KİV-lərin materiallarından, DSK-nin statistik məlumatlarından istifadə edilmişdir.

XX əsrin axırlarında və XXI əsrin əvvəllərində "Əsrin müqaviləsi"nin yerinə yetirilməsinə uyğun olaraq Xəzərin Azərbaycan Respublikası sektorunda yerləşən AÇG yataqlarının və Şahdəniz qaz-kondensat yatağının işlənməsinə, ABƏŞ-in fəaliyyətinə habelə, ixrac neft kəmərlərinin tikintisinə aid irəli sürülmüş layihələrin müzakirəsi, layihələr qəbul olunduqdan sonra isə onun gerçəkliyə çevrilməsi ilə bağlı mətbuatda dərc edilmiş məlumatlardan, məqalələrdən istifadə edilmişdir. "Əsrin müqaviləsi"nin yerinə yetirilməsi ilə əlaqədar olaraq Ümummilli lider Heydər Əliyevin, Azərbaycan Prezidenti İlham Əliyevin nitq və məruzələrinin, bəyanatlarının kitab şəklində çap edilmiş materiallarından, qəzet və jurnallarda dərc edilmiş nitq və məruzələrindən, habelə dövlət rəhbərlərinin qarşılıqlı səfərlərinə aid məlumatlardan geniş istifadə edilmişdir.

Monoqrafiyanın hazırlanmasında neft-qaz problemlərinə aid yazılmış elmi əsərlərdən istifadə etməklə bərabər "BP-Azərbaycan" şirkətinin Davamlı İnkişaf Haqqında illik Hesabatları və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "İllik hesabat" arxiv materialları araşdırılmış, işlənilən dövrə aid faktlar və elmi dəlillərdən istifadə edilmişdir.

Hər ilin iyun ayında neft-qaz problemlərinə aid Bakıda keçirilən konfrans materialları, “Azərbaycan”, “Respublika” və “Xalq qəzeti”ndə dərc edilmiş məqalələr, “AMEA-nın Xəbərləri”ndə və “Elmi Əsərləri”ndə, BDU-nin “Tarix və onun problemləri”ndə, Gürcüstanda çıxan “Kavkaz i mir” jurnalında, Kiyevdə çıxan “Qileya” jurnalında və s. dərc edilmiş məqalələrdən yaradıcılıqla istifadə edilmişdir.

Mövzuya aid araşdırmalar aparılarkən xarici ölkələrin müəlliflərinin əsərlərindən, xüsusilə rus müəlliflərinin Xəzər dənizinin neft-qaz yataqlarına, karbohidrogen ehtiyatlarının həcminə aid və dünya bazarlarına daşınması ilə əlaqədar olaraq ixrac neft kəmərlərinin çəkilməsi ilə bağlı nəşr edilmiş əsərlərindən tənqidi şəkildə istifadə edilmiş, “Kommersant vlast” jurnalının və “Nezavisimaya qəzeta”nın səhifələrində qeyd edilən problemlərə aid dərc edilmiş məqalələrə, eləcə də digər əsərlərə diqqət yetirilmişdir.

Monoqrafiyanı yazmaqdan məqsəd XX əsrin 80-90-cı illərində Sovet İttifaqının süqutu nəticəsində beynəlxalq aləmdə və o cümlədən Azərbaycanda baş verən siyasi-iqtisadi dəyişikliklər prosesində dünyada və Avropada enerji təhlükəsizliyinin kəskinləşməsi və bu problemin neft-qaz amili ilə əlaqədar olması fonunda ABƏŞ və ARDNŞ-in birgə fəaliyyətini təhlil etmək; müstəqilliyin ilk illərində Azərbaycanda dövlət quruculuğunun yaradılmağa başlanması prosesində, yəni AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə neft siyasəti ilə əlaqədar olaraq yol verilmiş kobud səhvləri təhlil etmək, həmin dövrdəki iqtidarın səriştəsizliyini göstərmək, Azərbaycanın düçar olduğu məhrumiyyətlərin onların siyasi və iqtisadi siyasətinin nəticəsi olduğunu izah etmək; ölkədə baş vermiş qarşıdurmanın dərinləşməsinə və vətəndaş müharibəsinə çevrilməsinə yol verməyən xalqın təkidli

tələbi ilə ikinci dəfə respublikada hakimiyyətə gətirilən ümummilli lider Heydər Əliyevin ölkənin daxilində ictimai-siyasi sabitliyə nail olunduqdan sonra həyata keçirdiyi uğurlu xarici siyasət xəttini və bunun tərkib hissəsi olan neft strategiyasının həyata keçirilməsi üçün gərgin siyasi fəaliyyətini ardıcıllıqla izah etmək; enerji təhlükəsizliyinin təmin edilməsi məsələsi ətrafında ABŞ-ın, Avropa dövlətlərinin və dünyanın digər dövlətlərinin və həmçinin Xəzər regionu dövlətlərinin maraqlarının kəsişdiyi geosiyasi məkana çevrilən Azərbaycan Respublikasının milli maraqlarının qorunması siyasətinin ardıcıllıqla həyata keçirildiyini təhlil etmək; neft-qaz yataqlarının işlənməsi ilə əlaqədar, onun xarici bazarlara nəqli məsələsi ətrafında mübahisələrin yaranması, Azərbaycanın mənafeyinə uyğun olan neft-qaz ixracı marşrutlarına mane olmağa çalışan əks qüvvələrin baş qaldırması, ABŞ-ın dəstəyinin ölkəmizin maraqlarının təmin edilməsində həlledici rol oynaması və ən səmərəli neft-qaz ixracı marşrutlarının müəyyənləşdirilməsini faktlarla göstərməkdən ibarət olmuşdur.

Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda zəngin karbohidrogen ehtiyatları haqqında Avropa və dünya mətbuatı səhifələrində məlumatların verilməsi və dərc edilməsi ölkəmizin əlverişli geosiyasi mövqeyi ilə əlaqədar olaraq, iki qitə arasında körpü rolunu oynayacaq tranzit əhəmiyyəti nəticəsində ABŞ və Qərb ölkələrinin Azərbaycana marağının daha da artması dəlillər və faktlarla göstərilmişdir.

Dünyanın qabaqcıl ölkələrinin iri neft şirkətləri ilə ARDNŞ arasında aparılan danışıqlar nəticəsində neft-qaz yataqlarının kəşfiyyatı, işlənməsi və Hasilatın Pay Bölgüsü haqqında imza-

lanmış müştərək müqavilələrin hər biri fərdi şəkildə yeni elmi dəlillər və faktlarla izah edilmişdir.

Müştərək müqavilələrin imzalanmasında ümummilli lider Heydər Əliyevin bilavasitə iştirak etməsi, xarici dövlətlər və iri neft şirkətlərinin rəhbərləri ilə aparılan danışıqlarda onun öz diplomatik məharətindən istifadə edərək, Dağlıq Qarabağ münaqişəsinin də Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həll olunmasına çalışması və ABŞ konqresi tərəfindən qəbul edilmiş ədalətsiz 907-ci düzəlişin ləğv edilməsi uğrunda apardığı gərgin mübarizə faktlarla təhlil edilmişdir.

ARDNŞ-in Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) ilə iqtisadi əlaqələrinin genişləndirilməsi nəticəsində elmi laboratoriyaların alınıb ölkəmizə gətirilməsi və bununla bağlı neft sənayesində mütərəqqi texnika və texnologiyanın tətbiqinin neft-qaz sənayesinin sürətli inkişafına səbəb olması izah edilmişdir.

Qərb və Cənub-qərb marşrutları ilə Rusiyadan yan keçən alternativ və təhlükəsiz neft-qaz kəmərlərinin çəkilib istifadəyə verilməsi və karbohidrogen ehtiyatlarının müxtəlif istiqamətlərlə xarici bazarlara daşınması ilə bağlı çoxvariantlılıq və ya şaxələndirmə siyasətinin düzgün və səmərəli seçim olduğu elmi dəlillərlə sübut edilmişdir.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yaranması və onun Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda fəaliyyətinin geniş tədqiq edilməsi materiallarından XX əsrin sonu və XXI əsrin əvvəllərində Azərbaycanın iqtisadi və siyasi tarixinin öyrənilməsində istifadə edilə bilər. 90-cı illərin ortalarında Azərbaycanda bazar münasibətlərinin formalaşdığı dövrdə ölkə-

nin iqtisadiyyatını böhranlı vəziyyətdən qurtarmaq üçün neft yataqlarının xarici şirkətlərlə müştərək işləməsi və hasil edilmiş xam neftin nəqli məsələlərinin respublikanın mənafeyinə uyğun həll edilməsinin zəruriliyinin dərk edilməsi milli özünüdərketmənin formalaşmasında səmərəli ola bilər. Tədqiq edilən "Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yaranması və onun Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda faəliyyəti" mövzusunun materialları fakt və dəlillərlə zəngindir və ölkənin keçid dövrünün həm siyasi, həm də iqtisadi tarixinin öyrənilməsində elmi tədqiqatla məşğul olanlar, ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələri tərəfindən köməkçi vəsait kimi istifadə edilə bilər.

# I FƏSİL

# HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN AZƏRBAYCAN RESPUBLİKASI NEFT STRATEGİYASININ İŞLƏNİB HAZIRLANMASI VƏ HƏYATA KEÇİRİLMƏSİ. ƏSRİN MÜQAVİLƏSİ

## 1.1. Sovet imperiyasının süqutu və Azərbaycan Respublikasının neft strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi

XX əsrin 70-ci illərində respublikada neft sənayesindəki tənəzzülün qarşısını almaq üçün təqdirəlayiq işlər həyata keçirilmişdi. Ümummilli lider Heydər Əliyevin ilk dəfə Azərbaycana rəhbərliyə gəldiyi dövrdə neft-qaz sənayesi ağır vəziyyətdə idi. Lakin bu sahədə geriləmənin qarşısını almaq üçün onun məsləhətləri və göstərişi ilə konkret və düzgün qərarlar qəbul edildi. 1969-1982-ci illərdə respublikanın neft-qaz, neftayırma, neftmaşınqayırma və digər sahələrdə yenidənqurma işləri aparıldı və yeni obyektlər tikilib istifadəyə verildi. Xəzər dənizində neft-kəşfiyyat işləri genişləndirildi. Bakı Dərin Özüllər zavodu inşa edildi, yeni üzən qazma qurğuları alınıb Xəzərə gətirildi. Neft donanması ən müasir kran, sualtı boru düzən və digər texniki-xidməti gəmilərlə təchiz olundu. Dəniz neft-qaz infrastrukturunun inkişafı üçün möhkəm texniki potensial yaradıldı.

Yaradılmış bu yüksək potensial Xəzər dənizində axtarış

kəşfiyyat işlərinin sürətlənməsinə və dənizin daha dərin qatlarında "Azəri", "Çıraq", "Günəşli" və bu kimi yeni neft yataqlarının aşkarlanmasına imkan verirdi.

Lakin XX əsrin 80-ci illərində keçmiş SSRİ-də başlanan böhranlı vəziyyət müttəfiq respublikaların, o cümlədən, Azərbaycanın sosial-iqtisadi həyatına ağır təsir göstərdi. Siyasi və iqtisadi böhranın dərinləşməsi nəticəsində, tənəzzül prosesi getdikcə güclənirdi. Müttəfiq respublikalar arasında iqtisadi əlaqələrin, demək olar ki, tamamilə pozulduğu üçün xammal və material çatışmadığına görə müəssisələr tam gücü ilə işləyə bilmirdi, bəziləri isə öz fəaliyyətini tamamilə dayandırmışdı. Respublikanın əsas təsərrüfat sahəsi olan neft sənayesində vəziyyət daha acınacaqlı idi. Sibirdə iri neft yataqları kəşf edildikdən sonra mərkəzi hökumət Azərbaycanın neft sənayesinə kapital qoyuluşunu azaltdığı üçün hasilat getdikcə aşağı düşür, Xəzər dənizində yeni aşkarlanmış yataqlar isə işləmirdi. Neft hasilatının ilbəil azalması müşahidə olunurdu. Respublikada neft hasilatı 1992-ci ildə 11 milyon ton olmuşdursa, 1996-cı ildə isə cəmi 9 milyon ton olmuşdur [41, 366].

Müstəqilliyin ilk illərində yaranmış ağır siyasi-iqtisadi vəziyyət, ermənilərin Azərbaycana qarşı torpaq iddiaları və təcavüzkar hərəkətləri böyük təsərrüfat dağıntılarına və itkilərə səbəb olmuşdu. Azərbaycanın bir milyon hektar kənd təsərrüfatı sahəsi, 34 min hektar üzümlük, 65 min baş qaramal, 240 min baş davar, 173 sənaye obyekti 200-dən çox faydalı qazıntı yataqları, 250 min hektar meşə sahəsi və s. düşmənin əlinə keçmişdi [41, 367].

Müstəqilliyin ilk dövründə sosialist istehsal üsulundan bazar iqtisadiyyatına keçilməsi, bazar münasibətlərini formalaşdıran əsaslı iqtisadi islahatların ləng tətbiq edilməsi də böhranın başlıca səbəblərindən biri idi. Müxtəlif mülkiyyət formalarına keçid və özəlləşdirmə prosesləri zəif aparılırdı. Respublikanın

mövcud iqtisadi potensialından səmərəli istifadə olunmadığı üçün böhran getdikcə daha da dərinləşirdi. Azərbaycandakı böhranlı vəziyyət dövründə müəssisələr bağlanır, işsizlər artır və əhalinin sosial-iqtisadi vəziyyəti sürətlə ağırlaşırdı.

Müsavat AXC cütlüyü hakimiyyəti ölkənin qarət olunması və müflisləşdirilməsinin qarşısını ala bilmir, öz səriştəsizlikləri ilə onun sökülüb dağılmasına şərait yaradırdılar. Ölkədə yaranmış qeyri-sabit vəziyyətdən istifadə edən ayrı-ayrı silahlı dəstələr hakimiyyəti ələ keçirmək üçün hərbi batalyonları döyüş bölgələrindən çəkib Bakıya gətirmişdilər. Bundan istifadə edən erməni təcavüzkarları isə torpaqlarımızı işğal etməkdə davam edirdilər.

1993-cü il iyunun əvvəlində Gəncədə baş vermiş qiyam ölkədəki vəziyyəti daha da ağırlaşdırdı və vətəndaş müharibəsi təhlükəsi yarandı. Ölkənin taleyinin belə bir ağır vəziyyətində xalqın çağırışı və təkidli tələbilə Naxçıvanda Ali Sovetin sədri vəzifəsində işləyən ümummilli lider Heydər Əliyev respublikada ikinci dəfə hakimiyyətə gətirildi. Xilaskar missiyasını öz üzərinə götürən ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk gündən nümayiş etdirdiyi qətiyyət və prinsipiallıq, yüksək harizmatik keyfiyyətlər, geniş siyasi dünyagörüşü göstərdi ki, yalnız o, milli dövlətçiliyimizi qorumaq və yaşatmaq kimi çətin bir işin öhdəsindən gələ bilər.

Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ilk günlərdən başlayaraq həyata keçirdiyi qətiyyətli tədbirlər nəticəsində respublikamız siyasi və dövlət böhranlarından xilas olmaqla yanaşı, iqtisadi böhrandan da qurtulmağa başladı. İslahatlar nəticəsində ölkənin inkişafı yeni iqtisadi formasiyaya keçidə doğru yönəldildi. Bununla əlaqədar olaraq öz proqram xarakterli çıxışlarında o demişdir: “Azərbaycan demokratiya, siyasi plüralizm və azad iqtisadiyyat yolunu davam edəcəkdir” [59, 15].

İlk dövrlərdəki ağır böhran şəraitində ölkənin məhdud imkanlarını nəzərə alan ümummilli lider Heydər Əliyev iqtisadiyyatın bütün sahələrinin eyni vaxtda inkişaf etdirilməsinin qeyri-mümkünlüyü ilə əlaqədar xarici sərmayədarları Azərbaycana cəlb etmək üçün dünyanın ən inkişaf etmiş dövlətləri və qabaqcıl neft şirkətləri ilə danışıqlar apardı. Onun yanacaq-energetika kompleksinin inkişafı ilə bağlı həyata keçirdiyi tədbirlərin, proqram və islahatların növbəti mərhələsi 1993-cü ilin iyulundan başlayır.

Ümummilli lider Heydər Əliyev yaranmış siyasi və iqtisadi böhranın, sosial gərginliyin həll edilməsinin əsas istiqaməti kimi ölkənin neft-qaz sənayesinin yeni inkişaf strategiyasını irəli sürdü. Onun yeni neft strategiyasının əsasını Azərbaycanın neft sənayesində uzun illər əldə olunmuş elmi-texniki və kadr potensialından səmərəli istifadə etməklə yanaşı, xarici neft şirkətlərinin təcrübəsinin və maliyyə vəsaitlərinin respublikamıza cəlb olunması, bunun hesabına yeni yataqların aşkarlanması, işlənməsi, hasil olunan neft və qazın dünya bazarına çıxarılması təşkil edirdi.

Yeni neft strategiyasının həyata keçirilməsi həm də dərindən düşünülmüş məsələləri həll etməyi, mövcud infrastrukturu müasirləşdirməyi, təzə qurğular və obyektlər inşa etməyi tələb edirdi ki, bu da eyni zamanda yeni iş yerlərinin açılması, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına zəmin yaradılması demək idi. Digər tərəfdən də bir məşhur neft diyarı kimi Azərbaycanı Xəzər dənizi hövzəsində neft mərkəzinə çevirməkdən, Cənubi Qafqaz regionunda Azərbaycan Respublikasının həlledici rolunu nümayiş etdirməkdən və bununla da ölkəmizi dünyanın aparıcı dövlətlərinin maraq dairəsinə cəlb etməkdən ibarət idi.

Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra qısa bir vaxtda dövlət intizamını gücləndirdi, siyasi sabitliyin yaranmasına nail olundu, bazar iqtisadiyyatına keçidə şərait

yaratmaq məqsədilə qanun və qərarlar qəbul edildi. Qiymətlərin sərbəstləşdirilməsi, o cümlədən xarici ticarətin sərbəstləşdirilməsi haqqında qanun qəbul edildi. 1994-cü ilin əvvəllərindən manat respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunduqdan sonra ölkənin maliyyə vəziyyəti xeyli yaxşılaşdırıldı və inflyasiyanın səviyyəsi azaldı. Neft sənayesinin tez bir zamanda inkişafını sürətləndirmək məqsədilə iqtisadi cəhətdən yüksək etmiş ölkələrlə və dünyanın qabaqcıl neft şirkətləri ilə əlaqələr genişləndirildi və danışıqlar prosesi başlandı.

Cənubi Qafqazı, o cümlədən Azərbaycanı və Xəzər hövzəsinin böyük bir hissəsini özünün təsir dairəsi hesab edən Rusiya hər vasitə ilə danışıqlara mane olmağa çalışırdı. Bu məsələ xüsusilə İngiltərə-Azərbaycan danışıqları zamanı özünü daha tez büruzə verdi.

1994-cü ilin fevralında ümummilli lider Heydər Əliyevin Böyük Britaniyaya səfəri zamanı baş nazir Meycorla danışıqlardan sonra neft istehsalının artırılmasına dair İngiltərə ilə Azərbaycan arasında dövlətlərarası müqavilə imzalandı. Həmin müqaviləyə əsasən hər iki ölkənin hökumətləri “Britiş Petroleum” şirkəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə zəmanət verdilər. Bu müqavilə Rusiya tərəfindən ciddi müqavimətlə qarşılandı. Belə hesab edilirdi ki, Qərb ölkələri Rusiyanı Azərbaycanın neft yataqlarının birgə işlənilməsindən sıxışdırıb çıxarmaq istəyirlər. Bununla əlaqədar Rusiya Federasiyası Böyük Britaniyanın Xarici İşlər Nazirliyinə nota verərək, bəyan etmişdi ki, Rusiya ilə əvvəlcədən razılaşdırılmamış müqavilələr hüquqi sənəd hesab edilməyəcəkdir. Lakin enerji məsələsi çox mühüm məsələ olduğu üçün Rusiyanın bu səsi eşidilmədi.

Rusiya dövlətinin mövqeyini və mənafeyini öz elmi əsərlərində əks etdirən rus müəllifləri S.S.İltsov, S.S.Zonn, İ.Zaslavski və b. Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının xarici bazarlara daşınmasında ABŞ-ın başlıca rol oynadığını göstərərək,

onun hərəkətlərini Yaxın Şərq regionu neftinin ələ keçirilməsi tarixinin təkrarı kimi qiymətləndirirdilər [160, 243].

Əlbəttə həmin müəlliflərin fikirləri ilə razılaşmaq olmaz və etdikləri müqayisə də düzgün deyildir. Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı neft yataqlarına aid imzalanmış müqavilələr bu fikrin əyani sübutudur. Hələ Sovet İttifaqı dövründə Xəzər dənizinin müttəfiq respublikalara aid hissələrinin müəyyən olunmasına baxmayaraq, bu məsələ ilə əlaqədar 1992-ci ildən başlayan müzakirələr hələ də davam edir. SSRİ dağıldıqdan sonra Xəzər dənizinin beynəlxalq hüquqi statusunun müəyyənləşdirilməsinə dair Xəzəryanı dövlətlər arasında dəfələrlə görüş keçirilmişdir. Rusiya Federasiyası Xəzər dənizini öz təsir dairəsində saxlamaq və xarici investisiyaların Azərbaycana axınının qarşısını almaq məqsədilə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsini ortaya atmışdır. Təəssüf ki, Rusiyanın və İran İslam Respublikasının əks mövqeləri üzündən Xəzər dənizinin hüquqi statusu məsələsi hələ də həll edilməmişdir.

Sovet İttifaqı paçalanıb dağıldıqdan sonra Avropa ölkələrinin Xəzər regionuna diqqəti artmışdı. 90-cı illərdə ABŞ və Qərbi Avropa ölkələrinin mətbuatında Azərbaycanda və ümumiyyətlə Xəzər hövzəsində böyük neft və qaz ehtiyatlarının olması haqqında tez-tez cədvəllər dərc edilirdi. Həmin cədvəllərdə ayrı-ayrı Xəzəryanı ölkələrin, o cümlədən, Azərbaycanın neft və qaz ehtiyatları təqribi hesablanmış rəqəmlərlə göstərilirdi. ABŞ, İngiltərə və s. ölkələrin qəzet və jurnallarında dərc edilən cədvəllərdə Xəzəryanı dövlətlərdə həmin dövrdə faktiki neft və qaz istehsalı, proqnozlaşdırma vasitəsi ilə ehtimal edilən ehtiyatlar haqqında məlumatlar verilirdi. Qərb mətbuatında belə məlumatların verilməsi dünyanın iri neft şirkətlərinin Xəzəryanı ölkələrə, xüsusilə də Azərbaycan Respublikasına marağını artırdı. İri şirkətlərin neft və qaz biznesi ilə bərabər həmin şirkətləri təmsil

edən dövlətlər də Xəzəryanı ölkələrdə öz siyasi fəaliyyətlərini gücləndirdilər. Digər Xəzəryanı ölkələrə nisbətən Azərbaycan Respublikasının ərazisi qərb ölkələrinə daha yaxın məsafədə yerləşirdi. Artıq burada potensial ehtiyatlar var idi və neft infrastrukturu yaradılmışdı. Əlverişli coğrafi mövqeyi, ölkə daxilində yaradılmış nisbi ictimai-siyasi sabitlik Avropa ölkələrinin Azərbaycan Respublikası ilə daha yaxından siyasi və iqtisadi əlaqələr yaradıb, inkişaf etdirilməsini sürətləndirdi.

### 1.2. “Əsrin müqaviləsi”nin imzalanması və Azərbaycan Respublikasının neft ixrac edən ölkəyə çevrilməsi

Müstəqilliyin ilk illərində Xəzər dənizinin hüquqi statusunun müəyyənləşmədiyi, işğalçı Ermənistanla atəşkəsin hələ kövrək olduğu, ölkəmizin daxilində ictimai-siyasi sabitliyin olmadığı bir şəraitdə xarici dövlətlər və dünyanın qabaqcıl neft şirkətləri Azərbaycan Respublikası iqtisadiyyatına, o cümlədən neft sənayesinə investisiya yatırmaqdan çəkinirdilər və riskə getmək istəmirdilər.

Dünyanın aparıcı dövlətləri və iri neft şirkətləri ilə qarşılıqlı əlaqələr daha da genişləndirilirdi. Ümummilli lider Heydər Əliyevin xarici ölkələrə rəsmi səfərləri, dövlət və hökumət başçıları ilə görüşləri, beynəlxalq konfranslarda və biznes forumlarda iştirak edərək, iş adamlarını ölkəmizin iqtisadiyyatına investisiya yatırmağa dəvət etməsi öz müsbət nəticələrini göstərməyə başladı. Azərbaycan haqqında həqiqətlərin dünya ölkələrinə və ictimaiyyətinə çatdırılması və informasiya blokadasının yarılmağa başlaması ən başlıcası isə ölkə daxilində ictimai-siyasi sabitliyin yaradılması ölkəmizə inamı daha da artırdı. Bununla əlaqədar Heydər Əliyev demişdir: “Əgər 1993-cü ildə Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunmasına başlamasaydıq və ona

nail ola bilməsəydik, təbiidir ki, indi Azərbaycanda çalışan neft şirkətləri buraya gəlməzdilər” [33].

Bununla belə Azərbaycanın Xəzər dənizindəki neft yataqlarının müştərək işlənməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Qərb ölkələrinin neft şirkətləri ilə danışıqlar aparmış, sonra isə bu danışıqlar 1992-ci ildə həmin xarici şirkətlərin yaratdıqları konsorsiumla davam etdirilmişdir. Neft müqavilələrinin bağlanması ilə əlaqədar üç ildən artıq davam edən danışıqlar bir sıra səbəblərə görə 1993-cü ilin iyulunda ümummilli lider Heydər Əliyev tərəfindən dayandırılmışdı. Bu danışıqların dayandırılması qərarı ilə əlaqədar o demişdir: “Bu qərar ona görə qəbul olundu ki, o vaxt gələn siqnallar, məlumatlar göstərdi ki, artıq hazırlanmaqda olan müqavilə layihəsində müəyyən çatışmazlıqlar, səhvlər var və həmin layihə hazırlandığı şəkildə Azərbaycan Respublikası üçün əlverişli deyil” [96, 6].

Xəzərin Azərbaycan Respublikası sektorunda yerləşən neft yataqlarının birgə işlənilməsi ilə bağlı danışıqlar əvvəlki AXC-Müsavat cütlüyü hakimiyyəti dövründəkindən fərqli olaraq respublikanın mənafeyinə uyğun aparılırdı. Yeni hazırlanan müqavilə layihəsində müştərək iş prinsipi də gözlənirdi, yəni qarşılıqlı mənfəət nəzərdə tutulur, ölkənin mənafeyi də nəzərə alınırdı.

Ümummilli lider Heydər Əliyev 1994-cü il sentyabrın 16-da keçirdiyi brifinqdə Qərb ölkələrinin neft şirkətləri ilə bağlanacaq saziş ilə əlaqədar bəyanat verərək demişdi: “Bizim bütün istəklərimiz bu layihədə əks olunmasa da, ancaq təqdim edilən layihə Azərbaycan Respublikasının, Azərbaycan xalqının iqtisadi mənafelərini bu gün də, gələcəkdə də təmin edir və ona görə də mən bu müqavilənin imzalanması haqqında qərar vermişəm” [96, 7].

Aparılan təqdirəlayiq və dərindən təhlil edilərək düşünülmüş iqtisadi siyasət nəticəsində 1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı “Azəri”,

"Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, birgə işlənilməsi və Hasilatın Pay Bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici ölkələrin bir qrup neft şirkətlərinin yaratdıqları konsorsium arasında müqavilə imzalanması münasibətilə təntənəli mərasim keçirildi. Tezliklə yeni imzalanmış olan bu neft sazişi "Əsrin müqaviləsi" adlanmağa başladı və bütün dünyada böyük əks-səda doğurdu.

Neft sazişinin imzalanması mərasimində çıxış edən Ümummilli lider Heydər Əliyev brifinqdə verdiyi bəyanatı xatırladaraq demişdir: "Hər hansı bir müqavilə hər iki tərəfin mənafeyini təmin etməlidir. Qərb neft şirkətlərinin konsorsiumu öz mənafelərini təmin etməyə çalışmış, Azərbaycan Dövlət Neft Şirkəti isə Azərbaycan Respublikasının mili mənafelərini təmin etməyə səy göstərmişdir… Nəhayət hər iki tərəfin mənafelərinə cavab verən layihə hazırlanmışdır. Ona görə də mən bu imzalanacaq müqaviləni Azərbaycan Respublikasının indisi və gələcəyi üçün iqtisadi baxımdan mənfəətli hesab edirəm və onun imzalanmasına qərar vermişəm" [60, 259].

Beləliklə, səmərəli danışıqlardan sonra Azərbaycanın neft sənayesində yeni uğurlu mərhələ başlandı. 1994-cü il sentyabrın 20-də Gülüstan sarayında toplanmış neft sammitində bir sıra dövlətlərin nümayəndə heyətlərinin iştirakı ilə respublikanı təmsil edən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və dünyanın qabaqcıl neft şirkətlərinin daxil olduğu konsorsium arasında Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında "Əsrin müqaviləsi" adını almış müqavilə imzalandı. Konsorsiuma göstərilən şirkətlər daxil olmuşdur: "BP", "Amoko", "Yunokal", "LUKoyl", "Statoyl", "Eksson", "Türk Petrol-

ları Anonim Ortaqlığı", "Penzoyl", "Remko", "Delta" və sonradan "İtoçu" şirkəti konsorsiuma qoşulmuşdur.

Bakı sammitində neft sazişi imzalandıqdan sonra xarici ölkələrdən gəlmiş nümayəndə heyətlərinin başçıları, müqavilənin iştirakçısı olan neft şirkətlərinin rəhbərləri öz çıxışlarında müqavilənin məzmunu, mahiyyəti və gələcək əhəmiyyəti haqqında danışaraq Azərbaycan Respublikasının ünvanına, onun prezidentinə xoş arzularını bildirdilər.

Neft müqaviləsinin imzalanması mərasimində Ümummilli lider Heydər Əliyev böyük nitq söyləmişdir. O, öz nitqində Azərbaycanın qədim neft diyarı olduğu üçün "Odlar Diyarı" adlandırıldığını xatırlatdı və çıxışına davam edərək XIX əsrin ortalarından başlayaraq Azərbaycanda neftin sənaye üsulu ilə hasil edilməsi, çar Rusiyasının, sonra isə Sovet İttifaqının sənayesinin Bakı nefti əsasında inkişaf etdirilməsi, nəhayət faşizm üzərində qələbə qazanılmasında Bakı neftinin həlledici rol oynaması haqqında ətraflı məlumat vermişdir.

"Əsrin müqaviləsi"nin imzalanması ilə ümummilli lider Heydər Əliyevin neft strategiyasının əsası qoyuldu. Bu müqavilə milli dövlətçiliyimizin inkişafında mühüm bir tarixi mərhələ oldu və Azərbaycanın suveren dövlət olduğunu göstərdi. Bununla əlaqədar olaraq Heydər Əliyev demişdir: "Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk" [60, 259].

Ümummilli lider Heydər Əliyev öz nitqində Hasilatın Pay Bölgüsü Sazişini yüksək qiymətləndirmiş və bu müqavilənin Azərbaycanın gələcək inkişafına xalqın rifahının yüksəldilməsi üçün zəmin yaradacağından danışaraq demişdir:

"Bu müqavilə Azərbaycan Respublikasının dünya birliyində layiqli yer tutmasına kömək edəcək, ölkəmizin iqtisadiyyatını

sərbəst bazar iqtisadiyyatı ilə bağlayacaqdır. Ən ümdəsi isə ondan ibarətdir ki, bu müqavilə Azərbaycan xalqının bu gününə, gələcəyinə böyük mənfəətlər verəcək, onun rifahının yüksəlməsi üçün zəmin yaradacaqdır” [60, 262].

Müqavilənin imzalanması həm də bütün dünyaya bir daha nümayiş etdirmişdir ki, bir hüquqi dövlət kimi Azərbaycanda demokratik prinsiplər inkişaf etdirilir və nəhayət xarici sərmayədarların ölkəmizə investisiya yatırmasına əlverişli şərait yaradılmışdır. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: “Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk” [60, 259].

Bu müqavilənin imzalanması Azərbaycana nə kimi fayda verəcək sualının cavabında ümummilli lider Heydər Əliyev demişdi: “Müqavilə Azərbaycan Respublikası ilə xarici şirkətlərin mənsub olduqları dövlətlər arasında əlaqənin inkişafına, şübhəsiz xeyli təkan verəcəkdir. Elə bunun özü böyük nailiyyətdir. Lakin bir halda ki, 30 il müddətində müştərək fəaliyyət göstəriləcək, ölkələrimiz inkişaf edəcəksə, şübhəsiz bunun siyasi nəticələri də olacaqdır. Hər bir iqtisadi müqavilə eyni zamanda siyasi nəticələr verir” [60, 263].

Müqavilənin imzalanması dünyanın qabaqcıl ölkələri və onların şirkətləri ilə əlaqələri möhkəmləndirmiş, Azərbaycanın dünya iqtisadiyyatına doğru irəliləyərək inteqrasiya etməsinə əsas yaratmışdır.

Qərb neft şirkətləri ilə ARDNŞ arasında sazişin – “Əsrin müqaviləsi”nin imzalanması nəticəsində ölkəmizdə neft sənaye-

sinin surətli inkişafının təməli qoyuldu. Müqavilə həm də, Azərbaycanın milli dövlətçiliyinin möhkəmləndirilməsinə və təhlükəsizliyinə etibarlı beynəlxalq təminat yaratdı.

Qabaqcıl xarici ölkələrin iri neft şirkətləri ilə ARDNŞ arasında sazişlərin imzalanması ölkənin sosial-iqtisadi həyatında ən mühüm tarixi hadisələrdən biri oldu. "Əsrin müqaviləsi" imzalandıqdan sonra mütərəqqi islahatlar hazırlanmış və bir sıra böyük əhəmiyyətə malik olan problemlərin həlli istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

1994-cü il sentyabrın 20-də xarici neft şirkətləri ilə imzalanmış neft müqaviləsi noyabrın 12-də Milli Məclisdə müzakirə edilib ratifikasiya edildikdən sonra 1994-cü il dekabrın 2-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən bu müqavilənin təsdiq edilməsi haqqında qanun imzalanmışdır.

İmzalanmış neft müqaviləsi 30 il müddətinə nəzərdə tutulmuşdur. Müqaviləyə əsasən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsindən 500 milyon tondan çox neft çıxarılması nəzərdə tutulmuşdur. Bu müqaviləni həyata keçirmək üçün kapital qoyuluşunun 80 faizini Qərb şirkətləri, yəni bu konsorsiuma daxil olan şirkətlər təmin etməli idilər ki, bu da təqribən 7,4 milyard [96, 7] dollar təşkil edirdi.

Müqaviləyə görə "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin mərhələlərlə işlənməsi nəzərdə tutulmuşdur. Birinci mərhələdə kəşfiyyat işləri və digər məcburi işlər yerinə yetirilməli, müqavilənin qüvvəyə mindiyi tarixdən sonra isə 18 aydan gec olmayaraq "Çıraq-1" platformasından ilkin neftin hasil edilməsi nəzərdə tutulurdu.

İkinci mərhələdə AÇG yataqlarının tammiqyaslı işlənməsinə keçid idi ki, bu da müqavilənin qüvvəyə minmə tarixindən 48 ay ərzində ilk quyunun qazılıb istifadəyə verilməsini və müvafiq neft layihəsinin işləməyə başlaması nəzərdə tutulurdu. AÇG ya-

taqlarının hasilat ehtiyatları 5,4 milyard barel [44, 7] təşkil edir.

Üçüncü mərhələdə müqavilənin qüvvəyə minməsindən 54 ay keçəndən sonra xam neftin xarici şirkətlər tərəfindən boru kəməri ilə ixracına başlanılması planlaşdırılırdı.

Göründüyü kimi, “Əsrin müqaviləsi”ndə Azərbaycan Respublikasının mili maraqlarını təmin edəcək bütün prinsiplər öz əksini tapmışdır.

Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinsulu hissəsinin birgə işlənməsi haqqında müqavilənin imzalanması, hasil ediləcək neftin nəqli məsələsini gündəmə gətirmişdir. Bununla əlaqədar olaraq neftin mərhələlərlə çıxarılması proqnozlaşdırılmışdır. İlk mərhələdə yəni 90-cı illərin axırlarına yaxın həmin yataqlardan 5 milyon ton neft çıxarılması nəzərdə tutulurdu.

“Əsrin müqaviləsi”nin imzalanması Xəzərin neft yataqlarının geniş sürətdə mənimsənilməsinin başlanğıcını qoydu və xam neftin xarici bazarlara çatdırılmasının potensial imkanları ilə bağlı diskussiyalara səbəb oldu. Eyni zamanda Xəzərin beynəlxalq hüquqi statusunun müəyyənləşdirilməsi ilə əlaqədar danışıqlar intensivləşdirildi. Xəzəryanı dövlətlər, xüsusilə, Rusiya və İran Azərbaycan Respublikasının Xəzər akvatoriyasında birtərəfli qaydada neft yataqlarının işlənməsinə qısqanclıqla yanaşırdılar. Ona görə də Rusiya, İran, Qazaxıstan və Türkmənistan Xəzərin statusu ilə əlaqədar mübahisəli təkliflərlə çıxış edərək danışıqlara başladılar.

Azərbaycan Respublikasının xarici şirkətlərlə neft müqaviləsini imzalaması Xəzəryanı ölkələri öz təsir dairəsində saxlamağa çalışan Rusiya ilə Qərb ölkələri arasında gedən geosiyasi mübarizənin başlanğıcını qoydu. Qərbi Avropa ölkələri Azərbaycan neftinin şimal (Rusiya) və ya Qərb istiqamətində nəql edilməsi məsələsinə böyük əhəmiyyət verirdilər. Çünki həmin dövlətlər postsovet məkanında yeni yaranmış müstəqil respubli-

kalarda Rusiyanın təsirini azaltmağa çalışırdılar və bununla da Xəzər regionunda öz mövqelərini möhkəmləndirmək istəyirdilər. Qərb ölkələri Xəzərin karbohidrogen ehtiyatlarının Rusiya istiqamətində nəql edilməsinə özlərinin geosiyasi planlarına böyük bir təhlükə kimi baxırdılar. Çünki, belə bir vəziyyət baş verərdisə, Rusiya neft kəmərlərindən bir təsir və təzyiq vasitəsi kimi istifadə edə bilərdi. Beynəlxalq kredit və investisiya təşkilatlarının nəzərində Azərbaycanda daxili siyasi vəziyyət daha sabit idi və artıq qərb istiqamətində neftin nəqli ilə bağlı əsas ixrac boru kəmərinin çəkilməsi (Bakı-Tbilisi-Ceyhan) üçün zəmin yaranmış və qaz kəmərlərinin çəkilməsi layihələrinin müzakirələri üçün də əlverişli geosiyasi mühit formalaşmışdı.

Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, Fransa, Norveç və dünyanın bir çox ölkələri və onların iri neft şirkətləri Xəzər dənizində neft yataqlarının işlənməsində iştirak etmək hüququ əldə etmək üçün Azərbaycan Respublikası ilə daha sıx əlaqələr yaradıb, əməkdaşlıq etməyə başladılar.

Neft şirkətləri ilə saziş imzalanmamışdan əvvəl Azərbaycan Respublikası öz təbii resurslarını xarici bazarlara daşımaq üçün mövcud olan neft infrastrukturundan istifadə etməyə məcbur idi. Müqavilə imzalandıqdan sonra isə Azərbaycan yeni boru kəməri dəhlizi yaratmaq təşəbbüsü ilə çıxış edən ilk ölkə oldu. Rus müəllifləri S.S.İltsov, İ.S.Zonn "Xəzər boru kəməri geopolitikası" əsərində səhvən bu təşəbbüslə Türkiyənin daha çox çıxış etdiyini iddia edirlər [160, 77].

Xəzərin Azərbaycan Respublikası sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölünməsi barədə iri neft şirkətləri ilə ARDNŞ arasında müqavilə bağlandıqdan sonra da danışıqlar davam etdirilərək texniki, maliyyə və təşkilati işlər görülmüşdür. Bu danışıqlardan sonra "Əsrin müqaviləsi"ni həyata keçirən Rəhbər Komitə, Azərbaycan Beynəlxalq Əməliyyat Şir-

kəti (ABƏŞ) və Məsləhət Şurası yaradılmışdır [96, 25] (ABƏŞ-in yaradılması və fəaliyyəti haqqında II fəsildə ətraflı məlumat verilir – M.A)

1995-ci il yanvarın 24-də neft müqaviləsini həyata keçirən Rəhbər Komitənin ilk iclası keçirilmiş və burada cari ildə görüləcək işlərin proqramı müəyyənləşdirilmiş, büdcəsi təsdiq edilmişdir. Rəhbər Komitənin işində yaxından iştirak edən ümummilli lider Heydər Əliyev ilk iclasda çıxış edərək göstərmişdir ki, indiki mərhələdə biz neft yataqlarından səmərəli istifadə etmək üçün böyük təcrübəyə, böyük potensiala malik olan neft şirkətləri ilə əməkdaşlıq etməyi zəruri hesab edirik. Məlum olduğu kimi Xəzər dənizinin Azərbaycan Respublikası bölməsindəki neft yataqlarının müştərək istifadə olunması barədə üç ildən çox müddətdə xarici şirkətlərlə danışıqlar aparılıb və ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi “Bu danışıqlar nə qədər çətin olsa da, müvəffəqiyyətlə başa çatıb və neft yataqlarından birlikdə istifadə olunması üçün, böyük bir neft müqaviləsi imzalanıb” [61, 142].

Neft müqaviləsi imzalandıqdan sonra da, bu müqavilə haqqında, onun ətrafında müxtəlif dairələrdə, mətbuatda, ayrı-ayrı ölkələrdə danışıqlar gedir. Əks qüvvələr onun həyata keçirilməsinə mane olmağa çalışırdılar. Ona görə də bu müqavilənin həyata keçirilməsinə mane olmaq istəyən qüvvələrə cavab vermək üçün rəhbər komitənin iclasında göstərildiyi kimi, bütün şirkətlər öz səylərini daha çox birləşdirməlidirlər. Həqiqətən də Azərbaycan Respublikasının xarici ölkələrin neft şirkətləri ilə sağlam əsasda olan əməkdaşlığı bütün bu maneələri aradan götürməyə imkan vermişdir.

Ümummilli lider Heydər Əliyev Rəhbər Komitənin iclasındakı nitqində göstərmişdir ki, müqavilənin yerinə yetirilməsində Qərb neft şirkətləri konsorsiumuna daxil olan neft şirkətləri ilə birlikdə: “Bu müqavilənin həyata keçirilməsi üçün Azərbaycan

Dövlət Neft Şirkətinin, neftçilərimizin, alimlərimizin üzərinə çox böyük və şərəfli vəzifələr düşür" [61, 144].

Müqavilənin həyata keçirilməsi respublikanın böhran vəziyyətində olan iqtisadiyyatına böyük dəyişiklik əmələ gətirə bilər və həm də iqtisadiyyatın digər sahələrinin, xüsusilə də qeyri neft sektorunun inkişafına müsbət təsir göstərə bilərdi. Bu fikri təsdiq edərək ümummilli lider Heydər Əliyev demişdir ki, "Müqavilənin həyata keçirilməsi respublikamızın böhran vəziyyətində olan iqtisadiyyatında qarşıdakı illərdə böyük dəyişikliklər etmək üçün mühüm əhəmiyyət kəsb edirdi. Müqavilənin həyata keçirilməsi eyni zamanda Azərbaycanın gələcək inkişaf perspektivi üçün çox əhəmiyyətlidir" [61, 144].

"Əsrin müqaviləsi" imzalandıqdan sonra da bir çox xarici ölkələrin yüksək dairələrində bu sənədi pozmağa cəhdlər göstərilirdi və hətta Rusiya, İran və bu kimi dövlətlər Azərbaycana təzyiq göstərməkdə davam edirdilər. Bütün bu amilləri nəzərə alan Azərbaycan Respublikası özünün Xəzər dənizindəki və quruda yerləşən yataqlarının birgə işlənməsi, kəşfiyyatı və hasil olunan neftin pay şəklində bölünməsi məsələsinə həssaslıqla yanaşaraq ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya, İtaliya və digər böyük dövlətlərin daha çox şirkətlərinin iştirakını məqsədəuyğun hesab etmişdir. Bu məqsədlə ABŞ-ın ən böyük "Eksson" neft şirkəti ilə ARDNŞ arasında danışıqlar aparılmış və bu danışıqlar öz müsbət nəticəsini vermişdir. 1995-ci il aprelin 19-da Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin konsorsiumdakı payının 5 faizinin "Eksson" şirkətinə verilməsi haqqında saziş imzalanmışdır. Bu mühüm əhəmiyyətə malik olan sazişi ARDNŞ-in prezidenti Natiq Əliyev və ABŞ-ın "Eksson Vencers Si-Ay-Es" şirkətinin prezidenti Terri Kunts imzaladılar. "Eksson" şirkətinin prezidenti Terri Kunts mərasimdə çıxış edərək bildirdi ki, Azərbaycana gəlməklə biz ARDNŞ və sizin respublikanız ilə əməkdaşlıq etmək niyyətindəyik və ümid edirik

ki, əlaqələrimiz geniş səpkidə inkişaf edəcəkdir.

Neft sazişinin imzalanma mərasimində ABŞ energetika nazirinin birinci müavini Uilyam Uayts öz çıxışında yeni və çox maraqlı bir məlumat verərək bildirdi ki, yaxın gələcəkdə xalqlarımız əhəmiyyətli bir hadisəni – II Dünya müharibəsinin başa çatmasının 50 illiyini bayram edəcəklər. Həmin qələbənin əldə olunmasında Azərbaycan və ABŞ neftçilərinin, həmçinin ABŞ-ın neft şirkətlərinin bu sahədə fəaliyyəti olmasaydı, müharibənin taleyi də başqa cür olardı. O, daha sonra qeyd etdi ki, II Dünya müharibəsi dövründə ABŞ-ın ən çox neft istehsal edən şirkəti və indi də ən çox neft hasil edən “Eksson” şirkəti Azərbaycanla əməkdaşlığa qədəm qoyur.

ABŞ-ın “Eksson” şirkətinin pay bölgüsünün artırılması haqqında sazişin imzalanması mərasimində ümummilli lider Heydər Əliyev, ABŞ-ın energetika nazirinin birinci mavini Uilyam Uayts, Amerika Konqresinin üzvü Qreq Yaflin və onları müşayiət edən digər rəsmi şəxslər iştirak etmişlər. Müqavilənin imzalanma mərasimindəki çıxışlarda belə bir fikir söylənmişdir ki, ABŞ-ın ən böyük neft şirkəti olan “Eksson”un Azərbaycanın neft yataqlarının işlənməsində iştirakı nəinki ölkəyə iqtisadi fayda verəcək, həm də Azərbaycanın neft sənayesinin inkişafında əhəmiyyətli rol oynaya biləcək müasir texnika və texnologiyanın tətbiq edilməsinə imkan yaradacaqdır.

Ümummilli lider Heydər Əliyev mərasimdəki çıxışında “Eksson” şirkətinin ölkəmizdəki fəaliyyətini yüksək qiymətləndirərək demişdir "“Eksson” kimi məşhur şirkətin “Əsrin Müqaviləsi”nə qoşulması bu müqavilənin nüfuzunu daha da artırır. Ancaq əsas cəhət ondan ibarətdir ki, biz bu addımımızla Azərbaycanın dünya iqtisadiyyatı üçün açıq olduğunu, respublikamızın iqtisadiyyatının dünya iqtisadiyyatına qoşulması üçün bizim qəti mövqedə olduğumuzu bir daha sübut edir” [61, 386].

“Eksson” şirkəti “Əsrin müqaviləsi”nə qoşulduqdan sonra

AÇG yataqlarının işlənməsində iştirak edən Amerika şirkətlərinin sayı beşə çatmışdır. Dünyada ikinci böyük neft şirkəti olan “Eksson”la imzalanmış müqavilə ABŞ-la Azərbaycan arasında nəinki iqtisadi əlaqələrin, ümumiyyətlə bütün əlaqələrin inkişaf etməsi üçün geniş imkan yaratmışdır.

Mərasimdə çıxış edən ümummilli lider Heydər Əliyev ABŞ-ın Azərbaycandakı neft şirkətlərinin rolunu yüksək qiymətləndirərək qeyd etmişdir ki, onların birgə fəaliyyəti bütün əlaqələrin bundan sonra daha sürətlə inkişaf etməsi üçün çox böyük şərait yaradır.

1994-cü il sentyabrın 20-də ARDNŞ-lə xarici neft şirkətlərinin konsorsiumu arasında Hasilatın Pay Bölgüsü Sazişi imzalanarkən Türkiyənin “Türk Petrolları Anonim Ortaqlığı” şirkəti konsorsiumda 1,75 faiz yer almışdı. Lakin Türkiyə Prezidenti Süleyman Dəmirəlin və baş nazir Tansu Çillərin ümummilli lider Heydər Əliyevə məktubla müraciətindən sonra Azərbaycan Respublikası həmin müqavilədəki öz payının 5 faizinin əlavə olaraq bu ölkənin “Türk Petrolları Anonim Ortaqlığı” şirkətinin sərəncamına keçməsinə razılıq vermişdir.

1995-ci il iyulun 11-də Bakının “Gülüstan” sarayında ARDNŞ-in beynəlxalq neft konsorsiumundakı payının 5 faizinin “Türk Petrolları Anonim Ortaqlığı” (TPAO) şirkətinə verilməsi haqqında sazişin imzalanması mərasimi keçirilmişdir. Mərasimdə ümummilli lider Heydər Əliyev və Türkiyə Cümhuriyyətinin Baş Naziri Tansu Çillər iştirak etmişlər.

Təqdim edilən müqaviləni ARDNŞ-in və “Türk Petrolları Anonim Ortaqlığı” şirkətinin prezidentləri və hər iki ölkənin baş nazirləri imzalamışlar. Beləliklə, Azərbaycan neft yataqlarının işlənməsi üçün Türkiyənin 1,75 faiz payı 6,75 faizə çatdırıldı [96, 31].

Türkiyə ilə dostluq və qardaşlıq əlaqələrimizin çoxəsrlik tarixi vardır. Soyköklərimizin, adət-ənənələrimizin bir olmasına

baxmayaraq, sovet dövründə bu əlaqələr yox dərəcəsində idi və 70 il ərzində ayrı olmuşuq. Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün tarixi əlaqələrimiz qısa müddət ərzində bərpa olunmuşdur. Azərbaycan və türk xalqının eyni kökdən olması, eyni dinə, mədəniyyətə mənsubiyyəti hər iki ölkənin bu günü, gələcəyi üçün böyük əsas və təməldir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra çoxəsrlik dostluq və qardaşlıq əlaqələrini bərpa edən Türkiyə birinci olaraq respublikamızın müstəqilliyini tanımış, həmişə onu dəstəkləmiş və bununla ölkəmizin dünya dövlətləri tərəfindən tanınmasına yol açmışdır. Türkiyə ilə çoxtərəfli əlaqələrin genişlənməsinə böyük önəm verən ümummilli lider Heydər Əliyev TPAO şirkəti ilə imzalanmış müqavilənin əhəmiyyətini qeyd edərək demişdir “Bu saziş əsasında 30 il müddətində Xəzər dənizində “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarından neft çıxarılacaq, ixrac və istifadə olunacaq və Azərbaycanın iqtisadiyyatı üçün çox fayda gətirəcəkdir. Şübhəsiz ki, bu neftin ixrac olunması məsələsi də var. Bu barədə də müəyyən danışıqlar aparırıq. Bizim fikrimiz belədir ki, neftin ixrac üçün boru xəttinin Türkiyədən keçməsi hər şeydən üstün və bizim üçün hər şeydən əlverişli ola bilərdi” [96, 33-34].

Yeni neft strategiyasının uğurlu nəticəsindən biri olan və “Əsrin müqaviləsi”ndən sonra imzalanmış müqavilələr dünyanın aparıcı dövlətlərinin, iri neft şirkətlərinin və sərmayədarların Azərbaycana inamını daha da artırmış və ölkəmizdə neft sənayesinin sürətlə inkişaf etməsinə əhəmiyyətli təsir göstərmişdir. Hər yeni imzalanmış neft müqaviləsi haqqında məlumatlar Qərb və digər ölkələrin mətbuatında dərc edildikdən sonra yeni neft yataqlarının birgə işlənməsi və investisiya yatırılması təklifi ilə çıxış edən ölkə və şirkətlərin sayı artmışdır. Yeni neft sazişinin bağlanması məqsədilə “Qarabağ” strukturu ilə əlaqədar bir qrup xarici şirkətlə danışıqlar aparılmışdır.

1995-ci il noyabrın 10-da Bakının "Gülüstan" sarayında Xəzərin Azərbaycan Respublikası sektorunda "Qarabağ" strukturunda və ona bitişik ərazidə kəşfiyyat aparılması, yatağın işlənməsi və çıxarılacaq neftin bölüşdürülməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə bir qrup xarici neft şirkəti – "LUKoyl" (Rusiya), "Acip" (İtaliya), "Penzoyl Caspian Development" (ABŞ) şirkətləri və "LUKAcip" (Rus-İtaliya) birgə müəssisələri arasında sazişin imzalanması mərasimi keçirilmişdir.

Sahəsi 427 kvadrat kilometr olan "Qarabağ" strukturu Bakıdan şərq tərəfdə, çox böyük potensial ehtiyatlara malik neft hövzəsində yerləşir. Bu strukturun işlənməsinə başlamaq üçün 1,7 milyard dollardan artıq ümumi investisiya qoyuluşu nəzərdə tutulmuşdur. İstismar xərcləri isə 1,3 milyard dollar təşkil etmişdir. Çıxarılacaq neft saziş iştirakçıları arasında bu qaydada bölüşdürülmüşdür: "LUKAcip" 50 faiz, "Penzoyl Caspian development korporeyşn" 30 faiz, "Azərbaycan Dövlət Neft Şirkəti" 7,5 faiz, "LUKoyl" 7,5 faiz, "Acip" 5 [96, 35] faiz. Yatağın işlənməsi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə həvalə edilmişdir.

"Qarabağ" strukturunun birgə işlənməsinə aid sazişin imzalanması ilə əlaqədar mərasimin keçirilməsi və burada müxtəlif ölkələrin nümayəndə heyətlərinin və şirkət rəhbərlərinin iştirak etməsi göstərir ki, müstəqil Azərbaycan Respublikası öz təbii sərvətlərinin sahibidir və bu sərvətlərdən istədiyi kimi istifadə etmək imkanına malikdir. Ölkəmiz öz təbii sərvətlərindən Azərbaycan xalqının iqtisadi inkişafı və xalqımızın rifahı naminə xarici ölkələrin şirkətləri ilə müştərək istifadə etməyi məqsədəuyğun və düzgün yol hesab edir və bu yol ilə irəliləyir. "Qarabağ" strukturuna aid müştərək sazişin imzalanması Azərbaycan Respublikasının iqtisadiyyatının dünyaya açıq olduğunu göstərmiş və eyni zamanda ölkəmizin demokratiya, bazar iqtisadiyyatı yo-

lu ilə getdiyini göstərmişdir. Dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatında və iqtisadi sahədə demokratik prinsiplər inkişaf etdirilir.

Azərbaycan Respublikası demokratik prinsiplərə söykənərək ölkə iqtisadiyyatını dünya iqtisadiyyatı ilə daha sıx əlaqələndirməyə və müştərək işlər görməyə çalışaraq öz ictimai-siyasi və iqtisadi inkişafını daha da sürətləndirməyə səy göstərir. Ümummilli lider Heydər Əliyevin mərasimdə qeyd etdiyi kimi “Biz bunu Azərbaycan Respublikası iqtisadiyyatının inkişaf etdirilməsi üçün ən səmərəli yol hesab edirik” [62, 500].

Ümummilli lider Heydər Əliyev “Qarabağ” strukturunun birgə işlənməsi ilə bağlı keçirilən təntənəli mərasimdəki çıxışında iki neft kəmərinin çəkilməsi haqqında da məlumat verərək bildirmişdir “Konsorsium ilkin neft ixracı üçün iki neft kəmərinin çəkilməsini lüzumlu hesab edir. Onlardan biri Rusiyanın ərazisindən Qara dənizə – Novorossiysk limanına, digəri isə Gürcüstan ərazisindən Qara dənizə – Supsa limanına çəkiləcəkdir” [62, 502].

Neft sazişinin imzalanması mərasimində məlumat verilmişdir ki, konsorsiumun iki neft kəməri çəkilməsi haqqında qərarı Rusiyada, Gürcüstanda, ABŞ-da, bu şirkətlərin mənsub olduğu Qərb ölkələrində çox bəyənilibdir və yüksək qiymətləndirilmişdir.

“Qarabağ” strukturunun böyük fayda verəcəyini qeyd edən ümummilli lider Heydər Əliyev demişdir ki, “Proqnozlara görə “Qarabağ” neft yatağından 85 milyon tondan 150 milyon tona qədər neft hasil olunması gözlənilir... Nəzərdə tutulmuş proqnozlar həyata keçərsə, müqavilədən əldə olunan daxili gəlirin təxminən 65 faizdən 80 faizə qədər hissəsi Azərbaycan Dövlət Neft Şirkətinə çatacaqdır” [62, 502-503].

Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri ara-

sında imzalanmış müqavilədə "Qarabağ" yatağının 25 il müddətə müştərək işlənməsi nəzərdə tutulmuşdur.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə memarı ümummilli lider Heydər Əliyevin olduğu müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmişdir. Yeni Konstitusiyanın qəbul edilməsi əlverişli hüquqi təminat yaratdığı üçün xarici sərmayədarların və şirkətlərin Azərbaycana inamını və marağını daha da artırmış, yeni neft müqavilələrinin imzalanmasına təkan vermişdir.

Ümummilli lider Heydər Əliyev "Əsrin müqaviləsi"nin həyata keçirilməsi ilə əlaqədar olan məsələləri daim diqqət mərkəzində saxlamışdır.1996-cı il aprelin 25-də o, Norveçin Stavanger şəhərinə gələrək Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Norveçin "Statoyl" şirkəti arasında saziş imzalanması mərasimində iştirak etmişdir. "Statoyl" şirkəti ilə ARDNŞ arasında hələ 1994-cü ilin sentyabrında əməkdaşlıq haqqında saziş imzalanmışdır. O vaxtdan başlayaraq hər iki şirkət arasında əlaqələr inkişaf etmişdir. Əlavə olaraq qeyd etmək lazımdır ki, hər iki şirkət Şimal dənizinin neft yataqlarında müştərək fəaliyyət göstərirlər. Yeni imzalanmış saziş bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün irəliyə doğru atılmış bir addım oldu.

Azərbaycanın neft ehtiyatlarının işlənilməsində Norveçin "Statoyl" şirkəti Böyük Britaniyanın "Britiş Petroleum" şirkəti ilə birgə alyansda iştirak edirlər. Əlavə olaraq qeyd edək ki, hər iki şirkət Şimal dənizinin neft yataqlarında qarşılıqlı fayda əsasında müştərək fəaliyyət göstərirlər. Yeni imzalanmış sazişə görə "Statoyl" və "Britiş Petroleum" Azərbaycanda neft laylarının fiziki xüsusiyyətlərinin öyrənilməsi ilə məşğul olacaq laboratoriyanı quraşdırıb ARDNŞ-ə hədiyyə vermişlər. Bunu alqışlayan ümummilli lider Heydər Əliyev demişdir:

"Mən həmçinin "Statoyl"un və "Britiş Petroleum"un res-

publikamıza laboratoriya hədiyyə etmək niyyətini razılıqla qarşılayır və minnətdarlığımı bildirirəm” [64, 190].

Mərasimdə ARDNŞ ilə “Statoyl” arasında “Xəzər dənizinin Azərbaycan Respublikası sektorunun kəşfiyyatı və işlənməsi üzrə tərəflər arasında texnologiya və təcrübə mübadiləsinə dair əməkdaşlıq haqqında da saziş” imzalanmışdır.

ARDNŞ “Statoyl” şirkəti ilə əlaqələrini genişləndirməklə Qərb şirkətlərinin ən müasir texnologiyasını ölkəmizə gətirərək neft yataqlarının ən dərinlikdə yerləşən laylarından neft hasilatının sürətli artımına nail olmuşdur.

“Əsrin müqaviləsi” imzalandıqdan sonra yeni neft strategiyasının ən böyük uğurlarından biri “Şahdəniz” yatağında böyük həcmdə təbii qaz ehtiyatlarının aşkarlanması olmuşdur. “Şahdəniz” neft-qaz yatağı Xəzər dənizinin Bakıdan 70 kilometr cənub-şərq hissəsində yerləşir. “Şahdəniz” yatağı hələ 80-ci illərdə Azərbaycan geoloqları, alimləri və neftçiləri tərəfindən kəşf edilmiş zəngin yataqlardan biridir. “Şahdəniz” yatağının yerləşdiyi ərazidə suyun dərinliyi şimal-qərbdə 50 metr, cənub-şərqdə isə 600 metrə çatır. Yataq 250 kvadratkilometr ölçüdə geniş bir sahəni əhatə edir. “Şahdəniz” yatağından çıxarıla bilən qaz ehtiyatları 22,1 trilyon kub fut, kondensat ehtiyatları isə 750 milyon barel [44, 18] təşkil edir. Yatağın daha dərin horizontları əlavə karbohidrogenlər potensialına malikdir.

1996-cı il iyunun 4-də Gülüstan sarayında Xəzərin Azərbaycan Respublikası sektorundakı “Şahdəniz” neft-qaz yatağının birgə işlənməsi haqqında ARDNŞ (10% ilə) Böyük Britaniyanın “Britiş Petroleum” (25,5% – operator), Norveçin “Statoyl” (25,5%), Türkiyənin “Türkiyə Petrolları Anonim Ortaqlığı” (9%), Rusiyanın “LUKAcip” (10%), Fransanın “Total” (10%), “Niko” (10%) [44, 19] neft şirkətləri arasında müqavilə imzalanmışdır. Müqaviləyə əsasən “Şahdəniz” yatağının işlənməsi 30 il müddətinə yerinə yetiriləcəkdir. Yatağın birinci mərhələsinin iş-

lənməsinə 4,1 milyard dollar [45, 19] vəsait qoyulması nəzərdə tutulmuşdur.

"Şahdəniz" böyük ehtiyatlara malik olan neft-qaz yatağıdır. Bu yatağın müştərək işlənməsi və istifadə edilməsi həm Azərbaycan Respublikasına, həm də müqavilənin iştirakçısı olan şirkətlərə və onların mənsub olduqları ölkələrə böyük miqdarda fayda verəcəkdir.

Xəzərin Azərbaycan Respublikası sektorundakı "Şahdəniz" yatağının birgə işlənməsi haqqında sazişin imzalanması mərasimində çıxış edən ümummilli lider Heydər Əliyev müqavilənin iştirakçılarından "Britiş Petroleum", "Statoyl", "Türkiyə Petrolları Anonim Ortaqlığı", "LUKAcip", "Total" şirkətlərin ARDNŞ-lə əməkdaşlığından, işbirliyindən danışaraq qeyd etmişdir ki, neft-qaz sənayesi sahəsində biz yeni ölkələrlə əməkdaşlığa başlayırıq. Həmin ölkələrdən biri Fransanın "ELF Akiten" şirkətidir.

Neft sazişinin imzalanması mərasimində "Şahdəniz" yatağının işlənməsi haqqında müqavilənin Azərbaycan xalqına yeni uğurlar gətirəcəyindən danışan ümummilli lider Heydər Əliyev demişdir "Mən sizi, bütün Azərbaycan xalqını bu əlamətdar hadisə münasibətilə, yeni neft müqaviləsinin imzalanması münasibətilə ürəkdən təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, iqtisadi əməkdaşlıq, iqtisadiyyatın inkişaf etdirilməsi sahəsində atdığımız bu böyük addım Azərbaycan xalqının rifahı naminə yeni uğurlar gətirəcəkdir" [64, 417]

Mərasimdə nitq söyləyən ümummilli lider Heydər Əliyev "Şahdəniz"ə aid müqavilənin əhəmiyyətindən danışaraq qeyd etmişdir ki, bu müqavilələr, onların imzalanması Azərbaycan Respublikanın dövlət müstəqilliyini və suverenliyini dünyaya bir daha nümayiş etdirir. Azərbaycanın təbii sərvətlərindən on illərlə, əsrlərlə istifadə olunubdur. Ancaq Azərbaycan xalqı heç vaxt indiki kimi öz sərvətlərinin sahibi olmayıb və heç vaxt da özü belə iri, cəsarətli, iradəli addımlar atmaq imkanına malik olma-

yıbdır. Bunlar hamısı dövlət müstəqilliyimizin, suverenliyimizin bəhrəsidir.

Qeyd etmək lazımdır ki, AÇG yataqlarının birgə işlənməsi ilə bağlı etiraz edənlər olduğu kimi, “Şahdəniz” yatağı ilə də əlaqədar olaraq müqavilə imzalanarkən etiraz edən əks qüvvələr olmuşdur. Bununla bağlı ümummilli lider Heydər Əliyev demişdir ki, “Müqavilənin imzalanması ərəfəsində etiraz edən qüvvələr hesab edirdilər ki, hələ gözləmək lazımdır. Onlar deyirdilər ki, bu müqaviləni imzalamaq lazım deyil, bağlanmış birinci müqavilədən, yəni “Əsrin müqaviləsi”ndən alacağımız vəsaitlə “Şahdəniz” yatağının işlənməsinə gələcəkdə başlayarıq” [20].

Ümummilli lider Heydər Əliyev belə əks qüvvələr haqqında demişdir “Bu müqavilənin əleyhinə çıxanlar, yaxud ona şübhə edən adamlar belə hərəkətləri bir tərəfdən bu məsələləri dərk edə bilmədiklərinə görə edirlər, digər tərəfdən isə Azərbaycanın irəli getməsinə, bizim işlərimizə mane olmaq istəyirlər [20].

Ümummilli lider Heydər Əliyev Azərbaycanın neft-qaz yataqlarının işlənməsi ilə əlaqədar müqavilələrin imzalanmasında bundan sonra da israrlı olduğu fikrini bir daha təsdiq edərək göstərmişdir: ““Şahdəniz” müqaviləsini, həm də ondan sonra digər müqavilələri imzalamaqla doğru yoldayıq”. [20].

Xarici neft şirkətləri ilə imzalanmış neft müqavilələrinin yerinə yetirilməsini diqqət mərkəzində saxlayan ümummilli lider Heydər Əliyev vaxtaşırı şirkətlərin rəhbərləri ilə görüşlər təşkil etmiş, hesabatları dinləmiş və öz dəyərli məsləhətlərini vermişdir. Belə görüşlərdən biri “Şahdəniz” müqaviləsi layihəsinin idarə komitəsinin üzvləri ilə təşkil edilmişdir.

1997-ci ilin martın 5-də ümummilli lider Heydər Əliyev “Şahdəniz” neft yatağı üzrə müqavilə layihəsinin idarə komitəsinin üzvləri ilə görüşmüşdür. Görüşdə “Şahdəniz” neft müqaviləsi layihəsinin həyata keçirilməsi məsələləri müzakirə edilmişdir. Görüşün əvvəlində “Şahdəniz” neft yatağının birgə işlənməsi

üzrə müqavilə layihəsinin həyata keçirilməsi məsələləri ilə maraqlanan ümummilli lider Heydər Əliyev qeyd etmişdir:

“Biz imzalanmış digər müqavilələrin həyata keçirilməsini nəzarət altında saxlayaraq, onlarla da belə görüşlər keçirəcəyik” [67, 5].

Görüşdə “Bİ-Pİ EKSPLOREYŞN (Şahdəniz) LTD” şirkətinin prezidenti Mayk Şerman “Şahdəniz” layihəsi üzrə öhdəliklərin yerinə yetirilməsi barədə ətraflı məlumat vermişdir. O, bildirmişdir ki, bizdə Böyük Britaniya, Norveç nümayəndələri ilə birlikdə Azərbaycan nümayəndələri də işləyirlər. Daha sonra məlumat verilmişdir ki, öhdəliklərin yerinə yetirilməsinə 1996-cı il oktyabrın 17-də müqavilə təsdiqləndikdən sonra başlanılmışdır. İş öhdəliklərin birincisi “Şahdəniz” strukturunun 800 kvadrat kilometrlik sahəsi barədə seysmik məlumat əldə edilməsindən ibarətdir. Qeyd edilən müqavilə öhdəliyi 1999-cu il oktyabrın 17-də yerinə yetirilmişdir.

“Şahdəniz” layihəsi üzrə işlər həyata keçirilərkən ekologiya, işçilərin sağlamlığının qorunması, əməyin təhlükəsizliyi məsələlərinə həmişə böyük diqqət yetirilmişdir.

“Şahdəniz” layihəsində ekoloji standartlar ARDNŞ tərəfindən irəli sürülmüş tələblərə, habelə elmi strukturlara, xüsusən Azərbaycan Milli Elmlər Akademiyasının tələblərinə uyğundur. İlk dəfədir ki, belə ekoloji standartlardan istifadə edilmişdir. Vahid cədvələ uyğun olaraq növbəti mərhələdə seysmik işlər və topoqrafik tədqiqatlar aparılmışdır.

Görüşdə “Şahdəniz” müqaviləsi layihəsinin idarə komitəsinin üzvlərinin işindən razı qaldığını bildirən ümummilli lider Heydər Əliyev nitq söyləmişdir. Onun layihə üzvləri qarşısında söylədiyi nitq dərin məzmunlu tövsiyə və məsləhət xarakterində olduğu üçün ən mühüm yerlərin xülasəsi diqqəti cəlb edir. O, qeyd etmişdir ki, bu müqaviləni həyata keçirən şirkətlər böyük zəngin təcrübəyə malikdirlər. “Britiş Petroleum”, “Statoyl”,

“ELF Akiten”, “LUKoyl”, İranın “OİEK”, Türkiyənin “Türk Petrolları” şirkətləri zəngin təcrübəyə malikdir və onların bir yerdə müştərək iş görməsi yaxşı qiymətə layiqdir. Bu layihəni həyata keçirən şirkətlərin imkanları, təcrübəsi və eyni zamanda Azərbaycan mütəxəssislərinin, neftçilərinin biliyi, bacarığı, təcrübəsi, dünyanın qabaqcıl texnologiyasından, təcrübəsindən istifadə edərək bu yataqda müvəffəqiyyətlə iş görüb, yaxşı nəticə almaqda bizə kömək edəcəkdir [67, 5].

Şermana görə müqavilə imzalandıqda qeyd edilmişdir ki, 3 il yalnız kəşfiyyat işləri üçün ayrılır və həmin kəşfiyyat işləri müddətində bu yatağın bütün göstəriciləri tam müəyyən olunmalıdır. Neftin alınmasına isə dörd ildən artıq vaxt lazım olacaqdır.

Görüşdə Ümummilli lider Heydər Əliyev neftin alınmasına daha az vaxt sərf etməyi tövsiyə edərək “Bİ-Pİ EKSPLOREYŞN (Şahdəniz) LTD” şirkətinin prezidenti Şermana müraciətlə demişdir: “Siz bildirdiniz ki, neftin alınmasına doqquz il müddətinə nail olacaqsınız. Ancaq eyni zamanda dediniz ki, siz bu işi dörd il müddətində edəcəksiniz. Ümidvaram ki, həvəslə işləyib, yaxşı nəticələr əldə edəcək, bu proqramı daha da sıxışdıracaqsınız” [67, 7-8].

Respublikamızın neft sənayesində dünyanın bir çox ölkələrinin nüfuzlu neft şirkətləri ilə imzalanmış beş müqavilə, hər bir müqavilənin layihəsini həyata keçirmək üçün orqan var. Birinci müqavilə üzrə idarəetmə orqanı konsorsiumdur, ARDNŞ-lə tərəfdaşlıqda işləyən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətidir, ondan sonra imzalanan müqavilələrin hər biri üzrə idarə komitəsi vardır. Bu təşkilatlar, kollektivlər arasında sıx əlaqə vardır və bu kollektivlər bir-biri ilə çox sıx əlaqədə işləmişlər.

Görüşün sonunda ümummilli lider Heydər Əliyev imzalanmış olan bütün müqavilələrin nəzarətdə olduğunu xatırladaraq demişdir: “Bilməlisiniz ki, həm bu layihəni, həm də bütün başqa müqavilələrin layihələrinin həyata keçirilməsi Azərbaycan döv-

lətinin ən mühüm bir vəzifəsidir. Bu məsələlər mənim şəxsi nəzarətimdədir” [67, 10].

“Şahdəniz” yatağının mərhələlərlə işlənməsi nəzərdə tutulmuşdur. Xatırladaq ki, bu möhtəşəm yatağın böyük həcmdə 22,1 trilyon kub fut təbii qaz və 750 milyon barel kondensat ehtiyatları vardır. Bu ehtiyatların Azərbaycanın tələbatından artıq olan hissəsini qonşu ölkələrə ixrac etmək imkanı yaradır. “Şahdəniz” yatağının işlənməsi layihəsini diqqət mərkəzində saxlayan ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının gələcəkdə qonşu Gürcüstana, bundan sonra isə Türkiyəyə qaz ixrac etməsi üçün səmərəli danışıqlar aparmağa başlamışdır. Daha sonralar isə təbii qazın Avropaya ixrac edilməsi proqnozlaşdırılmışdır. Perspektivdə ən böyük təbii qaz bazarı və tranzit ölkə kimi Türkiyə nəzərdə tutulduğu üçün bu qardaş ölkə ilə danışıqlar prosesinə başlanılmışdır.

“Şahdəniz yatağı üzrə imzalanmış müqavilələrdən sonra və ümummilli lider Heydər Əliyevlə keçirilmiş görüşlərdə verilmiş məsləhətlər və tövsiyələr layihənin gerçəkləşdirilməsində böyük rol oynamışdır.

1996-cı il dekabrın 14-də Azərbaycan Respublikasının həyatında yeni bir əlamətdar hadisə baş verdi. Xəzərin Azərbaycan Respublikası sektorundakı “Dan ulduzu” və “Əşrəfi” neft strukturlarının birgə işlənməsi haqqında ARDNŞ-lə ABŞ-ın “Amoko”, “Yunokal”, Yaponiyanın “İtoçu” və Səudiyyə Ərəbistanının “Delta” şirkətləri arasında müqavilənin imzalanması mərasimi keçirilmişdir. İmzalanma mərasimində ümummilli lider Heydər Əliyev iştirak edirdi. O, mərasimdə nitq söyləmiş və diqqəti ilk neft müqaviləsinin yerinə yetirilməsinə yönəldərək demişdir ki, yeni neft müqaviləsinin imzalanması 1994-cü ilin sentyabrında imzalanmış “Əsrin müqaviləsi”nin yüksək səmərəli müqavilə olduğunu bir daha göstərir. “Əsrin müqaviləsini”nin səmərəli nəticəsi olaraq 1995-ci ilin noyabrında “Qarabağ” neft yatağının

müştərək istifadə edilməsi üçün daha bir müqavilə, 1996-cı ilin iyununda isə “Şahdəniz” qaz yatağının müştərək işlənməsi üçün imzalanmış müqavilə yeni müştərək müqavilələrə daha çox inam yaratmışdır.

İlk neft müqaviləsinin Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən vaxtında yerinə yetirilməsi haqqında ümummilli lider Heydər Əliyev məlumat vermişdir. O, qeyd etmişdir ki, bu ilin sentyabrında Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin hesabatını dinləyərkən məlum oldu ki, nəzərdə tutulan proqram vaxtlı-vaxtında və ardıcıl surətdə həyata keçirilmişdir. ABƏŞ tərəfindən modernləşdirilmiş və bərpa edilərək, istifadəyə verilmiş “Dədə Qorqud” yarımdalma qurğusu vasitəsilə “Çıraq” neft yatağında yeni quyular qazılmış və yaxşı nəticələr əldə edilmişdir. ABŞ-ın, Yaponiyanın və Səudiyyə Ərəbistanının şirkətləri ilə yeni neft müqavilələrinin imzalanması, yeni neft strategiyasının ardıcıl surətdə öz uğurlarını davam etdirdiyini göstərmişdir.

Beləliklə ARDNŞ, Amerika Birləşmiş Ştatlarının “Amoko”, “Yunokal” şirkətləri və Yaponiyanın “İtoçu”, Səudiyyə Ərəbistanının “Delta” şirkətləri birləşərək konsorsium yaratmışlar. 25 il müddətinə imzalanmış bu müqavilənin yerinə yetirilməsi üçün təxminən iki milyard Amerika dolları sərmayə qoyulması nəzərdə tutulmuşdur. “Dan ulduzu” və “Əşrəfi” yataqlarından 150 milyon ton neft çıxarılması proqnozlaşdırılmışdır [66, 171].

“Dan ulduzu” və “Əşrəfi” yataqlarından 2003-cü ildən istismara başlanılmışdır. Bu yataqlardakı neft ehtiyatının miqdarından, həmçinin kapital qoyuluşundan və istismar xərclərindən, digər amillərdən asılı olaraq Azərbaycanın gəlir payı 65-70 faizdən 80 faizədək nəzərdə tutulmuşdur [96, 57].

Dünyanın müxtəlif ölkələri və qabaqcıl neft şirkətləri ilə imzalanmış neft müqavilələrinin əhəmiyyətini xüsusi qeyd edən ümummilli lider Heydər Əliyev demişdir ki, “Bu müqavilə bir

daha onu nümayiş etdirir ki, Azərbaycan dünyanın bütün ölkələri, respublikamıza maraq göstərən şirkətləri, korporasiyaları ilə əməkdaşlıq etmək yolu ilə gedir. Bu gün mən qeyd etmək istəyirəm ki, biz bundan sonra da bu yolla gedəcəyik" [66, 171]

"Dan ulduzu" və "Əşrəfi" yataqlarının birgə işlənməsinə dair xarici şirkətlərlə imzalanmış olan bu yeni neft müqaviləsi digər müqavilələr kimi iqtisadi, siyasi, həm də mənəvi əhəmiyyət kəsb edərək, dövlətlərarası əməkdaşlığımızın inkişaf etməsinin əsasını yaratmış, yeni xarici neft şirkətlərinin ölkəmizə marağını daha da artırmışdır. Qeyd edilən müqavilədən bir ay sonra sayca beşinci neft müqaviləsinin imzalanması bu fikri təsdiq edir.

1997-ci il yanvarın 13-də Parisin Yelisey sarayında Fransa Prezidenti Jak Şirakın və Fransada rəsmi səfərdə olan ümummilli lider Heydər Əliyevin iştirakı ilə Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı "Lənkəran-dəniz" və "Talış-dəniz" yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Fransanın "ELF Akiten" və "Total" şirkətləri arasında müqavilənin təntənəli, sürətdə imzalanması mərasimi keçirilmişdir.

Neft müqaviləsinin imzalanması mərasimində Fransa Prezidenti Jak Şirak və ümummilli lider Heydər Əliyev bəyanatlarla çıxış etdilər. Hər iki yüksək tərəflərin bəyanatından görünür ki, rəsmi danışıqlarda nəinki neft yataqlarının müştərək işlənməsi, hətta digər iqtisadi məsələlər nəzərdən keçirilmiş, həm də dövlətlərarası əlaqələr və digər siyasi problemlər, o, cümlədən Dağlıq Qarabağ probleminin həlli yolları da müzakirə edilmişdir. Jak Şirak Heydər Əliyevlə Dağlıq Qarabağ məsələsini uzun müzakirə etdiklərini bəyan edərək bildirmişdir: "Söhbətimiz əsasən Dağlıq Qarabağda və onun ətrafında olan ərazilərdəki vəziyyətə həsr edilmişdi. Tamamilə aydındır ki, biz münaqişə haqqında danışmışıq. Hərbi əməliyyatlar dayandırılmışdır. Lakin Azər-

baycan ilə Ermənistan arasında Dağlıq Qarabağ barəsində münaqişə davam edir. Mən Fransanın sülhə necə sadiq olduğunu və bizim dostluq münasibətləri saxladığımız iki ölkəni qarşı-qarşıya qoyan bu problemin ədalətlə və tarazlı şəkildə nail olmağa kömək etmək üçün Fransanın fəaliyyət göstərməyi qərara aldığımı Prezidentə dedim” [96, 66-67].

Jak Şirakın Bəyanatından görünür ki, Fransa prezidenti Jak Şirak Dağlıq Qarabağ probleminin həllinə ikili standart mövqeyindən yanaşır. Bu problemin həlli ilə bağlı ümummilli lider Heydər Əliyevin bəyanatında isə haqlı olaraq deyilir “Biz regionumuzda sülhün bərqərar olmasını, Ermənistan və Azərbaycan arasında sülh yaranmasını, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, Ermənistan silahlı birləşmələrinin işğal etdikləri Azərbaycan ərazilərinin azad olunması və Ermənistan silahlı birləşmələri tərəfindən öz yerlərindən zorla qovulmuş bir milyondan artıq Azərbaycan vətəndaşının yurdlarına qayıtması şərti ilə münaqişənin tamamilə aradan qaldırılmasını istəyirik [66, 243].

Bəyanatdan göründüyü kimi Fransaya rəsmi səfəri vaxtı ümummilli lider Heydər Əliyev iqtisadi məsələlərin həlli ilə məşğul olarkən həm də öz diplomatik məharətindən istifadə edərək, siyasi problemləri də, o cümlədən beynəlxalq problemə çevrilmiş Dağlıq Qarabağ problemini Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərtilə həll edilməsinə səy göstərmişdir.

Azərbaycan tərəfi beynəlxalq xarakter almış Dağlıq Qarabağ probleminin ədalətli həllinə ümid edərək, ATƏT-in üzvü olan ölkələrlə, Minsk qrupuna daxil olan ölkələrlə əməkdaşlığı, Fransa ilə əməkdaşlığı həmin silahlı münaqişəyə tamamilə son qoyulması üçün mühüm amil hesab edir. Respublikamızın bu mövqeyini ümummilli lider Heydər Əliyev öz bəyanatında bir daha təsdiq edərək demişdir: “Azərbaycanın “Lənkəran Dəniz” və “Talış Dəniz” neft yataqlarının birgə işlənməsi və istifadəsi haqqında ARDNŞ ilə Fransanın ən iri “ELF Akiten” və “Total”

şirkətləri arasında bu gün 25-il müddətində imzalanmış müqavilə Azərbaycanın Fransa ilə öz əlaqələrini dərinləşdirmək və genişləndirmək səyini sübut edir" [66, 244].

"Lənkəran-dəniz" və "Talış-Dəniz" neft yataqlarının birgə işlənməsinə təxminən 1,5 milyard ABŞ dolları həcmində kapital qoyulması nəzərdə tutulur və ilkin hesablamalara görə, həmin yataqlardan 350 milyon barel [66, 251] neft çıxarılacağı gözlənilir.

Xatırladaq ki, Fransanın "ELF Akiten" şirkəti ilə ARDNŞ arasında müştərək əməkdaşlıq əvvəlki ildən mövcuddur. Məlumdur ki, Fransanın "ELF Akiten" şirkəti hələ 1996-cı il iyunun 4-də Xəzərin Azərbaycan Respublikası sektorundakı "Şahdəniz" yatağının birgə işlənməsi haqqında ARDNŞ ilə bir qrup xarici neft şirkətləri arasında imzalanmış müqavilədə də payçı kimi iştirak edir.

ARDNŞ ilə Fransanın "ELF Akiten" və "Total" şirkətləri arasında uzun müddətə imzalanmış yeni müqavilə Azərbaycanın Fransa ilə siyasi və iqtisadi əlaqələrinin daha da inkişaf edərək, genişlənməsinə əhəmiyyətli təsir göstərmişdir.

"Əsrin müqaviləsi" imzalandıqdan sonrakı iki ildə imzalanmış bütün müqavilələr üzrə Azərbaycan iqtisadiyyatına təxminən 15 milyard ABŞ dolları [66 251] həcmində investisiya qoyulması nəzərdə tutulmuşdur. Həmin müqavilələrdə dünyanın 11 ölkəsinin 16 fövqəlmilli şirkəti iştirak etmişdir.

1997-ci il martın 5-də ümummilli lider Heydər Əliyev "Şahdəniz" neft yatağı üzrə müqavilə layihəsinin idarə komitəsinin üzvləri ilə görüşmüşdür. Görüşdə "Şahdəniz" neft müqaviləsi layihəsinin həyata keçirilməsi məsələləri müzakirə edilmişdir. Görüşün əvvəlində "Şahdəniz" neft yatağının birgə işlənməsi üzrə müqavilə layihəsinin həyata keçirilməsi məsələləri ilə maraqlanan ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, "biz imzalanmış digər müqavilələrin həyata keçirilməsini nəzarət altında

saxlayaraq, onlarla da belə görüşlər keçirəcəyik” [67, 5].

Görüşdə “BP Eksploreyşn (Şahdəniz) LTD” şirkətinin prezidenti Mayk Şerman “Şahdəniz” layihəsi üzrə öhdəliklərin yerinə yetirilməsi barədə ətraflı məlumat vermişdir. O, bildirmişdir ki, bizdə Böyük Britaniya, Norveç nümayəndələri ilə birlikdə Azərbaycan nümayəndələri də işləyirlər. Daha sonra məlumat verilmişdir ki, öhdəliklərin yerinə yetirilməsinə 1996-cı il oktyabrın 17-də müqavilə təsdiqləndikdən sonra başlanılmışdır. İş öhdəliklərinin birincisi “Şahdəniz” strukturunun 800 kvadrat kilometrlik sahəsi barədə seysmik məlumat əldə edilməsindən ibarətdir. Müqavilə öhdəliyi 1999-cu il oktyabrın 17-də yerinə yetirilmişdir.

“Şahdəniz” layihəsi üzrə işlər həyata keçirilərkən ekologiya, işçilərin sağlamlığının qorunması və əməyin təhlükəsizliyi məsələlərinə həmişə böyük diqqət yetirilmişdir.

“Şahdəniz” layihəsində ekoloji standartlar ARDNŞ tərəfindən irəli sürülmüş tələblərə, habelə elmi strukturlara, xüsusən Elmlər Akademiyasının tələblərinə uyğundur. İlk dəfədir ki, belə ekoloji standartlardan istifadə edilmişdir. Vahid cədvələ uyğun olaraq növbəti mərhələdə seysmik işlər və topoqrafik tədqiqatlar aparılmışdır.

Görüşdə “Şahdəniz” müqaviləsi layihəsinin idarə komitəsinin üzvlərinin işindən razı qaldığını bildirən ümummilli lider Heydər Əliyev nitq söyləmişdir. Onun layihə üzvləri qarşısında söylədiyi nitq dərin məzmunlu tövsiyə və məsləhət xarakterində olduğu üçün ən mühüm yerlərinin xülasəsi diqqəti cəlb edir. O, qeyd etmişdir ki, bu müqaviləni həyata keçirən şirkətlər böyük, zəngin təcrübəyə malikdirlər. “Britiş Petroleum”, “Statoyl”, “ELF Akiten”, “LUKoyl”, İranın “OİEK”, Türkiyənin “Türk Petrolları” şirkətləri zəngin təcrübəyə malikdir və onların bir yerdə müştərək iş görməsi yaxşı qiymətə layiqdir. Bu layihəni həyata keçirən şirkətlərin imkanları, təcrübəsi və eyni zamanda

Azərbaycan mütəxəssislərinin, neftçilərinin biliyi, bacarığı, təcrübəsi, dünyanın qabaqcıl texnologiyasından, təcrübəsindən istifadə edərək bu yataqda müvəffəqiyyətlə iş görüb, yaxşı nəticə almaqda bizə kömək edəcəkdir.

Şermana görə müqavilə imzalandıqda qeyd edilmişdir ki, 3 il yalnız kəşfiyyat işləri üçün ayrılır və həmin kəşfiyyat işləri müddətində bu yatağın bütün göstəriciləri tam müəyyən olunmalıdır. Neftin alınmasına isə dörd ildən artıq vaxt lazım olacaqdır.

Görüşdə Ümummilli lider Heydər Əliyev "BP Eksploreyşn (Şahdəniz) LTD" şirkətinin prezidenti Şermana müraciətlə demişdir "Siz bildirdiniz ki, neftin alınmasına doqquz il müddətinə nail olacaqsınız. Ancaq eyni zamanda dediniz ki, siz bu işi dörd il müddətində edəcəksiniz. Ümidvaram ki, həvəslə işləyib, yaxşı nəticələr əldə edəcək, bu proqramı daha da sıxışdıracaqsınız" [67, 7-8].

Respublikamızın neft sənayesində dünyanın bir çox ölkələrinin nüfuzlu neft şirkətləri ilə imzalanmış beş müqavilə, hər bir müqavilənin layihəsini həyata keçirmək üçün orqan var. Birinci müqavilə üzrə idarəetmə orqanı konsorsiumdur, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətidir, ondan sonra imzalanan müqavilələrin hər biri üzrə idarə komitəsi vardır. Bu təşkilatlar, kollektivlər arasında sıx əlaqə vardır və bu kollektivlər bir-biri ilə çox sıx əlaqədə işləmişlər.

Görüşün sonunda ümummilli lider Heydər Əliyev müqavilələrin nəzarətdə olduğunu xatırladaraq demişdir "Bilməlisiniz ki, həm bu layihənin, həm də bütün başqa müqavilələrin layihələrinin həyata keçirilməsi Azərbaycan dövlətinin ən mühüm bir vəzifəsidir. Bu məsələlər mənim şəxsi nəzarətimdədir" [67, 10].

"Şahdəniz" yatağının mərhələlərlə işlənməsi nəzərdə tutulmuşdur. Çünki bu möhtəşəm yatağın böyük həcmdə təbii qaz və kondensat ehtiyatları vardır. Bu ehtiyatların Azərbaycanın tələbatından artıq olan hissəsini qonşu ölkələrə ixrac etmək imkanı

yaradır. “Şahdəniz” yatağının işlənməsi layihəsini diqqət mərkəzində saxlayan ümummilli lider Heydər Əliyev Azərbaycanın gələcəkdə qonşu Gürcüstana, bundan sonra isə Türkiyəyə qaz ixrac etməsi üçün səmərəli danışıqlar aparmağa başlamışdır. Daha sonralar isə təbii qazın Avropaya ixrac edilməsi proqnozlaşdırılmışdır. Perspektivdə ən böyük təbii qaz bazarı və tranzit ölkə kimi Türkiyə nəzərdə tutulduğu üçün bu qardaş ölkə ilə danışıqlar prosesinə başlanılmışdır.

1997-ci il iyulun 3-də Moskvada Kremlin Vladimir salonunda ümummilli lider Heydər Əliyevin və Rusiya Prezidenti Boris Yeltsinin iştirakı ilə Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı “Yalama” və “Samur” strukturlarının birgə işlənməsi haqqında sazişin imzalanma mərasimi keçirilmişdir. Rusiya Federasiyası ilə Azərbaycan arasında qarşılıqlı faydalı əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edən ümummilli lider Heydər Əliyev mərasimdəki çıxışında demişdir ki, “Xəzərin Azərbaycan sektorundakı yataqların istismarı üçün dünyanın bir çox ölkələrinin ən nüfuzlu şirkətləri ilə respublikamızın imzaladığı müqavilələrdə, yaradılmış konsorsiumlarda Rusiyanın neft şirkətinin yaxından iştirakından razı qaldığımı bildirir və ümid edirəm ki, ARDNŞ ilə “LUKoyl” arasında imzalanacaq daha bir sənəd bu sahədə əməkdaşlıqda yeni mühüm addım olacaqdır” [68, 239].

Ümummilli lider Heydər Əliyevin Moskvaya ilk rəsmi səfərində Azərbaycan ilə Rusiya arasında münasibətlərin daha intensiv surətdə inkişaf etdiyi bir şəraitdə Xəzər dənizinin perspektivli “Yalama” və “Samur” strukturlarının kəşfiyyatı, işlənməsi, hasilatın pay şəklində bölüşdürülməsi haqqında saziş imzalanmışdır. Bu müqavilənin imzalanması münasibətilə ümummilli lider Heydər Əliyev demişdir: “Azərbaycan Neft Şirkətinin fövqəlmilli şirkətlərlə indiyədək imzaladığı müqavilələrin üçündə Rusiyanın “LUKoyl” şirkəti iştirak edir və bu gün Rusiya və Azər-

baycan Prezidentlərinin iştirakı ilə “LUKoyl” və Azərbaycan Neft Şirkəti arasında dördüncü müqavilə imzalandı” [68, 244].

ARDNŞ-in iri xarici neft şirkətləri ilə ardıcıl sürətdə neft müqavilələri imzalaması və uğurla həyata keçirilməsi dünyanın digər qabaqcıl neft şirkətlərinin də diqqətini cəlb etdiyini və yeni neft sazişlərinin imzalanmasına təkan verdiyini görürük. Bu nöqteyi-nəzərdən ARDNŞ-in ABŞ-ın neft şirkətləri ilə imzaladığı yeni neft sazişi diqqəti cəlb etmişdir.

1997-ci il avqustun 1-də Vaşinqtonda Ağ evin Ruzvelt otağında Birləşmiş Ştatların Vitse-Prezidenti Albert Qorun və ABŞ-da rəsmi səfərdə olan ümummilli lider Heydər Əliyevin iştirakı ilə ARDNŞ-lə ABŞ-ın “Amoko”, “Şevron”, “Eksson” və “Mobil” şirkətləri arasında uzun sürən, intensiv danışıqlar nəticəsində hazırlanmış müqavilənin imzalanması mərasimi keçirilmişdir. Mərasimdən sonra müzakirələr Prezident Klintonla ümummilli lider Heydər Əliyev arasında davam etdirilmişdir.

ABŞ-ın neft şirkətləri ilə ARDNŞ arasında müqavilə imzalama mərasimində çıxış edən ümummilli lider Heydər Əliyev Amerikanın dəstəyini və güclü iqtisadi əlaqələr qurulmasını yüksək qiymətləndirərək demişdir ki, “... Bu iqtisadi əlaqələr, Amerikanın böyük neft şirkətlərinin və digər şirkətlərinin Azərbaycanda indi fəaliyyət göstərməsi Amerika Azərbaycan əlaqələrinin bütün sahələrində genişlənməsinə, inkişafına kömək edir. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, ABŞ Prezidenti Cənab Bill Klinton bu problemlərə xüsusi əhəmiyyət verir və bu məsələlərin həlli üçün çox ciddi tədbirlər görür” [69, 234].

Rəsmi danışıqlar vaxtı Ağ evdə Amerikanın rəhbərlərinin iştirakı ilə bir çox sənədlər imzalanmışdır. Amma ən əsas sənəd Amerika-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi haqqında prezident Bill Klintonla imzalanmış birgə bəyanatdır. Azərbaycan Respublikası ilə ABŞ arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoq yaradılması haqqında bəyanatı ABŞ-ın energeti-

ka naziri və respublikamızın xarici işlər naziri imzalamışdılar. Amerika-Azərbaycan danışıqlarının çox səmərəli olduğunu qeyd edən ümummilli lider Heydər Əliyev demişdir ki, “Nəzərə çatdırıram ki, ABŞ-a rəsmi səfərim zamanı Vaşinqtonda prezident Bill Klintonla keçirdiyim görüşlər, apardığım danışıqlar, imzalanmış dövlətlərarası sənədlər Azərbaycan-Amerika Birləşmiş Ştatları əməkdaşlığının tərəfdaşlıq səviyyəsinə qalxmasında mühüm rol oynamışdır” [69, 330].

1997-ci il avqustun 1-də Neft sazişinin imzalanmasına həsr edilmiş təntənəli mərasimdə Xəzərin Azərbaycan sektorundakı “Abşeron”, “Naxçıvan”, “Oğuz” perspektivli sahələrinin kəşfiyyatı, birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan tərəfi ilə ABŞ-ın “Şevron”, “Eksson”, “Mobil” şirkətləri arasında müqavilə imzalanmışdır. Dördüncü müqavilə isə “İnam” perspektivli strukturu ilə bağlı ARDNŞ-lə “Amoko” şirkəti arasında imzalanmışdır.

Xüsusi qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyev ABŞ-da rəsmi səfərdə olarkən dövlət rəhbərləri ilə danışıqlar aparmaqla bərabər Amerikanın ən böyük neft şirkətlərinin rəhbərləri ilə də danışıqlar davam etdirilmişdir. Ağ evdə yüksək səviyyədə keçirilmiş görüş və danışıqlar, o cümlədən, prezident Bill Klinton ilə aparılan danışıqlar çox uğurlu keçmişdir. Bu görüşdə dövlətlərimiz arasında sosial-iqtisadi təhlükəsizlik sahəsində çox mühüm sənədlər, o cümlədən, Amerika ilə Azərbaycanın tərəfdaşlıq əlaqələri barədə çox əhəmiyyətli bəyannamə imzalandı.

Ümummilli lider Heydər Əliyev ABŞ-da apardığı danışıqlarda və görüşlərdə öz diplomatik təcrübəsindən məharətlə istifadə edərək siyasi problemlərin həllini də diqqət mərkəzində saxlamışdır. O, ABŞ Konqresinin vaxtilə Azərbaycana qarşı qəbul etdiyi ədalətsiz 907-ci düzəlişin ləğv olunması barədə “Şevron”, “Penzoyl”, “Yunokal” şirkətlərinin, “Amoko” korporasiya-

sının rəhbərləri və başqaları ilə söhbətlərində Azərbaycan tərəfin haqq işinin müdafiə olunmasının vacibliyini xatırlatmışdır.

Azərbaycan nümayəndə heyətinin rəsmi səfəri dövründə ABŞ konqresinin vaxtilə qəbul etdiyi ədalətsiz 907-ci düzəlişin ləğv olunması üçün əlverişli şərait yaranmışdı. Ümummilli lider Heydər Əliyev Azərbaycan haqqında həqiqətləri Amerika tərəfinə çatdıraraq ABŞ-a rəsmi səfəri günlərində Kapitolidə parlamentin 40-dan çox üzvü ilə görüşmüş, konqresmen Kinqin 907-ci düzəlişin ləğvi ilə əlaqədar təqdim etdiyi layihəni yüksək qiymətləndirmişdir.

"Amoko" korporasiyasının direktorlar şurasının sədri Lourens Fuller ilə görüşdə ümummilli lider Heydər Əliyev bu şirkətin bir çox sahələrdə Azərbaycana yaxından kömək etdiyini yüksək qiymətləndirərək demişdir: "Bildirirəm ki, Azərbaycanın haqq işinin beynəlxalq aləmdə geniş təbliğ edilməsi, ölkəmizin qarşılaşdığı ağrılı problemlərin aradan qaldırılması üçün "Amoko"nun göstərdiyi səylərin böyük əhəmiyyəti vardır. Bu səyləri yüksək qiymətləndirərək vurğulayıram ki, hazırda ABŞ Konqresinin "Azadlığı müdafiə aktı"na 1992-ci ildə qəbul etdiyi 907-ci düzəlişin ləğvinə xüsusi diqqət yetirməyin vacibliyi olduqca zəruridir" [69, 330].

Ümummilli lider Heydər Əliyev başda olmaqla Azərbaycan nümayəndə heyətinin ABŞ rəsmi dairələri ilə apardığı danışıqlar və görüşlər, imzalanmış bəyanatlar və sazişlər sonrakı dövrlərdə ABŞ Konqresinin "Azadlığı müdafiə aktı"na qəbul etdiyi ədalətsiz 907-ci düzəlişin fəaliyyətinin dayandırılmasında böyük rol oynamışdır.

ABŞ-ın iri neft şirkətləri ilə imzalanmış müqavilələr Azərbaycan və bütün Xəzər regionu üçün yeni bir mərhələnin başlandığını göstərir. Bu müqavilələr Azərbaycan Respublikasının artmaqda olan tərəqqisinə və müstəqilliyinin möhkəmləndirilməsinə öz töhfəsini vermişdir.

1997-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının tarixində ən mühüm hadisələrdən biri baş vermişdir. Həmin tarixi gündə Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda yerləşən “Çıraq-1” platformasında “Əsrin müqaviləsi” üzrə ilkin neft hasilatına başlanması münasibətilə təntənəli mərasim keçirilmişdir. Mərasimdə ümummilli lider Heydər Əliyev, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti Terri Adams, ARDNŞ-in prezidenti Natiq Əliyev, ARDNŞ-in birinci Vitse-prezidenti İlham Əliyev və xarici ölkələrin nümayəndə heyətlərinin başçıları və neft şirkətlərinin prezidentləri iştirak etmişlər.

“Çıraq-1” platforması haqqında ABŞ-ın “Amoko” şirkətinin mütəxəssisi Nyu Oliver məlumat vermişdir. “Çıraq-1” platforması Xəzər dənizi sahilinin 120 kilometrliyində yerləşir və platforma suyun dərinliyi 120 metrə çatan sahədə quraşdırılmışdır. Nyu Oliver bildirmişdir ki, göyərtələr üzərində ən müasir tələblərə cavab verən qazma qurğusunun istehsal gücü 6 min metrədək dərinlikdə qazma işləri görməyə imkan verir. Neftin gündəlik hasilatı hələlik min tondur. Ümumiyyətlə platformada 24 quyu qazılacaqdır.

ARDNŞ-in prezidenti Natiq Əliyev məlumat vermişdir ki, çıxarılan xammal separatorda təmizləndikdən sonra neft platformadan Səngəçal terminalınadək çəkilmiş 176 kilometr uzunluğunda sualtı neft kəmərinə vurulur. Neftdən alınan səmt qazı sualtı boru kəməri ilə “Neft daşları”ndakı qaz kompressoru stansiyasına nəql olunur və burada yığılır, sonra isə sahilə istehlakçılara çatdırılır.

Ümummilli lider Heydər Əliyev ilkin neft kranının açılışını etməzdən əvvəl platformaya toplaşanlara nitqlə müraciət etmişdir. O, Azərbaycan neftçilərinin hələ 50 il bundan öncə Xəzər dənizində platformalar yaradıb neft çıxarmağa başlamaları haqqında məlumat verərək demişdir ki, “"Çıraq" neft yatağında olan

platformanı da vaxtilə Azərbaycan neftçiləri yaratmışlar. Ancaq üç il bundan öncə "Əsrin müqaviləsi" imzalanandan sonra biz konsorsiumun iştirakçısı olan şirkətlərlə birlikdə bu platformanı yenidən qurmuşuq və o bugünkü müasir vəziyyətə gəlib çatıbdır" [70, 178].

1997-ci il noyabrın 12-də Respublika sarayında Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda ABƏŞ tərəfindən birgə işlənilən neft yataqlarından ilkin neftin çıxarılması münasibətilə dənizdə "Çıraq" platformasında keçirilməyə başlanmış olan təntənəli mərasim davam etdirilmişdir.

Təntənəli mərasimi açan ümummilli lider Heydər Əliyev geniş nitq söyləmişdir. O, öz nitqində qeyd etmişdir ki, 1994-cü il sentyabrın 20-də dünyanın 7 ölkəsinə mənsub olan 11 böyük neft şirkəti bir araya gələrək konsorsium yaratmış və ARDNŞ ilə Xəzərin Azərbaycan Respublikası sektorunda olan "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının, dərinlikdə yerləşən hissəsinin müştərək işlənməsi haqqında müqavilə imzalamışlar. Bu müqavilənin həyata keçirilməsi üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradılmışdır. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti müqavilədə nəzərdə tutulmuş layihəni həyata keçirməyə başlamış, üç il müddətində proqram əsasında nəzərdə tutulmuş Məcburi İşlərin Minimum Proqramı (MİMP) işlərin hamısı yerinə yetirilmiş və görülmüş işlər nəticəsində "Çıraq" neft yatağında yaradılmış nəhəng platforma vasitəsilə ilkin neft hasil olunmuşdur.

Azərbaycanın qədim neft diyarı olmasını xatırladan ümummilli lider Heydər Əliyev öz nitqində qeyd etmişdir ki, XIX əsrin sonunda XX əsrin əvvəllərində ölkəmizdə dünyada hasil edilən neftin 50 faizdən çoxu çıxarılmışdır.

Uzun müddət Azərbaycan Sovet İttifaqının əsas neft-yanacaq bazası olmuşdur. İkinci Dünya müharibəsi zamanı Sovetlər İttifaqının istifadə etdiyi neftin 75 faizi Azərbaycanda hasil

olunmuş və alman faşizmi üzərində çalınmış qələbədə həlledici rol oynamış və sovet hakimiyyəti tərəfindən lazımınca qiymətləndirilməmişdir.

Azərbaycan dünyada neftin sənaye üsulu ilə hasil edilməsində qabaqcıl ölkə olduğu kimi, dənizdə də, suyun dərinliklərində də neft yataqlarının kəşf olunması və onlardan istifadə edilməsində də ilk addımlar atan bir ölkə olmuşdur. Azərbaycanın dəniz neftçilərinin təcrübəsindən də bütün dünyada istifadə edilmişdir.

“Çıraq” platformasını dənizin ortasında yaradılmış möcüzə adlandıran ümummilli lider Heydər Əliyev demişdir: “Çıraq” neft yatağında 3 il müddətində yaradılmış platforma həqiqətən möcüzədir, insanı həqiqətən təəccübləndirir. Çünki o, Xəzər dənizində olan başqa platformalardan, estakadalardan öz müasir texnikası, texnologiyası, müasir imkanları ilə fərqlənir” [70, 186].

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ölkəmizin neft yataqlarından, o cümlədən “Çıraq” yatağından çıxarılan ilkin neftin ixracı üçün planlaşdırılmış olan iki neft kəmərindən birinin – Rusiya ərazisindən Qara dənizin Novorossiysk limanına tikintisinin başa çatıb işə başlamasını diqqətə çatdıran ümummilli lider Heydər Əliyev ikinci neft boru kəmərinin – Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına çəkiləcək xəttin tikintisi haqqında da məlumat vermişdir.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərliyi altında üç il müddətində görülmüş işlərdə dünyanın bir çox ölkələrindən cəlb olunmuş 400-dən artıq şirkət iştirak etmişdir. Buradakı şirkətlərin xeyli hissəsi Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniyanın, Norveçin, Fransanın və bir sıra ölkələrin olmuşdur. Müştərək iş görmüş bu şirkətlərin içərisində 72 müəssisə [70, 188-189] Azərbaycan Respublikasının müəssisələri olmuşdur.

Neft müqaviləsinin həyata keçirilməsində dünyanın bir çox qabaqcıl şirkətlərindən olan yüksək səviyyəli mütəxəssislərlə birlikdə Azərbaycan Respublikasının özünün mütəxəssisləri də yaxından iştirak etmişlər.

Neft sənayesi sahəsində böyük elmi-texniki potensiala malik olan Azərbaycan Respublikası əldə olunmuş təcrübəni Xəzəryanı ölkələrlə bölüşdürməyə, Xəzər dənizinin enerji ehtiyatlarından istifadə edilməsinə öz xidmətlərini göstərməyə hazır olduğunu dəfələrlə bildirmişdir.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin neft müqavilələri ilə əlaqədar üç il müddətində gördüyü müştərək işlər gələcəyə geniş bir yol açmışdır.

İmzalanmış müqavilələrin həyata keçirilməsində göstərdiyi xidmətlərə görə ümummilli lider Heydər Əliyev Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin rəhbərliyinə və xüsusən onun başçısı, "Britiş Petroleum" şirkətinin nümayəndəsi Terri Adamsa dəfələrlə öz təşəkkürünü bildirmişdir.

"Çıraq" yatağından ilkin neftin çıxarılmağa başlanması və gələcəkdə digər yataqların istismara verilməsi nəticəsində hesablamalara görə 5-6 ildən sonra ölkəmizdə neft hasilatının 50-60 milyon tona çatacağının gözlənilməsi gələcəkdə hasil ediləcək neftin ixrac olunması məsələsini gündəmə gətirmişdir. Əsas ixrac neft kəməri marşrutunun hansının iqtisadi nöqteyi-nəzərdən daha səmərəli olması, təhlükəsizliyinin etibarlılığı məsələsi müxtəlif fikirlərə və mübahisələrə səbəb olmuşdur. Neft kəməri marşrutunun şimala, cənuba, qərbə tərəf istiqamətləndirilməsi təklifləri səslənmişdir. Məsələn Rusiya Baş nazirinin birinci müavini Boris Nemtsov şimal istiqamətində neft kəmərinin Rusiyanın ərazisindən keçməsi məsələsini irəli sürmüşdür. Bununla bağlı ümummilli lider Heydər Əliyev demişdir ki, "Bütün bunları ölçüb-biçmək lazımdır. Bizim ilkin layihəmizdə əsas, böyük neft kəmərinin Bakı-Ceyhan istiqamətində getməsi nəzərdə tutu-

lubdur” [70, 193].

Bir sıra səhmdarlar Bakı-Ceyhan boru xəttinin baha olduğunu deyərək etiraz etsələr də, ümummilli lider Heydər Əliyev bu xəttin həm strateji, həm də daha təhlükəsiz və səmərəli olması fikri üzərində israrlı olduğunu bir daha təsdiq etmişdir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bütün tərəflər üçün səmərəli neft sazişləri və etibarlı tərəfdaşlığı ölkəmizin nəinki suda, hətta quruda yerləşən neft yataqlarının müştərək işlənməsinə yeni-yeni ölkələrin şirkətlərinin marağını daha da artırmışdır.

1998-ci il iyunun 2-də Bakının Gülüstan sarayında Xəzərin Azərbaycan Respublikası sektorundakı “Kürdaşı” dəniz blokunun və qurudakı “Cənub-Qərbi Qobustan”, “Kürsəngi” və “Qarabağlı” bloklarının birgə işlənməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə İtaliyanın “Acip”, Yaponiyanın “Mitsui”, Türkiyənin “Türkiyə Petrolları Anonim Ortaqlığı”, ABŞ-ın “Yunion Teksas”, Böyük Britaniya və Kanadanın “Komonvels Oyl ənd Qaz”, ABŞ-ın “Frontera Resorses”, “Amerada Hess”, Səudiyyə Ərəbistanının “Delta” şirkətləri arasında müqavilənin imzalanması mərasimi olmuşdur.

Yeni neft müqaviləsinin imzalanması mərasimində ümummilli lider Heydər Əliyevlə bərabər ARDNŞ-in rəhbərliyinin, yeddi ölkənin rəsmi nümayəndə heyətləri başçılarının və həmin ölkələrdən olan səkkiz neft şirkətinin, o cümlədən ABŞ-ın üç şirkətinin prezidentlərinin təntənəli surətdə çıxış etmələri neft strategiyasının yeni uğurlar qazandığını göstərmişdir. Yeni neft sazişlərinin imzalanması Azərbaycanın həm qurudakı, həm də dənizdəki neft-qaz yataqlarının xarici şirkətlərin iştirakı ilə birgə işlənməsi niyyətini göstərmişdir. Azərbaycanın bu addımını Avropanın enerji təhlükəsizliyini təmin etmək istəyən ölkələr, xüsusilə də Amerika Birləşmiş Ştatları dəstəkləmişlər və ölkəmizdə öz fəaliyyətlərini genişləndirmişlər.

Neft müqaviləsində iştirak edən şirkətlər dünya neft enerjisi inkişafında əhəmiyyətli rol oynamaqdadırlar və əvvəlki səhifələrdə göstərildiyi kimi, ümummilli lider Heydər Əliyev öz çıxışlarında və məruzələrində ABŞ-ın, Böyük Britaniyanın, Norveçin, Fransanın və başqa ölkələrin şirkətlərinin Azərbaycandakı fəaliyyətini dəfələrlə yüksək qiymətləndirmişdir. İmzalanmış neft sazişlərinin əhəmiyyəti onun bütün iştirakçılar üçün qarşılıqlı surətdə faydalı tərəfdaşlıqdan ibarətdir. Bu sazişi imzalayan şirkətlər, göstərildiyi kimi, Azərbaycana yeni texnika və texnologiyalar gətirmiş, onun iqtisadiyyatının və sənayesinin inkişafına öz töhfəsini vermişlər. Ümummilli lider Heydər Əliyev ölkəmizdə müştərək fəaliyyət göstərən şirkətlərin işinin hər iki tərəf üçün faydalı olduğunu qeyd edərək demişdir ki, "Biz bunların nəticəsində Azərbaycana xarici ölkələrdən böyük miqdarda investisiya gəlməsinə, dövlətimizə məxsus təbii sərvətlərdən səmərəli istifadə etməyə, respublikamızın neft və qaz sənayesinə müasir texnikanın və texnologiyanın gəlməsinə nail oluruq" [71, 430].

Heydər Əliyev öz nitqində ilk neft müqaviləsini xatırladaraq bildirmişdir ki, həmin müqavilədən sonra ARDNŞ xarici şirkətlərlə yeni neft müqaviləsi imzalamışdır. Artıq ABƏŞ tərəfindən ilkin neft hasilatı əldə edilibdir və ilbəil artmaqdadır. Bununla əlaqədar o demişdir "Müqavilə imzalanarkən həmin neft yataqlarından 510 milyon ton neft gözlənilirdi. Bu müqavilədə də öz əksini tapıbdır. İndi isə məlumat verirlər ki, həmin yataqlardan 630 milyon ton neft gözlənilir" [71, 426-427].

Xəzərin Azərbaycan Respublikası sektorundakı yataqlardan gözlənilən neftin miqdarının artması ilə bağlı qərb istiqamətində Bakı-Supsa boru kəmərinin 1999-cu ilin əvvəlində hazır olacağı gözlənildiyi üçün əsas ixrac neft kəməri haqqında məlumat verən ümummilli lider Heydər Əliyev bildirmişdir – "Bu müddətdə biz əsas neft kəmərinin – böyük neft borusunun tikilməsi mə-

sələləri ilə ciddi məşğuluq. Hesab edirəm ki, bu ilin sentyabr ayında bu barədə son qərar qəbul olunacaqdır. Azərbaycan dövləti, hökuməti bütün mümkün marşrutların hamısını təhlil edərək hesab edir ki, Bakı-Ceyhan ən əlverişli marşrutdur” [71, 427].

Xəzərin Azərbaycan Respublikası sektorundakı yataqların çoxu hələ mənimsənilməmişdir və bu neft yataqlarında ARDNŞ ilə müştərək iş görmək üçün dünyanın bir çox şirkətləri respublikamıza müraciət edirlər və belə müraciətlər çoxdur. Heydər Əliyevin öz nitqində dediyi kimi “Ona görə də Azərbaycan Dövlət neft Şirkəti indi tender keçirmək, müsabiqə aparmaq imkanına malikdir. Nəticədə ən yüksək iqtisadi göstəricilər təklif edən şirkətlər Xəzərin Azərbaycan sektorunda və ölkəmizin quruda olan yataqlarında müştərək iş görmək hüququ qazanırlar” [71, 427-428].

Xəzərin Azərbaycan Respublikası sektorundakı zəngin neft-qaz yataqları ilə bərabər, Azərbaycanın quru ərazilərində də hələ çox zəngin neft və qaz yataqları vardır. Ona görə də Azərbaycanın quru hissəsində yerləşən neft yataqlarının da xarici neft şirkətləri ilə müştərək işlənməsi səmərəli və işgüzar müzakirələrdən sonra ARDNŞ ilə razılaşdırılmışdır.

1998-ci il iyulun 21-də Londonda Heydər Əliyevin və Böyük Britaniyanın Baş Naziri Toni Bleyerin iştirakı ilə Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı “Araz”, “Alov”, “Şərq” perspektivli strukturlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş Böyük Britaniyanın “Britiş Petroleum” və Norveçin “Statoyl” şirkəti ilə ARDNŞ arasında imzalanmışdır.

“İnam” perspektivli strukturunun kəşfiyyatı, işlənməsi, hasilatın pay bölgüsü haqqında saziş ABŞ-ın “Amoko” şirkəti, Böyük Britaniyanın “Monument Oyl and Qaz” şirkəti və Rusiyanın Mərkəzi Yanacaq Şirkəti ilə ARDNŞ arasında imzalanmışdır.

Quruda yerləşən “Muradxanlı”, “Cəfərli” neft yataqlarının

və "Zərdab" perspektivli strukturunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş Böyük Britaniyanın "Remko" şirkəti ilə ARDNŞ arasında imzalanmışdır.

Neft sazişlərinin imzalanma mərasimində nitq söyləyən Heydər Əliyev Böyük Britaniyanın neft şirkətləri ilə müqavilələri yüksək qiymətləndirərək demişdir:

"Xəzərin Azərbaycan Respublikası sektorundakı zəngin yataqların və ümumiyyətlə Azərbaycanın ərazisində olan neft yataqlarının Birləşmiş Krallığın böyük neft şirkətləri ilə birgə işlənilməsi bizim üçün çox əhəmiyyətlidir. Birləşmiş Krallığın yüksək texnikaya, texnologiyaya, zəngin təcrübəyə malik şirkətləri və Azərbaycanın təbii sərvətləri, bizim yüksək səviyyəli kadrlarımız bu işləri gələcəkdə birgə görəcəklər" [72, 348].

Azərbaycan Dövlət Neft Şirkətinin Böyük Britaniyanın iri şirkətləri ilə neft sazişlərinin imzalanması nəinki iqtisadi əlaqələri daha da genişləndirmiş, hətta ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın güclənməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

1998-ci il dekabrın 25-də Heydər Əliyevin neft siyasətinin həyata keçirilməsində növbəti bir addım atılmışdır. "Gülüstan" sarayında Xəzərin Azərbaycan Respublikası sektorundakı "Yanan tava", "Atəşgah", "Muğan dəniz" blokunun birgə işlənməsi haqqında ARDNŞ ilə Yaponiyanın "Capan Petroleum", "İndoneziya Petroleum", "İtoçu Oyl Eksploreyşn" və "Teykoku Oyl" neft şirkətləri arasında müqavilənin imzalanması mərasimi olmuşdur.

Neft müqaviləsinin imzalanması mərasimində Heydər Əliyev iştirak etmiş və nitq söyləmişdir. O, öz nitqində qeyd etmişdir ki, Azərbaycan dövləti 1994-cü ildən başlayaraq neft siyasətini həyata keçirir. Bu siyasətin əsas məzmunu Azərbaycanın zəngin neft və qaz yataqlarının intensiv işlənilməsindən ibarətdir. Bununla bağlı Heydər Əliyev göstərmişdir ki, həmin dövr-

dən ötən “dörd il ərzində 15 müqavilə imzalanıbdır. Bu 15 müqavilədə 14 ölkədən dünyanın 27 böyük neft şirkəti iştirak edir. Bu müqavilələr əməli surətdə həyata keçirilir, böyük işlər görülür. Bunlar hamısı Azərbaycanın iqtisadi inkişafına artıq öz təsirini göstərir” [74, 463].

İmzalanmış neft müqavilələrinin uğurla həyata keçirilməsi və hasilatın intensiv surətdə artması ilə əlaqədar olaraq Xəzərin Azərbaycan Respublikası sektorundakı neft yataqlarına dünyanın iri neft şirkətlərinin və iqtisadi cəhətdən ən yüksək inkişaf etmiş ölkələrin marağı günü-gündən artmışdır. Yaponiya Azərbaycanın neft və qaz sərvətlərinə öncə maraq göstərən ölkələrdən biri olmuşdur. Yaponiyanın “İtoçu” şirkəti hələ “Əsrin müqaviləsi” imzalanarkən birinci konsorsium yaradıldığı dövrdə özünə müəyyən pay almışdı. “İtoçu” şirkəti daha sonra “Dan ulduzu” və “Əşrəfi” neft yatağında istifadə olunması üçün yaranmış konsorsiumda layihənin 20 faizini almışdı. “Mitsui” şirkəti də Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda yerləşən “Kürdaşı” yatağının işlənməsi üçün konsorsiumda 15 faiz pay almışdı. Yaponiyanın digər iri neft şirkətləri də Azərbaycanın neft yataqlarına maraq göstərməkdədirlər.

Yaponiya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq yaxşı səviyyədədir və genişlənməkdədir. 1998-ci ilin fevralında Heydər Əliyevin Yaponiyaya rəsmi səfəri səmərəli olmuş, çoxsaylı danışıqlar aparılmış, Yaponiya-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün bir çox sənədlər imzalanmışdır. Yaponiya hökuməti Azərbaycanda sənayenin bəzi sahələrinin inkişaf etdirilməsinə kredit verilməsinə razılıq vermişdir. Azərbaycanın “Şimal DRES”in yenidən qurulması və bərpası üçün 160 milyon dollar güzəştli kredit ayrılması haqqında Yaponiya hökuməti ilə saziş imzalanmışdır, Yaponiyanın “Eksimbank”ı respublikamızda etilen qurğularının yenidən qurulmasına və modernləşdirilməsinə 90 mln. manat kredit ayırmışdır.

Uzun müddətli danışıqlardan sonra “Yanan tava”, “Atəşgah”, “Muğan-dəniz” neft yatağının müştərək işlənməsi üçün ARDNŞ ilə Yaponiyanın dörd şirkəti – “Capeks”, “İtoçu” və “Teykoku” arasında saziş imzalanmışdır. Hələ əvvəllər aşkarlanmış bu neft yatağı çox perspektivlidir və toplanmış məlumatlara əsasən ehtiyatları 75-90 milyon tondur [74, 466].

İmzalanmış müqaviləyə əsasən həmin yatağın işlənməsinə təxminən 2,3 milyard dollar həcmində kapital qoyulması nəzərdə tutulmuşdur. Müqavilə həm ARDNŞ, həm də Yaponiyanın şirkətləri üçün faydalıdır. Ümummilli lider Heydər Əliyevin Yaponiyanın işgüzar dairələri ilə görüşündə dediyi sözlər bunu təsdiq edir:

“Bütün göstəricilərə görə bu müqavilə həm Azərbaycan Dövlət Neft Şirkəti, həm də Yaponiyanın böyük neft şirkətləri üçün faydalıdır” [74, 466].

Ən yüksək inkişaf etmiş ölkə kimi Yaponiya elmdə, texnikada, sənayedə əldə etdiyi nailiyyətlərlə dünya iqtisadiyyatının inkişafına çox böyük təsir göstərmişdir. Ona görə də Azərbaycanın Yaponiya ilə əməkdaşlığının genişləndirilməsinin böyük əhəmiyyəti vardır. Müqavilə imzalandıqdan sonra Heydər Əliyevin öz nitqində dediyi sözlər bu fikri bir daha təsdiq edir: “Mən inanıram ki, bugünkü bu müqavilə Yaponiya-Azərbaycan iqtisadi əlaqələrinin inkişaf etməsinə çox böyük kömək göstərəcəkdir. Bu müqavilənin bir xüsusiyyəti də odur ki, burada konsorsium yalnız Yaponiya şirkətlərindən ibarətdir” [74, 467].

TRASEKA proqramının inkişaf etdirilməsi ilə əlaqədar olaraq qədim Tarixi İpək yolunun bərpa edilməsi Yaponiya-Azərbaycan əməkdaşlığını daha da genişləndirmişdir.

1999-cu il aprelin 27-də Amerika Birləşmiş Ştatları konqresinin binasında Heydər Əliyevin iştirakı ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və ABŞ-ın “Monkrif Oyl”, “Eksson”, “Mobil” şirkətləri arasında Xəzər dənizinin Azərbaycan

Respublikası sektorundakı "Zəfər", "Məşəl" strukturlarının, "Savalan", "Dalğa", "Lerik-Dəniz" və "Cənub" strukturlarının, qurudakı "Padar" strukturunun birgə işlənməsi haqqında üç sazişin imzalanması mərasimi olmuşdur. Həmin gün imzalanmış üç böyük saziş ABŞ-la Azərbaycan arasında tərəfdaşlığı daha da gücləndirmişdir.

ABŞ-ın ən iri neft şirkətlərinin Azərbaycandakı fəaliyyətlərini genişləndirməsi, bu şirkətlərin Azərbaycanın neft sektorunda, eləcə də qeyri-neft sektoru layihələrində iştirak etməsi ölkəmizin inkişafına öz töhfələrini vermişdir.

Müqavilələrin imzalanma mərasimində nitq söyləyən Heydər Əliyev "Əsrin müqaviləsi"ndən sonra artıq 16 müqavilə imzalandığını və ABŞ-ın neft şirkətlərinin üstün yer tutduqlarını xatırladaraq demişdir: "...Bütün bu müqavilələrdə Amerika Birləşmiş Ştatlarının neft şirkətləri görkəmli yer tuturlar. Ötən dövrdə onlar Azərbaycana külli miqdarda investisiya qoyublar və Amerika Birləşmiş Ştatlarının neft şirkətləri, demək olar ki, Azərbaycanın Xəzər dənizində, Azərbaycanda neft strategiyasının həyata keçirilməsində aparıcı rol oynayırlar" [76, 148].

Azərbaycanın neft strategiyası dünyada böyük əks-səda yaratmış, bir çox ölkələrdə maraq və müsbət münasibət əmələ gətirmişdir. Amma eyni zamanda Azərbaycanın neft strategiyasına mane olmaq cəhdləri də olmuşdur. Bu çətinliklərin və maneçiliklərin qarşısı alınmışdır. Böyük sınaqlardan keçməkdə və nəzərdə tutulmuş işlərin yerinə yetirilməsində Amerika Birləşmiş Ştatları həmişə Azərbaycana dəstək vermiş, yardım etmişdir. ABŞ-ın Azərbaycana dəstəyini öz nitqində xüsusi qeyd edən Heydər Əliyev demişdir ki, "1994-cü ildən sonra bizim neft müqavilələrinin həyata keçirilməsi sahəsində Azərbaycana qoyulan investisiyaların əksəriyyətini Amerika Birləşmiş Ştatlarının neft şirkətləri qoyublar. Azərbaycana bir milyard dollardan artıq Amerika kapitalı gəlibdir və bu müqavilələrlə onların həyata ke-

çirilməsi üçün nəzərdə tutulmuş investisiyaların ümumi həcmi 50 milyard dollara qədərdir" [76, 149].

1999-cu il aprelin 27-də ABŞ-ın "Eksson" şirkətinin Azərbaycan Dövlət Neft Şirkəti ilə imzaladığı müqavilədə Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda "Zəfər" və "Məşəl" neft yataqlarının birgə işlənməsi üçün investisiyanın həcmi 5 milyard dollar, "Mobil" şirkətinin ARDNŞ ilə "Savalan", "Dalğa", "Lerik-dəniz" və "Cənub" neft yatağının birgə işlənməsi üçün isə 4,5 milyard dollar təşkil etmişdir.

Faktlardan və rəqəmlərdən göründüyü kimi, ABŞ-ın iri neft şirkətləri ilə imzalanmış müqavilələr və birgə iş tərəfdaşlıq əlaqələrini daha da möhkəmləndirmişdir. Heydər Əliyev öz nitqində bu fikri təsdiq edərək demişdir: "Biz Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaşlıq əlaqələri yaratmışıq və bu əlaqələr çərçivəsində öz işimizi aparır, bu əlaqələri inkişaf etdirməyə çalışırıq. Neft sahəsində imzaladığımız müqavilələr, artıq əldə etdiyimiz nailiyyətlər ölkələrimiz arasında siyasi, iqtisadi, elmi, mədəni sahələrdə də əlaqələrin inkişaf etməsinə böyük imkanlar yaradır" [76, 150].

2000-ci il sentyabrın 12-də ümummilli lider Heydər Əliyevin neft strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi sahəsində irəliyə doğru daha bir əhəmiyyətli addım atılmışdır. Vaşinqtonda ABŞ konqresinin binası Kapitolidə Amerikanın «Monkrif Oyl» və Türkiyənin «Petoyl» şirkətləri ilə ARDNŞ arasında quruda yerləşən «Murovdağ» və «Kəlaməddin» yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsünə dair sazişin imzalanması mərasimi keçirilmişdir. İmzalanma mərasimində ümummilli lider Heydər Əliyev iştirak edirdi.

Əvvəlki səhifələrdə qeyd edildiyi kimi ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının neft strategiyasının hazırlanıb həyata keçirilməsində ABŞ-ın iri neft şirkətləri ilə əməkdaşlığa daha böyük əhəmiyyət vermişdir. Çünki yeni istiqlaliyyət əldə etmiş ölkəmiz üçün ABŞ kimi güclü və yüksək in-

kişaf etmiş tərəfdaş dövlətin şirkətləri ilə əməkdaşlıq etmək çox önəmlidir. Sazişin imzalanma mərasimini açan senator xanım Key Beyli Hatçinson da bu fikri təsdiq edərək öz çıxışında qeyd etmişdir ki, bugünkü sazişin imzalanmasından sonra Azərbaycana çox böyük investisiya qoyulacaq və Azərbaycanla uzunmüddətli tərəfdaşlıq yaradılacaqdır.

Avropada və ümumiyyətlə bütün dünyada hazırkı dövrdə enerji qıtlığı hiss edildiyi zamanda Xəzər dənizi regionunun ehtiyatlarının qarşılıqlı fayda əsasında birgə mənimsənilməsi bütün ölkələr üçün böyük faydalar gətirəcəkdir.

Buna görə də Azərbaycanla tərəfdaş ölkələr Xəzər dənizinə dünya iqtisadiyyatına böyük töhfə verə biləcək yeni enerji mənbəyi kimi baxırlar. ABŞ tərəfi Xəzər dənizinin enerji ehtiyatlarının birgə mənimsənilməsi üçün belə müqavilələrin imzalanmasını gələcəkdə də nəzərdə tutur və Xəzər neftini dünya bazarlarına ixrac edəcək iri boru kəmərinin çəkilməsinə yaxından dəstək verdiyini yenə də təsdiq etmişdir.

ARDNŞ-lə «Monkrif Oyl» şirkəti arasında ikinci neft sazişinin imzalanmasını alqışlayan ABŞ ticarət nazirinin xüsusi müşaviri Yan Kalitski öz çıxışında bildirdi ki, məqsədimiz Azərbaycanın müstəqilliyinin inkişaf etdirilməsi və Amerika ilə Azərbaycan arasında daha sıx əlaqələrin yaradılmasına nail olmaqdır. Texas ştatının çox mühüm şirkəti olan «Monkrif Oyl» şirkəti ilə Azərbaycan arasında ikinci müqavilənin bağlanması Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında enerji sahəsindəki əməkdaşlığın yeni çox böyük təcəssümü olmuşdur. İmzalanma mərasimində çıxış edən digər rəsmi dövlət nümayəndələri də bu sazişi Azərbaycan Respublikası ilə ABŞ arasında mövcud olan tərəfdaşlığın bariz bir nümunəsi olduğunu göstərmiş və yeni müqaviləni eyni zamanda Şərq-Qərb enerji dəhlizinə əlavə bir töhfə kimi qiymətləndirmişlər.

ABŞ Prezidenti və Dövlət katibinin Xəzər hövzəsinin enerji

məsələləri üzrə müşaviri Con Vorlf mərasimdə çıxış edərkən bu sazişin böyük əhəmiyyətə malik olduğunu xüsusi vurğulamışdır. Bu müqavilənin imzalanması ilə Azərbaycanda sərmayə yatıran çoxsaylı ABŞ şirkətlərinin investorlar qrupuna Texası təmsil edən «Monkrif Oyl» şirkətinin ikinci dəfə qoşulması qarşılıqlı əməkdaşlığa yeni bir töhfə olmuşdur.

Əvvəlki neft müqavilələrinin imzalanma mərasimlərində ümummilli lider Heydər Əliyev yaxından iştirak edərək, çıxış etdiyi kimi, «Monkrif oyl» şirkəti ilə də neft sazişinin imzalanma mərasimində də bilavasitə iştirak etmiş və çıxış etmişdir. Onun çıxışında qeyd edilmişdir ki, 1994-cü ildən etibarən Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda olan neft və qaz yataqlarının, həm də quruda olan neft və qaz yataqlarının dünyanın böyük neft şirkətləri ilə birinci növbədə Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətləri ilə müştərək işlənməsi prosesinə başlanılmış, ilk addımlar çətin, ağır olmuş və təzyiqlər olmasına baxmayaraq, bu yol ilə getməkdəyik. O, bu çətinlikləri xarakterizə edərək demişdir: «...biz bu işləri nə qədər ağır vəziyyətdə başlamışdıq. İndi isə biz qalibik. Tutduğumuz yolda çox böyük nailiyyətlər əldə etmişik» [96, 110].

2000-ci ilin sentyabrınadək olan dövrdə yataqların müştərək işlənməsi və Hasilatın Pay Bölgüsünə dair ARDNŞ-lə xarici ölkələrin neft şirkətləri arasında on doqquz müqavilə imzalanmışdı. Əvvəlki sətirlərdə göstərildiyi kimi, bu müqavilələrin əksəriyyəti ABŞ-ın neft şirkətləri ilə imzalanmışdır. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti xarici neft şirkətləri ilə yeni neft sazişləri imzalayarkən ümummilli lider Heydər Əliyevin çox uzaqgörənliklə düşünülmüş tövsiyə və məsləhətlərini əldə rəhbər tuturdu. «Monkrif Oyl» şirkəti ilə ARDNŞ arasında ikinci dəfə müştərək müqavilə imzalaması yuxarıdakı fikrin əyani sübutudur. Ümummilli lider Heydər Əliyev demişdir:

«Mən 1997-ci ildə Vaşinqtonda olarkən Ağ evdə dörd mü-

qavilə imzalandı. «Monkrif Oyl» ilə müqavilə keçən il bu binada imzalandı. İndiyədək bunların sayı 19 idi. 20-cisi bu gün imzalanır. Bunların böyük gələcəyi vardır. XXI əsrdə bizim övladlarımız, bizdən sonra gələn nəsil bunlardan çox səmərəli istifadə edəcəklər. Ancaq indi də biz bunun müsbət nəticələrini görürük.

Mərasimdə ilkin neft əldə edilməsinin çətinliklərini və buna nail olunduqdan sonra neftin Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri ilə xarici bazarlara ixrac edilməsini xatırladan ümummilli lider Heydər Əliyev diqqəti Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru kəmərinin tikintisinə yönəldərək bu layihənin həyata keçirilməsində ABŞ-ın Azərbaycan Respublikasına dəstəyini bir daha yüksək qiymətləndirmiş və demişdir: «Əsas ixrac boru kəməri isə Bakı-Tbilisi-Ceyhan»dır. Bunun üzərində bir neçə il işlədik və Amerika Birləşmiş Ştatlarının hökuməti, Prezidenti və nazirləri bu sahədə çox çalışdılar. Nəhayət, biz keçən il noyabr ayında İstanbulda, ATƏT-in zirvə görüşü zamanı bu müqaviləni imzaladıq. Dörd respublikanın prezidenti ilə bərabər Amerikanın prezidenti cənab Bill Klinton da imzaladı.

Ümumiyyətlə, Amerika Birləşmiş Ştatları şirkətləri Kapitolidə imzalanan müqaviləyədək Azərbaycan iqtisadiyyatına 1 milyard 600 milyon dollar yatırmışlar. Bunun 1 milyard 400 milyon dolları neft sektoruna sərf edilmişdir [77, 76].

Ümummilli lider Heydər Əliyev xatırlatmışdır ki, «Monkrif Oyl» şirkəti ilə imzalanmış hər iki müqavilə Azərbaycanın quru hissəsində yerləşən neft yataqlarına aiddir. Onun da qeyd etdiyi kimi, «Hesablamalara görə indiyə qədər Azərbaycanın quru hissəsində neftin 70 faizi hələ çıxarılmamışdır» [96, 111].

2001-ci il yanvarın 9-da Bakıda Prezident sarayında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında qurudakı “Zığ” və “Hövsan” yataqlarının birgə işlənilməsi haqqında Heydər Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə neft müqavilələrinin imzalanması mərasimi keçirilmişdir.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "LUKoyl Orersiz Abşeron LTD" ilə ARDNŞ-in Ortaq Neft şirkətinin arasında "Zığ" və "Hövsan" neft yataqlarını əhatə edən blok üzrə bərpa, kəşfiyyat, işlənilmə və hasilatın pay bölgüsü haqqında saziş imzalanmışdır.

Ümummilli lider Heydər Əliyev dünya iqtisadiyyatında və siyasətində aparıcı rol oynayan ən yüksək inkişaf etmiş ölkələrlə əlaqələrin möhkəmləndirilib, genişləndirilməsinə böyük önəm verirdi. O, bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirərək daha tez uğur əldə etmək üçün neft amilindən istifadə edilməsinə xüsusi diqqət yetirirdi. Onun tərəfindən hazırlanmış olan neft strategiyası bu əlaqələrin daha da inkişaf etdirilməsində əvəzsiz rol oynayırdı. Lakin AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə düşünülməmiş hərəkətlər və məsuliyyətsiz bəyanatlar nəticəsində ciddi səhvlərə yol verilmiş və bir sıra ölkələrlə, xüsusilə də ən böyük qonşu dövlət olan Rusiya Federasiyası ilə qeyri normal münasibətlər yaranmışdı. Rusiya Federasiyasının keçmiş rəhbərliyi dövründə Azərbaycan Respublikasına qarşı qərəzli hərəkət və bir sıra sahələrdə blokada yaradaraq iqtisadi sanksiyalar tətbiq etməsinə baxmayaraq, ölkəmizin dövlət müstəqilliyinin dönməzliyi istiqamətində ardıcıl surətdə həyata keçirdiyi tarazlı siyasət dəyişməz olaraq qalırdı. 1993-cü il sentyabrın 24-də Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinə (MDB-yə) üzv olduqdan sonra Rusiya Federasiyası ilə münasibətlərin yaxşılaşdırması istiqamətində addımlar atıldı. Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında iqtisadi əlaqələr bərpa edilərək genişləndirilməyə başlandı.

Rusiya Federasiyası MDB məkanında münasibətləri tənzimləməyə səy göstərirdi. Xatırladaq ki, Ermənistanla-Azərbaycan arasında hərbi münaqişənin genişləndirilməsinə yol verməməyə çalışan Rusiya Federasiyasının təşəbbüsü ilə 1994-cü il mayın 12-də cəbhələrdə atəşkəsə nail olundu.

Azərbaycan Respublikası Rusiya Federasiyası ilə münasibətləri yaxşılaşdırmaq istiqamətində öz dönməz siyasətini davam etdirirdi. Görkəmli siyasətçi və bacarıqlı diplomat ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində 1997-ci il iyunun 3-də «Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında» müqavilə imzalandı.

Rusiya Federasiyasında Vladimir Putin rəhbərliyə gəldikdən sonra respublikamıza qarşı münasibətlərdə mütərəqqi dəyişikliklər baş verdi və bu proses Azərbaycan Respublikasında rəğbətlə qarşılandı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Rusiya Federasiyası ilə dövlətlərarası münasibətləri daha da yaxşılaşdırmaq üçün yeni diplomatik addımlar atıldı. 2001-ci il yanvarın 9-da ümummilli lider Heydər Əliyevin dəvəti ilə Rusiya Federasiyasının prezidenti Vladimir Vladimiroviç Putin Bakıya rəsmi səfərə gəldi. V.V.Putinin ölkəmizə rəsmi səfəri Azərbaycan-Rusiya münasibətlərində yeni mərhələ olmuşdur. Hər iki ölkənin rəhbərləri təkbətək görüşdə tərəfləri maraqlandıran məsələlər barədə fikir mübadiləsi aparmışlar.

Yanvarın 9-da Rusiya Federasiyasının prezidenti V.V.Putinin şərəfinə rəsmi qəbul təşkil edilmiş, ümummilli lider Heydər Əliyev respublikamıza gəldiyinə görə ona minnətdarlığını bildirmiş, onun ölkəmizə ilk rəsmi səfərini tarixi hadisə kimi qiymətləndirmişdir.

Cənab Vladimir Putinlə keçirdiyi görüşlərdən, apardığı danışıqlardan yaranmış şəxsi dostluq münasibətlərindən məmnuyyətlə bəhs edən ümummilli lider Heydər Əliyev əmin olduğunu bildirdi ki, bu rəsmi səfər ölkələrimizin qarşılıqlı fayda əsasında əlaqələrinin daha da inkişaf etdirilməsində yeni mərhələ olacaqdır. Özünə və Rusiya nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlıq edən V.V.Putin siyasətdə və dövlətçilik fəaliyyətində böyük təcrübəsi

olan Heydər Əliyev ilə yenidən görüşmək, hər iki ölkəni maraqlandıran məsələlər barəsində ətraflı fikir mübadiləsi aparmaq imkanından məmnunluq duyduğunu bildirdi.

Dostluq, mehribanlıq və qarşılıqlı anlaşma şəraitində keçən söhbət zamanı Rusiya Federasiyası və Azərbaycan Respublikasının dövlət başçıları ikitərəfli əməkdaşlığın bütün sahələrinə, habelə regional və beynəlxalq problemlərə, hər iki ölkəni narahat edən terrorçuluğa, separatçılığa, ekstremizmə qarşı birgə mübarizə məsələlərinə toxundular.

Dövlət başçıları Qafqazda, o cümlədən Cənubi Qafqazda vəziyyət barədə geniş fikir mübadiləsi apardılar. Qafqazda mövcud olan münaqişələrin regionda təhlükəsizlik və strateji sabitlik, xalqların əmin-amanlığı və onların normal inkişafı üçün ciddi əngəl olduğunu vurğulayan prezidentlər problemin həlli çərçivəsində əməkdaşlığın zəruriliyini bildirdilər. Təkcə Qafqazda deyil, ümumən Müstəqil Dövlətlər Birliyi məkanında ən uzun sürən münaqişə olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmiz üçün ağrılı nəticələrindən söhbət açan ümummilli lider Heydər Əliyev qeyd etdi ki, müxtəlif səbəblər üzündən torpaqlarımızın 20 faizinin işğal olunmasına, bir milyon vətəndaşlarımızın yerindən-yurdundan zorla didərgin düşmələrinə baxmayaraq, Azərbaycan tərəfi məsələnin sülh yolu ilə həllinə çalışır. Lakin 1994-cü ildə atəşkəs olunmasına ATƏT-in Minsk qrupunun fəaliyyətinə, BMT-nin bir neçə qətnamə qəbul etməsinə, Azərbaycan və Ermənistan prezidentləri arasında birbaşa danışıqların keçirilməsinə baxmayaraq, münaqişə hələ də həll olunmamış qalır. Bunun da əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqe tutması, əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağ bölgəsinə iddialarından əl çəkməməsidir. Ümumilli lider Heydər Əliyev vurğuladı ki, Minsk qrupunun həmsədrlərindən biri kimi Rusiyanın fəaliyyətinin gücləndirilməsi münaqişənin həllində mühüm rol oynaya bilər.

Münaqişənin tezliklə aradan qaldırılmasının vacibliyini vurğulayan Rusiya Prezidenti Vladimir Putin nə müharibə, nə də sülh vəziyyətinin uzun müddət davam edə bilməyəcəyini nəzərə çatdırdı. Cənubi Qafqaz bölgəsi ilə Rusiya Federasiyasının sıx əməkdaşlığına da münaqişənin maneçilik törətdiyini xatırladan cənab Putin Heydər Əliyevin və Ermənistan prezidenti Robert Koçaryanın birbaşa danışıqlarının müsbət nəticələr verəcəyinə əmin olduğunu söylədi.

Görüşdə prezidentlər Azərbaycan-Rusiya əməkdaşlıq sənədlərini, xüsusilə də Bakı bəyannaməsi, Xəzərin statusu ilə bağlı birgə bəyanat, eləcə də hökumətlərarası səviyyədə müzakirə edilən məsələlər barəsində öz açıq konstruktiv mövqelərini bildirdilər.

Prezident Vladimir Putin Azərbaycanın kənd təsərrüfatı məhsullarının Rusiya məkanında böyük bazarı olduğunu bildirərək, aqrar sahədə ənənəvi əlaqələrin bərpasının vacibliyini söylədi. Rusiya rəhbəri yanacaq-enerji, xüsusilə də hasilat, nəqletmə, habelə, metallurgiya, aqrar sənaye sahəsində əməkdaşlığın perspektivlərindən danışdı.

Ölkələrimiz arasında ticarət-mal dövriyyəsinin genişləndirilməsinin zəruriliyini nəzərə çatdıran prezidentlər bu sahədə də mövcud imkanlardan səmərəli istifadə etməsinin vacib olduğnu vurğuladılar. Rusiya prezidenti Vladimir Putinin fikrincə Azərbaycanla gəmiçilik, yüngül və elektrotexnika, əczaçılıq, quşçuluq sənayesi və digər sahələrdə əməkdaşlığın da böyük perspektivləri vardır.

Prezidentlər sərhəd məsələsi, hərbi sahədə əməkdaşlıq barədə də fikir mübadiləsi apardılar. Görüşdə Rusiya Federasiyasının bir sıra regionları ilə Azərbaycanın birbaşa əlaqələri, su ehtiyatlarının qorunması və onlardan səmərəli istifadə edilməsi, mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri də diqqət mərkəzində oldu. Tərəflər Rusiya investorlarının Azər-

baycan iqtisadiyyatına daha geniş surətdə sərmayə qoymasının vacibliyini də nəzərə çatdırdılar.

Dövlət başçıları belə bir cəhəti də vurğuladılar ki, hazırda Azərbaycanda çoxsaylı rus icması, Rusiyada isə azərbaycanlı icması yaşayır və onlar hər iki ölkənin inkişafına öz töhfələrini verirlər. Prezident Vladimir Putin Azərbaycanda yaşayan rusların ölkənin tamhüquqlu vətəndaşları kimi öz milli adət-ənənələrini qoruyub saxlaması, bütün sahələrdə ana dilində təhsil ala bilməsi üçün hər şərait yaradılmasından məmnun qaldığını söylədi və prezident Heydər Əliyevin bu sahədə xidmətlərini yüksək qiymətləndirdi.

Görüşdə Qafqazda sabitliyin və qarşılıqlı etimadın möhkəmləndirilməsi üçün Azərbaycan, Gürcüstan, Ermənistan və Rusiya dövlət başçılarının birgə görüşü təcrübəsinin davam etdirilməsinin zəruriliyi vurğulandı.

Rusiya prezidenti Vladimir Putin Azərbaycan Prezidenti Heydər Əliyevi Moskvaya rəsmi səfərə dəvət etdi. Dəvət məmnuniyyətlə qəbul olundu və səfər sonralar dəfələrlə təkrarlandı.

Rusiya Federasiyası ilə Azərbaycan arasında dostluq münasibətlərini daha da inkişaf etdirmək tədbirlərini nəzərdə tutan Bakı Bəyannaməsinin böyük əhəmiyyəti vardır. Yeri gəlmişkən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də Rusiya Federasiyası ilə xoş münasibətləri daha da inkişaf etdirərək tərəfdaşlıq səviyyəsinədək yüksəltmişdir.

2001-ci il martın 12-dən 16-dək olan tarixlərdə ümummilli lider Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri Azərbaycan və Türkiyə arasında dostluq, qardaşlıq, strateji tərəfdaşlıq əlaqələrinin inkişafında yeni mərhələ olmuşdur. Rəsmi səfər dövründə Türkiyə Cümhuriyyətinin rəhbərləri ilə aparılan danışıqlar və rəsmi görüşlər "Şahdəniz" layihəsinin, BTC və CQBK boru kəməri layihələrinin gerçəkləşməsinə əhəmiyyətli təsir göstərmişdir. Türkiyə rəhbərləri ilə geniş tərkibdə aparılan danışıqlardan

sonra Azərbaycanla Türkiyə arasında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası, "Şahdəniz" qazının Türkiyəyə ixrac edilməsi, BOTAŞ ilə ARDNŞ arasında təbii qazın alqı-satqısı barədə saziş, iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi haqqında sənədlər imzalanmışdır [29].

Rəsmi görüşlər zamanı ümummilli lider Heydər Əliyev aşkarlanan Azərbaycan təbii qazı haqqında məlumat verərək demişdir ki, "Biz "Şahdəniz" yatağından təxminən 400 milyard kubmetr qaz almaq istəyirdiksə, indi onun ehtiyatı 1 trilyon kubmetrdən artıq olubdur. Ona görə də indi Azərbaycan təkcə neft yox, həm də təbii qaz ölkəsidir.

Biz düşündük ki, bu qazı nə edək? Qazı da Türkiyəyə ixrac etmək lazımdır. Çünki birincisi, Türkiyənin buna ehtiyacı var, ikincisi, "Şahdəniz" yatağında Türkiyənin payı var" [79, 120].

Türkiyənin Böyük Millət Məclisində nitq söyləyən ümummilli lider Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin tikintisi haqqında məlumat verdikdən sonra diqqəti "Şahdəniz" yatağında böyük qaz ehtiyatlarının aşkarlanmasına yönəldərək demişdir "Biz dünən anlaşma imzaladıq, həm hökumətlərarası anlaşma, həm də alqı-satqı haqında anlaşma ki, Azərbaycan qazı yenə də Gürcüstan üzərindən Türkiyəyə gələcəkdir. İlkin anlaşmaya əsasən, 6 milyard kubmetr qaz gələcəkdir. Amma sonra bunu 15-20 milyard kubmetrə qaldırmaq olar" [79, 120-121].

2001-ci il martın 12-də Azərbaycanın təbii qazının Türkiyəyə nəql edilməsinə dair ARDNŞ-lə BOTAŞ şirkəti arasında imzalanmış müqavilənin "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinə və CQBK-nin çəkilməsinə böyük təsiri olmuşdur. Rəsmi danışıqlar nəticəsində Azərbaycanın "Şahdəniz" qaz-kondensat yatağından əldə olunacaq təbii qazın Gürcüstan üzərindən keçməklə boru kəməri vasitəsi ilə Türkiyəyə nəql edilməsinə dair hökumətlərarası saziş imzalanmışdır. Bu saziş Şərq-Qərb

enerji dəhlizini genişləndirmiş Türkiyə ilə Azərbaycan Respublikası arasındakı iqtisadi və ticarət əlaqələrinin daha da inkişaf etdirilməsi üçün əlverişli zəmin yaratmışdır.

Danışıqlar zamanı regionda beynəlxalq əməkdaşlıq məsələləri barəsində də geniş fikir mübadiləsi aparılmışdır. Danışıqlardan sonra hər iki dövlət başçısı jurnalistlər qarşısında bəyanatla çıxış etmişlər. Tərəflər öz bəyanatlarında BTC boru xəttinin tikintisinə və "Şahdəniz" qaz-kondensat yatağından Türkiyəyə qaz ixrac edəcək kəmərin çəkilməsinə inam bildirmişlər.

Ümummilli lider Heydər Əliyevin bəyanatında təbii qaz yataqlarının müştərək işlənməsi məsələlərinə xüsusi diqqət yetirilmişdir. Onun bəyanatında deyilir "Son vaxtlar Türkiyə ilə bizim əlaqələrimizdə bir çox önəmli məsələ meydana çıxıbdır. Bu da Azərbaycanın kəşf etdiyi böyük təbii qaz yatağının Türkiyə ilə müştərək istifadə olunması məsələsidir. Biz Şahdəniz qaz yatağında böyük qaz ehtiyatları əldə etmişik" [29].

Əvvəlki səhifələrdə göstərildiyi kimi, neft müqavilələrinin yerinə yetirilməsini diqqət mərkəzində saxlayan ümummilli lider Heydər Əliyev "Şahdəniz" layihəsinin idarəetmə komitəsinin üzvləri ilə vaxtaşırı təkrar görüş keçirmiş, işlərin gedişi ilə maraqlanmış, öz dəyərli məsləhətlərini vermişdir.

2001-ci il mayın 7-də prezident sarayında ümummilli lider Heydər Əliyevin yanında BP şirkətinin layihələrinin təqdimatı vaxtı AÇG və digər layihələrlə bərabər "Şahdəniz" yatağı layihəsi üzrə də görülmüş və yerinə yetiriləcək işlər haqqında ətraflı məlumat verilmişdir. "Şahdəniz" layihəsinin rəhbəri, "BP Eksploreyşn"nin Azərbaycan üzrə prezidenti Qordon Birrel "Şahdəniz" layihəsində işlərin gedişi haqqında maraqlı yeniliklərlə çıxış etdi. O, bildirmişdir ki, 1996-cı ildə "Şahdəniz" üzrə hasilatın pay bölgüsü müqaviləsi imzalandıqdan sonra "İstiqlal" qazma qurğusu modernləşdirilmiş və buraya gətirilmişdir. 1999-cu ildə "İstiqlal" qurğusundan açılmış qaz-kondensat yatağının kəş-

fi üçün istifadə edilmişdir. BP və onun “Şahdəniz” üzrə tərəfdaşları 2001-ci ilin mart ayında kəşfiyyat işlərini, sonra isə mühəndis-layihə işlərini başa çatdırmışlar.

“Şahdəniz” yatağı mərhələlərlə istismar olunacaq, işləniləcəkdir. Qordon Birrel “Şahdəniz” qazının ixracı üçün istifadə olunacaq boru kəmərlərinin layihə sxemini təqdim etmişdir. Layihə üzrə boru kəmərinin Türkiyə sərhədinədək uzunluğu təqribən 690 kilometrdir [44, 19].

“Şahdəniz” çox böyük həm də çox çətin layihədir. Şirkət həyata keçirəcəyi bir sıra tədbirlər nəticəsində 2004-cü ildə təbii qazın Türkiyəyə çatdırılmasını proqnozlaşdırmış və ARDNŞ-lə birlikdə Gürcüstan və Azərbaycanla lazım olan sazişləri əldə etməlidir. Bu sazişlər əldə olunarsa, təbii qaz 2004-cü ilin noyabr ayında layihənin başlanması haqqında qərar verilə bilərdi. “Şahdəniz” layihəsinin birinci mərhələdə yerinə yetirilməsinə 4,1 milyard [45, 16] ABŞ dolları investisiya qoyulması nəzərdə tutulmuşdur.

2001-ci il sentyabrın 29-da Gürcüstan Respublikasının prezidenti E.Şevardnadzenin Azərbaycan Respublikasına səfəri zamanı Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisinə dair imzalanmış saziş “Şahdəniz” layihəsinin gerçəkləşməsi yolunda irəliyə doğru atılmış bir addım oldu. Şahdəniz yatağının xarici sərmayədarlarla birgə işləməsi sahəsində müəyyən işlər görülmüş və layihə maliyyələşdirilmişdir. 2003-cü ilin fevral ayında Şahdəniz Mərhələ 1 layihəsi sanksiyalaşdırılıb və layihənin tərəfdaşları tikinti işlərinin başlanması barədə qərar qəbul etmişlər, “Şahdəniz” yatağının işlənməsi haqqında qərar bütün dünyada böyük əks səda doğurdu. ABŞ-ın dövlət departamenti “Şahdəniz” layihəsinin növbəti mərhələyə qədəm qoymasını alqışladı.

Xatırladaq ki, “Şahdəniz” yatağının işlənməsində və CQBK-nin tikintisində yeddi beynəlxalq və milli şirkət tərəfdaş qismin-

də iştirak edir. BP şirkəti yatağın işlənməsi və hasilat prosesi dövründə "Şahdəniz" layihəsinin əməliyyatçısı kimi fəaliyyət göstərir, layihənin istismar mərhələsində isə həm də "Şahdəniz" layihəsinin texniki əməliyyatçısı qismində iştirak edir.

Xatırladaq ki, "Şahdəniz" yatağının mərhələlərlə işlənməsi nəzərdə tutulmuşdur: birinci mərhələdə maksimum qaz istehsalı 8 milyard kubmetr, ikinci mərhələdə isə 16 milyard kubmetrə çatdırılacağı nəzərdə proqnozlaşdırılmışdır.

"Şahdəniz" layihəsinin tərəfdaşlarının yatağın işlənməsi haqqında qərarı bütün dünyada əks-səda doğurduqdan sonra yeni xarici neft şirkətləri müqavilələr bağlamaq təklifləri ilə Azərbaycan Respublikasına müraciət etdilər.

1994-cü ilin sentyabrından başlayaraq ardıcıl olaraq neft müqavilələrinin imzalanması "Əsrin müqaviləsi"nin uğurla reallaşdırıldığını göstərirdi. Ümumiyyətlə, 1994-2000-ci illərdə ARDNŞ-in 14 ölkənin 32 neft şirkəti ilə Azərbaycana 60 milyard dollar həcmində investisiya qoyulmasını nəzərdə tutan 21 müqavilə imzalanmışdır. Bu müddətdə xarici neft şirkətləri tərəfindən 60 milyard dollara qədər investisiya yatırılmışdır. İnvestisiya qoyuluşunda Heydər Əliyevin rolunu yüksək qiymətləndirən Prezident İlham Əliyev demişdir: məhz "Heydər Əliyevin uğurlu neft strategiyası sayəsində Azərbaycana, onun neft sənayesinə böyük həcmdə sərmayələr qoyuldu" [82, 343].

Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmış Azərbaycanın neft strategiyası uğurla həyata keçirilir. Neft sazişinə əsasən proqnozlaşdırılmış İlkin Neft Layihəsi ABƏŞ tərəfindən uğurla həyata keçirilmiş, 1997-ci ilin noyabrın 12-də "Çıraq" yatağından İlkin Neft hasil edilməyə başlanılmışdır. Xatırladaq ki, İlkin Neft hasilatı ərəfəsində 90-cı illərin əvvəllərindən böhranlı vəziyyətlə əlaqədar olaraq ölkəmizdə neft istehsalının il-bəil azalmasının qarşısını almaq uğrunda görülən tədbirlər öz nəticəsini verdi. 1996-cı ildə neft çıxarılması sahəsində azalmanın

qarşısı alındı və bundan sonra hasilat sabitləşməyə başladı. 1997-ci ilin noyabrından İlkin Neft çıxarlmağa başlandıqdan sonra isə neftin həcminin sürətlə artması bu qiymətli xammal yanacağının ixrac edilməsinə əlverişli imkan yaratdı. Çünki, əvvəldə göstərildiyi kimi, respublikamızda artıq neft infrastrukturu yaradılmışdı. 90-cı illərin ikinci yarısından neft hasilatının sürətlə artacağı gözlənildiyi üçün əvvəlcədən ixrac boru kəmərləri müəyyənləşdirilmişdi. İlkin olaraq Xəzər dənizi ilə Qara dənizi birləşdirən Bakı-Novorossiysk xəttini işə salmaq məqsədilə 1996-cı ilin yanvarında Rusiya Federasiyası ilə danışıqlar aparıldıqdan sonra neft kəmərində bərpa işləri aparılmış və 1997-ci ilin oktyabrında həmin kəmər fəaliyyətə başlamışdır. Hələ 1996-cı ilin martında isə Azərbaycan Respublikası ilə Gürcüstan arasında danışıqlar aparıldıqdan sonra 1997-ci ildə Qərb İxrac Neft Kəməri və ya Bakı-Supsa boru kəmərinin tikintisinə başlanılmış, 30 ay müddətində tikinti işləri başa çatdırılmış, 1999-cu il aprelin 17-də təntənəli surətdə açılış mərasimi keçirilmiş və bu xətlə də neft ixracına başlanılmışdır. Yeri gəlmişkən, hər iki neft kəməri haqqında ikinci fəsildə geniş məlumat verilmişdir. ABƏŞ-in hasil etdiyi milyonlarla ton neft Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri ilə Avropa bazarlarına nəql edilməyə başlanılmış və Azərbaycan Respublikası neft ixrac edən ölkəyə çevrilmişdir.

# II FƏSİL

# ABƏŞ-in YARADILMASI VƏ ONUN FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

## 2.1. ABƏŞ-in Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda ARDNŞ-lə birgə fəaliyyətə başlaması

Müstəqilliyin ilk illərində Azərbaycan Respublikası bir çox maliyyə və texniki xarakterli çətinliklərlə üzləşmişdi. Keçmiş SSRİ respublikaları ilə iqtisadi əlaqələrin qırılması, ölkədə qeyri-sabitliyin mövcud olması və s. çətinliklər iqtisadiyyatın bir çox sahələri kimi neft-qaz sənayesini də iflic vəziyyətinə gətirib çıxarmışdı. Bütün bu çətinliklər "Azəri", "Çıraq", Günəşli (dərinsulu hissə), "Kəpəz" kimi yataqların işlənməyə daxil edilməsinə imkan vermirdi. Yaranmış çətin vəziyyətdən çıxmaq üçün iki variantdan birini – ya 15-20 il ölkənin maliyyə-iqtisadi vəziyyətinin əlverişli olmasını gözləmək, ya da xarici neft şirkətləri ilə əməkdaşlıq etmək variantını seçmək lazım idi. Ümummilli lider Heydər Əliyevin möhkəm iradəsi və qətiyyəti sayəsində ikinci variant seçildi və xarici ölkələrin iri neft şirkətlərini Azərbaycana dəvət etmək və birgə işləmək qərara alındı.

Beləliklə, 1994-cü il sentyabrın 20-də Xəzərin Azərbaycan Respublikası sektorunda "Azəri", "Çıraq" və "Günəşli" (dərinsu-

lu hissə) yataqlarının birgə işlənməsi haqqında ARDNŞ-lə xarici ölkələrin neft şirkətlərinin konsorsiumu arasında hasilatın pay bölgüsü sazişi imzalandı.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və “Əsrin müqaviləsi” adı ilə bütün dünyada tanınmış Hasilatın Pay Bölgüsü Sazişi neft strategiyasının şanlı səhifəsini açdı. Azərbaycan Respublikası ilk dəfə qərb ölkələrinin iri neft şirkətləri ilə belə böyük miqyasda saziş imzalamaqla Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoymuş oldu. 30 il müddətinə imzalanmış “Əsrin müqaviləsi” Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq ediləcək qanuna çevrildikdən sonra, 1994-cü il dekabr ayının 12-də qüvvəyə minmişdir [92, 7].

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici ölkələrin iri neft şirkətləri, arasında bağlanmış Hasilatın Pay Bölgüsü Sazişi qanuni qüvvəyə mindikdən sonra 1995-ci il yanvarın 24-də Azərbaycan Tarixi Muzeyində “Əsrin Müqaviləsi”ni həyata keçirən Rəhbər Komitənin ilk iclası keçirilmiş, bu ildə görüləcək işlərin proqramı müəyyənləşdirilmiş və büdcə təsdiq edilmişdir.

Rəhbər Komitənin ilk iclasının açılışında ümummilli lider Heydər Əliyev iştirak etmiş və nitq söyləyərək Azərbaycan xalqının, ictimaiyyətin neft müqaviləsinə böyük ümidlə baxdığını bildirmiş, mane olmaq istəyən bəzi dairələr haqqında isə demişdir ki, “Bu işə dünya ictimaiyyətinin bəzi dairələrində çox qısqanclıqla yanaşan və mənfi münasibət bəsləyən qüvvələr də olub, bu müqavilənin hazırlanmasına və imzalanmasına cürbəcür istiqamətlərdən maneçilik törədən çox güclü qüvvələr də olubdur. Ancaq müstəqil Azərbaycan Respublikası dövlətinin iradəsi və xarici ölkələrin neft şirkətləri ilə bizim sağlam əsasda olan əməkdaşlığımız bütün bu maneçiliklərin aradan götürülmə-

sinə imkan verib" [96, 26-27].

Hasilatın Pay Bölgüsü Sazişi qüvvəyə mindikdən dərhal sonra ARDNŞ və Azərbaycan hökuməti ilə tərəfdaşlıqda işləmək və səhmdarlar adından Sazişi həyata keçirmək üçün 1995-ci il fevralın 24-də Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradılmışdır [93, 34]. ABƏŞ-ə ilkin olaraq 6 ölkəni təmsil edən 11 xarici neft şirkəti – "BP", "Amoko", "Yunokal", "LUKoyl", "Statoyl", "Eksson", "Türkiyə Petrolları Anonim Ortaqlığı", "Penzoyl", "Mak Dermott", "Remko", "Delta" [92, 2] daxil idi. Az sonra Yaponiyanın "İtoçu", şirkəti ABƏŞ səhmdarlarına qoşulmuşdur. Göstərilən şirkətlər Böyük Britaniya, ABŞ, Rusiya, Norveç, Türkiyə, Səudiyyə Ərəbistanı və Yaponiyanı təmsil edirdilər.

Aparılan danışıqlar nəticəsində Qərb şirkətləri Konsorsiumu ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında əldə edilmiş razılığa əsasən neft müqaviləsi imzalandıqdan sonra Azərbaycan parlamenti tərəfindən təsdiqlənmiş və elə həmin gün qüvvəyə minmişdir. Müqavilənin həyata keçirilməyə başlanması vaxt həmin gündən hesab edilir.

Neft müqaviləsinin imzalanma mərasimində iştirak edən "Britiş Petroleum" Şirkətinin prezidenti Con Braun öz çıxışında bildirmişdir ki, bu müqavilə yeni mərhələnin, yeni beynəlxalq münasibətlərin rəmzidir. Elə münasibətlər ki, enerji təchizatı sahəsində işgüzar münasibətlərin formaları və məzmununun dəyişdirilməsinə və ümumən Azərbaycan xalqının uzun müddət ərzində tərəqqisinin təmin olunmasına kömək edəcəkdir. O, öz həmkarlarının ümumi rəyini ifadə edərək qeyd etmişdi ki, bu müqavilə Azərbaycanla qonşular və Qərb ölkələri arasında əlaqələr yaratmağa kömək edəcəkdir. Bu əlaqələr nəinki investisiyalara və işgüzar münasibətlərə, həm də dostluğa və qarşılıqlı münasibətlərə əsaslanacaqdır.

"Əsrin müqaviləsi"nin təsdiq edilərək həyata keçirilməsi

Azərbaycanın gələcək inkişaf perspektivi üçün böyük əhəmiyyətə malikdir. Müqavilənin reallaşdırılması üçün görülən işlər Azərbaycan Respublikasının neft sənayesinin və təsərrüfatın digər sahələrinin, o cümlədən qeyri-neft sənayesinin inkişafına da müsbət təsir göstərmişdir.

Azərbaycan Respublikasının ərazisində yerin təkində hələ istifadə olunmamış böyük miqdarda neft və qaz ehtiyatları vardır. ABƏŞ-ə daxil olan neft şirkətləri, ARDNŞ imzalanmış müqaviləni həyata keçirərək həmin yataqların birgə işlənməsi nəticəsində perspektivdə nəzərdə tutulmuş vəzifələri yerinə yetirməyə başlamışlar.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin iş proqramını və xüsusi layihələrin büdcəsini Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Azərbaycan hökuməti və xarici şirkətlərin təmsilçilərindən ibarət Rəhbər Komitə təsdiq etmişdir. ABƏŞ-in qarşısında duran başlıca vəzifə Məcburi İşlərin Minimum Proqramının (MİMP) yerinə yetirilməsi idi. Məcburi İşlərin Minimum Proqramına Xəzər dənizində seysmik tədqiqatların aparılması, üç qiymətləndirmə quyusunun qazılması, ətraf mühitin vəziyyətinin tədqiq edilməsi, “Dədə Qorqud” qazma quyusunun modernləşdirilməsi, təchizat gəmilərinin, tərsanənin, bir anbarın tikintisi, quraşdırma sexinin və ofis yaşayış infrastrukturunun müəyyənləşdirilməsi, ilkin neftin ixrac variantının müəyyənləşdirilməsi, “Çıraq-1” platformasının qiymətləndirilməsi, Əsas İxrac Boru Kəməri ilə bağlı məsələlərin araşdırılması və başqa mühüm məsələlərin həll edilməsi daxil idi [92, 3].

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti 1995-ci ilin əvvəlindən MİMP üzrə öz fəaliyyətini genişləndirmiş və nəzərdə tutulmuş əsas işlərin yerinə yetirilməsinə nail olmuşdur.

Ümummilli lider Heydər Əliyev ABƏŞ-də ən böyük sərmayədar qismində iştirak edən BP şirkətinin Azərbaycandakı fəaliyyətinə xüsusi diqqət yetirirdi. 1995-ci il yanvarın 23-də “Bri-

tiş Petroleum" şirkətinin direktorlar şurasının sədri lord Eşbertonun başçılıq etdiyi nümayəndə heyəti ümummilli lider Heydər Əliyev tərəfindən qəbul edilmiş və işgüzar söhbət aparılmışdır.

Ümummilli lider Heydər Əliyevin fikrincə BP ilə ARDNŞ arasındakı əlaqələrin iki ölkənin işgüzar münasibətlərinin daha da genişləndirilməsində böyük əhəmiyyəti vardır. O, BP şirkətinin nümayəndə heyətinin səfərini "Əsrin müqaviləsi" nin yerinə yetirilməsində başlanğıc nöqtəsi kimi qiymətləndirdi [19].

"Britiş Petroleum" şirkəti nümayəndə heyətinin başçısı lord Eşberton bildirdi ki, səfərimizin əsas məqsədi BP-nin bu müqavilə ilə əlaqədar üzərinə götürdüyü öhdəlikləri bir daha vurğulamaqdır. O, qeyd etmişdir ki, imzalanmış müqavilə indi ən işgüzar bir proses kimi həyata keçirilməlidir. Bu sənədi real bir müqaviləyə çevirdiyinə görə ölkənin rəhbərinə təşəkkürünü bildirən nümayəndə heyətinin başçısı ümid etdiyini bildirmişdir ki, yaxın bir neçə ay ərzində bir sıra məsələlər, o cümlədən neft kəməri marşrutunun müəyyən edilməsi məsələsi də həll olunacaqdır. Onun həmkarları bu müqavilənin həyata keçirilməsi üçün var qüvvə ilə çalışacaqlar [19].

1995-ci ilin oktyabrın 9-da ABƏŞ-in Rəhbər Komitəsi İlkin Neft Layihəsi (İNL) və ilkin neft ixracı marşrutunun iki variantını Rusiyadan keçən Şimal marşrutunu və Gürcüstandan keçən Qərb marşrutunu təsdiq etmişdir. Əsas İxrac Boru Kəməri ilə bağlı məsələlərin araşdırılması isə davam etdirilmişdir.

ABƏŞ-in nəzərdə tutduğu Məcburi İşlərin Minimum Proqramı üzrə yaxın vaxtlaradək "Kaspmorneft" ("Xəzər dənizneft") adlanan yarımdalma qazma qurğusunun modernləşdirilməsi və yenidənqurma işləri aparılmışdır. Bu proqrama əməl edilməsi "Əsrin müqaviləsi"nin həyata keçirilməsində çox mühüm mərhələ olmuşdur. Proqrama uyğun olaraq "Azəri", "Çıraq" yataqlarında və "Günəşli yatağının dərinlikdə yerləşən hissəsində 30 ay ərzində seysmik kəşfiyyat işləri aparılmış və mini-

mum üç kəşfiyyat quyusu qazmaq yolu ilə neftin sənaye ehtiyatları müəyyən edilmişdir. ABƏŞ tərəfindən tikinti və qazma fəaliyyətinə başlayanadək seysmik kəşfiyyat işləri, tikiləcək platformaların, sualtı boru kəmərinin, qazılacaq quyuların yerlərini müəyyən etmək üçün tədqiqatlar aparılmış, ətraf mühitin vəziyyəti, ekoloji şərait öyrənilmişdir, Minimum proqramın həyata keçirilməsində əsas məsələ “Dədə Qorqud” yarımdalma qurğusunun modernləşdirilməsi olmuşdur. Bunun nəinki “Azəri”, “Çıraq” yataqlarına dair müqavilələrin, eləcə də sonrakı müqavilə və sazişlərin yerinə yetirilməsi üçün böyük əhəmiyyəti vardır.

“Dədə Qorqud” qurğusu ARDNŞ ilə ABƏŞ arasında müqaviləyə uyğun olaraq “Əsrin müqaviləsi”nin həyata keçirilməsi ilə bağlı vəzifələri yerinə yetirmək, yenidənqurma və modernləşdirmə işləri aparmaq üçün 1995-ci il iyunun 15-dən icarəyə verilmişdir. Qurğunun etibarlı şəkildə üzməsini energetika, qazma və s. avadanlığın saz işləməsini təmin etmək üçün ehtiyat hissələr alınmış, bərpa edilib modernləşdirildikdən sonra qurğunun texniki göstəriciləri, yaxşılaşmışdır. “Dədə Qorqud” qurğusu modernləşdirildikdən sonra dənizin 475 metr dərinliyində və yerin 7600 metr dərinliyində quyular qazmağa qadirdir [96, 124]. “Xəzərdənizneft” qurğusunun təmirinə 1995-ci il sentyabrın 1-də başlanılmış, lakin dənizin səviyyəsi qalxdığına görə “Selflayihətikinti” İstehsalat Birliyində xeyli hazırlıq işləri görmək lazım gəlmişdir. Bu qazma qurğusunun modernləşdirilməsinin və təmirinin podratçısı ABŞ-ın “Santa-Fe” şirkəti olmuşdur. Təmir və modernləşdirmə işində 356 nəfər iştirak etmişdir [96, 124]. Onlardan 50 nəfəri əcnəbi mütəxəssis, qalanları isə Azərbaycan mütəxəssisləri və işçiləri olmuşdur. Yerli mütəxəssislərin bir qismi ABŞ-da, Böyük Britaniyada və digər ölkələrdə qabaqcıl metodlar təlimi kurslarını keçmişlər.

Görülmüş işlər müqavilənin uğurla həyata keçirildiyinə canlı sübutdur və Azərbaycan neftçilərinin öz əcnəbi tərəfdaşları ilə fay-

dalı əməkdaşlığına parlaq misaldır. Digər tərəfdən "Xəzərdənizneft" qurğusu neft sənayesinin inkişafında yeni mərhələnin rəmzinə, ölkəmizin dirçəlişinin rəmzinə çevrilmiş, buna görə də adının dəyişdirilməsi qərara alınmış və ümummilli lider Heydər Əliyevin məsləhəti ilə ona "Dədə Qorqud" adı verilmişdir [65, 242].

1996-cı il avqustun 24-də ABƏŞ-in iş planına əsasən "Dədə Qorqud" yarımdalma qazma qurğusunda bərpa işlərinin başa çatması və qurğunun modernləşdirərək işə salınması münasibətilə Bakı Dərin Dəniz Özülləri zavodunda təntənəli mərasim keçirilmişdir. Mərasimdə ümummilli lider Heydər Əliyev iştirak etmiş və nitq söyləmişdir. O, bu qurğunu modernləşdirib "Dədə Qorqud" adına layiq səviyyəyə çatdırdıqlarına görə konsorsiumun Beynəlxalq Əməliyyat Şirkətinə, onun modernləşdirilməsi ilə məşğul olmuş "Santa-Fe" şirkətinə və ARDNŞ-ə, bu qurğunun müasir vəziyyətə gətirilməsi üçün çalışmış bütün mütəxəssislərə, fəhlələrə və bu sahədə fəaliyyət göstərən insanların hamısına səmimi təşəkkürünü bildirərək demişdir: "Bilirsiniz ki, bu qurğunun adı indiyədək "Kaspmorneft" olubdur. Şübhəsiz ki, bu da bizim bugünkü həyatımıza uyğun olmayan bir addır. Eyni zamanda bu qurğu yenidən doğulubdur. Ona görə də onun yeni adı olmalıdır. Deyə bilərəm ki, mənə Azərbaycan xalqının tarixinə, ənənələrinə və ayrı-ayrı yerlərə məxsus 10-a qədər cürbəcür adlar təqdim olunubdur. Təqdim olunan adların hamısı doğrudan da dəyərli idi. Ancaq mən bu qurğuya "Dədə Qorqud" adı verilməsi barədə qərar qəbul etdim" [65, 247].

"Dədə Qorqud" qurğusu bərpa edilib modernləşdirilərək böyük uğurla işə başladıqdan sonra Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda kəşfiyyat işləri davam etdirilmişdir. "Əsrin müqaviləsi"nin həyata keçirilməsi ilə əlaqədar bu qurğunun köməyi ilə üç kəşfiyyat quyusu qazılmış, nəticədə "Azəri", "Çıraq" yataqlarında və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində neft ehtiyatlarının 511 milyon ton deyil, 630 milyon

ton [96, 158, 163] olduğu müəyyənləşdirilmişdir. Daha sonra “Dədə Qorqud” yarımdalma qazma qurğusu vasitəsilə “Qarabağ” strukturunda iki, “Əşrəfi” strukturunda bir kəşfiyyat quyusu qazılmış və bu strukturların neftli, qazlı, kondensatlı olduğu aşkar edilmişdir. Bu qurğu digər strukturlarda da uğurlu fəaliyyətini davam etdirmişdir.

Görüşdə iki il ərzində həyata keçirilmiş tədbirlərin müsbət nəticələr verdiyini yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev qeyd etmişdir ki, yaxın vaxtlarda ilkin neft hasil olunacaqdır və bununla əlaqədar olaraq demişdir: “bu ilin sentyabrında biz Beynəlxalq Əməliyyat Şirkətinin məlumatı əsasında geniş müzakirə aparmışıq, mən onların hesabatını dinləmişəm. Beynəlxalq Əməliyyat Şirkəti məlumat veribdir ki, “Əsrin müqaviləsi”nin proqramı əsasında 1997-ci ilin avqustunda “Çıraq” yatağından neft hasil ediləcək və bu məhsul ixrac üçün hazır olacaqdır” [66, 168-169].

“Əsrin müqaviləsi”nin yerinə yetirilməsini diqqət mərkəzində saxlayan ümummilli lider Heydər Əliyev neft müqavilələrinin hazırlanıb imzalanmasında şəxsən yaxından iştirak etdiyi kimi, həmin müqavilələrdə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməsini də daim nəzarətdə saxlamışdır. Bununla bağlı neft şirkətlərinin daxil olduğu konsorsium və şirkətlərin rəhbərləri ilə vaxtaşırı görüşlər keçirilmiş, onların hesabatları dinlənilərək, müzakirə edilmişdir.

Göründüyü kimi Azərbaycan Respublikası rəhbərliyinin ABƏŞ-ə daxil olan xarici neft şirkətlərinin fəaliyyətinə nəzarəti və həm də gündəlik qayğı göstərməsi işlərin daha surətlə getməsinə və ölkənin dinamik sürətlə inkişaf etməsinə əhəmiyyətli surətdə təsir göstərmişdir.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin Məcburi İşlərin Minimum Proqramı (MİMP) əsasında İlkin Neft Layihəsini həyata keçirmək üçün Azərbaycan neft sənayesi infrastruktu-

nun geniş spektrinin Qərb standartları səviyyəsində modernləşdirilməsinə başlanılmış, o cümlədən Şelflayihətikinti birliyindəki modulquraşdırma sahəsinin əsaslı təmiri, yardımçı gəmi donanmasının (8 gəmi) modernləşdirilməsi, "Azərbaycan" kran barjının və "İsrafil Hüseynov" borudüzən barjının modernləşdirilməsi və Zığ boru örtükləmə zavodunun təmiri başa çatdırılmışdır.

Xəzər dənizində suyun dərinliyi 120 metrə çatan sahədə yerləşən vaxtilə ARDNŞ-in tikib quraşdırdığı "Çıraq-1" hasilat platforması ABƏŞ-in Məcburi İşlərin Minimum Proqramına uyğun olaraq təmir edilərək genişləndirilmiş, gücləndirilmiş və beynəlxalq standartlar səviyyəsində avadanlıqla təchiz edilmişdir. Platformada ağırlıqqaldırma gücü 19 quyuağzı və ümumi ağırlığı 8500 ton [92, 5] yükü saxlamağa qadir olan modullar quraşdırılmışdır.

Hasilatın Pay Bölgüsü Sazişinin yerinə yetirilməsini sürətləndirmək üçün "Azəri-Çıraq-Günəşli" yataqlarının "İlkin neft" layihəsi çərçivəsində mühüm işlər görülmüşdür. İlkin neftin və qazın nəqli üçün sualtı boru kəmərləri çəkilmiş, Səngəçalda yeni müasir terminal kompleksi inşa edilmişdir.

1997-ci ildə "Çıraq-1" platformasında iki sualtı kəmər – Səngəçal terminalına 24 diametrli 176 kilometr uzunluğunda neft və "Neft Daşlarına" 16 diametrli 48,2 kilometr uzunluğunda qaz kəməri çəkilmiş, Səngəçalda hər birinin tutumu 25 500 kubmetr [93, 25] olan 4 rezervuar – müasir neft terminalı inşa edilib istifadəyə verilmişdir.

Məcburi İşlərin Minimum Proqramı və İNL üzrə görülmüş işlər nəticəsində 1997-ci il noyabrın 7-də [92, 7] "Çıraq-1" platformasından ilkin neft hasil olunmuşdur. Bu il noyabrın 12-də isə "Çıraq" platformasından ilkin neftin hasil edilməsi Prezident Fərmanı ilə ümumxalq bayramı kimi qeyd edilmiş və həmin gün Səngəçal terminalı təntənəli surətdə açılmışdır.

ABƏŞ-in MİMP və İNL-nin uğurla başa çatdırılması bir daha nümayiş etdirmişdir ki, xarici neft şirkətləri Azərbaycan hökuməti və ARDNŞ ilə birgə işləməklə dəniz hasilat platformasını, sualtı boru kəmərlərini, sahildə neftin anbarlara vurulması və beynəlxalq bazarlara ixracını əhatə edən çoxsahəli bir layihənin başa çatdırılmasını həyata keçirə bilmişlər. Bu neft siyasətinə və onun ilkin nailiyyətlərinin qazanılmasına şərait yaradan Azərbaycan rəhbərliyinə sərmayədarların inamını artırmış və ona beynəlxalq nüfuz qazandırmışdır.

İlkin neftin hasil edilməsi nəticəsində Şimal və Qərb ixrac marşrutu variantları müəyyənləşdirildikdən sonra Yataqların Tammiqyaslı İşlənməsi (YTİ) planları həyata keçirilməyə başlanılmışdır. Yataqların Tammiqyaslı İşlənməsi Əsas İxrac Boru Kəməri (ƏİBK) planlarının da həyata keçirilməsini zəruri etmişdir. Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 1995-ci il tarixli sərəncamına əsasən Azərbaycan hökumətinin rəhbərliyi altında fəaliyyət göstərən İşçi Qrupunun üzvlərindən biri kimi ABƏŞ Bakıdan Ceyhana çəkiləcək sutkalıq ötürmə gücü bir milyon barel olan [92, 16] ixrac boru kəmərinin möhlətli variantı üzrə araşdırmalarda və danışıqlarda yaxından iştirak etmişdir.

ABƏŞ-in müqavilə öhdəliklərinin yerinə yetirilməsində "BP-Statoyl" alyansı aparıcı rol oynamışdır. 1998-ci il martın 31-də "BP-Statoyl" alyansının Bakıda yeni ofisinin açılışı mərasimində ümummilli lider Heydər Əliyev bilavasitə iştirak etmiş və "BP-Statoyl" alyansının iş üslubu ilə yaxından tanış olmuşdur.

"BP-Statoyl" alyansının "Şahdəniz" layihəsi üzrə İdarə Heyətinin prezidenti Mayk Şerman görülmüş və gələcəkdə görüləcək işlər haqqında məlumat verərək bildirmişdir ki, ötən il martın 31-də ARDNŞ-in gəmi təmiri zavoduna gətirilmiş "Şelf-5" qazma qurğusunun modernləşdirilməsi və "Şahdəniz"lə əlaqədar hazırlanmış layihələr Azərbaycan üçün çox faydalıdır.

Mərasimdə iştirak edən ümummilli lider Heydər Əliyev cari ilin sentyabrında “Şelf-5”-in istifadəyə verilməsi mərasimində iştirak edəcəyini bildirmiş və “Şahdəniz” layihəsi üzrə görüləcək işlərin, qazılacaq quyuların çertyoju və maketi ilə tanış olmuşdur.

Mərasimdə çıxış edən ümummilli lider Heydər Əliyev “BP” və “Statoyl” şirkətləri haqqında öz fikrini belə ifadə etmişdir: “Neft sahəsində “BP” və “Statoyl” şirkətləri əməkdaşlıq etmək üçün Azərbaycana gələn ilk şirkətlərdir. Mən “BP” və “Sta-toyl” şirkətləri ilə əlaqələrimizi xüsusi qiymətləndirirəm və bu əlaqələri inkişaf etdirəcəyik və genişləndirəcəyik” [21].

Azərbaycanda öz fəaliyyətini genişləndirən “BP” şirkəti beynəlxalq miqyasda da öz mövqeyini gücləndirməkdədir. Bu məqsədlə Britaniyanın “BP” və ABŞ-ın “Amoko” şirkətləri birləşərək energetika və neft kimyası sahəsində dünyada üçüncü ən iri şirkət yaratmışlar.

Yeni qrupun bazar aktivləri təxminən 110 milyard dollara bərabərdir ki, bu da gələcəkdə daha da inkişaf edib ən iri layihələri həyata keçirməyə imkan vermişdir. Qrupun səhmlərinin 60 faizi BP-nin, 40 faizi [22] isə “Amoko”nun səhmdarlarına məxsusdur.

ABƏŞ-in iştirakçıları “BP-Amoko” alyansının proqnozuna görə XXI əsrdə dünyaya lazım olan enerjinin çox hissəsini verəcək, bölgələrdə yeni yataqların işlənməsinə real surətdə yol tapacaqlar. Birləşmiş şirkətin rəhbərliyi belə ölkələr sırasına Azərbaycanı da aid etmişdir. Xatırladaq ki, “Britiş Petroleum” və “Amoko” şirkətləri Xəzərin Azərbaycan Respublikası sektorundakı yataqların işlənməsinə dair bir sıra neft müqavilələrinin iştirakçılarıdır.

1996-cı il martın 8-də Azərbaycan və Gürcüstan respublikaları hökumətləri Azərbaycan neftinin Bakı-Supsa boru kəməri ilə nəqli barədə imzaladıqları Hökumətlərarası Sazişə əsasən hər iki tərəfin

qarşılıqlı əməkdaşlığı şəraitində tezliklə xəttin tikintisinə başlanılmışdır. Qərb İxrac Boru Kəmərinin (QİBK) Əməliyyatçısı Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və Gürcüstan Boru Kəməri Şirkətidir (GBKŞ).

1999-cu il aprelin 17-də Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı-Supsa ixrac boru kəməri, Supsa yerüstü terminalı istifadəyə verilmişdir (QİBK haqqında III fəsildə ətraflı məlumat verilmişdir – M.A.).

ABƏŞ-in yaxından iştirakı ilə Şimal İxrac Boru Kəməri və Qərb İxrac Boru Kəmərinin tikintisi başa çatdırılıb, səmərəli fəaliyyət göstərməyə başladıqdan sonra Əsas İxrac Boru Kəməri layihəsinin hazırlanmasına diqqət artırılmışdır 1998-ci il mayın 15-də İstanbulda Türkiyə, Azərbaycan və Gürcüstan dövlətlərinin qarşılıqlı anlaşma barədə imzaladıqları memorandum Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinin sənədləri üzrə danışıqların başlanğıcını qoymuşdur (BTC haqqında III fəsildə ətraflı məlumat verilmişdir – M.A.).

ABƏŞ-in iş proqramına əsasən neft yataqlarının tammiqyaslı işlənilməsi, Xəzərin Azərbaycan Respublikası hissəsində geoloji-kəşfiyyat işlərinin aparılması, İlkin Neft Layihəsinin həyata keçirilməsi, əsas ixrac boru kəmərlərinin və s. mühüm işlərin yerinə yetirilməsi dünya standartlarına uyğun müasir texnika və texnologiyanın tətbiqi ilə müşayiət olunmuşdur. Əvvəllər “Şelf-5” adlanmış qurğu tam modernləşdirildikdən sonra “İstiqlal” adlandırılan üzən yarımdalma qazma qurğusunun istifadəyə verilməsi buna parlaq misaldır.

Xəzər dənizində neft və qaz yataqlarının səmərəli istifadəsində ABƏŞ-ə daxil olan xarici şirkətlərin gətirdikləri qabaqcıl texnologiyanın və onların yaxından iştirakı ilə köhnə qurğuların modernləşdirilərək müasir səviyyəyə gətirilməsi, imkanlarının daha da artırılması çox səmərəli olmuşdur. Belə müasir qurğula-

ra böyük tələbat vardır. Bu baxımdan "Şelf-5" qazma qurğusunun modernləşdirilərək yenidən istifadəyə verilməsinin əhəmiyyətini xüsusi qeyd etmək lazımdır.

1998-ci il sentyabrın 2-də Bakıda tam modernləşdirilmiş, əvvəllər "Şelf-5", sonra isə "İstiqlal" adlandırılan üzən yarımdalma qazma qurğusunun işə salınması münasibətilə ümummilli lider Heydər Əliyevin iştirakı ilə təntənəli mərasim keçirilmişdir.

Mərasim iştirakçıları ümummilli lider Heydər Əliyevdən qurğuya ad qoyulmasını xahiş etmişlər. O, bu qurğuya ad verildiyini bildirərək demişdir ki, "İkinci qazma qurğusuna "İstiqlal" adı verərkən, bununla mən keçmişimizi bu günümüzlə daha sıx bağlamaq arzusunda, istəyində olmuşam. Bizim tarixi keçmişimiz Dədə Qorquddur, bu günümüz, gələcəyimiz isə əbədi müstəqillikdir, istiqlaliyyətdir" [60, 230].

Üzən qurğu haqqında məlumatı "Şahdəniz" layihəsinin prezidenti Mayk Şerman və "BP eksploreyşn" şirkətinin icraçı direktoru Devid Alen vermişdir. Qeyd olunmuşdur ki, "İstiqlal" modernləşdirildikdən sonra Xəzərdə suyun yüksək təzyiqli dərin qatlarında quyu qaza biləcək ilk qazma qurğusudur. Belə dərinlikdə quyuların qazılması isə Azərbaycanın neft ehtiyatlarını aşkar etmək üçün çox vacibdir. "İstiqlal" qurğusunun uğurla modernləşdirilməsi həm yerli, həm də xarici podratçıların, "Şahdəniz" layihəsi üzrə tərəfdaşların, ARDNŞ-in, istifadəçiləri klubu üzvlərinin əməyinin nəticəsidir. Modernləşdirildikdən sonra qurğunun imkanları iki dəfə artmışdır.

1990-cı ilin əvvəllərində Rusiya Federasiyası və MDB-nin üzvü olan digər dövlətlərlə əlaqələrin kəsilməsi, qazma, elektrik və digər avadanlığın alınmasında yaranmış çətinliklər qurğunun tam gücü ilə işləməsinə imkan verməmişdi. Bu səbəbdən də yeni kəşfiyyat quyularının qazılması mümkün olmamış və "Şelf-5" qurğusu 1995-ci ilin sonundan fəaliyyətsiz qalmışdı.

ABƏŞ-in uğurlu fəaliyyəti nəticəsində "Əsrin müqavilə-

si”nin yerinə yetirilməyə başlanması neft sənayesinin inkişafına müsbət təsir göstərdiyi kimi, “Şelf-5” yarımdalma üzən qazma qurğusuna da ikinci həyat vermiş və yeniləşdirildikdən və təkmilləşdirildikdən sonra “İstiqlal” adlandırılmışdır.

Texniki xarakteristikasına görə “İstiqlal” qurğusu əvvəlki illərdə su qatının dərinliyi 200 metrə çatan yerlərdə işləmək üçün və 6 min metr dərinliyi olan quyular qazmaq qabiliyyətinə malik idisə, “Şahdəniz” yatağının birgə işlənməsi üzrə bağlanmış müqaviləyə əsasən yenidən modernləşdirilən bu qurğu dənizin su qatının dərinliyi 700 metrə çatan yerlərində işləmək qabiliyyətinə malik olan 7,5-7,6 [73, 235] min metr dərinliyində kəşfiyyat quyuları qazmağa imkan verən, dünya standartları səviyyəsində nəhəng bir müəssisədir. Bu üzən yarımdalma qurğunun modernləşdirilməsinə 1997-ci il martın 31-də başlanmış və 17 ay müddətində təkmilləşdirilməsi başa çatdırılmışdır. Qurğunun yeni avadanlıqla təchiz olunmasında və quraşdırılmasında dünyanın tanınmış 26 şirkəti iştirak etmişdir. Təmir-quraşdırma işlərini 1200 nəfər Azərbaycanlı mütəxəssis həyata keçirmişdir və qurğunun smeta dəyəri 194 milyon [73, 235] ABŞ dollarıdır.

“İstiqlal” qurğusu nəinki “Şahdəniz” yatağında, eyni zamanda Xəzərin Azərbaycan Respublikası sektorunun dərin su qatlarında yerləşən və geoloji cəhətdən mürəkkəb xüsusiyyətlərə malik olan digər perspektivli strukturlarda da kəşfiyyat-axtarış işlərinin aparılmasında mühüm rol oynamışdır.

1999-cu ilin iyunundan “BP-Azərbaycan” şirkətinin ABƏŞ-in əməliyyatçısı olduğu üçün həmin şirkət haqqında qısa tarixi məlumat verilməsi məqsədəuyğundur. “BP” şirkətinin Azərbaycan Respublikası ərazisində fəaliyyəti 1990-cı ildən başlanır və “Əsrin müqaviləsi” imzalanarkən konsorsiumda aparıcı rola malik olduğu üçün pay bölgüsündə ən çox yer “BP” şirkətinə verilmişdir. Azərbaycanın dünya miqyasında tanınmasında, daha çox onun siyasi arenaya çıxmasında və iqtisadi müstəqilliyinin möh-

kəmləndirilməsində BP şirkətinin xidmətləri çox böyükdür.

"Britiş Petroleum" neft və neft-kimya sənayesi sahəsində Böyük Britaniyada birinci, dünyada isə ən böyük şirkətlərdən biridir. "BP" şirkəti 1901-ci ildə yaradılmışdır. Həmin dövrdə ingilis milyonçusu Vilyam Noks Darsi İranda neft ehtiyatlarının kəşfiyyatı və işlənməsi üçün icazə alır. Lakin bir neçə illər keçsə də neft yatağı aşkar etmək mümkün olmur.

Neftin axtarışlarına sərmayə yatıran ingilis milyonçu Darsi Avstraliyada icarəyə götürdüyü qızıl mədənlərində qazandığı milyonlarla vəsaiti qazıma işlərinə xərcləsə də neft tapılmır. Darsinin bütün kapitalları xərclənib qurtarır və müflisləşmə vəziyyətinə düşür. Axtarış işlərini davam etdirmək üçün Darsinin banklardan kredit almaq cəhdi baş tutmur. Neft axtarışı işlərini dayandırmaq təhlükəsi yaranır. Bir sıra siyasətçilər İranın bu hissəsində Rusiyanın təsirinin güclənməsindən və burada neft axtarışı üçün konsessiya alacağından ehtiyat edərək, bunun qarşısını almaq üçün fəallaşırlar. Həmin dövrdə Britaniya hökumətinin xarici işlər naziri lord Lendsdaun Lordlar Palatasında çıxış edərək hər hansı güclü bir dövlətin İran körfəzi sahillərində liman yaratmaq cəhdini Britaniyanın maraqları üçün ölüm təhlükəsi kimi qiymətləndirərək, var qüvvəmizlə bu təhlükənin qarşısının alınacağını bildirdi. Hindistanın vitse-kralı lord Kerzon bununla əlaqədar bildirmişdi ki, Yaxın Şərqdə bu bəyanat bizim "Monro doktrina"mızdır. Britaniya admirallığı gələcəkdə hərbidəniz donanmasını kömürə nisbətən ucuz başa gələn mazutla təmin etmək üçün Darsinin kredit almasından ötrü onun təşəbbüsünə yardımçı oldular. Britaniyanın Tehrandakı şərifi Xarding də İran körfəzi sahilində rusların konsessiyanı ələ keçirmək və burada təsir dairələrinin güclənəcəyi təhlükəsinin olduğunu bildirmişdi. Britaniya admirallığı 84 yaşlı ingilis milyonçusu Stratkona neft axtarışlarını davam etdirmək üçün Darsiyə kredit verilməsini tövsiyə etmişdi. Stratkon Britaniya imperiyasının və

hərbi-dəniz donanmasının mənafeyi naminə kredit vermişdi.

Britaniya admirallığı Darsini müflisləşmədən xilas etmək üçün ölkənin şimalında yaranmış “Burmah oil” firmasına təsir göstərdi. Bundan sonra Darsi ilə “Burmah oil” firması arasında saziş imzalandı və İranın cənub-qərbində neft axtarışları davam etdirildi. 1908-ci il mayın 26-da neft quyusu fontan vurdu [158a, 157-158].

1909-cu ilin aprelində İngiltərə-Fars neft şirkəti təşkil edildi.

Uzun müddət axtarışlardan sonra 1908-ci ildə İranın cənub-qərbində neft yataqları aşkar edilir. Bundan sonra 1909-cu ildə “İngiltərə-Fars” Şirkəti [51] təşkil edilir. “BP” əvvəllər “İngiltərə-Fars” şirkəti adlanmışdır.

İranda neft hasilatına başlanıldıqdan sonra “BP” şirkəti dünyada daha da məşhurlaşır və yeni layihələr həyata keçirir. “BP” Şotlandiyada, Uelsdə, sonralar isə Kanada, Cənubi Amerika, Afrika, Papua və Avropada yeni-yeni istehsal sahələri yaratmışdır.

1951-ci ildə İran hökuməti “BP” şirkətinin İrandakı əsas vəsaitlərini milliləşdirdi. Nəticədə şirkətin İranda fəaliyyəti tamamilə dayandırıldı. Üç il davam etmiş intensiv danışıqlardan sonra yeni neft konsorsiumu yaradıldı. “BP” şirkəti 1954-cü ildə İran neft sənayesində öz fəaliyyətini bərpa etmiş və konsorsiumda səhmlərin 40 faizini [51] əldə etmişdir. Bu ildən başlayaraq “İngiltərə-Fars” şirkəti yeni “British Petroleum” adı ilə öz fəaliyyətini davam etdirir.

İranda milliləşdirmənin nəticələrindən biri ondan ibarətdir ki, “Britiş Petroleum” İran bazarında itirdiyinin əvəzini çıxarmaq üçün fəal hərəkət etməyə başlamışdır. Küveytdə və İranda xam neft istehsalı genişləndirilmiş, Avropada, Avstraliyada və Yəməndə yeni neftayırma zavodları tikilmişdir.

Fəaliyyətinin ilk illərində “BP”nin maraqları yaxın Şərqə yönəlmişdi. XX əsrin 60-cı illərindən başlayaraq şirkətin fəaliy-

yətinin ağırlıq mərkəzi Amerika Birləşmiş Ştatlarına və Böyük Britaniyanın özünə keçdi. Şirkət Şimal dənizində və Alyaskada neft yataqlarının axtarışına başlamışdır. Bu sahədə ilk uğur 1995-ci ilə təsadüf edir. Həmin il Britaniya sularında qaz yatağı aşkar edilmişdir. Şimal istiqamətində isə neft axtarışı davam edirdi. 1970-ci ildə "BP" Fortiz yatağını, Şimal dənizinin Böyük Britaniyaya məxsus hissəsində ilk iri neft yatağını kəşf etdi. Alyaskada da aparılan kəşfiyyat işləri uğurla nəticələnmiş və neft aşkar edilmişdir.

1973-cü və 1980-ci illərdə baş vermiş ümumdünya iqtisadi tənəzzülü dövründə "BP"nin yeritdiyi fəal siyasət sayəsində böhran şirkətə o qədər də təsir etməmişdir. 1975-ci ilin payızı Fortiz yatağında neft istehsalının ən yüksək zirvəyə çatması ilə əlamətdar oldu. Həmin vaxt Fortiz yatağı gündə 0,5 milyon barel neft verirdi ki, bu da Böyük Britaniyanın gündəlik tələbatının 25 faizini [51] ödəyirdi.

1980-ci ildən başlayaraq "BP" Şimal dənizində çoxlu neft və qaz yataqları istismar etmişdir. Bu yataqlar dənizin həm Böyük Britaniyaya, həm də Norveçə aid hissəsində yerləşir. Şirkət eyni zamanda əvvəllər işləmədiyi regionlara da diqqət yetirməyə başlamışdır. Bu, Kolumbiya, keçmiş sovet respublikaları, Meksika körfəzinin dəniz sularıdır. Bütün bunlarla birlikdə "BP" səhiyyə, təhlükəsizlik və ətraf mühitin qorunması sahələrində də lider olmaq üçün maksimum səy göstərir, Respublika mətbuatının yazdığı məlumata görə "BP" şirkətinin Azərbaycanda fəaliyyəti 1990-cı ildən başlanır. Lakin Böyük Britaniyanın energetika naziri Tim Edqar 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması mərasimindəki çıxışında bildirmişdir ki, "BP" kimi firma üçün bu müqavilə Azərbaycanla cari əsrin lap əvvəlindən başlanmış əlaqələri bərpa edir" [96, 20]. Göründüyü kimi, "BP" şirkətinin Azərbaycanla əlaqələri yüz ildən artıq bir dövrü əhatə edir.

90-cı ilin əvvəllərində BP şirkəti Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının işlədilməsi ilə bağlı Azərbaycan hökuməti ilə danışıqlara başlamışdı. Lakin 90-cı illərdə baş vermiş tarixi hadisələrlə əlaqədar olaraq danışıqlar uzun çəkmişdi.

1992-ci ilin avqustunda "Şelflayihətikinti" zavodunda özül tikintisi layihələşdirilməyə başlanılmışdı. Tikinti "BP-Statoyl" alyansı tərəfindən maliyyələşdirilirdi. Özül tikintisi cədvəldə nəzərdə tutulduğu vaxtda başa çatdırılmış və dəniz yolu ilə Böyük Britaniyaya, Şimal dənizinə göndərilmişdi.

1992-ci il sentyabrın 7-də "BP" şirkəti Texniki Ekonomik Əsasnamə işlədilməsi, danışıqların aparılması, məhsulun bölüşdürülməsi barədə sazişə əsasən gələcəkdə "Şahdəniz" yatağında karbohidrogen istehsalı və işlənməsi ilə əlaqədar digər sazişlər bağlamaq üçün Azərbaycan hökuməti tərəfindən ilk olaraq hüquq almışdır. Sənədlərin imzalanması mərasimində baronessa Marqaret Tetçer iştirak etmişdir.

1992-ci il sentyabrın 28-də Böyük Britaniyanın ticarət naziri Maykl Hezltayn "BP"nin Bakıda ofisini açır. Həmin günədək "BP" Azərbaycanda rəsmi qeydə alınmış və 20 nəfərədək yerli işçisi olan yeganə qərb şirkəti idi.

"BP"-nin 1993-cü il martın 6-da "Çıraq" yatağının işlədilməsi barədə "Ticarət Ekonomik Əsasnamə" planı Azərbaycan hökumətinə təqdim olunmuş, həmin gün "BP" Eksploreyşn prezidenti Con Braun və Azərbaycan Dövlət Neft Şirkətinin rəhbərliyi arasında "Çıraq" və "Şahdəniz" yataqlarının işlədilməsi üçün qabaqcadan saziş imzalanmışdır.

1993-cü il iyunun 10-da digər xarici neft şirkətləri ilə birlikdə "BP" və ARDNŞ arasında "Günəşli", "Çıraq", "Azəri" dəniz yataqlarının birgə işlədilməsi barədə bəyannamə imzalanır. Xatırladaq ki, neft müqaviləsinin bağlanması ilə əlaqədar xarici şirkətlərlə aparılan danışıqlar Azərbaycan Respublikasının mənafe-

yinə uyğun aparılması üçün 1993-cü ilin iyulunda ümummilli lider Heydər Əliyev tərəfindən dayandırılmışdı. Neft müqaviləsinin hazırlanmasına dair danışıqlar haqqında Girişdə və I fəsildə izahat verilmişdi.

1994-cü il fevralın 22-də ümummilli lider Heydər Əliyev neft müqaviləsinin bağlanması ilə əlaqədar olaraq Böyük Britaniyanın baş naziri Con Meycorla və "Britiş Petroleum" Şirkətinin rəhbərliyi ilə danışıqlar aparmaq üçün Londona rəsmi səfərə gəlmiş və imzalanacaq neft sazişi ilə bağlı fikir mübadiləsi aparılmışdır. Danışıqların son mərhələsi ABŞ-ın Hyuston şəhərində davam etdirilmiş və nəhayət Azərbaycan Respublikasının maraqlarını təmin edən müqavilə layihəsi hazırlanmışdı.

Hələ 1994-cü il sentyabrın 16-da ümummilli lider Heydər Əliyev Qərb ölkələrinin neft şirkətləri ilə bağlanacaq saziş ilə əlaqədar keçirdiyi brifinqdə jurnalistlər qarşısında bəyanat verərək demişdir ki, "Müqaviləyə görə "Çıraq" neft yatağındakı platformadan neft çıxarılması 18 ay ərzində təmin ediləcəkdir. Bu Qərb Konsorsiumu ilə Azərbaycan Dövlət Neft Şirkətinin birgə çıxardığı neft olacaqdı. Bütün bu yataqlarda neftin çıxarılması üçün işlər 48 ay ərzində görülüb başa çatdırılacaqdı. 54 aydan sonra isə bütün yataqlardan neft çıxarılması təmin ediləcəkdi. Yəni bu 54 ay ərzində neft nəql edilən boru kəməri çəkilib qurtaracaq və bundan sonra çıxarılan neftin Qərb ölkələrinə düşən payını onlar istədikləri yerlərə apara biləcəklər" [60, 230].

1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında Xəzərin Azərbaycan Respublikası sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi haqqında Qərb Neft Şirkətlərinin Konsorsiumu ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında müqavilə imzalanarkən "BP" şirkəti daha çox pay bölgüsünə malik olmuşdur. İmzalanma mərasimi nümayəndə heyətlərinin müxtəlifliyi və nüfuzlu olması ilə diqqəti cəlb edir. Bu tarixi müqavilənin imza-

lanma mərasimində dəfələrlə Azərbaycanda olmuş məşhur səyyah Tur Heyerdal fəxri qonaq kimi Norveç nümayəndə heyətinin tərkibində iştirak etmişdir.

Konsorsiumda daha çox pay bölgüsünə malik olan “BP-Azərbaycan” Norveçin “Statoyl” şirkəti ilə alyansda fəaliyyət göstərir və operator rolunu oynayır. Bu səbəbdən də monoqrafiyada “Əsrin müqaviləsi”nin yerinə yetirilməsi ilə əlaqədar həyata keçirilən tədbirlər, mühüm tarixi hadisələr və qərarlar, istehsal nailiyyətləri izah edilərkən ABƏŞ-in əməliyyatçısı kimi “BP-Azərbaycan” şirkətinin fəaliyyətinə daha çox diqqət yetirilmişdir.

“BP” şirkəti dünyanın ən böyük kompleks enerji qruplarından biridir. Şirkətin fəaliyyətinə xam neft ilə qazın kəşfiyyatı və hasilatı, emalı, neft-kimya məhsullarının istehsalı, yanacaq, sürtgü yağları və kimyəvi məhsulların daşınması və marketinqi daxildir.

“BP Azərbaycan” şirkəti quru və dəniz yataqlarında xam neft və təbii qazın kəşfində, hasil edilməsində yerli hökumətlər, neft şirkətləri və podratçılarla birgə çalışır. Bu şirkət dünyanın 100-dən çox ölkəsində fəaliyyət göstərərək, gün ərzində təxminən 4 milyon barel neft hasil edir [44,2].

“BP”nin Azərbaycan Biznes Bölümü dünyanın müxtəlif yerlərində fəaliyyət göstərən Biznes Bölmələrindən (BB) biridir. Bu Biznes Bölümünün əsas əməliyyat mərkəzi Bakı şəhərində, əlavə ofisləri isə Tbilisi və Ankara şəhərlərində yerləşir. Azərbaycan Biznes Bölümünə “BP” şirkətinin Londonda yerləşən korporativ mərkəzi, o cümlədən Sanbar şəhərində çalışan işçi heyəti və əsas podratçıları dəstək verirlər. Azərbaycan “BP” şirkəti üçün ən önəmli yeni kəşfiyyat və hasilat sahələrindən biridir. Şirkət neft və qaz ehtiyatlarının işlənilməsində ölkəyə kömək etmək və bu sırada Azərbaycan xalqının həyat şəraitini keyfiyyətcə yaxşılaşdırmaq üçün öhdəlik götürmüşdür. Azərbaycan-

da 90-cı illərin əvvəllərindən fəaliyyət göstərən "BP" şirkəti az vaxt ərzində ölkədə öncül bir əməliyyatçıya çevrilmişdir. Şirkət hazırda nəhəng "AÇG" və "Şahdəniz" yataqları üzrə neft və qazın kəşfiyyatı və işlənməsi ilə bağlı dörd sazişin əməliyyatçısıdır. ABƏŞ-in də əməliyyatçısı olan BP-nin Azərbaycan Biznes Bölümü ARDNŞ-lə tərəfdaşlıqda fəaliyyət göstərir.

"BP Azərbaycan" şirkətinin fəal tərəfdaşlığı və yaxından iştirakı ilə ARDNŞ-in müəssisə və obyektlərinin bir çoxu əsaslı təmir olunmuş, modernləşdirilmiş və dünya standartları səviyyəsinə çatdırılmışdır. O cümlədən "Azərbaycan" kran gəmisi və neft sənayesi üçün xidmət göstərən digər gəmilər, həmçinin, infrastruktura daxil olan obyektlər Qərb standartlarına uyğun bərpa olunub istifadəyə verilmişdir.

"İsrafil Hüseynov" boru düzən gəmisi müasir avadanlıqlarla təchiz olunmuş və onun vasitəsilə boru kəmərləri inşa edilmişdir.

Yataqda su-basqı rejimi yaratmaq məqsədilə "Çıraq-1" platformasında quyulara su vuracaq nasos-kompressor avadanlığı quraşdırılmış və 28 may 2000-ci ildən laylara su vurulmasına başlanılmışdır.

Neft layihələrinin uğurla həyata keçirilməsi minlərlə iş yerlərinin yaradılmasına səbəb olmuşdur. Həyata keçirilən layihələrdə xarici mütəxəssislərlə birlikdə minlərlə azərbaycanlı işçi olmuşdur. O, cümlədən "Əsrin müqaviləsi" üzrə layihənin operatoru olan "BP-Azərbaycan" şirkətinin ofisində 1111 nəfər, İlkin Neft Layihəsinin istismar işlərində 500 nəfər, "Azəri" layihəsinin tikinti podratçıları vasitəsilə 9500 nəfər işə cəlb olunmuşdur [93, 28].

ABƏŞ-in "BP-Azərbaycan" şirkəti azərbaycanlı neft mütəxəssislərinin hazırlanmasında səmərəli fəaliyyət göstərmişdir. Səngəçal sahəsində "BP" şirkətinin açdığı tədris mərkəzində neft sənayesinin bütün sahələri üçün ildə 400 mütəxəssis təkmilləşdi-

rilmişdir [93, 31].

Azərbaycanda neft-qaz hasilatı üzrə nəhəng layihələr həyata keçirən şirkətlər ARDNŞ ilə birlikdə öz fəaliyyətlərində sağlamlıq və əməyin təhlükəsizliyi sahəsində ən yüksək standartlara əməl etmişlər. Yalnız tikinti sahəsində deyil, nəqliyyat vasitələrinin idarə olunması, yükqaldırma əməliyyatları təhlükəsizliyi və istismar sınaqlarının aparılması işlərinin təhlükəsizliyi sahəsində də yüksək nəticələr əldə edilmişdir.

2001-ci il martın 7-də ümummilli lider Heydər Əliyevin yanında “BP-Azərbaycan” şirkətinin Azərbaycanda həyata keçirdiyi layihələrin təqdimatı olmuşdur. Layihələri “BP Azərbaycan”-nin Azərbaycandakı başçısı Devid Vudvord təqdim edərək “BP-Azərbaycan” və onun ətrafında birləşmiş konsorsiumun fəaliyyəti, görülmüş və görüləcək işlər haqqında ətraflı məlumat vermişdir.

Təqdimatdan aydın olur ki, “BP”nin yerinə yetirdiyi layihə dünya miqyaslı ən nəhəng tikintidən ibarətdir. “BP” bu işləri ARDNŞ, dövlət və hökumət idarələri ilə sıx əməkdaşlıq şəraitində həyata keçirmişdir. Layihə üzrə görülmüş işlər 1994-cü ildə “Azəri-Çıraq-Günəşli” yataqları üzrə hasilatın pay bölgüsü müqaviləsinin imzalanmasından başlanır. 1996-cı ildə “Şahdəniz” yatağı üzrə müqavilənin və alqı-satqı sazişinin imzalanması, Bakı-Tbilisi-Ceyhan üzrə sazişlərin imzalanması, daha sonra isə “Şahdəniz” üzrə 2001-ci ilin martında Türkiyə ilə imzalanmış qaz alqı-satqı sazişi nəticəsində ən mühüm planlar həyata keçirilmişdir.

Həmin görüşdə “BP Azərbaycan”nin üç layihə üzrə “Azəri-Çıraq-Günəşli”, Bakı-Tbilisi-Ceyhan və “Şahdəniz” üzrə planları açıqlanmışdır. Vaxtında mühəndis-layihə işləri planlaşdırmaqla 2002-ci ildə BTC-nin tikintisinə başlamaq nəzərdə tutulurdu. Proqnozlaşdırmaya görə isə 2004-cü ildə həmin layihə üzrə tikilmiş boru kəməri istifadəyə verilməli idi.

“Azəri-Çıraq-Günəşli”nin birinci fazası üzrə tikinti işlərinə 2001-ci ilin iyun ayında başlanılmış, 2004-cü ildə isə başa çatmış və qurğular istifadəyə verilmişdir.

“Şahdəniz” layihəsi haqqında “BP Eksploreyşn”in Azərbaycan üzrə prezidenti Qordon Birrel məlumat vermişdir. “Şahdəniz” üzrə hasilatın pay bölgüsü müqaviləsi 1996-cı ildə imzalanmışdır. Modernləşdirilən “İstiqlal” qazma qurğusu 1999-cu ildə açılmış qaz-kondensat yatağının kəşfi üçün istifadə olunmuşdur.

“BP Azərbaycan” və onun “Şahdəniz” üzrə tərəfdaşları 2001-ci ilin martında kəşfiyyat işlərini başa çatdırmış və həmin dövrdə Türkiyə ilə Azərbaycan Respublikası arasında qaz alqı-satqısına dair saziş imzalanmışdır.

“Şahdəniz” qazını ixrac etmək üçün Azərbaycanda mövcud olan qaz kəmərinə paralel olaraq yeni qaz kəməri çəkilmiş və bu kəmər vasitəsilə qaz Azərbaycan-Gürcüstan ərazisindən keçməklə Türkiyəyə çatdırılmışdır. Boru kəmərinin uzunluğu təxminən 700 kilometrdir. “Şahdəniz”in mərhələlərlə işlənməsini ABƏŞ-in “BP Azərbaycan” şirkəti ARDNŞ-lə və hökumət idarələri ilə sıx əməkdaşlıq şəraitində həyata keçirmişdir.

Təqdimatın sonrakı mərhələsində yenidən “BP Azərbaycan”nin Azərbaycandakı təmsilçi prezidenti Deyvid Vudvord “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının tammiqyaslı işləməsinin birinci fazasını əks etdirən rəqəmlər və əsas texniki göstəricilər haqqında məlumat vermişdir.

“Şahdəniz”in birinci fazasında iki böyük platforma tikilmişdir. Onlardan biri yalnız neft hasilatı üçün nəzərdə tutulmuşdur. İkinci platformadan isə neftlə birlikdə çıxan səmt qazı sahilə – istehlakçılara çatdırılır.

Görüşdə Səngəçal terminalının genişləndirilməsi layihəsi haqqında da məlumat verilmişdir. Səngəçal terminalı genişləndirilmiş, həm “Şahdəniz” qazının, həm də “Azəri-Çıraq-Günəşli” yataqlarından çıxarılan neftin terminala daşınması həyata keçi-

rilmişdir.

2004-cü ilin sonu üçün Səngəçal terminalı genişləndirilərək ildə 26,5 milyon ton neft, 11 milyard kubmetrdən artıq qaz qəbul etmək gücünə malik olmuşdur.

Təqdimatda BTC-nin marşrutu da göstərilmişdir. Bu marşrut Azərbaycanda, Gürcüstanda və Türkiyədə müvafiq hökumət və dövlət idarələrinə təqdim olunmuşdur. Boru kəmərinin tam uzunluğu 1768 kilometrə [44, 8] bərabərdir.

2001-ci ildə Bakı-Tbilisi-Ceyhan layihəsi üzrə mühəndis-layihə işlərinin hazırlanması haqqında da məlumat verilmişdir. Mühəndis layihə işləri hazırlandıqdan sonra BTC-nin maliyyələşdirmə məsələləri həll edilmişdir.

Görüş zamanı slaydda “Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” layihələri üzrə əldə edilən mühüm nəticələr göstərilmişdir. “Azəri-Çıraq-Günəşli” layihəsi çərçivəsində hasilatın göstəriciləri sevindiricidir. “Çıraq” platformasından orta sutkalıq hasilat 117 min barelə bərabər olmuşdur. “Çıraq” yatağından neft hasilatı 1997-ci ilin noyabrından 2001-ci ilin mayınadək olan dövrdə 14 milyon [138] ton olmuşdur. BP şirkəti tərəfindən “Çıraq” yatağında hasil edilən neft Qərb və Şimal ixrac boru kəmərləri vasitəsilə nəql edilmişdir.

“Çıraq” yatağının gələcəkdə işlənməsi layihəsi üzrə də işlər uğurla davam etdirilmişdir. Onun həyata keçirilməsinə 2001-ci ilin sonundan başlanılmışdır. Mümkün qədər geniş sahəni əhatə edən maili qazma texnologiyasını tətbiq etməklə “Çıraq” platformasından neft hasilatının həcmini təxminən 330 milyon barel artırılması həyata keçirilmişdir.

ABƏŞ-in ARDNŞ-lə əməkdaşlıq və Neft Daşlarındakı qaz kompressorlarının genişləndirilməsi layihəsinin fevralın sonunda tamamlanması sayəsində Azərbaycan istehlakçılarına çatdırılan qazın həcmi xeyli artırılmışdır. Bu, “Çıraq” platformasında yandırılan qazın həcmini xeyli azaltmağa imkan vermişdir.

Layihənin başa çatdırılması Azərbaycanın qaza artan tələbatını ödəmək üçün "Çıraq" platformasından Neft Daşlarına və oradan da sahilə sutkada 2,7 milyon kubmetr qaz nəql etməyə imkan vermişdir. Xatırladaq ki, son vaxtlaradək "Çıraq"dan sutkada cəmi 1,6 milyon kubmetr [32] qaz ixrac etmək mümkün idi, yüksək təzyiqli səmt qazının qalan hissəsi isə platformada yandırılırdı.

2004-cü ilin sonundan başlayaraq "Azəri" yatağından neft hasilatına başlanılmış, sonrakı illərdə isə hasilatın həcmi daha çox olmuşdur. "Şahdəniz" yatağından kondensat hasilatına 2007-ci ildən başlayaraq Azərbaycanda neft hasilatının 50 milyon tona çatdırılması proqnozlaşdırılmışdır. Bu həcmdə "Şahdəniz"in birinci mərhələsində hasil ediləcək kondensat da nəzərdə tutulmuşdur.

2004-cü ilin axırlarından başlayaraq "Şahdəniz"in birinci mərhələsi çərçivəsində qaz hasilatına və ixracına başlanılması və 8 milyard kubmetrə çatdırılması proqnozlaşdırılmışdır.

"Azəri-Çıraq-Günəşli" layihələri üzrə görülmüş işlər nəticəsində Azərbaycana 1 milyard 240 milyon dollar mənfəət çatmışdır. Layihələr həyata keçirildikcə gələcəkdə mənfəət daha da artacaqdır.

2005-ci ildən başlayaraq "Azəri" və "Çıraq" yataqlarının tammiqyaslı istismarının ikinci mərhələsində hasilatının daha da artırılması, həmçinin "Şahdəniz"də neft kondensatı hasil olunmağa başlanıldıqdan sonra 2006-cı ildən başlayaraq karbohidrogen ehtiyatlarından bir milyard dollardan artıq mənfəət götürülməsi proqnozlaşdırılmışdır.

Hasilatın artması nəticəsində gəlir neftindən əldə edilmiş mənfəət get-gedə artaraq, Azərbaycanın milli gəlirinin çox mühüm bir hissəsini təşkil etmişdir.

Sonda "BP-Azərbaycan" şirkətinin Azərbaycandakı təmsilçisi məlumat vermişdir ki, "BP Azərbaycan" dünyanın heç bir

regionunda buradakı kimi nəhəng layihələr həyata keçirmir. Qarşıdakı 12 ay ərzində bu layihələrə 8-9 milyard dollar investisiya yatırılması nəzərdə tutulmuşdur.

Ümummilli lider Heydər Əliyev “BP-Azərbaycan” şirkətinin təqdimat iştirakçılarına təşəkkürünü bildirərək demişdir ki, “Gördüyünüz işləri yüksək qiymətləndirirəm. Sizin bu təqdimatınız indi Azərbaycan ictimaiyyəti üçün də xüsusi bir hadisədir. Ölkəmizin vətəndaşlarına gələcəyə böyük ümid yaradan hadisədir. Azərbaycanla Böyük Britaniya dostluğunun möhkəmlənməsi üçün böyük bir hadisədir” [30].

2004-cü il ölkəmizdə həyata keçirilən neft layihələri üçün uğurlu olub. Bu ildə Xəzərin Azərbaycan Respublikası sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin xarici neft şirkətləri ilə birgə işlənməsinə dair Hasilatın Pay Bölgüsü Sazişinin “Əsrin müqaviləsi”nin on illiyi təntənəli şəkildə qeyd olunmuşdur. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin maliyyələşdirilməsi sənədləri imzalanmış və bu kəmərin Azərbaycan və Gürcüstan hissələri birləşdirilmişdir. “Azəri” və “Şahdəniz” birinci mərhələ layihəsi çərçivəsində nəzərdə tutulmuş inşaat işləri uğurla davam etdirilmiş, həm də “Günəşli” yatağının dənizin dərinliyində yerləşən hissəsinin istismara cəlb edilməsi məqsədilə “Faza-3” layihəsinə dair qərar qəbul edilmişdir.

Ümumiyyətlə 2004-cü ildə görülmüş işlər və ilin yekunları ilə bağlı dekabrın 21-də ABƏŞ-də keçirilmiş mətbuat konfransında “BP Azərbaycan” şirkətinin prezidenti Deyvid Vudvord məlumat vermişdir.

“BP Azərbaycan” şirkətinin prezidenti bildirmişdir ki, 2004-cü ildə sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi sahəsində səhmdarlar yüksək uğurlar əldə etmişlər. “Azəri-Çıraq-Günəşli” layihəsi üzrə ilin sonunadək nəzərdə tu-

tulmuş 90 milyon dollar əməliyyat xərclərindən istifadə ediləcək. Əsas xərclərə isə 491 milyon dollar vəsait sərf olunacaq ki, bu da nəzərdə tutulduğundan 127 milyon dollar çoxdur.

2004-cü ildə "BP-Azərbaycan" tərəfdarları ilə birlikdə neftin hasilatı və nəqli sahəsində yüksək nailiyyətlər əldə etmişdir. Neft hasilatı sahəsində əməliyyatlar daha uğurlu olmuşdur. 1997-ci ilin noyabr ayından 2004-cü ilin sonuna qədər "Çıraq" platformasından 277,6 milyon barel (137 milyon tondan çox) ABƏŞ tərəfindən neft hasil edilmiş və platformanın işində heç bir fasiləyə yol verilməmişdir. "Çıraq" platformasından il ərzində gündə 154 min barel [44, 3] neft hasilatı ilə rekord göstəriciyə nail olunmuş, platformanın qazma və suvurma göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. "Çıraq" platformasında neft hasilatı artıqlamasilə yerinə yetirilmişdir.

Fəaliyyətə başladığı gündən 2004-cü ilin sonunadək Qərb ixrac boru kəməri ilə 32 milyon tondan çox neft nəql olunmuşdur ki, bu da Supsa terminalından ABƏŞ-in tərəfdarlarına 211 tanker (27 milyon tondan çox) və Azərbaycan hökumətinə 38 tanker (5 milyondan çox) xam nefti dünya bazarına çıxarmağa imkan vermişdir. Həmin dövrdə Şimal ixrac boru kəməri vasitəsilə 15,5 milyon tondan artıq neft nəql edilmişdir (ARDNŞ-in nefti də daxil olmaqla). Bu isə Rusiyanın Novorossiysk limanından xam neftlə yükləmiş 175 tankeri [145] dünya bazarına göndərməyə imkan vermişdir.

Ötən illər ərzində "Çıraq" yatağında 19 quyu qazılıb ki, onlardan 15-i hasilat quyusudur. Platformadan 6,5 kilometr maili qazılmış A-19 quyusu Xəzər dənizi üçün rekord göstərici sayılır. "Şərqi Azəri" yatağında ilk dörd öncəqazma quyusu qazıldıqdan sonra "Dədə Qorqud" qazma qurğusu "Qərbi Azəri"yə gətirilmiş və burada da yeni dayaq tavasından qazma əməliyyatları həyata keçirilmişdir.

"BP Azərbaycan" şirkətinin Bakı-Tbilisi-Ceyhan əsas ixrac

boru kəmərinin tikintisi ilə bağlı il ərzində gördüyü işlər də əhəmiyyətlidir. 2004-cü ilin yanvarında 1,6 milyard dollarlıq ilk kredit tranşının alınmasından sonra inşaat işləri genişlənmişdir. Kəmərin Azərbaycan hissəsi üzrə işlərin 90 faizi tamamlanmışdır. Boru kəmərinin 443 kilometrlik hissəsinin 182 kilometri hidro sınaqdan keçirilmişdir. Kəmərin Səngəçal terminalındakı baş nasos stansiyasının tikintisi üzrə işlər tamamlanmış, Gürcüstanda isə nasos stansiyalarının tikintisi müvafiq olaraq 80 və 86 faiz yerinə yetirilmişdir. BTC əsas ixrac boru kəmərinin 1075 kilometrlik Türkiyə hissəsində də yaxşı irəliləyiş əldə olunmuşdur. Burada boru xəttinin 85 faizi, nasos stansiyasının 65 faizi və Ceyhan terminalının 90 faizi [145] tamamlanmışdır.

“Şahdəniz” qaz-kondensat yatağının işlənməsi də uğurla həyata keçirilmişdir. Yatağın birinci mərhələsində tikinti işlərinin 44 [44, 19] faizi yerinə yetirilmiş və yataqdan hasil olunacaq ilk qazın 2006-cı ilin qış mövsümünə qədər dünya bazarına çıxarılması üzrə işlər qrafikə uyğun davam etdirilmişdir. Bir-birinin ardınca müvəffəqiyyətlə tamamlanmış üç öncəqazma quyusu üzrə proqramdan və təkrar seysmik çəkilişlərdən sonra yataqda mövcud olan qaz və kondensat ehtiyatları təqribən 20 faiz artmışdır [44 19].

2004-cü ilin sonunda “Şahdəniz”in tərəfdaşları bildirmişlər ki, layihənin təxmin edilən xərcləri 25 faiz artaraq daha öncə hesablanmış 3,2 milyard ABŞ dolları əvəzinə 4,1 milyard ABŞ dolları [44 19] təşkil etmişdir. “BP-Azərbaycan” şirkətinin rəhbərliyi layihə xərclərinin artmasını neft yataqlarının istismarı ilə bağlı material və xidmətlərin bahalaşması, valyuta kurslarının dəyişməsi, həm də müfəssəl dizayn işlərinin layihənin əvvəlki dəyərində öz əksini tapmaması ilə əlaqələndirmişdir.

“Şahdəniz” qazının Türkiyə bazarına çıxarılmasını nəzərdə tutan CQBK-nin tikintisi ilə bağlı məlumat verilmişdir ki, 2004-cü ilin sonunadək layihənin 54 faizi uğurla reallaşdırılıb. Dəhliz

boyunca boruların düzülməsi işləri Azərbaycanda 14 faiz, Gürcüstanda 30 faiz [145] yerinə yetirilib. Həmin dövrdə Azərbaycanda və Gürcüstanda qaynaq işlərinin də xeyli hissəsi yerinə yetirilmişdir.

2004-cü il dekabrın 21-də ABƏŞ-də keçirilmiş mətbuat konfransında 2005-ci il üçün planlar açıqlanmışdır. "Azəri-Çıraq-Günəşli" layihəsi üzrə əməliyyat xərclərinə 154 milyon dollar, əsaslı xərclərə isə 2 milyard 311 milyon dollar vəsait sərf olunmuşdur. 2005-ci ildə orta gündəlik neft hasilatının həcmi 227 min barelə çatdırılmışdır ki, bunun da 134 min bareli "Çıraq" platformasının payına düşür. Qalan neft isə 2005-ci ilin əvvəllərindən istismara daxil edilmiş "Mərkəzi Azəri" platformadan əldə olunmuşdur. Burada neft hasilatı artaraq gündəlik səviyyə 93 min barel təşkil etmişdir. 2005-ci ildə "Çıraq" və "Mərkəzi Azəri" platformalarından birlikdə hər gün orta hesabla 227 min barel [145] neft çıxarılması proqnozlaşdırılmışdır.

2005-ci il həm də Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin uğurla tamamlanması ilə əlamətdar olmuşdur. Bu nəhəng infrastruktur layihəsi tamamlandığına görə 2005-ci ildə BTC boru kəmərinin tikintisi ilə bağlı əsaslı xərclər azalaraq təqribən 700 milyon ABŞ dolları təşkil etmişdir.

ABƏŞ və "BP-Azərbaycan" şirkətinin 2004-cü il fəaliyyətinin yekunları ilə bağlı verilən məlumatlar göstərir ki, həyata keçirilən işlər digər təşkilatlarla əlaqəli şəkildə yerinə yetirilmişdir. İl ərzində ölkə daxilində yerli şirkətlər vasitəsilə 359 milyon dollar vəsait xərclənib ki, bunun da 40 milyon dolları dövlət müəssisələrinin, 265 milyon dolları birgə müəssisələrin, 54 milyon dolları isə kiçik və orta müəssisələrin payına düşür. Bütövlükdə isə "BP-Azərbaycan" şirkətinin əməliyyatlarına il ərzində 83 dövlət, 29 birgə və 245 kiçik və orta müəssisə cəlb edilmişdir. İl ərzində Azərbaycandakı xarici şirkətlər vasitəsilə 2,7 milyard dollar xərclənib. Həmin vəsaitin 43 faizi [145] bilavasitə

Azərbaycanda həyata keçirilmiş işlərə sərf edilmişdir.

2004-cü ildə Azərbaycandakı sosial sərmayə proqramlarına 8 milyon 900 min dollar vəsait xərclənmişdir. Neft layihəsinin uğurla həyata keçirilməsi məşğulluq imkanlarının da xeyli artmasına səbəb olmuşdur. Təkcə “Azəri” layihəsi üzrə işlərə 9600 yerli vətəndaş cəlb edilmişdir. Bundan əlavə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft və Cənubi Qafqaz qaz kəmərləri layihəsində 2600 nəfər iştirak etmişdir. “Şahdəniz” layihəsinin podratçıları vasitəsilə 1837 nəfər işlə təmin edilmişdir. Həmin dövrdə “BP-Azərbaycan” şirkətinin işçi heyətinin sayı 1214 [145] nəfər təşkil etmişdir.

ABƏŞ və “BP-Azərbaycan” şirkətinin fəaliyyəti ümummilli lider Heydər Əliyevin neft strategiyasını inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin də diqqət mərkəzindədir. 2004-cü il dekabrın 3-də ölkə Prezidenti İlham Əliyev “BP-Azərbaycan” şirkətinin prezidenti Deyvid Vudvordu qəbul etmişdir.

Prezident İlham Əliyev iki ay bundan əvvəl “Əsrin müqaviləsi”nin onilliyi ilə əlaqədar Azərbaycanda neft və qaz sektorunun inkişafındakı xidmətlərinə görə Deyvid Vudvordu “Şöhrət” ordeni [36] ilə təltif olunması münasibəti ilə təbrik edərək, bu yüksək mükafatı ona təqdim etmişdir.

Deyvid Vudvord on il əvvəl Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş neft strategiyasının artıq öz bəhrəsini verdiyini, bu strategiyanın həyata keçirilməsində onun təmsil etdiyi “BP Azərbaycan” şirkətinin də fəal iştirak etdiyini vurğuladı. O, qeyd etmişdir ki, tikintisi uğurla davam etdirilən və 2005-ci ildə istifadəyə veriləcək Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, habelə “Şahdəniz” layihəsi Azərbaycan, Gürcüstan və Türkiyənin iqtisadi cəhətdən daha da güclənməsinə təkan verəcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan hökuməti-

nin və xarici neft şirkətlərinin sıx əməkdaşlığının səviyyəsindən, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tikintisinin uğurla aparılmasından və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşasına başlanmasından məmnunluğunu bildirmiş və bütün bu layihələrin gerçəkləşməsində “BP-Azərbaycan” şirkətinin aparıcı rolunu qeyd etmişdir.

Neft sazişləri xarici ölkələrin neft şirkətləri ilə ARDNŞ arasında imzalandığı üçün ölkəmizin neftçıxarma tarixi haqqında məlumat vermək diqqətəlayiqdir. Qədim neft diyarı olan Azərbaycanda sənaye üsulu ilə neft hasilatı başlandığı dövrdən 2005-ci il yanvarın 1-ə kimi 1 milyard 427,8 milyon ton neft, 480,8 milyard kubmetr qaz çıxarılmışdır [12, 17].

Yeni neft strategiyasının inamla həyata keçirilməsi nəticəsində qabaqcıl ölkələrin iri neft şirkətləri və ABƏŞ-lə tərəfdaşlıqda işləyən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin fəaliyyətində də keyfiyyət dəyişiklikləri baş vermişdir. Durğunluq dövründə 1995-ci iləədək neft hasilatı azalmış və yalnız ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra neft sənayesində sabitliyə nail olunmuşdur. Geoloji kəşfiyyat qazma işlərinin həcminin artması ilə əlaqədar olaraq 1996-cı ildən etibarən neft hasilatının azalmasının qarşısı alınmış və 2002-ci ildən başlayaraq hasilat sabitləşmişdir. Artıq 2003-cü ildə ARDNŞ üzrə 8 milyon 924,6 min ton neft [12, 23] hasil edilmişdir.

2004-cü ildə neft hasilatı artaraq ARDNŞ üzrə 8 milyon 976,4 min ton [12, 23] olmuş və əvvəlki ilə nisbətən 51,8 min ton artım olmuşdur.

Qaz hasilatı bir sıra səbəblərlə əlaqədar olaraq sabit olmamışdır. Azərbaycan Respublikası üzrə qaz hasilatının ən yüksək səviyyəsi 1982-ci ildə 14,9 milyard kubmetr təşkil etmişdir.

ARDNŞ-in tərkibində 2 neft emalı zavodu – Heydər Əliyev adına Bakı Neft Emalı zavodu (BNEZ) və "Azərneftyağ" Neft

Emalı Zavodu (NEZ) fəaliyyət göstərir. İki zavodun ümumi istehsal gücü 20 milyon ton xam neft emalı təşkil edir. 2004-cü ildə ARDNŞ-in neft emalı zavodları 6 milyon 308,5 [12, 31] min ton neft emal etmişdir. Zavodlarda əsasən avtobenzinlər, reaktiv mühərrik yanacağı, sürtgü yağları və s. məhsullar istehsal edilir.

ARDNŞ Azərbaycan Respublikasının qanunvericilik aktlarına, sahədaxili standart və rəhbər sənədlərə əsaslanaraq ətraf mühitin qorunması, əməyin mühafizəsi və təhlükəsizlik texnikası sahəsində bir sıra məqsədyönlü tədbirlər həyata keçirmişdir. O cümlədən ekoloji vəziyyəti yaxşılaşdırmaq məqsədilə təmizləyici və texnoloji qurğular yenidən qurulmuş, abadlaşdırma işləri davam etdirilmiş, yeni obyektlər inşa edilmişdir.

ARDNŞ-in fəaliyyətində sosial məsələlər daim diqqət mərkəzində olmuşdur. Struktur bölmələrinin tabeliyində 2,5 milyon kvadrat metr mənzil fondu, o cümlədən 80 yataqxana, 56 uşaq bağçası, 28 yay istirahət ocağı, 14 mədəniyyət evi və klubu, 16 idman kompleksi və meydançası, 520 çarpayılıq xəstəxanası vardır. 2004-cü ildə ARDNŞ üzrə 258 mənzili olan 4 yaşayış evi istifadəyə verilmişdir [12, 58].

2005-ci ilə “BP” Azərbaycandakı layihələrə qrafik üzrə və öhdəliklərə uyğun olaraq sərmayələr yatırmışdır. “BP Azərbaycan”nın böyük layihələri Azərbaycanda qoyulan ən böyük birbaşa xarici sərmayələrdir.

Bununla belə, 2005-ci il ABƏŞ-in “BP-Azərbaycan” Strateji İcra Bölümü (“BP-Azərbaycan” SİB) üçün fövqəladə və çətinliklərlə dolu bir il olmuşdur. Bu ilin ən görkəmli hadisəsi “Mərkəzi Azəri” hasilat platformasından birinci neftin alınması və onun yenicə genişləndirilmiş Səngəçal terminalından Bakı-Tbilisi-Ceyhan boru kəmərinə vurulması olmuşdur. Bu nailiyyət 2005-ci ilin may ayında “Mərkəzi Azəri” platformasından birinci neftlə bağlı mərasimdə iştirak etmək üçün Səngəçala gəlmiş Azərbaycan, Gürcüstan, Türkiyə və Qazaxıstan prezidentlərinin,

York hersoqunun, "BP-Azərbaycan" qrupunun icraçı direktoru Lord Braunun və bir çox beynəlxalq miqyasda tanınmış şəxslərin iştirakı ilə təntənəli şəkildə qeyd olunmuş və televiziya ilə bütün dünyaya yayımlanmışdır.

2005-ci ildə "Çıraq" və "Mərkəzi Azəri" hasilat platformasından əldə edilən məhsul bütün il ərzində orta hesabla gündə 261 [45, 1] min barel, yəni proqnozlaşdırıldığından 15 faiz çox olmuşdur.

"Çıraq-1" platformasından hasil edilən neftin miqdarı 52,4 milyon barel və ya 7 milyon ton təşkil etmişdir (bunun ardınca "Azəri" layihəsi çərçivəsində) İlkin neft hasilatından 2005-ci ilin sonunadək "BP-Azərbaycan" şirkəti "Çıraq-1"-dən 328 milyon barel [45, 14] (144 milyon tondan çox) neft hasil etmişdir.

2005-ci ilin fevralında "Mərkəzi Azəri" (MA) platformasından hasilata başlanmış və ilin sonunadək 42.8 milyon barel [45, 14] (təxminən 6 milyon ton) neft çıxarılmışdır. "Mərkəzi Azəri" nefti Səngəçal terminalına çatdırılır və ixrac marşrutları ilə bazara çıxarılır. "Çıraq" platformasından hasil edilən səmt qazı il boyu ARDNŞ-in kompressor stansiyasına göndərilmişdir. "Çıraq" yatağından 1,03 milyard kubmetr, "Mərkəzi Azəri" yatağından 0,846 [46, 14] milyard kubmetr qaz göndərilmişdir.

"Çıraq" yatağında 20-ci quyu qazılmış, "Şərqi Azəri" yatağında öncəqazma işləri əsasən başa çatdırılmışdır. "Qərbi Azəri" (QA) yatağında üç öncəqazma hasilat quyusunun birincisindən məhsul alınmağa başlanmışdır.

Dərinsulu "Günəşli" yatağında tikinti işlərinin 30 faizi başa çatmışdır. "Qərbi Azəri" və "Şərqi Azəri" yatağında 850 km-dən artıq boru kəməri çəkilmişdir.

2005-ci ildə "BP-Azərbaycan" şirkəti AÇG fəaliyyətlərinə ABƏŞ tərəfdarları ilə birlikdə 2,71 milyard dollar əsaslı xərclər və 191 milyon dollar [45, 15] əməliyyat xərcləri sərf etmişdir.

Uzunluğu 1768 km olan BTC boru kəmərinin doldurulması

üçün 10 milyon barel neft tələb olunmuşdur. Kəmərin 2006-cı ilin ortalarında istismara verilməsi proqnozlaşdırılmışdır. 2005-ci ildə BTC-yə 1,18 milyard [45, 16] dollar xərc çəkilmişdir.

"Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri üçün birinci mərhələnin işlənmə xərcləri 4,1 milyard dollar təşkil etmiş, o cümlədən CQBK xərcləri 1,1 milyard dollar olmuşdur.

Azərbaycan Respublikasının Prezidentinin 14 fevral 2005-ci il tarixli 635 saylı sərəncamı ilə qəbul edilmiş "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı" yaxın on il üçün ölkədə neft və qaz sənayesinin inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Bu sahədə əsas vəzifələr ölkənin enerji müstəqilliyini təmin etmək, neft və qaz hasilatını artırmaq, istehsal proseslərinin səmərəliliyini yüksəltməkdən ibarət olmuşdur.

Ümumilikdə 2005-ci ildə respublika üzrə 16711,5 metr axtarış kəşfiyyat işləri yerinə yetirilib, o cümlədən 12386,0 quru sahə və 4325 metr [13, 17] dəniz sahəsi üzrə yerinə yetirilmişdir.

2005-ci ildə ARDNŞ üzrə 56 neft qaz yatağından karbohidrogen istehsal edilmişdir. Onlardan 38-i quru, 18-i dəniz ərazisindədir. İşlənmənin əvvəlindən 2006-ci il yanvarın 1-ə kimi 1436,7 milyon ton (qaz kondensatı ilə birlikdə) neft və 485,5 milyard kubmetr qaz çıxarılmışdır. 2005-ci ildə ARDNŞ üzrə 73 ədəd plana qarşı 114 [13, 17] yeni quyu istismara verilmişdir.

2005-ci ildə ARDNŞ üzrə 8,967,4 min ton, o cümlədən "Azneft" İstehsal Birliyi (İB) üzrə 7,973,3 min ton neft [13, 22] çıxarılıb.

Azneft ümumi neft hasilatının 42,7%-i fontan, 38,0%-i qazlift (erlift), 19,3%-i dərinlik nasosu (ştanqlı və dalma) üsulu ilə həyata keçirmişdir.

ARDNŞ üzrə 5023,3 milyard kubmetr qaz hasil edilmiş və 2006-cı yanvarın 1-də istismar fondunda 9810 quyu [13, 25-26]

olmuşdur.

2005-ci ildə ARDNŞ-in neft emalı zavodları 7392,3 min ton neft emal etmişlər. Bu, 2004-cü illə müqayisədə 17,2% [13, 29] çoxdur. Avtomobil benzinləri, dizel yanacağı və əmtəəlik soba mazutunun istehsalı artmışdır. Emal edilmiş neft məhsullarının 2237,5 min tonu və ya 32,6%-i [13, 31] xarici ölkələrə ixrac olunmuşdur.

2005-ci ildə şirkət üzrə işçilərin orta siyahı sayı 58541 nəfər olmuşdur ki, bu da 2004-cü ilə nisbətən 384 nəfər çoxdur. Orta aylıq əmək haqqı əvvəlki ilə nisbətən 34,2% [13, 38] artmışdır.

ARDNŞ 2005-ci ili 1195,5 milyon AZN mənfəətlə başa vurmuşdur. 2004-cü ilə nisbətən mənfəət 134,0 milyon AZN [13, 41] artmışdır.

ARDNŞ respublika büdcəsinin ən iri tədiyyəçisi kimi qalır və ildən ilə büdcəyə yönəldilən vəsaitlər artmaqda davam edir. 2005-ci ildə 2004-cü ilə nisbətən 159,1 milyon AZN çox vəsait ödənilmişdir.

2005-ci ildə dövlət büdcəsinə 545,0 milyon AZN ödənilmişdir. Bundan əlavə "Azərbaycan Respublikasının 2005-ci il "Dövlət Büdcəsi haqqında" qanununa uyğun olaraq cari ildə dövlət büdcəsinə əlavə 130,0 milyon AZN [13, 42] vəsait ödənilmişdir.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti 2006-cı il ərzində daha böyük uğurlar əldə etmişdir. İllik neft hasilatı 172 milyon barelə və ya gündə orta hesabla 472000 barelə [46, 17] çatdırılmışdır ki, bu da indiyədək Azərbaycanda əldə edilmiş ən yüksək hasilat göstəricisidir.

Xəzər dənizi hövzəsində ən böyük neft yatağı olan "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağı ABƏŞ-in əməliyyatçısı olan "BP-Azərbaycan" şirkəti tərəfindən işlənir.

2006-cı il ərzində AÇG-nin əməliyyat xərcləri planlaşdırılmış 227 milyon dollara qarşı 234 milyon dollar, əsaslı xərcləri

isə 2 milyard 552 milyon dollara qarşı 2 milyard 477 milyon dollar təşkil etmişdir.

2006-cı ilin ortalarından başlayaraq neft hasilatı planları artıqlaması ilə yerinə yetirilmişdir. Bütövlükdə göstərilən təsərrüfat ilində planda nəzərdə tutulmuş 458 000 barelə qarşı gündə orta hesabla 472 000 barel neft hasil edilmişdir. Buna “Şərqi Azəri”də birinci neftin hasil edilməsinin qrafiki dörd ay qabaqlaması və quyunun yüksək istismar səmərəliliyi nəticəsində nail olunmuşdur. “Azəri-Çıraq-Günəşli” yatağının neft quyuları “BP”nin bütün dünyadakı portfelində ən məhsuldar quyular sırasındadır, Bütün dünyada “BP-Azərbaycan” şirkətinin 10 ən yaxşı neft hasilatı quyusundan yeddisi AÇG yatağındadır.

Ayrı-ayrı neft yataqları üzrə götürsək orta hesabla gündə hasil edilmiş 472 000 barel neftin 142 000 bareli “Çıraq”dan, 223 000 bareli “Mərkəzi Azəri” platformasından, 96 000 bareli “Qərbi Azəri” və 11 000 bareli “Şərqi Azəri” platformasından hasil edilmişdir.

AÇG yatağından neftlə birlikdə səmt qazı da hasil edilmiş və istehlakçılara çatdırılmışdır. 2006-cı ildə MA, QA və ŞA platformasından hasil edilən 2,2 milyard kubmetr [46, 17] səmt qazı Səngəçal terminalına və oradan da Azərbaycanda daxili istehlak üçün “Azəriqaz”ın milli qaz şəbəkəsinə nəql edilmişdir.

2006-cı ildə əməliyyatçısı “BP-Azərbaycan” şirkəti olan Səngəçal terminalı da çox uğurlu fəaliyyət göstərmişdir. Səngəçal inteqrasiya olunmuş terminaldan çox, hər bir elementi ayrıca idarə oluna bilən kompleks terminal hesab olunur. Əsas texnoloji qurğular layihələr arasında bölüşdürülmüş və vahid idarəetmə qrupu (Səngəçal terminalının genişləndirilməsi proqramı – STGP) və vahid baş podratçı olan Türkiyənin “Tekfen” şirkəti və ARDNŞ-in yaratdığı “Azfen” şirkətinin daxil olduğu “Tekfen-Azfen” alyansı tərəfindən inşa edilmişdir. Bu ilin sonunda Səngəçal terminalı 1,2 milyon bareldən çox neft (162000 ton) və

56 [46, 19] milyon kubmetrdən artıq qaz emal etmişdir. Terminalın xam neft saxlama gücü 3 milyon barel (405000 ton) olmuşdur. Səngəçal terminalının genişləndirilməsi proqramının "Mərhələ-3" qurğuları 2007-ci ilin dördüncü rübü ərzində başa çatdırılmışdır.

2006-cı ilin ortalarında Bakı-Tbilisi-Ceyhan ixrac boru kəməri üzrə əsas qurğuların tikintisi və xəttin doldurulması başa çatdırılmışdır. Kəmərin istismar mərhələsinə ilin ikinci yarısında başlanılmış və nasos stansiyaları sistemə qoşulduqca boru kəmərinin məhsuldarlığı getdikcə sabit şəkildə artmışdır. 2006-cı il ərzində xəttin əsaslı xərcləri 920 [46, 20] milyon dollar olmuşdur.

"Eksploreyşn (Şahdəniz) Limited" şirkəti "Şahdəniz"in əməliyyatçısı və Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) texniki operatorudur. "Eksploreyşn Limited" Cənubi Qafqaz Boru Kəmərinin inşası və texniki işi üçün cavabdehdir. "Statoyl" şirkəti isə boru kəmərinin kommersiya operatorudur və təbii qazın istifadəçilərə çatdırılmasına məsuldur.

2006-cı ilin sonu üçün "Şahdəniz" "Mərhələ-1"in ən yüksək sabit hasilat dövründə 8,6 milyard kubmetr qaz və gündə təxminən 30 000 barel kondensat hasil edilmişdir. "Mərhələ-1"-üzrə quruda və dənizdə qurğuların inşası, sınaqdan keçirilməsi və istismara verilməsi işləri başa çatdırılmışdır.

"Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri üçün birinci mərhələnin işlənmə xərcləri 4,1 [46, 21] milyard dollar təşkil etmişdir.

2006-cı il ərzində axtarış kəşfiyyat işləri 2217 metr olmuşdur. Respublika üzrə cəmi 9518 metr, ARDNŞ üzrə 2217 metr, xarici neft şirkətləri üzrə 7301 metr kəşfiyyat qazma işləri görülmüşdür. 2006-cı ildə 30,24 milyon ton neft, 7,5 milyard kubmetr qaz, 0,44 mln. ton kondensat [14, 16-17] istehsal olunmuşdur.

İşlənmənin əvvəlindən 2007-ci il yanvarın 1-nə kimi istifa-

dədə olmuş yataqlardan 1520,0 milyon ton neft, 500,2 mlrd. kubmetr [14, 18] qaz çıxarılmışdır.

2006-cı ildə quyulara su vurmaqla 437,3 min ton, o cümlədən dəniz üzrə 121,1 min ton, quru üzrə 316,2 min ton əlavə neft hasil edilmişdir. İl ərzində 884 səmərələşdirici tədbiri həyata keçirilmiş və 595 min ton əlavə neft çıxarılmışdır. ARDNŞ üzrə 2006-cı ildə 8 milyon 883,8 min ton [14, 19] neft istehsal olunmuşdur.

ARDNŞ üzrə iki zavodda 7450,7 min ton neft emal edilmişdir. O cümlədən Heydər Əliyev adına BNEZ üzrə 4278,8 min ton, "Azərneftyağ" zavodu üzrə 3171,9 min ton neft [14, 29] emal edilmişdir.

Neft məhsullarının maya dəyərinin 85-90 %-i xam neftin alınmasına çəkilən xərclər təşkil edir. 2006-cı ildə bir ton neftin maya dəyəri 48,57 manat [14, 37] təşkil etmişdir. 1000 kubmetr qaz hasilatına çəkilən xərclər isə 25,50 manat [14, 39] təşkil edib. Neftin və qazın maya dəyəri artmışdır və bunun səbəbi əmək haqqı və yanacaq xərclərinin artması ilə əlaqədardır.

2006-cı ildə ARDNŞ üzrə işçilərin sayı 59091 nəfər olmuşdur və əvvəlki ilə nisbətən 901 nəfər çoxdur. Şirkət üzrə orta aylıq əmək haqqı 317,92 manat [14, 41-43] təşkil etmişdir. İşçilərin sayının artması yeni müəssisələrin yaradılması və regionların sosial-iqtisadi inkişaf proqramının icra edilməsi nəticəsində yeni iş yerlərinin yaradılması ilə əlaqədardır [14, 47]. ARDNŞ-in strukturunun təkmilləşdirilməsi nəticəsində "Sosial-inkişaf", "Təhlükəsizlik", "Ekologiya", "Qaz əməliyyatları", "İnformasiya" texnologiyaları və rabitə idarələri yaradılmışdır. Orta aylıq əmək haqqı 45,1% artmışdır.

ARDNŞ 2006-cı ili 1445,3 milyon manat gəlirlə başa vurmuşdur və respublika büdcəsinin ən iri tədiyyəçisi kimi həmin ildə büdcəyə 734,1 milyon manat ödəmişdir ki, bu da əvvəlki ilə nisbətən 189,1 mln. manat çoxdur. Bundan əlavə dolayı subsidi-

yalar hesabına dövlət büdcəsinə 581,4 mln. manat ödənilmişdir.

2007-ci il yanvarın 1-ə kimi bir il müddətinə ARDNŞ üzrə işçilərin sayı 2696 nəfər artaraq 61692 nəfər [14, 66-67] olmuşdur. Onlardan 14869 nəfəri qadınlar olmuş və onlar işçilərin 24,1 faizini təşkil etmişlər [14, 66].

2005-ci ildə ARDNŞ üzrə 1488 nəfər fəhlə peşə hazırlığı keçmişdir, o cümlədən Azneft İB-ni Tədris mərkəzində 1230 nəfər fəhlə öz ixtisasını artırmışdır. 2006-2007-ci tədris illərində 5 nəfər perspektivli [14, 67, 68] gənc xarici universitetlərdə təhsil almağa göndərilmişdir.

Əməyin mühafizəsi və ətraf mühitin qorunması sahəsində xeyli iş görülmüşdür. 2006-cı ildə ekoloji vəziyyəti yaxşılaşdırmaq üçün texnoloji qurğuların və avadanlıqların yeniləşdirilməsi və təmiri, torpaqların təmizlənməsi, yaşıllıqların salınması, tullantıların zərərsizləşdirilməsi və abadlaşdırma işləri davam etdirilmişdir.

2007-ci ildə "Şahdəniz" yatağının işlənməsi üzrə əməliyyat xərclərinin ödənilməsinə 170 milyon dollar, əsaslı xərclərin ödənilməsinə isə 364 milyon dollar vəsait xərclənmişdir. "Şahdəniz" "Mərhələ-1"-dən maksimum hasilatın sabit səviyyəsinin ildə 8,6 milyard kubmetr qaz və gündə təxminən 45 000 [47, 15-16] barel kondensat hasil edilməsi nəzərdə tutulmuşdur.

Səngəçal terminalının genişləndirilməsi işi davam etdirilmişdir. "Azəri-Çıraq-Günəşli" "Faza-3" üçün beşinci və altıncı aqreqatların istismara verilməsi 2007-ci ilin oktyabr ayında başa çatdırılmış və bununla da Səngəçal terminalının genişləndirilməsi proqramı yerinə yetirilmişdir. 2007-ci ildə Səngəçal terminalında ən yüksək gündəlik ixrac göstəricisinə (dekabrın 21-də) nail olunmuşdur. Həmin vaxt terminaldan 991 276 [47, 17] barel neft ixrac edilmişdir. 2007-ci ilin sonunda terminalın ötürmə qabiliyyəti gündə 1 milyon barel olmuşdur.

2007-ci il ərzində BTC uğurlu fəaliyyət göstərmişdir, 2007-

ci ilin mart ayında boru kəmərinin gündə bir milyon barel layihə gücü işə salınmış və il ərzində BTC-nin orta məhsuldarlığı gündə 600 min barel [47, 17] olmuşdur. 2007-ci ildə "BP"nin BTC-yə sərf etdiyi əsaslı xərclər 154 [47, 18] milyon dollar olmuşdur.

"BP Azərbaycan" şirkəti 2007-ci il ərzində Cənubi Qafqaz Boru Kəmərinə 64 milyon dollar əsaslı vəsait xərcləmişdir. Xatırladaq ki, uzunluğu 690 km olan Cənubi Qafqaz Boru Kəmərinin texniki əməliyyatçısı "BP Eksploreyşn (Şahdəniz) LTD" şirkətidir. Boru kəmərinin tikinti və texniki əməliyyatları bu şirkət tərəfindən həyata keçirilmişdir. Boru kəməri gündə 720 milyon fut, ildə isə 7,4 milyard kubmetr təbii qaz ixrac etmək qabiliyyətinə malikdir. 2007-ci ilin sonunda CQBK-nin qazötürmə qabiliyyəti 8,06 [47, 18] milyard kubmetr olmuşdur.

Qərb İxrac Boru Kəməri 2007-ci il ərzində geniş təmir və dəyişdirmə işlərinə imkan yaratmaq məqsədilə dayandırılmışdı. Tələbata və AÇG hasilatına heç bir təsir olmaması üçün digər marşrutlardan istifadə edilmişdir.

2007-ci il ərzində Şimal İxrac Boru Kəməri ilə Azərbaycan nefti Avropa bazarlarına çatdırılmışdır. Bakı-Novorossiysk kəmərinin operatoru əvvəlcə ABƏŞ 2008-ci ilin əvvəllərindən isə ARDNŞ olmuşdur.

2007-ci il ərzində "BP-Azərbaycan" şirkəti Xəzər regionunun bir sıra yataqlarında geoloji-kəşfiyyat işlərini davam etdirmişdir.

"BP-Azərbaycan" şirkəti 2007-ci il əməliyyatlarında bir çox nailiyyətlərlə, o cümlədən "Azəri-Çıraq-Dərinsulu Günəşli" neft yatağında hasilatın artırılması, Şahdəniz qaz yatağında mühüm bir kəşf və Səngəçal terminalının genişləndirmə proqramının uğurla başa çatdırılması ilə əlamətdar olmuşdur.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin əməliyyatçısı olan "BP-Azərbaycan" şirkəti tərəfindən AÇG-də hasilat işlərinə 1997-ci ildə "Çıraq" yatağından başlanmışdır. "Faza-1" və

"Faza-2" işlənmələri Şərq, Qərb və "Mərkəzi Azəri" kompleksində aparılmışdır. Bundan sonra "Faza-3" – "Dərinsulu Günəşli" yatağının işlənməsi əməliyyatı həyata keçirilmişdir. Tammiqyaslı "Azəri-Çıraq-Günəşli" əməliyyatlarına 2008-ci ilin ikinci rübündə başlanılmışdır.

2007-ci ildə ABƏŞ ("BP Azərbaycan" şirkəti) "Azəri-Çıraq-Günəşli" yatağında planda nəzərdə tutulmuş 708 000 barel neftə qarşı orta hesabla gündə təxminən 668 000 barel neft [47, 14, 15] hasil etmişdir. Hasilatın nisbətən azalmasına səbəb "Çıraq" yatağındakı üç quyunun gözlənilmədən su və qum hasil etməsi, habelə "Şərqi Azəri" platformasındakı neftdə qaz əmsalının proqnozlaşdırıldığından yuxarı olması ilə bağlı məhsuldarlığın aşağı düşməsi ilə əlaqədar olmuşdur.

ABƏŞ (BP Azərbaycan) tərəfindən 1997-2007-ci illər ərzində "Azəri-Çıraq-Günəşli" yatağından 792 milyon barel (təxminən 107 milyon ton) [47, 14] neft hasil edilmişdir.

2007-ci ildə ABƏŞ-in "BP-Azərbaycan" şirkəti ARDNŞ-ə planlaşdırıldığından təxminən iki dəfə çox, 2,4 milyard kubmetrə [47, 14] yaxın "Azəri-Çıraq-Günəşli" səmt qazı vermişdir.

2007-ci il ərzində ABƏŞ-in "BP-Azərbaycan" şirkətinin "Azəri-Çıraq-Günəşli" kompleksi ilə əlaqədar xərcləri 445 milyon dollar, əsaslı xərcləri isə 2 milyard 822 milyon dollar [47, 14] olmuşdur.

2007-ci ildə ARDNŞ üzrə 57 neft-qaz yatağı istismarda olmuşdur. İşlənmənin əvvəlindən 2008-ci ilin yanvarına kimi istismarda olmuş yataqlardan 1 milyard 562 milyon ton neft, 521,3 milyard kubmetr qaz çıxarılmışdır. Həmin ildə 8,8 milyon ton neft hasil edilmiş və tapşırıq 100 faiz yerinə yetirilmişdir. Qaz istehsalı 6 milyard [15, 19] kubmetr olmuşdur.

2007-ci ildə ARDNŞ tərəfindən dövlət büdcəsinə 1 milyon 80,7 min manat köçürülüb ki, bu da 2006-cı ildəkinə nisbətən 734,6 min manat çoxdur. Dövlət sosial müdafiə fonduna 78,1

min manat köçürülmüşdür. Neft qaz istehsalını artırmaq üçün axtarış-kəşfiyyat işləri davam etdirilmişdir. Axtarış kəşfiyyat qazması işləri respublikanın neft-qaz yataqlarında, perspektivli strukturlarda və saziş sahələrində aparılmışdır. Xarici neft şirkətləri ilə birgə 15 min 784 metr qazma işi görülmüşdür. Azərbaycan üzrə cəmi 20 min 526 metr [15, 18] axtarış kəşfiyyat işləri aparılmışdır və 2007-ci ildə ARDNŞ üzrə 149 yeni quyu istismara verilmiş, 249,7 min ton əlavə neft çıxarılmışdır. Geoloji tədbirlər nəticəsində isə 499,2 min ton [15, 19] əlavə neft hasil edilmişdir.

2007-ci ildə ABƏŞ-lə ARDNŞ birlikdə rekord həcmdə – 42 milyon tondan artıq, o cümlədən göstərildiyi kimi ARDNŞ üzrə 8 milyon 800,9 min ton [15, 21] neft hasil edilmişdir. Qaz hasilatının artırılması, "Azəri", "Çıraq" yataqlarının intensivləşdirilməsi "Şahdəniz" yatağının istismara daxil edilməsi hesabına ölkədaxili tələbat tam ödənilmiş, həm də Azərbaycan qaz ixracatçısı kimi dünya bazarına daxil olmuşdur. Bu ildə istismara daxil olmuş Cənubi Qafqaz Boru Kəməri vasitəsilə Türkiyəyə 1 milyard 210 milyon kubmetr [15, 25], Gürcüstana 252 milyon kubmetr qaz nəql edilmişdir. Bu dövrdə 1 ton neftin maya dəyəri 57,74 manat [15, 34], 1000 kubmetr qazın maya dəyəri isə 27,75 manat [15, 36] təşkil etmişdir.

2007-ci ildə ARDNŞ üzrə işçilərin sayı 61 min 725 nəfər, orta aylıq əmək haqqı 443 manat olmuşdur. ARDNŞ 2007-ci ili 1 milyard 537,9 milyon manatla başa vurub və ən iri tədiyyəçi kimi respublika büdcəsinə 1 milyard 80,7 milyon manat, dolayı subsidiyalar hesabına 129,2 milyon manat və sosial müdafiə fonduna 78,1 milyon [15, 40, 42] manat köçürmüşdür.

ARDNŞ-in müəssisələrində 37 adda [15, 51] yeni texnika texnologiya tədbiri həyata keçirilmiş, işçilərin sosial vəziyyəti yaxşılaşdırılmış və 135 mənzil verilmişdir. İl ərzində işçilərə 17 milyon [15, 75] manatdan çox maddi yardım göstərilmişdir.

"BP-Azərbaycan" şirkəti 2008-ci ildə mövcud dörd platformadan və yeni quraşdırılmış "Dərinsulu Günəşli" (DSG) platformasından gündə orta hesabla 840 000 barel neft hasil etməyi planlaşdırmışdır. Platformalar üzrə gündəlik ümumi hasilat:

134 000 barel "Çıraq"dan;

243 500 barel "Mərkəzi Azəri"dən;

235 300 barel "Qərbi Azəri"dən;

144 400 barel "Şərqi Azəri"dən.

82 800 barel [48, 14-15] DSG-dən hasil olunacağı proqnozlaşdırılmışdır.

"BP-Azərbaycan" şirkəti operatoru olduğu "Şahdəniz" (ŞD) yatağından 2007-ci il ərzində 2,8 milyard kubmetr plana qarşı 3,1 milyard kubmetr qaz və 0,8 [47, 15] milyon ton kondensat hasil etmişdir. 2007-ci ilin fevralında "Şahdəniz" qazının satışına başlanılmış və birinci ŞD qazı həmin ilin iyul ayında Türkiyəyə çatdırılmışdır.

2008-ci il ərzində Səngəçal terminalının genişləndirmə proqramı üzrə iş davam etdirilmişdir. "BP-Azərbaycan" şirkəti il ərzində layihələndirmə işlərini başa çatdırmış, lazım olan avadanlığı Bakıya gətirərək layihənin ilkin mərhələlərini tamamlamışdır.

2008-ci ilə BTC boru kəməri ilə AÇG-dən hasil edilən neft və "Şahdəniz" yatağından hasil edilən kondensatın nəqli davam etdirilmişdir (BTC neft kəməri haqqında III fəsildə geniş məlumat verilmişdir – M.A.)

2008-ci ildə Cənubi Qafqaz Boru Kəməri ahəngdar işləmişdir. CQBK vasitəsilə nəql olunan "Şahdəniz" qazının həcmi orta hesabla gündə 19,8 milyon kubmetr olmuşdur. Bu il ərzində CQBK ilə əlaqədar fəaliyyətlərə qoyulmuş əsaslı xərclərin miqdarı 22 milyon dollara [48, 13] bərabər olmuşdur.

2008-ci il avqustun əvvəllərində Qərb İxrac Boru Kəmərinin təmiri və təkmilləşdirilməsi layihəsi uğurla başa çatdırılmış-

dır. Lakin həmin ilin avqustunda Gürcüstanda baş vermiş hərbi münaqişə ilə bağlı QİBK-də əməliyyatları dayandırılmış və noyabr ayının 5-də yenidən işə salınmışdır. 2008-ci ilin sonunda boru kəməri ilə Supsa terminalına gündə 90 min barel neft nəql edilmişdir.

2008-ci il ərzində cəmi orta hesabla gündə 688,5 min barel karbohidrogen hasil edilmişdir. 2008-ci ilin noyabr ayından Qazaxıstanın Tengiz yatağından birinci xam neft BTC boru kəməri ilə nəql edilməyə başlanmışdır.

2008-ci ildə bir sıra maddi-texniki çətinliklərə baxmayaraq, ABƏŞ-in "BP-Azərbaycan" şirkəti əhəmiyyətli nailiyyətlər əldə etmişdir. "Azəri-Çıraq-Dərinsulu Günəşli" neft yatağında və "Şahdəniz" qaz yatağında daha yüksək hasilat alınmışdır. ABƏŞ-in əməliyyatçısı olan "BP-Azərbaycan" şirkəti AÇG-də hasilat işlərini davam etdirmiş və bunun ardınca yatağın Şərqi, Qərbi və "Mərkəzi Azəri" hissələrinin üç mərhələdə işlənməsini həyata keçirmişdir.

2008-ci ildə ABƏŞ bütövlükdə təxminən 252 milyon barel (34 milyon tondan artıq) neft hasil etmişdir. "Azəri-Çıraq-Günəşli" yatağından gündəlik neft hasilatı 688,5 min barel olmuşdur. İl ərzində "BP-Azərbaycan" şirkəti tərəfindən ARDNŞ-ə 2,1 milyard kubmetr AÇG qazı çatdırılmışdır. Kapital xərcləri təxminən 1,9 milyard və əməliyyat xərcləri 645 milyon [48, 10] dollar olmuşdur.

"Azəri-Çıraq-Günəşli" yatağında çıxarıla bilən ehtiyatların həcminin təxminən 5 milyard bareldən artıq neft olduğu hesablanmışdır. Bu ehtiyatların çıxarılması mürəkkəb metodların tətbiq olunmasını, qabaqlayıcı seysmik məlumatların analizi nəticələrindən və yüksək funksional qazma və tamamlama texnologiyasından istifadə edilməsini tələb edir və bu üsulla əməliyyatlar davam etdirilmişdir.

2008-ci il ərzində "Şahdəniz" yatağından hasil edilən qazın

həcmi 7,1 milyard kubmetrə, kondensat hasilatı isə 1,8 milyon tona bərabər olmuşdur [48, 11]. Bu ildə "Şahdəniz"in ikinci mərhələsi üçün planlara dəstək verməklə, yataqda qiymətləndirmə fəaliyyəti davam etdirilmişdir. Yatağın cənub şərq hissəsində "İstiqlal" qazma qurğusu ilə yeni kəşfiyyat quyusu qazılmışdır. Kəşfiyyat quyusundan alınmış məlumatlar "Şahdəniz" "Mərhələ-2" işlənməsinin həcmini və vaxtını müəyyən etməyə kömək etmişdir. 2008-ci ildə "Şahdəniz" yatağı üzrə əsaslı xərclər 471 milyon və əməliyyat xərcləri 152 milyon dollar [48, 11] təşkil etmişdir.

2008-ci ilə qədər ARDNŞ-lə xaric neft şirkətləri arasında 29 "Hasilatın Pay Bölgüsü" sazişi imzalanmışdır. Bunlardan 16 saziş Xəzərin Azərbaycan Respublikası sektorunu [16, 2], 13 saziş isə quru sahələri əhatə edir.

2008-ci ildə Azərbaycanda rekord həcmdə – 44,5 milyon ton neft hasil edilmişdir. İşlənmənin əvvəlindən 2008-ci il yanvarın 1-ə kimi Azərbaycan Respublikası üzrə istismarda olmuş yataqlardan 1 milyard 606,7 milyon ton neft, 546,3 milyard kubmetr [16, 4, 22] qaz çıxarılmışdır.

Həyata keçirilmiş 5260 geoloji-texniki tədbir hesabına 572 min ton əlavə neft hasil olunmuşdur. ARDNŞ üzrə 8 milyon 651 min ton [16, 27] neft hasil edilmişdir.

ARDNŞ-in bilavasitə iştirakı ilə 2008-ci ildə Kulevi Qara Dəniz Terminalı istismara verilmişdir. Terminalın yenidən qurulmasına 340 milyon dollar xərclənmişdir. ARDNŞ Türkiyənin ən iri neft kimya müəssisəsi olan "Petkini" öz idarəçiliyinə götürmüşdür. Qeyd edilən və digər məsələlərin həlli ARDNŞ-in dünyada baş verən iqtisadi böhranın fəsadlarından az itki ilə çıxmasına səbəb olmuşdur.

ARDNŞ üzrə 202954 metr plan qazma işləri aparılmış, 6435 metr artıq yerinə yetirilmiş və 166 yeni quyu istismara verilmişdir. Laylara su vurma və digər təsir üsulları ilə yüz minlər-

lə ton əlavə neft alınmış, 219 geoloji tədbir tətbiq edilmiş, 510 min ton əlavə neft hasilatına nail olunmuşdur. Dəniz yataqları üzrə 174 geoloji tədbir nəticəsində 442,5 min ton [16, 23] əlavə neft çıxarılmışdır.

2008-ci ildə ARDNŞ üzrə 8651,3 min ton neft hasil edilib (47,7 min ton az) [16, 27]. Bu il qaz hasilat proqnozu 8000,0 mln. kubmetr müəyyənləşdirilsə də, faktiki olaraq 7 milyard 752,6 mln. kubmetr olmuşdur. Qaz təhvili 7000,0 milyon kubmetr proqnozlaşdırılsa da, faktiki olaraq 6776,4 mln. kubmetr [16, 30] olmuşdur. 2008-də AÇG-dən 2106,8 milyon kubmetr qaz qəbul edilib və 2096,7 kubmetr təhvil verilmişdir. "Şahdəniz" yatağından 2365,7 mln. kubmetr [16, 31] qaz qəbul edilmişdir.

2008-ci ildə ARDNŞ üzrə 7347,97 min ton neft emal olunmuşdur. H.Əliyev adına BNEZ-də 4780,1 min ton, "Azneftyağ" zavodunda 2567,87 min ton [16, 34] emal edilmişdir. ARDNŞ üzrə işçilərin sayı 64 794 nəfər olmuşdur və əvvəlki ilə nisbətən 3069 nəfər artıb. Orta aylıq əmək haqqı 27% artaraq 563,7 manata çatmışdır [16, 42]. 1 ton əmtəəlik neft hasilatına çəkilən xərclər 68,26 manat [16, 45] təşkil etmişdir.

2009-cu il yanvarın 1-ə kimi ARDNŞ üzrə işçilərin sayı 65083 nəfər olmuş və 2008-də ARDNŞ müəssisələrinə 7245 nəfər [16, 81, 83] işə qəbul edilmişdir.

2008-ci ildə ARDNŞ ekoloji vəziyyəti yaxşılaşdırmaq üçün kompleks tədbirlər həyata keçirmişdir. Abşeron yarımadasında Bibiheybət yatağı zonasında, Balaxanı-Sabunçu-Ramana yatağında zavodların həyətində və s. yerlərdə rekultivasiya və yaşıllaşdırma işləri aparılmışdır. Tibb sağlamlıq mərkəzləri istifadəyə verilmiş, 500 yerlik lisey tikilmiş, Neft Daşlarında, Qaraçuxurda neftçilər üçün yeni binalar tikilmiş [16, 94, 96], yataqxanalar və s. təmir edilmişdir.

2009-cu il ərzində “Şahdəniz” yatağından 6,2 milyard kub-

metr təbii qaz və ildə 1,9 milyon ton kondensat hasil ediləcəyi proqnozlaşdırılmışdır. Əsaslı xərclər təxminən 369 milyon, əməliyyat xərcləri isə 264 milyon dollar həcmində olmuşdur. "Şahdəniz" "Mərhələ-1"in işlənməsindən maksimum hasilatın sabit səviyyəsinin ildə 8,6 milyard kubmetr qaz və gündə 45 min barel kondensat nəzərdə tutulmuşdur [50, 13].

Səngəçal terminalı İlkin Neft Layihəsini, AÇG "Faza-1", "Faza-2", "Faza-3" texnoloji emal qurğularını, BTC-nin əsas nasos stansiyasını, CQBK qurğularını, "Şahdəniz"i, ARDNŞ və üçüncü tərəflərin terminalın – əməliyyatları ilə əlaqələndirilmiş boru kəmərlərini özündə birləşdirən nəhəng bir obyekt kimi fəaliyyət göstərir. Bu günədək Səngəçal terminalının ən yüksək ixrac norması 2008-ci ilin iyul ayının 4-də rekord həcmdə 1,06 milyon barel olmuşdur. Bundan neftin 992 min bareli BTC ilə, 67 min bareli dəmir yolu ilə ixrac edilmişdir [47, 12].

2009-cu ildə ABƏŞ-in "BP-Azərbaycan" şirkəti üzrə neft hasilatı sahəsində yeni nailiyyətlər əldə edilmişdir və il ərzində hasilat 298,4 milyon barel (40 milyon tondan artıq) [49, 2, 3] olmuşdur, "Azəri-Çıraq-Dərinsulu Günəşli" platformalarında orta gündəlik neft hasilatı xeyli artmışdır. "Şahdəniz" yatağında qaz hasilatı 6,2 milyard kubmetr, kondensat hasilatı isə 13,1 milyon barel [49, 5] olmuşdur.

2009-cu il sentyabrın 20-də "Əsrin müqaviləsi" kimi tanınan AÇG üzrə Hasilatın Pay Bölgüsü sazişinin 15-ci il dönümü qeyd edilmişdir.

2009-cu ilin sentyabrında "BP-Azərbaycan" şirkətinin Strateji İcra Bölümünün Prezidenti seçilmiş Rəşid Cavanşirin giriş sözündə neft və qaz hasilatının artırılması, Səngəçal terminalının genişləndirilməsi, BTC boru kəmərinin ötürücülük qabiliyyətinin gündə 1,2 [49, 9] milyon barelə çatdırılması və il ərzində baş vermiş digər əlamətdar hadisələr haqqında məlumat verilmişdir.

“BP-Azərbaycan” neft şirkəti Xəzər regionunda davamlı mövcudluğu saxlamaqla dünya səviyyəli əməliyyatlar və layihələr həyata keçirmək barədə öz öhdəliyinə sadiq olaraq fəaliyyət göstərməkdə davam etmişdir. Bu öhdəliklərin əsasında bütün hallarda qərəzsiz işləmək, ətraf mühiti qorumaq və insan haqlarına hörmətlə yanaşmaq kimi məsuliyyətlər dayanır. Əməliyyatların təhlükəsiz və etibarlı şəkildə həyata keçirilməsi şirkət üçün həmişə böyük əhəmiyyətə malikdir. İş prosesində heç bir qəzaya yol verməmək insanların sağlamlığını qorumaq, ətraf mühitə heç bir ziyan vurmamaqla enerji hasil etməklə maraqlı tərəflər üçün dəyər yaratmaq şirkətin əsas vəzifələrindən biridir.

Əməliyyat şirkəti öz rəqabətə davamlı mövqeyini yeni imkanlar yaratmaq və geoloji-kəşfiyyat işlərində uğur qazanmaqla, fəaliyyət göstərdiyi ölkənin maraqlı tərəfləri ilə əlaqələri yaxşılaşdırmaqla daha da möhkəmləndirməyə səy göstərmişdir.

2009-cu ildə “Şahdəniz”dən hasil edilən qazın həcmi 6,2 milyard kubmetr (2008-ci illə müqayisədə 13 faiz az), kondensat hasilatı 13 milyon barel (təxminən 1,7 milyon ton) olmuşdur. Bu ildə “Şahdəniz” üzrə əsaslı xərclər 289 milyon və əməliyyat xərcləri 192 milyon dollar [49, 13] təşkil etmişdir.

“Şahdəniz” yatağında qaz hasilatının azalmasına səbəb quyulardan birinin 2009-cu ilin sentyabr ayında müvəqqəti olaraq dayandırılması və yay mövsümündə qaza olan tələbatın azalması olmuşdur.

AÇG və Şahdəniz yataqlarından hasil edilmiş neft və qazın sualtı boru kəməri ilə terminala daxil olması davam etdirilmişdir. 2009-cu ildə terminalın texnoloji emal sistemlərinin ümumi gücü 1,2 milyon barel (162 min ton) neft və gündə 1,25 milyon kub fut [49, 14] qaz təşkil etmişdir.

2009-cu ildə Səngəçal terminalı təxminən 326,8 milyon ba-

rel (44,6 milyon) neft ixrac etmişdir. İl ərzində terminalın ən yüksək gündəlik ixrac gücünə sentyabrın 23-də nail olunmuş və həmin vaxt 1,1 milyon barel neft [49, 14] (150 174 ton) texnoloji emaldan keçirilərək ixrac edilmişdir.

2010-cu ildə yeni quyular istifadəyə verildiyindən Şahdəniz yatağından 7,6 milyard kubmetr qaz və təxminən 16 milyon barel (2,01 milyon ton) kondensat hasil ediləcəyi planlaşdırılıb. Şahdəniz yatağının işlənməsinin ikinci mərhələsi üzrə iş davam etdirilmişdir. 2010-cu ildə Şahdəniz üzrə əməliyyat xərcləri 178 milyon, əsaslı xərclər isə 605 milyon dollar [49, 14] həcmində nəzərdə tutulmuşdur.

2009-cu ildə CQBK-nin orta ötürmə qabiliyyəti gündə təxminən 15 milyon kubmetr qaz və ya gündə 92 000 bareldən [49, 15] çox neft ekvivalenti olmuşdur. Bu, 2008-ci illə müqayisədə təxminən 24 faiz az olmuşdur ki, bu da "Şahdəniz" yatağında qaz hasilatının azalması ilə əlaqədardır, CQBK ilə əlaqədar əsaslı xərclər 7 milyon dollar olmuşdur. 2010-cu ildə isə bu xərclərin 12,7 milyon dollarıdək [49, 16] artırılması nəzərdə tutulmuşdur.

2009-cu ildə QİBK vasitəsilə Supsa terminalına 31,4 milyon barel neft [49, 16] ixrac edilmişdir. Bu ildə boru kəmərinin avtomatlaşdırılmış təmizlənməsi, sızmanı aşkar edən sistem və digər əməliyyatlar həyata keçirilmişdir.

Özünü dünya bazarında neftin, qazın və neft məhsullarının ixracatçısı kimi tanıdan Azərbaycan Respublikasının Mərkəzi Asiya karbohidrogen ehtiyatlarının Avropaya nəqli istiqamətində başlıca tranzit ölkə kimi geosiyası əhəmiyyəti artmışdır.

Azərbaycan Respublikasının yanacaq-energetika kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramında ARDNŞ qarşısında işləmədə olan yataqların istismarının intensivləşdirilməsi, müasir mədən-geofiziki və neft mədən avadanlıqlarının istehsalata tətbiqinin sürətləndirilməsi məsələləri başlıca vəzifələr kimi qarşıya qoyulmuşdur. Neftçilər dəniz və quru ya-

taqlarında hasilatın artırılması üçün qüvvələrini səfərbər edərək, hər il yeni-yeni nailiyyətlər qazanmışlar. 2009-cu ilin göstəriciləri bunu təsdiq edir.

2009-cu ildə ABƏŞ-lə ARDNŞ ölkə üzrə rekord nəticə – 50 milyon tondan artıq neft, 24 milyard kubmetrə yaxın qaz hasil edilmişdir. Bu neftin 9 milyon tona, qazın isə 7 [17, 2,4] milyard kubmetrə yaxın hissəsi ARDNŞ-in payına düşmüşdür.

Artıq ARDNŞ qonşu ölkələrə də qaz ixrac etmək imkanlarına malikdir. “Şahdəniz” yatağından və istismardakı digər yataqlardan Gürcüstana, Türkiyəyə, İrana və Rusiyaya qaz ixrac olunur. Azərbaycan qazı Avropa Birliyinin diqqəti mərkəzindədir.

2009-cu il ərzində ARDNŞ tərəfindən 6 milyon tondan çox neft məhsulu benzin, dizel yanacağı, təyyarə yanacağı və s. istehsal olunmuşdur. Zavodlarımızda istehsal olunan yanacaq növləri AVRO-2 standartlarına uyğunlaşdırılmışdır. AVRO-3 standartlarına keçidlə bağlı tədbirlər görülür.

Ekoloji vəziyyəti nəzərə alaraq, şəhərdən kənarda müasir neft-qaz emalı və neft-kimya sənayesinin inkişafı üzrə konseptual təqdimat hazırlanmışdır. Azərbaycan Prezidentinin sərəncamı ilə "Azərkimya" Dövlət Şirkəti ARDNŞ-in tabeliyinə verilmişdir.

ARDNŞ 10-dan artıq ölkədə fəaliyyət göstərən nümayəndəlikləri, Türkiyə, Gürcüstan, Ukrayna və başqa ölkələrdəki birgə müəssisələri vasitəsilə dünya enerji bazarına inamla daxil olmuşdur. Türkiyədəki "Petkin" neft-kimya şirkətinin nəzdində yeni neft emalı zavodu yaradılır. İsveçrədə yaradılmış "SOCAR TRADİNQ" ARDNŞ-in istehsal etdiyi məhsulları enerji bazarında birbaşa istehlakçılara çatdırır.

İşlənmənin əvvəlindən 2010-cu il yanvarın 1-dək 1 milyard 656,9 milyon ton neft və kondensat, 570 milyard 2 mln. kubmetr qaz çıxarılıb. 2009-cu ildə Azərbaycan Respublikası üzrə 50 milyon 419,24 min ton neft kondensatı, 24 milyard [17, 2, 12]

kubmetrə yaxın qaz çıxarılmışdır. ABƏŞ tərəfindən AÇG yatağında 1997-ci ildən bəri 181,2 mln. ton neft, 420 mlrd. kubmetr [17, 13] qaz çıxarılıb.

2009-cu ildə Respublika üzrə ümumi 50,4 milyon ton neft hasil edilmişdir. Neft hasilatının artımı AÇG yataqlarının fəaliyyətinin genişləndirilməsi hesabına əldə edilmişdir. ABƏŞ AÇG yataqlarından 40,22 mln. ton neft hasil etmişdir. Həmin ildə ARDNŞ üzrə isə 8 milyon 543,26 min ton neft çıxarılmışdır. Bu əvvəlki ilə nisbətən 6,24 mln. [17, 16] ton çoxdur.

2009-cu ildə ARDNŞ üzrə 6032,79 min ton neft emal olunaraq tapşırığa 100% əməl olunmuşdur. Bunun 4053,09 min tonu BNEZ-də və 1979,70 min tonu [17, 25] "Azərneftyağ" zavodunda emal edilmişdir.

ARDNŞ üzrə işçilərin sayı 1 yanvar 2010-cu il tarixədək 69568 nəfər [17, 117] olmuşdur. Əvvəlki ilə nisbətən işçilərin sayı 4485 nəfər artmışdır. 2009-cu ildə 13574 nəfər [17, 119] işə qəbul olunmuşdur. İşçilərin 25,3% ali təhsillidir və 130 nəfərin elmi dərəcəsi vardır. Şirkətdə 14485 nəfər qadın işləmiş və işçilərin 20,8 faizini [17, 121] təşkil etmişlər.

Ekologiya, əməyin mühafizəsi və sosial məsələlər diqqət mərkəzində olmuşdur. Balaxanı, Sabunçu, Zabrat, Ramanı, Bibiheybət və s. qəsəbələrdə rekultivasiya işləri davam etdirilmişdir. İşçilər üçün Lökbatan qəsəbəsində yeni yaşayış binaları tikilmişdir ARDNŞ-in 2,5 milyon [17, 136] kv metr mənzil fondu vardır.

"Əsrin müqaviləsi"nin həyata keçirilməsini diqqət mərkəzində saxlayan Azərbaycan Prezidenti İlham Əliyev ən iri neft müqavilələri layihələrində ABƏŞ-in operator rolunu oynayan Böyük Britaniyanın "BP" şirkətinin nümayəndələri ilə tez-tez görüşmüş, yerinə yetirilmiş işlərin hesabatlarını dinləmiş, görüləcək işlər barədə fikir mübadiləsi aparmış və öz dəyərli məsləhətlərini vermişdir.

2010-cu ildə də “BP-Azərbaycan”ın neft və qaz ehtiyatlarının işlənməsində, etibarlı və uzunmüddətli tərəfdaş olaraq, Xəzər regionunda fəaliyyətini davam etdirmiş, dünya səviyyəli əməliyyatlar və layihələr barədə öhdəlikləri yerinə yetirməyə çalışmışdır.

ABƏŞ-in “BP-Azərbaycan” şirkətinin 2010-cu ildə Azərbaycandakı əsas fəaliyyət sahəsi Xəzər dənizindəki hasilat yataqları olmuşdur. Bunlara ən böyük neft yatağı olan “Azəri-Çıraq-Günəşli” və çox böyük qaz-kondensat yatağı olan “Şahdəniz” aiddir. Dənizdə istismarda olan əsas obyektlər “Çıraq”, “Mərkəzi Azəri”, “Qərbi Azəri”, “Şərqi Azəri”, “Şahdəniz” və “Dərinsulu Günəşli” platformalarıdır.

ABƏŞ-in “BP-Azərbaycan” şirkəti tərəfindən yataqlardan neft hasilatı həyata keçirilməklə bərabər Araz-Alov-Şərq sərhəd ərazisində və “Şərqi Asiman” ərazisində geoloji-kəşfiyyat axtarış işləri də aparılmışdır.

Həyata keçirilməsinə başlandıqdan 2010-cu ilə qədər AÇG, BTC, Şahdəniz “Mərhələ-1” və CQBK layihələri üçün təxminən 31,6 milyard dollar [50, 5] əsaslı vəsait xərclənmişdir.

ABƏŞ AÇG yatağından 1997-2010-cu illərdə cəmi 1 milyard 643 milyon bareldən artıq, 2010-cu ildə 300,4 milyon barel neft hasil etmişdir. Həmin dövrdə Şahdəniz yatağından təxminən 49,7 milyon barel, 2010-cu ildə isə təxminən 14,7 milyon barel [50, 5] kondensat hasil edilmişdir.

“BP Azərbaycan” şirkəti gələcəkdə Azərbaycan ərazisində öz fəaliyyətini davam etdirmək üçün 2010-cu il oktyabrın 7-də ARDNŞ ilə “Şərqi Asiman” perspektiv strukturlarının birgə kəşfiyyatı və işlənməsi üzrə Hasilatın Pay Bölgüsü Sazişi imzalamışdır. Bu ilin dekabrında isə Şahdəniz HPBS-nin 2031-ci ildən 2036 ilədək beş il müddətinə uzadılması haqqında müqavilə imzalanmışdır.

“Şahdəniz” yatağının tammiqyaslı işlənməsi layihəsinin bir hissəsi kimi Azərbaycan və Türkiyə hökumətləri Anlaşma Me-

morandumu imzalamışlar.

“Şahdəniz” “Mərhələ-1” layihəsinə əsasən Cənubi Qafqaz Boru Kəməri vasitəsilə Azərbaycan qazı Gürcüstan ərazisindən keçməklə Türkiyəyə ixrac edilir. Türkiyə ilə Azərbaycan arasında imzalanmış Anlaşma Memorandumuna əsasən təbii qaz ixracını artırmaq üçün “Şahdəniz” yatağının ikinci mərhələsinə başlanılacaqdır. “Şahdəniz”in ikinci mərhələsinin işlənməsi 28 milyard dollar qiymətləndirilmişdir. İkinci mərhələdə “Şahdəniz” yatağından ildə 16 milyard kubmetr qaz hasil ediləcəkdir.

“Şahdəniz” “Mərhələ-2”də nəzərdə tutulmuş qaz hasilatına nail olmaq üçün iki platforma tikilməsi, 26 sualtı quyu qazılması, dənizin 550 metr dərinliyində 500 kilometr uzunluğunda sualtı boru xətti çəkilməsi və Səngəçal terminalının genişləndirilməsi proqnozlaşdırılmışdır.

“BP-Azərbaycan” şirkəti Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti adından AÇG yatağının əməliyyatçısı kimi 1997-ci ilin noyabrından yatağın “Çıraq” hissəsindən neft hasilatına başlamış, 2010-cu ildə isə Mərkəzi, Qərbi və “Şərqi Azəri”, həmçinin “Dərinsulu Günəşli” hissəsində hasilatı davam etdirmişdir.

2010-cu ildə ABƏŞ AÇG kompleksindən orta hesabla gündə 823 100 barel, ildə 300,4 milyon barel və ya ildə 40,6 milyon [50, 10] ton neft hasil etmişdir.

2010-cu ildə AÇG üzrə əməliyyat xərcləri cəmi 426 milyon, əsaslı xərclər isə 1 milyard 648 milyon dollar [50, 10] təşkil etmişdir.

“BP-Azərbaycan” şirkətinin 2010-ci il üzrə hesabat arxivindəki məlumatında göstərilir ki, 2010-cu ildə neft hasilatı əsasən yeni quyu məhsuldarlığı və quyularda gözlənilməz nasazlıqlara görə proqnozlaşdırıldığından aşağı olmuşdur. Lakin Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində Azər-

baycan Beynəlxalq Əməliyyat Şirkətinin və onun operatoru “BP”nin fəaliyyəti kəskin tənqid edilmiş və qoyulmuş xarici investisiyalar haqqında deyilir: “İlkin mərhələlərdə böyük investisiya qoyulurdu, xarici investorların payı daha böyük idi və təxminən 75-25 faiz xaricilərin xeyrinə, əgər belə demək mümkünsə, onlar öz investisiyalarını qaytardıqdan sonra pay bölgüsü dəyişməyə başlanmışdır və əllinin-əlliyə səviyyəsinə bölünürdü” [28].

2008-ci ilin ortalarından isə hasilatın pay bölgüsü Azərbaycanın xeyrinə dəyişmiş və hazırda 75-25 faiz təşkil edir. Mənfəət neftinin 75 faizi Azərbaycanın payına düşməyə başladıqdan sonra “Azəri”, “Çıraq” yataqlarında hasilat azalmağa başlamışdır.

“BP-Azərbaycan” şirkətinin 2010-cu il üçün Davamlı inkişaf haqqında hesabat arxivinin “Strategiyamız” bölməsində göstərilir ki, biz Azərbaycanın neft və qaz ehtiyatlarının işlənməsində dəyərli, etibarlı və uzunmüddətli bir tərəfdaş olmağa çalışırıq. Biz Xəzər regionunda mövcudluğumuzu davamlı olaraq saxlamaqla, dünya səviyyəli əməliyyatlar və layihələr həyata keçirmək barədə öhdəliyimizə sadiqik. Lakin faktlar və rəqəmlər göstərir ki, “BP-Azərbaycan” şirkəti dünya səviyyəli əməliyyatlar və layihələr həyata keçirmək barədə öz üzərinə götürdüyü öhdəliyə sadiq deyildir. Aşağıda göstərilən neft hasilatı proqnozları və faktları bu fikri təsdiq edir:

2009-cu ildə neft hasilatı proqnozu 46,8 milyon ton, faktiki 40,3 milyon ton.

2010-ci ildə proqnoz 42,1 milyon ton, faktiki 40,6 milyon ton.

2011-ci ildə proqnoz 40,2 milyon ton, faktiki 36 milyon ton [40].

Azərbaycan Prezidenti İlham Əliyev nitqində göstərmişdir

ki, 2012-ci ildə verilmiş proqnoza görə neft hasilatı 35,6 milyon ton olmalı idi, gözlənilən proqnoza görə isə 33 milyon ton planlaşdırılmışdır. Göstərilən illər üzrə, yəni 2008-ci ilin ortalarından 2012-ci ilədək Azərbaycanın bilavasitə əldə edilməmiş gəliri 8,1 milyard [40] dollar təşkil etmişdir.

"BP-Azərbaycan" şirkətinin fəaliyyəti Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən kəskin tənqid edildiyi üçün şirkətin rəhbərliyi vəziyyəti düzəldəcəkləri barədə Respublika Prezidentinə və ARDNŞ rəhbərliyinə vədlər vermişdir.

Ölkə rəhbəri İlham Əliyevin nitqində göstərildiyi kimi: "Burada vaxt uzatma prosesi gedir. Ona görə hesab edirəm ki, bu tamamilə dözülməz bir haldır. Artıq Dövlət Neft Şirkətinə tapşırıq verilmişdir ki, bu məsələ rəsmi qaydada qaldırılsın və lazımi tədbirlər görülsün" [40].

Azərbaycan hökuməti, ARDNŞ konsorsiumla, "BP" şirkəti ilə uzun illərdir ki, əməkdaşlıq edir və bütün dövrlərdə onun fəaliyyətini dəstəkləmişdir. "Azəri", "Çıraq" yataqlarına konsorsium tərəfindən əvvəldən indiyədək 28,7 milyard dollar investisiya qoyulmuşdursa, bu müddətdə konsorsium 73 milyard dollar gəlir götürmüşdür. Azərbaycan tərəfi də böyük mənfəət götürmüşdür. Ölkəmizin 45 milyard [40] dollar səviyyəsində olan valyuta ehtiyatlarının böyük hissəsi Neft Fondunun vəsaitidir. Etiraf və vədlərə əsasən belə hesab etmək olar ki, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, onun operatoru olan "BP-Azərbaycan" şirkəti Azərbaycan hökumətinin, ARDNŞ-in dəstəyi və tərəfdaşlarının sıx əməkdaşlığı şəraitində, qarşılıqlı inamı bərpa edəcək və şirkət öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirərək daha böyük müvəffəqiyyətlər əldə edəcəkdir.

İndiyədək Azərbaycandan 255,5 milyon ton neft, 22,2 milyard [50, 2] kubmetr qaz ixrac olunmuşdur. Azərbaycan dünyanın 33 ölkəsinə, o cümlədən ABŞ, Çin, Braziliya, Çili, Tailand və s. ölkələrə neft və neft məhsulları, ixrac edir.

Son dövrlərdə 200 mlrd. kubmetrdən çox ehtiyatları olan "Ümid" qaz kondensat yatağı aşkarlanıb. Bu, müstəqillik əldə edildikdən sonra aşkarlanmış ilk yataqdır. "Babək" strukturunun ehtiyatları isə 400 mlrd kubmetr qaz və 80 mln ton kondensat təşkil edir.

Prezidentin sərəncamı ilə "Azərkimya" ARDNŞ"in tabeliyinə verildikdən sonra onun müəssisələrində "xammal-yarımfabrikat-hazır məhsul" istehsal fəaliyyətinə nail olunmuşdur və neft-kimya məhsullarının 90-faizi ixrac edilir.

"Petkin" neft-kimya konserni nəzdində Egey neft emalı zavodu inşa edildikdən sonra məhsulları Türkiyə bazarı ilə bərabər, Aralıq dənizi və Cənubi Avropa bazarlarına ixrac ediləcək və "Petkin"də neft emalı 10 mln. tona, neft-kimya məhsulları istehsalı 6 milyon [18, 5] tona çatdırılacaqdır.

ARDNŞ tərəfindən Gürcüstanda 65-dən çox yanacaqdoldurma məntəqəsi tikilmişdir. Bu təcrübədən Ukraynada və Rumıniyada da [18, 6] istifadə edilir.

“BP Azərbaycan” şirkəti tərəfindən "Şahdəniz" yatağında 5344 metr axtarış kəşfiyyat işləri aparılıb. 2010-cu ildə ən böyük nailiyyət “Ümid” yatağının kəşf edilməsidir. Onun ehtiyatları 200 milyard kubmetr qaz və 40 milyon ton [18, 16] kondensat həcmində qiymətləndirilir.

2010-cu ildə ARDNŞ-də 58 neft-qaz yatağı istismar edilmişdir, onun da 41-i quruda, 17-si dənizdədir. İşlənmənin əvvəlindən 2011-ci il yanvarın 1-ə kimi Azərbaycan Respublikası üzrə 1 707,6 milyon ton neft-kondensat 596,6 milyard kubmetr [18, 17] qaz çıxarılmışdır.

2010-cu ildə Azərbaycan Respublikası üzrə (ABƏŞ-lə ARDNŞ birlikdə) 50 795 min ton neft-kondensat, 26 350 mln. kubmetr qaz [18, 17] çıxarılmışdır. ABƏŞ üzrə AÇG yataqlarından 40487 min ton neft-kondensat, 12 278 mln. kubmetr qaz

[18, 17] çıxarılmışdır. ABƏŞ tərəfindən AÇG yataqlarından 1997-ci ildən 2010-cu ilə kimi 221,9 milyon ton neft, 54,3 mlrd. kubmetr qaz çıxarılmışdır.

ARDNŞ üzrə qazmadan istismara 110 yeni quyu verilmişdir. 2010-cu ildə işlək fonda 356 quyu daxil edilmiş, 387 quyu [18, 19] isə istismardan çıxarılmışdır.

2010-cu ildə ARDNŞ-in qazma təşkilatları tərəfindən 136324 metr qazma işi görülmüşdür. Dənizdə 92348 metr qazma iş görülmüşdür. Quru sahələr üzrə 43976 metr qazma işi yerinə yetirilmişdir. "Kompleks Qazma İşləri Tresti üzrə 108892 metr [18, 21] qazma işi görülmüşdür.

Azərbaycanda neft-qaz hasilatının artım tempi 2010-cu ildə də davam etdirilmiş, 50,8 milyon ton neft, 26,3 milyard kubmetr qaz [18, 24] hasil edilmişdir. 2009-cu illə müqayisədə neft hasilatı 0,4 milyon ton, qaz hasilatı isə 2,7 milyard kubmetr çox olmuşdur [18, 24]

ARDNŞ üzrə 2010-cu ildə 8 459,7 min ton neft, 7 178,9 milyon [18, 24] kubmetr qaz hasil edilmişdir. Dəniz yataqlarından 6741,7 min ton neft, və 6 983,9 mln. [18, 24] kubmetr qaz hasil edilmişdir. 2010-cu ildə AÇG yatağından 40 487,4 min ton neft, “Şahdəniz”dən 1792,3 milyon kubmetr qaz [18, 25] qəbul edilmişdir. Ümumi neft hasilatının 23,8 faizi fontan, 56,3 faizi qazlift, 19,9 faizi [18, 26] dərinlik nasosu üsulu ilə çıxarılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 1 iyul 2009-cu il tarixli 366 saylı [18, 32] sərəncamı ilə Qapalı Səhmdar Cəmiyyətin maddi texniki bazasında "Azəriqaz" İB yaradılmışdır. "Azəriqaz" İB Azərbaycan Respublikası ərazisində təbii qazın nəqli, paylanması və satışını həyata keçirir.

"Azəriqaz" ARDNŞ-in qazını İran İslam Respublikasına,

Gürcüstana və Rusiyaya nəqlini təmin etmişdir. Birlik il ərzində xaricə və respublika daxilində 12,6 milyard kubmetr qaz nəql edir. 2010-cu ildə 4 242,1 km uzunluğunda [18, 33] yeni qaz kəməri quraşdırılmışdır.

2010-cu ildə ARDNŞ müəssisələrinə 24168 nəfər işə qəbul edilmişdir. Orta aylıq əməkhaqqı isə 559,38 manat təşkil etmişdir. İl ərzində işçilərin sayı artaraq 1 yanvar 2011-ci il tarixdə 79569 nəfər olmuşdur [18, 47-48].

ARDNŞ-in ixtisasartırma kurslarına 2 577 rəhbər və mütəxəssis, peşə kurslarına isə 2 185 nəfər [18, 87] fəhlə cəlb olunmuşdur. 2006-cı ildən başlayaraq hər il 50 nəfər gənc xarici ölkədə təhsil almağa göndərilir. 45 nəfər [18, 88] magistr dərəcəsi üzrə təhsil almağa göndərilmişdir.

Azərbaycan Prezidentinin "Ekologiya" ili elan etdiyi 2010-cu ildə ARDNŞ bir sıra ekoloji layihələr həyata keçirmişdir. Bibiheybət və Siyəzən yataqlarında 38,5 hektar çirkli torpaq təmizlənmiş 13,6 [18, 96] hektar süni gölməçə və bataqlıq qurudulmuş, torpaqların rekultivasiyası həyata keçirilmişdir. Neft yataqlarının bərpa edilmiş ərazilərində 91 996 ağac, 12 100 kol [18, 96] və gül əkilmişdir.

Xatırladaq ki, ARDNŞ-in mənzil fondu 2,5 milyon kv metrdir. O cümlədən 73 yataqxana, 40 məktəbəqədər uşaq müəssisəsi, 16 mədəniyyət evi, 15 idman kompleksi, 450 çarpayılıq xəstəxana, 15 [18, 112] istirahət zonası və s. vardır. Neftlə çirklənmiş torpaqların rekultivasiyası və abadlaşdırılması ardıcıl surətdə davam etdirilir.

ABƏŞ və ARDNŞ-in Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda yerləşən neft-qaz yataqlarının birgə işlənməsi nəticəsində 2010-cu ildə ən yüksək nailiyyət əldə edilərək ümu-

milikdə 50,8 milyon ton neft, 26,3 milyard kubmetr qaz hasil edilmişdir. ABƏŞ üzrə isə AÇG yataqlarından 40 milyon 487 min ton neft, 12 milyard 278 min kubmetr qaz çıxarılmışdır. ABƏŞ tərəfindən AÇG yataqlarından 1997-ci il İlkin Neft Hasilatından başlayaraq 2010-cu ilə kimi 221,9 milyon ton neft, 54,3 milyard kubmetr qaz hasil edilmişdir.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə tərəfdaşlıq və qarşılıqlı əməkdaşlıq şəraitində öz uğurlu fəaliyyətini davam etdirir.

# III FƏSİL

# AZƏRBAYCAN NEFTİNİN DÜNYA BAZARLARINA İXRACI MƏSƏLƏLƏRİ

## 3.1. Azərbaycan neftinin dünya bazarlarına nəql edilməsi üçün neft-qaz kəmərlərinin çəkilişinə başlanılması

Müstəqillik əldə etdikdən sonra ölkə qarşısında duran əsas vəzifələrdən biri iqtisadiyyatı durğunluq vəziyyətindən qurtarmaq üçün öncə əsas təsərrüfat sahəsi olan neft sənayesini bərpa edib inkişaf etdirmək problemini həll etmək lazım idi.

Ona görə də Azərbaycan Respublikası ölkə iqtisadiyyatını böhranlı vəziyyətdən qurtarmaq məqsədilə dünyanın ən yüksək inkişaf etmiş dövlətlərinin iri neft şirkətləri ilə danışıqlar aparmışdır. Xatırladaq ki, Ümummilli lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin yaratdıqları konsorsium arasında "Əsrin müqaviləsi" adlandırılan neft sazişi imzalanıb həyata keçirilməyə başlanılmışdır.

Xəzər regionunda Azərbaycan Respublikasının öz karbohidrogen ehtiyatlarını dünya bazarlarına ixrac etmək üçün boru kəmərlərinin çəkilməsi təşəbbüsü ilə çıxış etməyə başlaması əks qüvvələr tərəfindən narazılıqlar və müqavimətlə qarşılandı.

Sovet İttifaqının parçalanıb dağılmasından sonra regionda yeni müstəqil dövlətlərin meydana gəlməsi burada geosiyasi vəziyyətin dəyişilməsinə səbəb oldu. Xəzəryanı dövlətlərdə karbohidrogen ehtiyatları haqqında məlumatların mətbuatda dərc edilməsi enerjiyə böyük tələbatı olan Avropa İttifaqı dövlətlərinin diqqətini cəlb etməyə başladı. Karbohidrogen ehtiyatlarının xarici bazarlara daşınması ilə əlaqədar olaraq boru kəmərlərinin çəkilməsi məsələsi Xəzər regionunda geosiyasi fəallığı daha da artırdı. Lakin neft amili Xəzər regionunun çoxcəhətli problemlərinin həllini daha da mürəkkəbləşdirdi. Xəzər dənizini öz təsir dairəsində saxlamağa çalışan Rusiya Federasiyası Xəzəryanı dövlətlərdə boru kəmərlərinin çəkilməsinə mane olmağa çalışır və bununla da regionda əvvəlki hegemon mövqeyini qoruyub saxlamaq istəyirdi.

SSRİ-nin süqutundan sonra – 90-cı illərin əvvəllərində Rusiya Xəzər dənizinin hüquqi statusu məsələsini irəli sürməklə əslində Xəzəryanı dövlətlərin öz karbohidrogen ehtiyatlarını boru kəmərləri vasitəsilə xarici bazarlara daşınmasının qarşısını almağa cəhd edirdi [160, 121]. Özünü rus dövlətçiliyinin varisi kimi göstərən, həm də 1921-ci il və 1940-cı il Sovet-İran müqavilələrinin bilavasitə davamçısı kimi hərəkət edən Rusiya iddia edirdi ki, Xəzər dənizinin istifadəçilərinin tərkibi dəyişsə də onun hüquqi statusu dəyişilməməlidir. Hətta sovet dövründə Xəzər dənizinin sektorlara bölünməsinə baxmayaraq Rusiya Xəzərin statusu məsələsini irəli sürməklə neft-qaz kəmərlərinin çəkilməsinə mane olmaq istəyirdi. Əslində isə Rusiya Federasiyası Xəzəryanı dövlətlərin boru kəməri marşrutlarının onun ərazisindən keçməsinə çalışırdı. Xəzər dənizinin statusu məsələsində Rusiyanın diplomatik səyləri region dövlətlərində geosiyasi fəallığın artmasına səbəb oldu.

Dünya okeanı dənizlərinə birbaşa çıxışı olmayan, lakin əlverişli geosiyasi coğrafi mövqedə yerləşən Azərbaycan Respublikası öz suveren hüquqlarından istifadə edərək dövlət müstəqilliyini daha da möhkəmləndirmək və iqtisadiyyatın inkişafını sürətləndirmək üçün neft amilindən istifadə etməyə başladı. Neftin ölkəmizin inkişafında rolunu yüksək qiymətləndirən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: “Ölkəmizin neft və qaz sənayesi iqtisadiyyatımızın inkişafında xüsusi və başlıca rol oynamışdır. 1994-cü ildə Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən başlanmış neft strategiyası… İqtisadi inkişafımızın və ümumiyyətlə Azərbaycanın inkişafının açarı olmuşdur. Hazırda Azərbaycanın regional məsələlərdəki rolu get-gedə artır. Bu baxımdan neft və qaz amilləri, nəqliyyat dəhlizinin yaradılması, enerji məhsullarının daşınması layihələri böyük əhəmiyyət kəsb edir” [86, 190].

Yeni neft strategiyasının uğurlu başlanğıcı olan “Əsrin müqaviləsi” imzalandıqdan sonra onun inamla həyata keçirilməyə başlanması Azərbaycanda hasil olunacaq milyonlarla ton xam neftin dünya bazarlarına çıxarılması problemi ölkə qarşısında duran başlıca vəzifələrdən biri idi. “Çıraq” yatağından İlkin neft hasilatına başlanılacağı və onun həcminin surətlə artacağının gözlənildiyi üçün xam neftin ixracı ilə bağlı yeni boru kəməri layihələrinin irəli sürülməsinə zəmin yarandı. Xəzəryanı dövlətlərdən ilk dəfə olaraq Azərbaycan Respublikası xam nefti Avropa bazarlarına daşımaq üçün boru kəməri çəkmək təşəbbüsü ilə çıxış etməyə başladı.

1996-cı ilin yanvarında “Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql edilməsi haqqında” Rusiya Federasiyası ilə hökumətlərarası saziş imzalandıqdan sonra neft kəmərində yenidənqurma və bərpa işləri aparılmış, 1997-ci ilin oktyabr ayında

həmin xətt istifadəyə verilmişdir. Uzunluğu 1400 kilometr, illik nəqletmə gücü 5 milyon ton olan Bakı-Novorossiysk neft kəmərinin bərpa edilərək istifadəyə verilməsi xam neftin xarici ölkələrə ixrac edilməsi sahəsində mühüm əhəmiyyətə malik olan bir hadisə idi. Bakı-Novorossiysk boru kəməri bərpa edilib istismara verildikdən sonra Azərbaycan Respublikası öz xam neftini dünya bazarlarına ixrac etməyə başlamışdır.

Lakin 1996-cı ildə neft hasilatının azalmasının qarşısı alındıqdan sonra bu mühüm sahədə irəliləyişin baş verməsi, az sonra 1997-ci ilin noyabrında "Çıraq" yatağından ilkin neft çıxarılmağa başlanılması nəticəsində hasilat sürətlə artaraq Azərbaycan Respublikasının ixrac imkanlarını daha da artırdı. Ölkənin ixrac ehtiyaclarını ödəmək üçün yeni alternativ boru kəmərinin tikilib istifadəyə verilməsinə tələbat yarandı. Müxtəlif təkliflər edilərək, layihələr irəli sürüldü. Lakin xatırladaq ki, təhlükəsiz və səmərəli alternativ Qərb istiqaməti Ümummilli Lider Heydər Əliyev tərəfindən əvvəlcədən müəyyənləşdirilmişdi. ABŞ və digər Qərb ölkələri Qərb İxrac Bori kəməri  layihəsinə güclü dəstək verdilər. Qərb İxrac Boru kəməri və Bakı-Supsa neft kəməri layihəsi Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Bakı-Supsa neft kəməri layihəsi əks qüvvələr tərəfindən kəskin etirazlarla qarşılandı. Lakin ümummilli lider Heydər Əliyevin qətiyyəti sayəsində Qərb İxrac Bori kəməri  layihəsi qəbul edildi. Bununla da Heydər Əliyevin uzaqgörən neft strategiyası öz həyatiliyini təsdiq etdi.

### 3.2. Bakı-Supsa neft kəməri

"Azəri-Çıraq-Günəşli" yataqlarının müvəffəqiyyətlə işlənməsi "Çıraq" yatağından ilkin neftin çıxarılmağa başlanılması və neft hasilatı həcminin artımı yeni alternativ və daha təhlükəsiz boru kəmərinin çəkilməsi məsələsini gündəmə gətirdi. Geosiyasi

və strateji nöqteyi-nəzərdən ən sərfəli neft marşrutu Gürcüstan ərazisindən keçməklə Qara dənizə çıxış əldə edəcək Qərb marşrutu ola bilərdi. Çünki Şimal marşrutu gərginliyin davam etdiyi qaynar ərazilərdən keçirdi və həm də məsafə uzaq idi. Ümummilli lider Heydər Əliyev çox uzaqgörənliklə alternativ ixrac boru kəməri kimi Qərb marşrutunu müəyyənləşdirmişdi.

Ümummilli lider Heydər Əliyev Qərb istiqamətində neft kəmərinin inşası ilə bağlı Gürcüstan jurnalistləri ilə müsahibəsində bildirmişdi: “1994-cü ildə biz müqavilə imzalayan kimi, dərhal neft kəmərləri barədə də düşünməyə başladıq. Əsas magistral kimi Bakı-Tbilisi-Ceyhan kəmərini çəkmək ideyası yarandı. Biz bu ideyanı araşdırmaqla yanaşı, Bakı-Novorossiysk xəttinin inşasına başladıq. Sonra belə qərara gəldik ki, alternativ marşrut gərəkdir. Bakı-Supsa magistralının tikintisinin zəruriliyi belə yarandı” [75, 423].

Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılmasının təmin edilməsində misilsiz rolu olacaq Bakı-Supsa ixrac boru kəməri layihəsinin təməli 1996-cı il martın 8-də Tbilisi şəhərində Azərbaycan Respublikası ilə Gürcüstan arasında imzalanmış hökumətlərarası sazişlə qoyulmuşdur [92, 7].

Bakı-Supsa neft kəməri layihəsinin həlli məsələsi böyük maneələrlə qarşılandı. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi: “Çünki burada dünyanın bir çox ölkələrinin maraqları cəmləşirdi, müxtəlif tərəflərdən təzyiqlər də var idi” [75, 423].

Müxtəlif ölkələrin kütləvi informasiya vasitələrində əks qüvvələrin mənfi rəylərinə, hətta hədə-qorxularına baxmayaraq, 1996-cı il martın 8-də Tbilisi şəhərində Azərbaycan Respublikası və Gürcüstan hökumətləri arasında imzalanmış sazişə əsasən

Bakı-Supsa marşrutu üzrə ixrac boru kəmərinin inşasına başlanılması qərara alındı.

Ümummilli lider Heydər Əliyevin müdrikliyi, qətiyyəti və siyasi iradəsi Bakı-Supsa neft kəməri marşrutu haqqında qərarın qəbul edilməsində həlledici rol oynamışdır. Həmin dövrdə ARDNŞ-in birinci vitse-prezidenti vəzifəsində işləyən İlham Əliyev "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr edilmiş təntənəli mərasimdə bununla bağlı öz çıxışında demişdir:

"Qeyd etmək lazımdır ki, Bakı-Supsa ixrac neft kəməri layihəsinin həyata keçirilməsi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təkidi ilə baş vermişdir" [96, 197].

Yeni neft strategiyasının həyata keçirilməsinin mühüm bir vəsiləsi olan Bakı-Supsa neft kəmərinin uzunluğu 830 kilometr, layihə gücü 5,1 milyon ton, gündəlik maksimum ötürmə qabiliyyəti 115 min bareldir" [27].

Bakı-Supsa ixrac boru kəməri layihəsinin reallaşması növbəti dəfə ümummilli lider Heydər Əliyevin uzaqgörənliyini, onun hazırladığı siyasi iqtisadi, kommersiya və digər risklərin dəqiq hesablanmış balansı və Azərbaycan Respublikasının uzunmüddətli strateji maraqları üzərində qurulmuş çoxvariantlı ixrac strategiyasının əsaslı olduğunu göstərmişdir.

Bakı-Supsa neft kəməri layihəsi iqtisadi fayda baxımından həm Azərbaycan Respublikası, həm də Gürcüstan Respublikası üçün böyük əhəmiyyətə malik olan bir layihədir. Bu tarixi layihənin həyata keçirilməsi prosesində minlərlə yeni iş yeri yaradılmaqla bərabər, geniş regional kooperasiya inkişaf etdirilmiş, Azərbaycan və gürcü xalqları arasında dostluq, qardaşlıq və əməkdaşlıq ənənələri qorunub saxlanılmış, inkişaf etdirilmiş və daha da möhkəmləndirilmişdir.

Azərbaycan neftini dünya bazarlarına ixrac edəcək Bakı-Supsa neft kəməri Gürcüstanın, Azərbaycanın və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan neft şirkətlərinin bir-

gə səyləri nəticəsində başlanmış və onun inşası çox mürəkkəb şəraitdə davam etdirilmişdir. Qərb marşrutu üzrə neft kəmərinin çəkilişi bəzi dairələrdə və bir çox ölkələrdə narazılıqla qarşılansa da, Gürcüstanla Azərbaycan bu məsələnin həllində israrlı olduqlarını nümayiş etdirmişlər və tərəflər arasında imzalanmış sazişi həyata keçirərək ixrac boru kəmərinin praktiki surətdə inşası üçün səmərəli tədbirlər görmüşlər. Beləliklə Azərbaycan və Gürcüstan Respublikaları hökumətlərinin iradəsi və qarşılıqlı əməkdaşlığı şəraitində Qərb İxrac Boru Kəmərinin inşasına başlanılmışdır.

Gürcüstanla Azərbaycanın səmərəli əməkdaşlığında Bakı-Supsa neft kəmərinin rolunu qeyd edən ümummilli lider Heydər Əliyev demişdir:

“Bakı-Supsa neft kəməri Gürcüstanla Azərbaycanın arasında dostluğa, əməkdaşlığa parlaq misaldır. Bizim xalqlarımız həmişə səmərəli və müvəffəqiyyətlə əməkdaşlıq etmişlər. Gürcü və Azərbaycan xalqlarının çoxəsrlik dostluğu bizim əvəzsiz sərvətimizdir. Biz bu dostluğu qoruyur və yeni şəraitdə inkişaf etdirir, genişləndiririk” [96, 180].

Bakı-Supsa neft kəməri layihəsi həyata keçirilməyə başlandığı andan başlayaraq Azərbaycan Respublikası ilə Gürcüstan arasında və digər ölkələrlə sülhü, sabitliyi, təhlükəsizliyi və əməkdaşlığı təmin edən amilə çevrilmişdir. Bu ixrac neft kəmərinin inşası coğrafi relyef baxımından mürəkkəbdir və texniki işlər çox çətin bir şəraitdə aparılmışdır. Boru kəməri xətti Gürcüstanın 1200 metr yüksəklikdə dağlıq ərazilərindən keçir. Bütün çətinliklərə baxmayaraq Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və onun ortaq şirkəti Gürcüstan Beynəlxalq Boru Kəməri Korporasiyasının və xarici şirkətlərin mütəxəssislərinin yüksək peşəkarlığı nəticəsində tikinti işləri çox sürətlə aparılmışdır. Tikinti işlərində Azərbaycan və Gürcüstan mütəxəssisləri və işçiləri ilə birlikdə əcnəbi mütəxəssislər də çox fəal iştirak etmişlər.

Xüsusilə boru kəmərinin tikintisi prosesində Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin və Gürcüstan Boru Kəməri Şirkətinin qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyəti çox səmərəli olmuşdur.

Bakı-Supsa neft kəmərinin inşasına 4 min nəfərdən artıq adam cəlb edilmiş, bunların 70 faizi [96, 174] Azərbaycan və Gürcüstan vətəndaşları olmuşdur. İxrac boru kəmərinin tikintisi 3 ildən az vaxtda – cəmi 30 [27] ay ərzində başa çatdırılmışdır. Boru kəmərinin keçdiyi ərazilərdə ətraf mühitin və üzə çıxarılmış arxeoloji əhəmiyyətə malik tarixi abidələrin qorunması üçün tədbirlər həyata keçirilmişdir.

1998-ci il dekabrın 10-da [23] "Çıraq-1" platformasından ilkin Azərbaycan neftinin Bakı-Supsa ixrac boru kəmərinə vurulmasına başlanılmış və bu münasibətlə Səngəçal terminalımda təntənəli mərasim keçirilmişdir.

Artıq "Azəri-Çıraq-Günəşli" yataqlarının "İlkin neft" layihəsi çərçivəsində mühüm işlər görülmüşdü. İlkin neft və qazın sahilə nəqli üçün sualtı boru kəmərləri çəkilmiş, ümumi tutumu 650 000 [92, 9] barel olan "Çıraq" platformasından sutkada 150 000 barel (15 750 ton) xam nefti qəbul və emal etmək üçün layihələşdirilmiş Səngəçal terminalı istifadəyə verilmişdir. Xam nefti ölçmək və həm Şimal, həm də Qərb İxrac Boru Kəmərlərinə vurmaq üçün qurğulara malik olan Səngəçal terminalının istifadəyə verilməsi İlkin Neft Layihəsinin həyata keçirilməsinin ən böyük uğurlarından biri olmuşdur.

1998-ci ilin sonunda qərb istiqamətində ümumi uzunluğu 837 kilometr olan 20 diametrli boru kəmərinin inşası, 8 nasos stansiyası və neftin uçotu sisteminin tikintisi başa çatdırılmışdır. Supsa limanında yeni neft terminalı tikilmiş və neft kəməri mərkəzləşdirilmiş idarəetmə və rabitə sistemi ilə təchiz edilmişdir. Beləliklə 1998-ci ilin dekabrında Qərb İxrac Boru Kəməri istismara verilmişdir [92, 12].

Xəzərin Azərbaycan Respublikası sektorunda ABƏŞ tərəfindən çıxarılan ilkin neft Bakı-Supsa İxrac Boru Kəməri ilə axıdılaraq, 1999-cu il yanvarın 1-də Gürcüstan sərhədini keçmişdir. Gürcüstan Boru Kəmərləri Şirkətinin məlumatına görə ixrac kəmərinin neftlə doldurulması qrafikə uyğun həyata keçirilmişdir.

1999-cu il fevralın 20-də Gürcüstan Boru Kəməri Şirkəti Supsa qəsəbəsində neftvurma terminalının quraşdırılmasını başa çatdırmışdır. 260 ton [24] ağırlığında olan terminal sahildən 3 kilometr aralı məsafədə qurulmuşdur və Qara dənizdə ən güclü qasırğaya tab gətirə bilər. Supsa terminalı tutumu 150 [24] min ton olan tankerləri neftlə doldurmağa imkan verir.

1999-cu il martın 11-də ilkin Azərbaycan nefti Supsa terminalına çatmışdır və neft çənlərə vurulmağa başlanmışdır. Bu əlamətdar hadisə ilə bağlı keçirilmiş təntənəli mərasimdə ABƏŞ-in, ARDNŞ-in, Gürcüstan Neft Korporasiyasının, Poti şəhəri və Supsa qəsəbəsinin nümayəndələri iştirak [25] etmişlər.

Qərb İxrac Boru Kəmərinin uğurla inşası dünyanın aparıcı ölkələrinin marağına səbəb olmuş və onları yeni layihələrə sərmayə yatırmağa həvəsləndirmişdir. 1999-cu il və ondan sonrakı dövrdə neft yataqlarının birgə işlənməsi ilə bağlı ARDNŞ ilə xarici neft şirkətləri arasında yeni imzalanmış neft müqavilələri buna əyani sübutdur.

Bakı-Supsa neft kəmərinin inşası yeni, daha irihəcmli layihələrin həyata keçirilməsinə inamı daha da artırmışdır. Ümummilli lider Heydər Əliyev bununla əlaqədar olaraq demişdir: “Bakı-Supsa neft kəmərinin Gürcüstan və Azərbaycan üçün böyük iqtisadi əhəmiyyəti var. Biz bu yeni marşrutla Xəzər neftini təmiz halda dünya bazarına ilk dəfə çıxaracağıq. Bu, yalnız başlanğıcdır. Bakı-Supsa xətti ilə yanaşı keçəcək əsas marşrutun – Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası üçün başlanğıcdır” [75, 424].

Azərbaycan və Gürcüstan dövlətlərinin birgə fəaliyyəti nəti-

cəsində böyük geosiyasi və iqtisadi əhəmiyyətə malik olan Bakı-Supsa neft kəmərinin və Supsa yerüstü terminalının inşası 1999-cu ilin aprelində çox uğurla başa çatdırılmışdır.

1999-cu il aprelin 17-də Gürcüstanda ilkin Xəzər neftinin Qərb istiqamətində nəqli üçün Bakı-Supsa İxrac Boru Kəmərinin, Supsa yerüstü terminalının və Varna-Poti-Batumi-İliçovsk bərə keçidinin rəsmi açılışına həsr edilmiş təntənəli mərasim keçirilmişdir.

Təntənəli mərasimdə Gürcüstan, Azərbaycan və Ukraynanın prezidentləri, rəsmi nümayəndə heyətlərinin üzvləri, müxtəlif beynəlxalq təşkilatların və strukturların, beynəlxalq konsorsiumların və ayrı-ayrı ölkələrin şirkətlərinin təmsilçiləri iştirak etmişlər.

Bakı-Supsa neft kəmərinin açılışı münasibətilə Gürcüstan prezidenti Şevardnadze milli radioya növbəti müsahibəsində [26] demişdir ki, "17 aprel Gürcüstanın tarixinə qızıl hərflərlə yazılacaq". Gürcüstan parlamentinin növbəti iclası da aprelin 17-də Supsada keçiriləcək təntənəli mərasimə həsr olunmuşdur. Çıxış edənlər gürcülərə qardaşlıq qayğısı göstərdiklərinə görə Azərbaycan xalqına, onun dünya şöhrətli lideri Heydər Əliyevə öz minnətdarlıqlarını bildirmişlər. Parlamentdə belə bir fikir səslənmişdir ki, "Bakı-Supsa neft kəməri gürcü və Azərbaycan xalqlarının onsuz da möhkəm olan dostluğunu daha da möhkəmləndirəcəkdir" [26].

Neft kəmərinin təntənəli açılışı mərasimində çıxış edən nümayəndələr bu tarixi layihənin uğurla həyata keçirilməsini Gürcüstanla-Azərbaycanın siyasi və iqtisadi əməkdaşlığının məntiqi nəticəsi kimi qiymətləndirmişlər. Təntənəli mərasimdə çıxış edən ümummilli lider Heydər Əliyev bununla əlaqədar olaraq demişdir: "Gürcüstan və Azərbaycanın səmərəli əməkdaşlığına dair misallar çoxdur. Lakin Bakı-Supsa neft kəməri, şübhəsiz ki, indiki mərhələdə bu əməkdaşlığın zirvəsidir" [76, 19].

Təntənəli mərasimin iştirakçıları Qərb İxrac Boru Kəməri layihəsinin uğurla həyata keçirilməsində Amerika Birləşmiş Ştatlarının, şəxsən onun prezidenti Bill Klintonun güclü dəstəyinin böyük rol oynadığını xüsusilə qeyd etmişlər. Rəsmi açılışda iştirak edən ABŞ Prezidenti və Dövlət katibinin Xəzər hövzəsinin enerji məsələləri üzrə xüsusi müşaviri səfir Riçard Morninqstar Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonun bu təntənəli hadisə münasibətilə təbrik məktubunu oxudu. Məktubda deyilir: “Bakı-Supsa xəttinin açılışı çoxdan gözlənilən məqsədi – Xəzər regionunun neft və qazını dünya bazarlarına çatdırmaq üçün neft kəmərləri şəbəkəsi yaradılması məqsədini həyata keçirir. Bununla bərabər, həmin boru kəmərlərinin faydası enerji sektorunun çərçivəsindən çox-çox kənara çıxır. Bu xətt Şərq-Qərb dəhlizinin təməl daşı olacaq və bütün Qafqaz və Mərkəzi Asiya ölkələrinin inkişafına kömək edəcəkdir” [26].

ABŞ prezidenti bu təbrik məktubunda Bakı-Supsa xəttindən sonra diqqəti Azərbaycandan başlanıb Ceyhana gedəcək boru kəmərinin çəkilişinə yönəldərək yazmışdır: “İlkin neftdən sonra, indi bizim iştirakımız Azərbaycandan başlanıb Gürcüstan vasitəsilə Türkiyənin Ceyhandakı Aralıq dənizi sahilinə gedəcək böyük boru kəmərinə yönəldiləcəkdir. Bu əsas ixrac boru kəməri Qərb-Şərq dəhlizinin əsl iqtisadi potensialını açmaq üçün açardır” [26].

Xəzərin Azərbaycan Respublikası sektorunda çıxarılan ilkin neftin Qərb marşrutu üzrə ixrac edilməsi üçün nəzərdə tutulmuş Bakı-Supsa kəmərinin və Supsa yerüstü terminalının, habelə Poti-İliçovsk-Varna bərə keçidinin işə salınması bir daha sübut etdi ki, regionda gedən mütərəqqi proseslərin qarşısını almaq mümkün deyildir.

Bakı-Supsa neft kəmərinin istismara verilməsi ölkəmiz üçün bir neçə cəhətdən əhəmiyyətlidir. İlk növbədə qeyd etmək lazımdır ki, ABƏŞ-in Xəzərin Azərbaycan Respublikası sektorun-

da çıxardığı neft dünya bazarlarına alternativ və etibarlı yolla ixrac edilir. Digər cəhətdən ixrac kəmərinin işə düşməsi çoxvariantlı neft kəmərləri şəbəkəsinin yaradılmasının vacibliyini sübut etdi. Bakı-Novorossiysk kəmərində yenidənqurma işləri aparılaraq, bərpa edilib işə salındıqdan sonra Bakı-Supsa marşrutu diqqət mərkəzində olmuşdur. Bu kəmər Bakı-Novorossiysk boru kəmərinə nisbətən iqtisadi baxımdan da daha səmərəlidir.

Bakı-Supsa ixrac boru kəməri eyni zamanda Transqafqaz (Avropa-Qafqaz-Asiya) nəqliyyat dəhlizinin – yeni “İpək Yolu”nun tam gücü ilə işə salınmasında irəliyə doğru mühüm bir addımdır. Poti-İliçovsk bərə keçidinin fəaliyyət göstərməyə başlaması buna əyani sübutdur.

Gürcüstanda ilkin Xəzər neftinin Qərb istiqamətində nəqli üçün Bakı-Supsa ixrac boru kəmərinin, Supsa yerüstü terminalının və Poti-İliçovsk-Varna bərə keçidinin rəsmi açılışı və fəaliyyətə başlaması alternativ neft kəmərlərinin, alternativ kommunikasiyaların yaradılması layihələrini qısqanclıqla qarşılayan, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının istismarı üzərində nəzarəti itirdikdən sonra, çıxarılan neftin nəqli marşrutlarına nəzarət etməyə çalışan Rusiyanın cəhdləri nəticəsiz qaldı. Açılış mərasimində ümummilli lider Heydər Əliyevin söylədiyi sözlər bunu təsdiq edir: “Qısa müddətdə çox böyük iş görülmüşdür. Qeyd etməliyəm ki, bizim planlarımıza müqavimət göstərən qüvvələr o vaxt deyirdilər ki, bu layihə real deyil, həyata keçirilə bilməz. Bu ilin sentyabrında müqavilənin imzalanmasının beş ili tamam olacaq, amma bir baxın, necə böyük iş görülmüşdür və işin bundan sonra davam etməsi üçün necə böyük bünövrə qoyulmuşdur” [76, 21].

Qərb neft kəmərinin açılışı müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsində, onun beynəlxalq nüfuzunun artmasında əhəmiyyətli rol oynadı. Bu ixrac kəmərinin açılışı və uğurla fəaliyyətə başlaması Azərbaycanın və regionun dünya ilə,

Avropa ilə əlaqələrinin inkişafında və inteqrasiyasında təkanverici qüvvə rolunu oynamışdır.

Bakı-Novorossiysk boru kəməri ilə bir ton neftin daşınması üçün nəqliyyat tarifi Bakı-Supsaya nisbətən daha yüksəkdir. Digər tərəfdən Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "… yüksək keyfiyyətli Azərbaycan nefti Bakı-Novorossiysk boru kəmərində Ural nefti ilə qarışdırılır. Bakı-Supsa ilə isə Brend markasından daha qiymətli olan "Azəri Layt" nefti nəql edilir, deyə bilərik ki, təkcə "Azəri Layt" ilə Ural qatışığı arasındakı fərqə görə və tarifdə də çox böyük məbləğdə pul itiririk" [87, 100].

Bakı-Supsa neft kəmərinin və Supsa yerüstü terminalının açılışı və fəaliyyətə başlaması xarici ölkələrin kütləvi informasiya vasitələrində geniş əks-səda doğurmuşdur. Mətbuat səhifələrində Bakı-Supsa neft kəməri Qərbə açılan qapı kimi qiymətləndirilmişdir. ABŞ-ın nüfuzlu "Nyu York Tayms" qəzeti regionun həyatında çox böyük əhəmiyyəti olan bu hadisəyə həsr etdiyi məqalədə bildirir ki, tikintisi başa çatdırılan Bakı-Supsa neft kəməri Cənubi Qafqaz və Orta Asiya ölkələrinin keçmiş "dostları" Moskvadan onların asılılığına son qoymaq üçün çox mühüm addımdır [28].

Bakı-Supsa neft kəməri Rusiya kütləvi informasiya vasitələrində də geniş əks-səda doğurmuşdur. Demək olar ki, Rusiyanın bütün aparıcı qəzetləri bu çox mühüm hadisəyə münasibətlərini bildirmişlər. Təəssüf ki, mətbuatda dərc edilən məqalələrdə bu məsələyə çox qısqanclıqla yanaşılmışdır. "Nezavisimaya qazeta" "Rusiyadan yan keçən" məqaləsini dərc etmişdir. Məqalənin müəllifləri yazırlar: "Yeni marşrut Azərbaycan neftini çıxaran şirkətlər üçün çox cazibədardır. Gürcüstan vasitəsilə tranzit qiy-

məti Rusiya vasitəsilə tranzit qiymətindən xeyli ucuzdur. Hazırda bir ton neftin Novorossiyskə vurulması 15 dollara yaxındır. Supsaya nəqli isə neft çıxaran şirkətlərə hər ton üçün cəmi 2-3 dollara başa gələcəkdir" [28].

"Vremya MN" qəzetində dərc olunmuş məqalədə vurğulanır ki, aprelin 17-də Bakı-Supsa Qərb neft kəməri işə düşdükdən sonra Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına başlanılacaqdır [28].

"Kommersant" jurnalının "Neft Rusiyadan yan axacaqdır" məqaləsində də Bakı-Supsa neft kəmərinin açılışından danışılır. Müəlliflər qeyd edirlər ki, Bakı-Supsa neft kəmərinin açılışından sonra neft vurulmasının daha qısa olan yeni yolla qiyməti 5-7 dəfə aşağı olacağından Rusiya ildə 30 milyon [28] dollardan çox qazanmaq imkanını itirəcəkdir. Rusiya jurnalistlərinin və müşahidəçilərinin fikrincə, yeni Bakı-Supsa neft kəməri, qaz boru kəmərləri təkcə Azərbaycanın deyil, həm də Mərkəzi Asiyanın enerji ehtiyatlarının dünya bazarına çıxacağı böyük yolun başlanğıcıdır [28].

Rusiya jurnalisti A.Qabuyev özünün "Kommersant-Vlast" jurnalında dərc etdirdiyi "Əyri-üyrü borularla" [154, 9-14] adlı məqaləsində Rusiyadan yan keçən boru kəmərlərinə qısqanclıqla yanaşır və Rusiya hökumətini gələcəkdə Azərbaycandan çəkiləcək alternativ neft-qaz layihələrinin qarşısını almağa çağırır.

"Əsrin müqaviləsi" çərçivəsində inşa edilmiş Qərb İxrac Boru Kəməri (QİBK) möhtəşəm və etibarlı kəmərdir. Bu marşrut həm Azərbaycan və həm də Gürcüstan üçün iqtisadi baxımdan çox səmərəli marşrutdur. Azərbaycan və Gürcüstanın dünya və Avropa ölkələri ilə iqtisadi və siyasi əlaqələrinin genişləndirilməsində bu kəmərin öz yeri və əhəmiyyəti vardır. Qərb ixrac

Boru Kəmərinin istismara verilməsi yeni alternativ neft-qaz layihələrinin meydana gəlməsinin başlanğıcı olmuşdur. Bakı-Supsa boru kəmərinin gələcəkdə ötürmə qabiliyyətinin artırılması imkanı da vardır. Prezident İlham Əliyev jurnalistlərlə müsahibəsində bununla əlaqədar demişdir: “Hazırda Bakı-Supsa kəmərinin ötürmə qabiliyyəti 6 milyon tondan çoxdur. Müəyyən vəsait sərf etsək, bu boru kəmərinin ötürmə qabiliyyətini 15 milyon tona qədər çatdırmaq olar” [87, 100].

İlkin Neft Layihəsinin tərkib hissəsi olan Qərb İxrac Boru Kəməri layihəsinin gerçəkləşməsi və kəmərin surətlə inşa edilərək uğurla başa çatdırılması ölkəmiz üçün strateji əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan marşrutu layihəsinin hazırlanması yolunda mühüm addım olmuşdur. Bu kəmər istifadəyə verildikdən sonra BTC marşrutu layihəsinin reallaşdırılmasına olan şübhələr azalmışdır. Daha doğrusu strateji ixrac kəmərinin layihəsinin hazırlanması ilə əlaqədar tədbirlərin görülməsi sürətləndirilmişdir.

Ötən illər ərzində Bakı-Supsa Qərb İxrac Boru Kəməri vasitəsilə milyon tonlarla Azərbaycan nefti uğurla nəql edilərək dünya bazarlarına çatdırılmışdır. QİBK istismara verildikdən sonra bir sıra obyektiv və subyektiv səbəblərlə əlaqədar olaraq fəaliyyətini müvəqqəti dayandırsa da, hazırda çox ahəngdar iş nümayiş etdirir. 2010-cu ildə Bakı-Supsa boru kəməri ilə 29,6 milyon barel neft ixrac edilmişdir [50, 12].

Boru kəmərinin mühüm nailiyyətlərindən biri də odur ki, onun işçi heyəti yalnız Azərbaycan və Gürcüstan vətəndaşlarından ibarətdir. Əsas nəticə isə ondan ibarətdir ki, ABƏŞ-ARDNŞ-in “Çıraq” yatağından birgə hasil etdikləri neft “Azəri Layt” adı altında Gürcüstanın Supsa limanından dünya bazarlarına ixrac edilir.

## 3.3. Bakı-Tbilisi-Ceyhan neft kəməri

SSRİ parçalanıb dağıldıqdan sonra müstəqilliyini yeni əldə etmiş Azərbaycan Respublikası özünün neft strategiyasını həyata keçirməyə başlayaraq, Xəzəryanı dövlətlərdən biri kimi ilk dəfə olaraq Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı karbohidrogen ehtiyatlarının xarici bazarlara daşınması təşəbbüsü ilə çıxış etmişdir. Azərbaycanın karbohidrogen ehtiyatlarını qərb ölkələrinə alternativ və təhlükəsiz marşrutlarla nəql edilməsi üçün müxtəlif variantlar nəzərdən keçirilmişdir. Boru kəmərlərinin hansı marşrutla keçəcəyi məsələsi geniş müzakirələrə səbəb olmuş və bununla bağlı müxtəlif təkliflər irəli sürülmüşdür. Boru kəmərlərinin marşrutları ilə bağlı Azərbaycanın müstəqil seçim etmək təşəbbüsü ilə çıxış etməsi nəticəsində mübahisələr baş vermiş və yeni təkliflər irəli sürülmüşdür.

Azərbaycan Respublikasının öz karbohidrogen ehtiyatlarını Avropa bazarlarına qərb istiqamətində Əsas İxrac Boru Kəməri vasitəsilə nəql etmək ideyasını irəli sürməsi Rusiya, İran və digər dövlətlər tərəfindən ciddi müqavimətlə qarşılanmışdır. Rusiya Xəzər hövzəsində hasil ediləcək neftin onun ərazisindən keçməklə Şimal marşrutu ilə nəql edilməsinə nail olmaq və bu vasitə ilə Xəzəryanı ölkələri, o cümlədən Azərbaycanı öz təsir dairəsində saxlamağa çalışırdı.

Rusiya hökuməti rus dövlətçiliyinin ardıcıllığına və varisliyinə əsaslanaraq (Rusiya imperiyası, Rusiya Respublikası, RSFSR, SSRİ, Rusiya Federasiyası) keçmişdə imzalanmış müqavilələrin yerinə yetirilməsinə çalışır [160, 56]. Xatırladaq ki, 1917-ci il Oktyabr silahlı çevrilişindən sonra həmin ayın 26-da imzalanmış "Sülh haqqında dekret"lə çar hökumətinin və Müvəqqəti hökumətin bağladığı bütün müqavilələr Sovet hökuməti tərəfindən ləğv edilmişdir [166, 61]. Bu səbəbdən də hesab edi-

rik ki, Rusiyanın keçmiş rus dövlətləri adından çıxış etməsi və həmin dövlətlər tərəfindən imzalanmış müqavilələrə istinad etməsi əsassızdır və iddiaları hüquqi cəhətdən düzgün deyildir.

Rusiya mətbuatında Xəzər neftinə aid çap edilmiş məqalələrin və elmi əsərlərin müəllifləri öz ölkələrinin mövqeyindən çıxış edərək Xəzəryanı ölkələrin, xüsusilə Azərbaycanın karbohidrogen ehtiyatlarının Şimal marşrutu ilə Avropa bazarlarına daşınması ideyasını məqsədəuyğun hesab edirlər.

Rus müəllifləri S.S.Jiltsov və İ.S.Zonn “Xəzərin boru kəməri geosiyasəti” (Moskva, 2011) kitabında Rusiyanın 1921-ci ildə və 25 mart 1940-cı ildə İranla imzaladığı müqavilələrə, 21 dekabr 1991-ci ildə MDB dövlətləri ilə təsdiq etdiyi Alma-Ata Bəyannaməsinə əsaslanaraq çıxış etdiyini iddia edirlər [160, 56]. Həmin müəlliflərə xatırlatmaq istəyirik ki, Azərbaycan Respublikası 1993-cü il sentyabrın 24-də MDB-yə daxil olmuşdur [41, 333].

Rusiyalı müəllif İlya Zaslavski özünün “Çətin məsələ: Bakı-Tbilisi-Ceyhan və Qazaxıstanın Xəzərdə seçimi” [161, 25-33] kitabında Xəzər hövzəsinin neft ehtiyatlarının çox olmadığını sübut etməyə çalışaraq, Azərbaycanın ixrac imkanlarına da şübhə ilə yanaşır. İ.Zaslavski Azərbaycanın neft ehtiyatları haqqında da düzgün olmayan nəticələrə gələrək belə bir fikir söyləyir ki, xammalı çatışmadığına görə Azərbaycan öz neftayırma zavodlarını tam gücü ilə işlətmək üçün Qazaxıstandan və Türkmənistandan neft idxal edəcəkdir. Onun əsərlərindən hiss edilir ki, Qazaxıstan neftinin Xəzər dənizi və Azərbaycan ərazisi ilə Avropa bazarlarına daşınmasına qısqanclıqla yanaşır. O, sübut etməyə çalışır ki, Qazaxıstan neftinin Rusiya ərazisindən keçməklə Avropa bazarlarına daşınması daha səmərəlidir və məqsədəuyğundur [161, 67-71]. Digər rus müəllifləri Zonn İ.S, Jiltsov S.S., Uşkov F.M. öz əsərlərində Qərb ölkələrinin Xəzər hövzəsinə gəlməsini Rusiyanın burada təsirinin azaldılması hesab edə-

rək göstərirlər ki, onların bu yerlərə gəlişi iqtisadi faydadan çox, siyasi məqsədlər güdür. Həmin müəlliflərin fikrinə görə Qərb ölkələri Xəzər neftinə əsas deyil, alternativ enerji mənbəyi kimi baxırlar.

Xəzər hövzəsinin neft ehtiyatları haqqında məlumatlar yayıldıqdan sonra Qərb ölkələri geosiyasi maraqları üstün tutaraq, Azərbaycan Respublikası ilə daha tez əlaqələr yaradıb, əməkdaşlıq etməyə başladılar. Çünki burada mövcud neft infrastrukturu yaradılmışdı və həm də coğrafi mövqe nöqteyi-nəzərdən Azərbaycan Avropa ölkələrinə daha yaxındır. Bu səbəbdən də onlar Azərbaycanın karbohidrogen ehtiyatlarının Avropa bazarlarına daşınmasında boru kəmərlərinin çoxvariantlılığı ideyasını müdafiə edirdilər. Qərb ölkələri Rusiyadan yan keçəcək alternativ boru kəmərlərinin çəkilməsinə Xəzəryanı ölkələrdə özlərinin mövqelərinin güclənməsi və həm də Rusiyanın bu yerlərdə təsirinin azaldılması vasitəsi kimi baxırlar.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandığı andan Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı "Azəri", "Çıraq", dərinsulu "Günəşli" yataqlarının xarici neft şirkətləri ilə birgə işlənməsi nəticəsində 1997-ci ildə ilkin neft, daha sonra isə iri həcmdə neft hasil ediləcəyi gözlənildiyi üçün tezliklə Heydər Əliyev tərəfindən Əsas İxrac Boru Kəməri ideyası irəli sürüldü.

ABƏŞ-in ARDNŞ və digər tərəfdaşları ilə müştərək fəaliyyəti nəticəsində ilkin Neft Layihəsinin həyata keçirilməsi ilə əlaqədar olaraq 1997-ci ilin oktyabrında illik ixrac qabiliyyəti 5 milyon ton olan Bakı-Novorossiysk xəttinin bərpa edilərək istismara verilməsi və sonra illik ixrac qabiliyyəti 5 milyon ton olan Bakı-Supsa neft kəmərinin tikintisinə başlanılması göstərdi ki, həmin kəmərlər Azərbaycanın getdikcə artan ixrac imkanlarını ödəmək qabiliyyətinə malik deyildir.

Neft hasilatının ilbəil sürətlə artması göstərdi ki, qısa za-

manda yeni, daha çox həcmdə neft nəqletmə qabiliyyətinə malik olan əsas ixrac boru kəmərinin çəkilməsi günün tələbidir. Neft müqaviləsinin imzalandığı gündən əsas ixrac boru kəmərinin çəkilməsi ilə bağlı öz müdrik qərarını vermiş Heydər Əliyev dövlət başçıları və digər rəsmi şəxslərlə, həm də iri neft şirkətlərinin rəhbərləri ilə görüşlərdə Bakı-Ceyhan xəttinin alternativinin olmadığını sübut etmişdir. Hələ 90-cı illərin ortalarında o, Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşündə Bakı-Tbilisi-Ceyhan neft kəməri ideyasını bəyan etmişdi. Həmin bəyanatda deyilir ki, "Tərəflər, Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılacaq ilkin neftin iki istiqamətdə dünya bazarına çıxarılması haqqında Azərbaycan Respublikasının və neft konsorsiumunun qərarından məmnun olduqlarını qeyd etmiş və ayrıca olaraq, əsas neft kəmərinin Türkiyənin Ceyhan limanına yönəlməsi barədə istəklərini təsdiq etmişlər" [63, 159].

1997-ci il sentyabrın 5-də Bakı-Tbilisi-Ceyhan ixrac boru kəmərinə aid işlərin hazırlanması üçün Azərbaycan Respublikasında işçi qrupu təşkil edilmişdi.

Yeni neft strategiyasının ən mühüm tərkib hissələrindən biri olan "Bakı-Tbilisi-Ceyhan" ixrac boru kəmərinin çəkilişi ideyasının meydana gəlməsi onu tədricən reallığa çevirmişdir. 1998-ci il mayın 15-də İstanbulda üç dövlətin – Türkiyə, Azərbaycan və Gürcüstanın qarşılıqlı anlaşma barədə imzaladığı memorandum Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinin sənədləri üzrə danışıqların başlanğıcını qoydu [93, 34].

Heydər Əliyev sonrakı danışıq mərhələsində də Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin alternativinin olmadığını "Əsrin müqaviləsi"ndə iştirak edən şirkətlərə, habelə onların təmsilçisi olan dövlətlərə qəbul etdirə bilmişdir. İntensiv danışıqlar nəticəsində 1998-ci il dekabrın 29-da Türkiyə, Azərbaycan və Gürcüstan prezidentləri BTC Əsas İxrac Boru Kəməri layihəsini dəstəkləyən Ankara Bəyannaməsini imzalamışlar.

Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi Azərbaycanın regionda nüfuzunun artmasını istəməyən qüvvələr tərəfindən müqavimətlə qarşılandı. Lakin danışıqlar davam etdirilmiş və 1999-cu il aprelin 13-də Azərbaycan və Türkiyə arasında Bakı-Ceyhan layihəsi üzrə danışıqların başa çatdırılması barədə İstanbul protokolu imzalanmışdır.

Aparılan tədqiqatlar və danışıqlar nəticəsində 1999-cu il noyabrın 18-də [93, 35] ATƏT-in İstanbulda keçirilən zirvə toplantısında Azərbaycan, Gürcüstan Türkiyə prezidentləri tərəfindən xam neftin Azərbaycan, Gürcüstan, Türkiyə əraziləri ilə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair saziş imzalandı. Həmin sazişə ABŞ prezidenti Bill Klinton və Qazaxıstan prezidenti Nursultan Nazarbayev imza atmaqla bu tarixi layihənin reallaşmasına inamı daha da artırmış oldular.

İstanbul Bəyannaməsinin imzalanması ilə əlaqədar Azərbaycan Prezidenti tərəfindən "BTC Əsas İxrac Boru Kəmərinin tikintisi və istismara verilməsi tədbirləri haqqında" 29 dekabr 1999-cü il tarixli sərəncam imzalanmış və layihənin həyata keçirilməsi üçün bir sıra mühüm tədbirlərin görülməsi qərara alınmışdır [93, 17-18].

BTC üzrə hökumətlərarası sazişlər 2000-ci il mayın 26-da Azərbaycan, mayın 31-də Türkiyə, iyunun 21-də Gürcüstan parlamentləri tərəfindən ratifikasiya edilmişdir [93, 35].

Beləliklə, ümummilli lider Heydər Əliyev Cənubi Qafqaz regionunun geosiyasi mənzərəsini nəzərə alaraq, Əsas İxrac Boru Kəmərinin Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu ilə çəkilməsinin vacibliyini ön plana çəkdi. Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin üzərində təkidlə israr edən Heydər Əliyev bu tarixi layihənin gerçəkləşməsinin strateji və geosiyasi baxımdan ən düzgün qərar olduğunu sübut etmişdir.

Heydər Əliyevin 2001-ci il martın 12-dən 16-dək olan dövr-

də Türkiyəyə rəsmi səfəri Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinin gerçəkləşməsinə böyük təsir göstərmişdir. Ölkə başçısının bu rəsmi səfəri Azərbaycan Respublikası ilə Türkiyə arasında dostluq, qardaşlıq, strateji tərəfdaşlıq əlaqələrinin inkişafında yeni mərhələ olmuşdur. Türkiyənin Böyük Millət Məclisində nitq söyləyən Heydər Əliyev BTC boru kəməri layihəsi haqqında demişdir ki, "... biz o, vaxt müqaviləni imzalayanda əsas ixrac borusu kimi Bakı-Ceyhanı nəzərdə tutmuşduq. Ötən illərdə biz bu barədə işlər görmüşük. Bilirsiniz ki, artıq bütün anlaşmalar imzalanıbdır və Bakı-Tbilisi-Ceyhan neft borusunun indi inşası başlanır" [31].

Türkiyədə rəsmi səfərdə olarkən Heydər Əliyev "CNN Türk" televiziyasının BTC-nin tikintisi ilə bağlı sualına cavabında qeyd etmişdir ki, "Konsorsiumda bəzi şirkətlər var ki, Bakı-Ceyhanın olmasını istəmirlər. Onlar istəyirdilər ki, Bakı-Supsanı bir az da genişləndirək, 2-3 ildən sonra Bakı-Ceyhanı başlayarıq. Amma mən dedim ki, Bakı-Ceyhan indi başlanmalıdır. Onların bəziləri dedilər ki, gəlin İrandan çəkək, çünki İran yolu daha ucuzdur. İrandan körfəzə məsafə azdır, daha da ucuz başa gələr. Bunu həm Amerika qəbul etmədi, həm də hesab edirəm ki, biz 1994-cü ildə Bakı-Ceyhanın təməlini qoymuşuq. Mən altı ildir ki, bu təməli inkişaf etdirirəm. Ona görə bu, mənim əsərimdir" [34].

Rəsmi səfər dövründə geniş tərkibdə danışıqlardan sonra Azərbaycanla Türkiyə arasında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası, Şahdəniz qazının Türkiyəyə ixrac edilməsi, iqtisadi və ticarət əlaqələrinin inkişaf etdirilməsi haqqında sənədlər imzalandı.

Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşması üçün tərəfdaş dövlətlər və neft şirkətləri gərgin və səmərəli işlər görmüşlər. 2000-ci ilin oktyabrından 2001-ci ilin iyununadək BTC layihəsi üzrə ilkin mühəndis layihə işləri aparılmış, bu ilin iyulundan

2002-ci ilin oktyabrınadək [93, 35] isə layihə üzrə müfəssəl mühəndis layihə işləri yerinə yetirilmişdir.

2002-ci il iyul ayının 1-də BTC boru kəməri üzrə sərmayədar şirkətlərin tərkibinin müəyyən edilməsi kəmərin tikintisinə inamı daha da artırmışdır.

2002-ci il avqustun 1-də London şəhərində Heydər Əliyevin xeyir duası ilə kəmərin tikilməsi və gələcəkdə onu istismar etmək üçün "BTC Kº" şirkəti təşkil edilmişdir. "BTC Kº" şirkətinin səhmdarları – BP (30%), AzBTC (25%), Şevron (8,90%), Statoyl Hidro (8,71%), TPAO (6,53%) ENİ (5%), Total (5%), İtocu (3,40%), İNPEKS (2,5%), Konoko Fillips (2,5%), Hess (2,36%), [15, 17] şirkətləridir. BTC Kº şirkətinin baş sərmayədarı qismində çıxış edən "BP-Azərbaycan" şirkəti 30,1% iştirak payına malikdir və tikintinin başlıca əməliyyatçısıdır.

2002-ci il sentyabr ayının 18-də Səngəçalda Bakı-Tbilisi-Ceyhan neft kəməri tikintisinin təməlqoyma mərasimi keçirilmişdir. Təməlqoyma mərasimində Azərbaycan, Gürcüstan, Türkiyə prezidentləri və ABŞ-ın Energetika naziri Spenser Abraham iştirak etmişdir. Həmin gün Səngəçal terminalında BTC neft boru kəmərinin təməli qoyulmuş və tikintisinə start verilmişdir. Təməlqoyma mərasimində çıxış edən Heydər Əliyev demişdir ki, "Bu layihənin əsası 1994-cü ildə Azərbaycanın neft strategiyasının həyata keçirilməsinin başlanğıcında 1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında müqavilə imzalanarkən qoyulmuşdur" [35].

BTC layihəsində nəzərdə tutulduğu kimi boru kəmərinin uzunluğu 1768 kilometrdir. Boru kəmərinin Azərbaycandan keçən hissəsinin uzunluğu 443 kilometr, Gürcüstandan keçən hissəsinin uzunluğu 250 kilometr, Türkiyədən keçən hissəsinin uzunluğu isə 1075 kilometr [44, 8] təşkil edir.

BTC-nin start götürdüyü mərhələdə onun əleyhdarları tikin-

tinin Gürcüstan ərazisindən keçən hissəsinin guya Borjomi mineral su mənbəyinə ekoloji ziyan vura biləcəyini bəhanə edərək kəmərin çəkilişini dayandırmağa cəhd göstərmişdilər. Elmi araşdırmalardan sonra su mənbəyi üçün heç bir təhlükənin olmadığı müəyyən edilmişdir. Əks qüvvələrin BTC boru kəmərinin tikintisinə mane olmaq cəhdləri isə boşa çıxmışdır.

BTC Əsas İxrac Boru Kəməri layihəsinin gerçəkləşməsi ilə bağlı maneələrə və təzyiqlərə baxmayaraq, ümummilli lider Heydər Əliyevin məqsədyönlü tədbirləri və səyləri nəticəsində layihədə iştirak edən dövlətlərin əksəriyyəti Azərbaycan Respublikasına yaxından dəstək vermiş və BTC layihəsinin maliyyə məsələlərinin həllində və digər problemlərin uğurla başa çatmasında Heydər Əliyevin misilsiz xidməti olmuşdur. Heydər Əliyevin 30 iyul 2002-ci il tarixli 739 saylı və 1 noyabr 2002-ci il tarixli 811 saylı [93, 19] fərmanına uyğun olaraq, Azərbaycan tərəfin payının maliyyələşdirilməsi məqsədilə yeni yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fondundan vəsait ayrılmışdır.

2002-ci ilin oktyabrında BTC layihəsi üzrə Ətraf Mühit və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədi Azərbaycan və Türkiyə hökumətləri tərəfindən təsdiq olunmuş, noyabr ayında isə həmin sənəd Gürcüstan hökuməti tərəfindən təsdiq edilmişdir [93, 36].

2003-cü ilin mart-aprel aylarında Azərbaycan Respublikası, Gürcüstan və Türkiyədə BTC boru kəmərinin dəhlizi üçün torpaqların ayrılması prosesi başa çatmışdır. BTC layihəsi ilə bağlı alınmış torpaq sahiblərinə ödənişlər həyata keçirilmişdir.

Bütün hazırlıq tədbirləri həyata keçirildikdən sonra 2003-cü ilin aprel ayında Azərbaycan, Gürcüstan və Türkiyədə BTC Əsas İxrac Boru Kəmərinin tikintisinə başlanılmışdır.

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasında prezident seçkiləri keçirilmiş və seçicilərin əksəriyyəti 76,84 fai-

zi [120] prezidentliyə namizəd İlham Əliyevə səs vermişdir. Fəallıq şəraitində keçən seçkilərdə Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyevin prezident seçilməsi BTC boru kəməri tikintisinin uğurla başa çatdırılmasına əlverişli imkan yaratmışdır.

Yeni neft strategiyasını uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin inşasının başa çatdırılması üçün göstərdiyi işgüzar fəaliyyət öz səmərəli nəticəsini vermişdir. Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı neft kəmərinin tikintisi üçün maliyyə vəsaitinin ayrılmasına razılıq vermişdilər. 2004-cü il fevralın 3-də BTC layihəsinin tərəfdaşları dünyanın 25-dən çox bankı və kredit təşkilatının iştirakı ilə boru xəttinin tikintisinin maliyyələşdirilməsinə dair sənədlər paketi imzalamışlar.

BTC-nin tikinti işlərinin maliyyələşdirilməsi 11 şirkət – BP, AzBTC, Şevron, Statoyl, TPAO, ENİ, Total, İtoçu, İnpeks, Konoko Philips, Hess şirkətləri tərəfindən həyata keçirilmişdir.

Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin tikintisi ilə bağlı qərar qəbul ediləndən sonra da onun əleyhdarları əkstəbliğat aparmaqda davam edirdilər. Xüsusilə erməni lobbisi və ermənipərəst qüvvələr və onların havadarları bu möhtəşəm boru kəmərinin inşasına müxtəlif yollarla mane olmağa çalışırdılar. Bununla əlaqədar olaraq Azərbaycan Prezidenti İlham Əliyev demişdir "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi barədə qərar qəbul ediləndə və onu həyata keçirəndə Amerika konqresindəki ermənipərəst xadimlər bizə hər vasitə ilə mane olmağa çalışırdılar. Kəmər əleyhinə məqsədyönlü təbliğat aparılırdı, hətta xüsusi internet sayt da açılmışdı. Müxtəlif bəhanələr uydura-raq, ən çox da ekoloji məsələni qaldıraraq onlar bizim üçün başağrısı yaradırdılar" [81, 167]

Ölkə başçısı İlham Əliyev Əsas İxrac Boru kəmərinin çəkil-

məsi ilə əlaqədar əks qüvvələrə öz fikrini belə bildirmişdir:

“Bakı-Tbilisi Ceyhan layihəsi, qaz layihəsi – bütün bunları edərkən kiminsə maraqlarına zərbə vurmağı qarşımıza məqsəd qoymuruq. Biz bu işləri sırf öz maraqlarımız və maraqlarımızın qorunması naminə həyata keçiririk” [81, 171].

Bakı-Tbilisi-Ceyhan neft kəmərində tikinti işləri 2004-cü ildə artan xətlə uğurla inkişaf etmişdir. İşlərin bu sürətlə gedişi layihəni 2005-ci ilin dördüncü rübündə başa çatdırmağa imkan vermişdir. 2004-cü il ərzində BTC layihəsi üzrə əsaslı xərclər 1,2 milyard [44, 18] ABŞ dolları təşkil etmişdir. BTC tikintisinin sürətlə davam etdirilməsi neft strategiyasının uğurla həyata keçirildiyini göstərirdi. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev bildirmişdir ki, “Biz bu gün Azərbaycanda çox böyük bir mərhələnin astanasındayıq. Yenə də məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi nəticəsində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi nəinki mümkün olmuşdur, həm də bu tikinti uğurla davam etdirilir və bu yaxınlarda kəmər istismara veriləcəkdir” [85, 182].

Statistik göstəricilərə əsasən 2004-cü ilin dekabrında bu layihə çərçivəsində təqribən 17000 nəfər işçi çalışmışdı ki, onlardan 2500 nəfəri Azərbaycanda idi. Bunların da 80 faizi azərbaycanlı olmuşdur. 2004-cü ilin payızında tikinti işləri özünün ən yüksək zirvə nöqtəsinə çatdığı zaman boru kəmərinin keçdiyi hər üç ölkədə layihə çərçivəsində 22000 nəfər işçi olmuşdur [44, 18].

2004-cü il üçün əsas sayılan layihənin maliyyələşdirilməsi məsələsinə ilin birinci rübündə yekun vurulması və ikinci rüb ərzində bu kəmərin keçdiyi hər üç ölkədə kəmər dəhlizinin bütün sahəsinə giriş imkanının əldə olunması daxildir. Həmin ilin üçüncü rübündə BTC boru kəmərinin Azərbaycandan və Gürcüstandan keçən hissələri hər iki ölkənin sərhəd zonasında bir-birinə qaynaq edilmişdir. 2004-cü ilin sonu üçün boru kəmərinin

Gürcüstandan keçən hissəsi üzrə tikinti işlərinin 80 faizdən çoxu tamamlanmış və bu dövr ərzində, Ceyhanda yeni dəniz terminalının tikintisi üzrə işlərin 20 faizinin də tamamlanması daxil olmaqla, Türkiyədə layihənin təxminən 85 faizi [44, 18] başa çatdırılmışdı. Bu nəhəng infrastruktur layihəsi tamamlandığına görə 2005-ci ildə BTC boru kəmərinin tikintisi ilə bağlı əsaslı xərclər azalaraq təqribən 700 milyon ABŞ dolları təşkil etmişdir.

BTC boru kəmərinin bütövlüyünü təmin etmək üçün bir sıra tədbirlər görülmüşdür. Boru kəmərinin layihələşdirildiyi kimi 40 il davam edəcək istismarı dövründə onun hermetikliyini təmin etmək məqsədilə, spesifikasına və beynəlxalq standartlara uyğun şəkildə BTC boru kəməri üçqat polietilenlə örtüklənmişdir. Boru kəmərinin seksiyaları sahədə qaynaq edildikdən sonra qaynaq tikişləri olan nahiyələr qum şırnağı ilə təmizlənmiş və montaj tikişlərinin üzərindən maye şəkilli örtük materialı çəkilmişdir. Boru kəməri torpağa basdırılmamışdan öncə qaynaq və montaj tikişləri yoxlanılmış və sınaqdan keçirilmişdir.

2004-cü ildə BTC layihəsi ilə bağlı ekoloji və sosial məsələlərin idarə olunması potensialını yaxşılaşdırmaq üçün monitorinq keçirilmişdir. Azərbaycan, Gürcüstan və Türkiyədə ekoloji sərmayə proqramı həyata keçirilmişdir. Bu ildə hər üç dövlətdə boru kəmərinin tikintisi sürətlə davam etdirilmişdir. BTC neft kəmərinin inşasının çox uğurla davam etməsi münasibətilə boru xəttinə ümummilli lider Heydər Əliyevin adı verilmişdir. Bununla bağlı Prezident İlham Əliyev bildirmişdir ki, “Bakı-Tbilisi-Ceyhan neft kəməri Heydər Əliyevin əsəridir. Təsadüfi deyil ki, bu kəmərə Heydər Əliyevin adı verilmişdir” [85, 183].

2005-ci ilin əvvəllərində BTC Əsas İxrac Boru Kəmərinin tikintisi uğurla davam etdirilmişdir. Tikinti işlərinin həyata keçirilməsində Azərbaycan şirkətləri ilə bərabər xarici şirkətlər də yaxından iştirak etmişlər. Neft borularını Almaniya, İngiltərə və başqa ölkələrin nəqliyyat vasitələri daşıyıb gətirmişlər. BTC-nin

tikinti işlərinin Azərbaycan hissəsini əsasən Yunanıstanın CCİC, Gürcüstan hissəsinin inşasını isə Fransa-ABŞ-ın "Kapak-Petrofak" şirkətləri həyata keçirmişlər.

2005-ci il ABƏŞ-in "BP-Azərbaycan" Strateji İcra Bölümü (SİB) üçün fövqəladə və çətinliklərlə dolu il olmuşdur. Bu ilin ən görkəmli hadisəsi "Mərkəzi Azəri" platformasından birinci neftin alınması və onun yenicə genişləndirilmiş Səngəçal terminalından BTC boru kəmərinə vurulması olmuşdur [45, 16].

2005-ci il mayın 26-da Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin Azərbaycan hissəsinə birinci neftin vurulması münasibətilə təntənəli mərasim keçirilmişdir. Azərbaycan, Gürcüstan, Türkiyə və Qazaxıstan prezidentləri və bir sıra görkəmli şəxslər Səngəçala gəlmiş və təntənəli mərasimdə iştirak etmişlər. Təntənəli mərasim televiziya ilə bütün dünyaya yayımlanmışdır. Avqust ayının əvvəlində neft Azərbaycan-Gürcüstan sərhədinə çatmış və boru kəmərinin Gürcüstan hissəsinə daxil olmuşdur. Bu hadisə münasibətilə Gürcüstanda da təntənəli tədbirlər keçirilmişdir. Birinci neftə həsr olunmuş rəsmi mərasim bu layihələrdə bilavasitə əlaqəli olan üç ölkənin Gürcüstan-Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə 2005-ci il oktyabrın 12-də Gürcüstandakı birinci nasos stansiyasında keçirilmişdir [45, 38]. Noyabrın ortalarında neft Gürcüstan-Türkiyə sərhədini keçmiş və Türkiyədəki 1 saylı Nasos stansiyasına çatmışdır. Həmin vaxt boru kəmərində artıq dörd milyon bareldən çox neft var idi.

BTC layihəsinin tamamlanmaması boru kəmərinə neft vurulmasından əvvəl onun hər bir hissəsinin bütövlüyünü və təhlükəsizliyini təmin etmək üçün nəzərdə tutulmuş istismara verilmə işləri ilə bağlı olmuşdur. Bu işlərin həyata keçirilməsi gözlənildiyindən daha çox vaxt aparsa da, gələcək 40 il və ya daha uzun müddət üçün xəttin səmərəli və təhlükəsiz işləməsinə əmin olmaq üçün vacib idi. Hava şəraitinin əlverişsiz olması və podratçıların işinin çətinliyi və başqa amillər, xüsusilə xəttin Türkiyə

hissəsindəki çətinliklər, layihənin yerinə yetirilməsinin gecikdirilməsinə səbəb olmuşdur.

BTC boru kəmərinin Türkiyə ərazisindəki hissəsi Türkiyə dövlət şirkəti BOTAŞ və onun subpodratçıları tərəfindən inşa olunmuşdur. 2005-ci ilin əvvəlində baş vermiş ləngimələrə baxmayaraq, ilin sonunadək bütün boru kəməri çəkilmiş və hidrosınaqdan keçirilmişdir. Boru kəmərinin Türkiyə hissəsi boyunca bütün torpaqların bərpa edilməsi işləri başa çatdırılmışdır.

2005-ci ildə layihə ilə bağlı çəkilən əsaslı xərclər boru kəmərinin doldurulması və maliyyələşdirilmə xərcləri ilə birlikdə 1,18 milyard dollar olmuşdur. BTC boru kəmərinin tikinti xərclərinin artması qismən inşaat müddətinin nəzərdə tutulduğundan artıq olması ilə əlaqədardır.

2006-cı ilin əvvəlindən Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin tikintisi Türkiyə ərazisində intensiv surətdə davam etdirilmişdir. Nəhayət 2006-cı il may ayının 28-də Azərbaycan nefti boru kəməri vasitəsilə Aralıq dənizi sahilində yerləşən Türkiyənin Ceyhan limanına çatmışdır. Boru kəmərinin tikintisi dağlıq ərazilərdə çətinliklərlə müşayiət olunmuşdur. BTC-nin keçdiyi marşrutun ən yüksək nöqtəsi 2800 metr olmuşdur [46, 20].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı il mayın 28-də Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin neftlə doldurulub başa çatması münasibətilə xalqa müraciətində deyilir: “Çox əlamətdar haldır ki, Azərbaycan nefti Ceyhan limanına müstəqillik günündə çatdı. Bu, rəmzi xarakter daşıyır, çünki Bakı-Tbilisi-Ceyhan Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirəcək” [37].

2006-cı ilin ortalarında Ceyhan terminalında tankerin birinci neftlə yüklənməsi ilə BTC boru kəmərinin tam işlək vəziyyətə gətirilməsi nəzərdə tutulurdu. BTC-nin tam işlək vəziyyətə gətirilməsinə qədər ABƏŞ-in “Azəri”, “Çıraq”, və “Günəşli” yataq-

larından hasil etdiyi xam neftin nəqli üçün alternativ variantlardan, o cümlədən, Qərb İxrac Boru Kəmərindən, Şimal İxrac Boru Kəmərindən istifadə edilmişdir. Xam neftin bir hissəsinin isə Batumiyə qədər dəmiryol sisternləri ilə göndərilməsi davam etdirilmişdir.

Şərq-Qərb enerji dəhlizi və onun mühüm elementlərindən biri olan BTC boru kəməri zamanın tələbi, dünya iqtisadiyyatının vacib bir hissəsi tranzit ölkələrin iqtisadi inkişafının və enerji təhlükəsizliyinin təmin olunmasının ayrılmaz amilidir. Əbəs deyildir ki, müstəqil Azərbaycan Respublikasının yeni neft strategiyasının yaradıcısı, BTC ixrac neft kəmərinin əsl memarı olan ümummilli lider Heydər Əliyevin bu layihənin gerçəkləşməsində əvəzsiz xidmətləri qiymətləndirilərək Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinə Heydər Əliyevin adı verilmişdir və bu kəmər Azərbaycan, Gürcüstan və Türkiyə arasında əbədi qardaşlıq simvoluna çevrilmişdir.

2006-cı il iyulun 13-də müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin çox böyük uzaqgörənliklə işləyib hazırladığı və “Əsrin müqaviləsi”nin imzalanması ilə başlayan neft strategiyasının həyata keçirilməsində ən təntənəli, dünya əhəmiyyətli hadisələrdən biri baş vermişdir.

2006-cı il iyulun 4-də neftlə yüklənmiş ilk tanker Ceyhan limanından yola salındı. Rəsmi açılış gününədək Ceyhan limanından 4,8 milyon barel neft yüklənmiş 7 tanker yola salınmışdır.

2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihələrindən biri olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin təntənəli surətdə açılış mərasimi keçirilmişdir. Təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti Mixeil Saakaşvili, Türkiyənin Baş Naziri Rəcəb Tayyib Ərdoğan, “BP” şirkətinin prezidenti Con Braun, habelə 30-dək ölkənin dövlət və hö-

kumət nümayəndələri, beynəlxalq və regional təşkilatların təmsilçiləri iştirak etmişlər. Təntənəli mərasimdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Bu gün tarixi bir gündür. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri istismara verilir və bu tarixi günü biz birlikdə Ceyhan terminalında qeyd edirik" [38].

Səngəçal terminalından Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanınadək uzanan 1774 kilometrlik xəttin çəkilişinə təxminən 4 milyard dollar vəsait xərclənmişdir. Layihənin operatoru "BP-Azərbaycan" şirkətidir. Kəmərin tikintisi və istismarı üçün yaradılmış "BTCKO" şirkətinin səhmdarları, yuxarıda göstərildiyi kimi, BP, ARDNŞ, Şevron, Statoyl, TPAO, ENİ, Total, İtoçu, İNPEX, Konoko Philips və Amerada Hess şirkətləridir.

Bakı-Tbilisi-Ceyhan boru kəməri ildə 50 milyon ton Azərbaycan neftini nəql etmək üçün nəzərdə tutulmuşdur. Qazaxıstanın BTC-yə qoşulması bu ölkəyə də öz neftini Aralıq dənizi vasitəsilə dünya bazarlarına çıxarmağa imkan vermişdir. Açılış mərasimi dövründə BTC boru kəməri ilə gündə 400 min bareldən çox neft nəql olunmuşdur.

Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev nitq söyləmişdir. O, öz çıxışında yeni neft strategiyasının uğurlarını qeyd edərək göstərmişdir ki, "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarının işlənməsi nəticəsində hasil olunan Azərbaycan nefti bu gün dünya bazarlarına müxtəlif yollarla ixrac edilir.

Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında BTC neft kəmərinin inşasının çətinliklərlə müşayiət olunduğunu, buna inanmayanların və mane olmaq istəyənlərin olduğunu qeyd edərək demişdir: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasının qarşısının alınmasına çalışanlar var idi, problemlər, maneə törədənlər var idi. Ancaq xalqımızın iradəsi, Azərbaycan, Türkiyə, Gürcüstan rəhbərliyinin iradəsi, bizim birgə fəaliyyətimiz bu əf-

sanəni gerçəkliyə çevirdi” [38].

Prezident İlham Əliyev öz çıxışında Azərbaycan neftinin dünya bazarlarına şaxələndirilmiş formada üç neft kəməri vasitəsilə çıxarıldığını, onların ən böyüyünün Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəməri olduğunu qeyd etməklə, bu işlərin yerinə yetirilməsində xarici şirkətlərlə birgə fəaliyyətimizi qiymətləndirərək demişdir: “Bu imkandan, bugünkü fürsətdən istifadə edib, xüsusilə xarici şirkətlərin fəaliyyətini vurğulamaq istəyirəm, “BP” şirkətinin rəhbərliyi ilə Azərbaycanda 1994-cü ildən fəaliyyət göstərən beynəlxalq konsorsiumun işini yüksək qiymətləndirirəm, “BP” şirkəti eyni zamanda Bakı-Tbilisi-Ceyhan layihəsində aparıcı rol oynayır və bu şirkətin Azərbaycana verdiyi töhfələri biz çox yüksək qiymətləndiririk və bunları təqdir edirik” [38].

ABŞ Xəzərin Azərbaycan Respublikası sektorundakı neft-qaz yataqlarının birgə işlənməsinə dəstək verdiyi kimi Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin çəkilməsi məsələsində bu enerji layihəsini də yaxından müdafiə etmişdir. BTC boru kəmərinin rəsmi açılış mərasimində çıxış edən ABŞ-ın energetika nazirinin müavini Kley Şell bu enerji layihəsinin XXI əsrin əvvəllərində dünyada ən böyük layihə olduğunu, həm də bu enerji dəhlizinin Şərqdən Qərbə gedən böyük bir yol olduğunu, bu kimi enerji layihələrinin həm neftin, həm də qaz ehtiyatlarının dünya bazarlarına çatdırılmasında uğurlu addım olduğunu və onlardan sonra yeni layihələr yaranacağına inamı qeyd etmiş və bu işlərin uğurlu olmasında Amerika hökumətinin də öz dəstəyini heç zaman əsrigəməyəcəyini bildirmişdir.

BTC-nin rəsmi açılışı dövründəki ABŞ prezidenti Corc Buş bu hadisə münasibətilə Türkiyə prezidenti Əhməd Sezərə ünvanlanmış təbrik məktubu göndərmişdir. Məktubda deyilir: “BTC Xəzər dənizi ehtiyatlarının inkişafında böyük addımdır. Bu, eyni zamanda ətraf mühit üçün böyük bir inkişaf addımıdır. Həm

Azərbaycan, həm Gürcüstan, həm Türkiyə, həm də dünya bazarı üçün böyük bir hadisədir. Onun əhəmiyyəti BTC-nin həm də dünya enerji bazarına çıxmasındadır. ...Biz Bakı-Tbilisi-Ceyhan layihəsinin yüksək dərəcədə müvəffəqiyyətlə tamamlanacağına inanırıq" [38].

Xatırladaq ki, Bakı-Tbilisi neft kəməri layihəsinin reallaşmasında Qərbin aparıcı dövlətlərinin, xüsusilə də Amerika Birləşmiş Ştatlarının Azərbaycanın mövqeyini dəstəkləməsinin böyük əhəmiyyəti olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev rəsmi açılış mərasimdəki nitqində ABŞ-ın ölkəmizə dəstəyini yüksək qiymətləndirərək demişdir ki, "Bu gün mən xüsusilə Amerika Birləşmiş Ştatlarının bu məsələ ilə bağlı olan fəaliyyətini vurğulamaq istəyirəm. Biz Amerikanın dəstəyini bütün dövrlərdə hiss etmişik, ona arxalanmışıq və o dəstək bəzi məqamlarda həlledici rol oynamışdır. Həm "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənməsində və həm də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasında Amerika hökumətinin dəstəyi çox önəmli olmuşdur" [38].

İllik ixracetmə qabiliyyəti 50 milyon tondan çox olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tam gücü ilə işə düşməsi nəticəsində zəngin karbohidrogen ehtiyatlarına malik olan Qazaxıstan neftinin də bu boru kəməri vasitəsilə nəql edilməsi imkanı yaranmışdır. Prezident İlham Əliyev bu məsələ ilə bağlı öz nitqində qeyd etmişdir ki, "Bəlkə də bir neçə il bundan əvvəl zənn edirdik ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tamamlanması ilə əlaqədar bizim əsas işlərimiz bitmiş olacaqdır. Amma həyat yerində durmur. Bakı-Tbilisi-Ceyhan kəmərinin tamamlanması sadəcə bizim işimizin yeni mərhələsinin başlanması deməkdir. Bundan sonra Qazaxıstan nefti bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılacaqdır" [38].

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin uğurla inşa edilib istifadəyə verilməsi yeni regional və strateji enerji layihələrinin ya-

ranmasına səbəb olmuşdur. Artıq bu layihə regional çərçivədən çıxıb qlobal müstəviyə keçmişdir. Layihənin nəinki Avropa ölkələri, hətta dünya üçün böyük əhəmiyyəti var və gələcəkdə daha da artacaqdır.

BTC boru kəmərinin qədim ipək yolunun bərpası işində çox böyük əhəmiyyəti vardır. Bu layihədə üç ölkənin-Azərbaycan, Gürcüstan və Türkiyənin səmərəli işbirliyi, əməkdaşlığı bunu mümkün etmişdir. Prezident İlham Əliyevin öz nitqində göstərdiyi kimi “... həm Türkiyə, həm də Gürcüstanla münasibətlərimiz ən yüksək zirvədədir. Bu münasibətlər qardaşlıq xarakteri daşıyır, xalqımızı bir-birinə daha çox yaxınlaşdırır, belə nəhəng layihələrin həyata keçirilməsinə imkan yaradır. Çünki bu gün Azərbaycanda icra olunan layihələr dünyanın ən böyük enerji layihələridir. Dünyanın gələcəyi isə enerji mənbələri ilə bağlı olacaqdır” [38].

BTC neft kəməri Azərbaycan Respublikasının enerji müstəqilliyini möhkəmləndirməklə bərabər Avropanın da enerji təhlükəsizliyində mühüm rol oynamağa başlamışdır. Enerji müstəqilliyi həm də ölkənin müstəqilliyini möhkəmləndirir və belə olan halda isə müstəqil siyasət həyata keçirilir.

BTC-nin istismara verilməsindən sonra əsas qurğularının tikintisi və xəttin doldurulması 2006-cı ilin ortalarında başa çatdırılmışdır. Açılış mərasimi dövründə xəttin gündəlik ötürmə qabiliyyəti 400 min barel idisə, qurğular və nasos stansiyaları sistemə qoşulduqca boru kəmərinin məhsuldarlığı artaraq getdikcə sabit şəkil almışdır. Artıq 2006-cı ilin sonunda BTC-nin gündəlik ötürmə qabiliyyəti bu ildəki maksimum neft hasilatı zamanı 500 min [46, 9] bareldən artıq olmuşdur. 2006-cı il ərzində xəttin doldurulması və maliyyələşdirmə xərcləri də daxil olmaqla, əsaslı xərclərə 920 milyon dollar [46, 47] vəsait sərf olunmuşdur. 2007-ci il ərzində BTC boru kəmərinin orta hesabla gündəlik ötürmə qabiliyyəti 600 min [47, 3] bareldən artıq olmuşdur.

Texniki modifikasiyalar aparmaqla BTC-nin ötürmə qabiliyyətini daha da artırmaq mümkün olacaqdır. Gələcəkdə kəmərin məhsuldarlığını ildə təxminən 50 milyon tona çatdırmaq nəzərdə tutulmuşdur.

İlkin olaraq ABƏŞ-in BTC boru kəməri ilə yalnız AÇG yatağından hasil etdiyi neft nəql edilirdi. Şahdəniz yatağından çıxarılan birinci kondensat həcmləri isə 2007-ci ilin yanvar ayından BTC boru kəməri vasitəsilə nəql olunmağa başlanmışdır.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu BTC, CQBK-nin Azərbaycandan keçən marşrutu boyunca aparılmış ən böyük arxeoloji qazıntı proqramını hələ 2006-ci ilin yanvarında başa çatdırmışdır. Boru kəmərinin keçdiyi dəhliz boyunca təxminən 50 yerdə qazma işləri aparılmış və tarixi mis dövründən son tunc dövrü və dəmir dövrünədək olan çoxlu sayda maddi mədəniyyət abidələri aşkar edilmişdir.

Bakı-Tbilisi-Ceyhan boru kəmərinin, Cənubi Qafqaz Boru Kəmərinin və Səngəçal terminalının təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycanda ixrac boru kəmərlərinin Mühafizəsi İdarəsi yaradılmışdır. Dənizdəki obyektlərin təhlükəsizliyi isə Azərbaycanın Hərbi Donanması və Azərbaycanın Sahilyanı Mühafizə Xidməti tərəfindən təşkil etmişdir.

BTC Boru Kəmərini Yoxlama Ərsinləri qoruyur (BYƏ). Boru Kəmərini Yoxlama Ərsini kəmərin daxili vəziyyətini yoxlamaq, onun konfiqurasiyasına dair məlumatlar toplamaq, qeyd etmək və boru kəmərində korroziyaya dair məlumatları aşkar etmək üçün istifadə olunan xüsusi alətdir. Bu məlumatlar BYƏ borudan çıxarıldıqdan sonra kompyuterə yüklənir ki, mühəndislər kəmərin içərisini "görə" bilsinlər. Bu proses İntellektual Ərsinlənmə (İƏ) kimi tanınır. Səngəçal terminalından başlanan və Ceyhan terminalınadək uzanan BTC boru kəməri 11 [47, 17] ərsinlənmə mərhələsinə bölünür.

BTC boru kəmərində İntellektual Ərsinləmədən ilk dəfə

2007-ci ilin aprel ayında istifadə olunmuşdur və ondan sonra hər beş ildən bir və ya şərait tələb edərsə, daha tez-tez istifadə olunur və bu üsul neft kəmərinin daha davamlı və səmərəli işləməsinə müsbət təsir göstərir.

2007-ci ilin martında boru kəmərinin gündə bir milyon barel layihə gücü işə salındı. İl ərzində BTC neft kəmərinin orta məhsuldarlığı gündə 600 min [47, 18] barel olmuşdur. Bu ildə BTC-yə sərf edilmiş vəsait 154 milyon [47, 18] dollar olmuşdur.

2008-ci il “BP-Azərbaycan” Strateji İcra Bölümü üçün həm uğurlu, həm də çətin bir il olmuşdur. BTC boru kəməri səmərəli işləmiş və onun ötürmə qabiliyyətini gündə 1,2 milyon barelədək artırmaq üzərində işə başlanılmışdır. Bununla belə həmin ilin avqust ayında BTC xəttinin Türkiyədəki hissəsində baş vermiş yanğın və Gürcüstandakı hərbi münaqişə Azərbaycandan neft ixracının müvəqqəti olaraq dayandırılmasına səbəb olmuşdur.

2008-ci ilin sonunda BTC boru kəməri vasitəsilə nəql olunan neft və kondensatın həcmi orta hesabla gündə 672 min [48, 4] barelə bərabər olmuşdur.

2008-ci ildə BTC vasitəsilə ixrac edilən neft və kondensatın ümumi həcmi 245,6 milyon [48, 12] barel (təxminən 32,9 milyon ton) olmuşdur.

2006-cı il iyunun 4-dən 2008-ci ilədək Ceyhanda 760 tanker yüklənib. Dünya bazarlarına 600 milyon [48, 4] barel (təxminən 80 milyon ton) xam neft yola salınmışdır.

2008-ci ildə BTC-nin ötürücülük qabiliyyətini 1,2 milyon barelədək artırmaqla bağlı işlərə başlanmışdır. Bu ilin noyabrında Qazaxıstanın Tengiz yatağından birinci xam neft də BTC boru kəməri vasitəsilə yola salınmışdır. BTC boru kəmərinə il ərzində çəkilmiş xərclər 164 milyon dollar [48, 12] məbləğinə bərabər olmuşdur.

2008-ci ildə BTC-nin ötürücülük qabiliyyətini 20 faizədək

artırmaq barədə qərar qəbul edilmişdir. Əlavə həcm üçün boş yer xəttə müqavimət azaldan maddə (MAM) kimi tanınan polimerin vurulması ilə təmin olunur. Ətraf mühitə təsiri demək olar ki, sıfır olan MAM boru kəmərinə daxil edildikdə təzyiqi artırmadan müqaviməti azaldır və beləliklə də neft axınını gücləndirir. Bu polimer adətən bir barel neftə bir çay qaşığı nisbətində əlavə edilir. Bu daxil edilmələr üçün BTC marşrutu boyunca yerləşən doqquz mövcud qurğu seçilmişdir ki, bunlardan ikisi Azərbaycanda, ikisi Gürcüstanda və beşi Türkiyədədir.

2008-ci ildə BP və tərəfdaşlarının ölkə daxilində əməliyyatlar və layihələr üzrə xərcləri ümumilikdə 1,3 milyon [48, 33] dollar təşkil etmişdir. Bu, 2007-ci ildəkinə nisbətən 12 faiz azdır və boru kəmərinin layihə mərhələsindən əməliyyat mərhələsinə keçirildiyini əks etdirir.

2009-cu ildə BTC boru kəmərinə çəkilmiş əsaslı xərclər 92 milyon dollara bərabər olmuşdur [49, 15]. Bu məbləğ əsasən sürtünməni azaldan reagentlərdən istifadə etməklə boru kəmərinin məhsuldarlığını gündə 1,2 milyon barelədək artırmaqla bağlı işlərə sərf olunmuşdur [49, 15]. Genişləndirmə layihəsi 2009-cu ilin mart ayında başa çatdırılmışdır. İkinci avtomatlaşdırılmış ərsinlə təmizləmə proqramının həyata keçirilməsinə başlanılmış və bu proqramın 2010-cu ildə tamamlanacağı nəzərdə tutulmuşdur.

Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə bağlı digər bir nailiyyət 2009-cu il dekabrın 18-də Səngəçal terminalından nəql edilən neft ilə Ceyhan terminalından 1000-ci tankerin neftlə yüklənilib yola salınması olmuşdur.

2009-cu ildə BTC neft kəmərinin məhsuldarlığı gündə orta hesabla 781 min barel [49, 11] olmuşdur ki, bu da 2008-ci illə müqayisədə 16 faiz artım olduğunu göstərir. Bu il ərzində BTC vasitəsilə ixrac edilən neftin ümumi həcmi 285 milyon barel (təxminən 38 milyon ton) [49, 15] olmuşdur ki, bu da 2008-ci illə müqayisədə 16 faiz çoxdur.

Əvvəlki illərdə olduğu kimi 2009-cu ildə də BTC və CQBK boru kəmərləri boyunca aşkarlanmış maddi mədəniyyət abidələri mühafizə edilmişdir. 2009-cu ilin aprel ayında Azərbaycanda “Boru kəmərləri ilə qədim tarix oyanır” adlı yeni bir arxeoloji sərgi açılmışdır. Sərginin əsas məqsədi BTC və CQBK boru kəmərləri barədə faktları nəzərə çatdırmaq və boru kəmərlərinin tikintisi zamanı aşkar edilmiş bəzi nadir əşyaları nümayiş etdirməkdən ibarət olmuşdur. Sərgi bura gələnləri Azərbaycan ərazisində yaşamış qədim insanların həyat tərzi ilə tanış etmişdir.

BTC-nin inşası dövründə qazıntılar zamanı aşkarlanmış bəzi maddi mədəniyyət abidələri haqqında məlumatlar vermək maraqlıdır. 2004-cü ilin may ayında torpağın üst qatının götürülməsi zamanı Ağstafa rayonu ərazisindəki Həsənsu təpəsi işlərin gedişini müşahidə edən arxeoloq tərəfindən potensial arxeoloji sahə kimi müəyyən edilmişdir. Həmin yer 2005-ci ilin yanvar ayında qazılarkən eramızdan əvvəl XVII-XVI əsrlərə aid üzərində günəşin çıxmasını təcəssüm etdirən küp tapılmışdır. Qədim insanlar günəşi bütün uğurların əsas mənbəyi hesab etmiş ev və bəzək əşyaları üzərində onun şəklini çəkmişlər.

2003-cü ildə Şəmkir rayonundakı Zəyəmçay nekropolunda aparılan qazıntı işləri zamanı eramızdan əvvəl XIV-XIII əsrlərə aid 130 qəbir və onların içərisində müxtəlif əşyalar tapılmışdır. Belə hesab edilir ki, onlar Xocalı-Gədəbəy mədəniyyətinə məxsusdur. Aşkar edilmiş tapıntılara dulusçuluq məmulatları, silahlar, əmək alətləri və bəzək əşyaları daxildir. Çox maraq doğuran əşyalardan biri də tunc kulondur. Onun ulduzlara inancla bağlı olduğu hesab edilir və o günəşi təcəssüm etdirir.

2010-cu ildə BTC boru kəmərinin ötürmə qabiliyyətinin artırılması üzərində iş davam etdirilmiş və ilin sonunda ötürmə qabiliyyəti gündə 1,2 milyon [50, 5] barel olmuşdur.

2010-cu ilin sentyabrında BTC boru kəməri ilə xam neftin milyardıncı [50, 9] bareli nəql edilmişdir. Bakı-Tbilisi-Ceyhan

neft kəmərinin istifadəyə verilməsi Rusiyanın Xəzər dənizinin karbohidrogen ehtiyatlarının Avropaya nəqli inhisarına zərbə vurdu və yeni alternativ neft-qaz layihələrinin yaranmasına səbəb oldu. Boru kəməri ahəngdar fəaliyyət göstərir və "Azəri-Layt" neftinin dünya bazarına nəqlini davam etdirir.

## 3.4. Bakı-Tbilisi-Ərzurum qaz kəməri

Xəzər hövzəsində beynəlxalq əməkdaşlığın əsasını qoymuş "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmizin gələcək inkişafının və o cümlədən enerji təhlükəsizliyinin bünövrəsi qoyulmuşdur. Müstəqilliyinin əvvəllərindən başlayaraq ölkəmiz öz enerji təhlükəsizliyini təmin etmək üçün neft və qaz təbii sərvətindən səmərəli istifadə etməyə səy göstərir. Respublikanın iqtisadi inkişafını sürətləndirmək üçün öz təbii sərvətlərindən daha məqsədəuyğun şəkildə istifadə olunmalıdır. Bununla bağlı ümummilli lider Heydər Əliyevin dediyi kimi "Allah Azərbaycan xalqına zəngin sərvətlər bəxş etmişdir. Bizim borcumuz, vəzifəmiz bu sərvətlərdən ehtiyatla istifadə etmək, eyni zamanda bu yataqları ardıcıl olaraq aşkara çıxarıb hərəkətə gətirmək, onlardan müstəqil respublikamızın inkişafı, xalqımızın rifahı naminə istifadə etməkdən ibarətdir" [64, 418].

Azərbaycan MDB məkanında dünyanın qabaqcıl neft şirkətləri ilə irimiqyaslı saziş imzalayan ilk dövlət olaraq enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində irəliyə doğru əhəmiyyətli addım atmışdır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə xam nefti və təbii qazı Qərb ölkələrinin bazarlarına təhlükəsiz, alternativ marşrutlarla ixrac etmək üçün ən səmərəli variantlar seçilmişdir.

Qərb İxrac Boru Kəmərinin istismara verilməsi və Bakı-

Tbilisi-Ceyhan ixrac boru kəmərinin reallaşmağa başlaması, yeni alternativ və təhlükəsiz boru kəməri layihələrinin yaranmasına təkan vermişdir. Belə böyük əhəmiyyətə malik olan layihələrdən biri “Şahdəniz” qaz-kondensat yatağının aşkarlanmasından sonra irəli sürülmüş olan Cənubi Qafqaz Boru Kəməri və ya Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsidir. BTƏ boru kəmərinin Azərbaycan və Gürcüstan ərazisindəki hissəsi Cənubi Qafqaz Boru Kəməri adlanır.

BTC boru kəmərinin olduğu kimi Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin də memarı və müəllifi ümummilli lider Heydər Əliyevdir. Xatırladaq ki, o, bu neft kəmərini özünün əsəri adlandırıb.

2001-ci il sentyabrın 29-da Gürcüstan Prezidenti Eduard Şevardnadzenin Bakıya rəsmi səfəri zamanı Bakı-Tbilisi qaz kəmərinin tikintisinə dair Azərbaycan Respublikası ilə Gürcüstan arasında saziş imzalanmışdır. Bu sazişlə böyük tarixi əhəmiyyətə malik olan Cənubi Qafqaz boru kəmərinin və ya Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin bünövrəsi qoyulmuşdur. Bakı-Tbilisi-Ərzurum qaz kəmərilə bağlı Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında iqtisadi, siyasi münasibətlərin, habelə, bütün başqa sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsində 2001-ci il sentyabrın sonunda Gürcüstan prezidenti Eduard Şevardnadzenin ölkəmizə rəsmi səfəri mühüm rol oynamışdır.

Aparılan danışıqlarda bütün sahələrdə qarşılıqlı münasibətlərin inkişaf etməsi üçün çox iş görüldüyü qeyd edilmiş, “Şahdəniz” yatağından çıxarılacaq Azərbaycan qazının iştirakçı tərəflər üçün faydalı olduğu diqqətə çatdırılmış və Gürcüstan ərazisi ilə Türkiyəyə nəqlinə dair hazırlanmış sazişin imzalanması məsələsinə toxunulmuşdur. Bununla əlaqədar ümummilli lider Heydər Əliyev demişdir ki, “Şahdəniz” yatağından çəkiləcək Bakı-Tbilisi-Ərzurum qaz kəməri bizim üçün də, düşünürəm ki, Gürcüstan

üçün də böyük əhəmiyyətə malikdir. Təbiidir ki, Türkiyənin də bu qazı almağa ehtiyacı var [80, 174].

Mehriban dostluq və qardaşlıq şəraitində davam edən Azərbaycan-Gürcüstan danışıqları rəsmi sənədlərin imzalanması ilə başa çatmış və bu sənəd hər iki dövlət başçılarının bəyanatında öz əksini tapmışdır. Heydər Əliyevin bəyanatında deyilir: "Cənubi Qafqaz qaz kəməri haqqında, yəni "Şahdəniz" yatağından çıxarılacaq Azərbaycan qazının Gürcüstan vasitəsilə Türkiyəyə nəqli haqqında, daha doğrusu, Bakı-Tbilisi-Ərzurum qaz kəməri haqqında sənəd Azərbaycanın 1994-cü ildən başlayaraq Gürcüstan və Türkiyə ilə birlikdə həyata keçirdiyi neft strategiyasının, neft doktrinasının mühüm tərkib hissəsidir" [80, 184-185].

Bakı-Tbilisi-Ərzurum qaz kəmərinə aid sazişi alqışlayan Gürcüstan prezidenti Eduard Şevardnadzenin sənədlərin imzalanması mərasimindən sonra Bəyanatında deyilir:

"Xəzər nefti üçün, Xəzər qazı üçün Qərb istiqamətinin ən əlverişli, ən kəsə, ən etibarlı olduğu 110 il bundan əvvəl deyilmişdir. Bunu çox məşhur alim Lüdviq Nobel 110 il bundan əvvəl söyləmişdir" [80, 189].

Bakı-Tbilisi-Ərzurum boru kəmərinə aid imzalanmış sazişin əhəmiyyətini qeyd edən ümummilli lider Heydər Əliyev demişdir: "Bu sənədin Gürcüstan üçün də, Azərbaycan üçün də eyni dərəcədə iqtisadi əhəmiyyəti var. O Gürcüstana da, Azərbaycana da fayda gətirəcəkdir. Bu hadisə müstəsna əhəmiyyətə malikdir" [80, 198].

Həmin dövrdə Amerika Birləşmiş Ştatları başda olmaqla Qərb dövlətləri bu mühüm alternativ qaz kəməri layihəsini dəstəkləyən bəyanat verdilər. 2001-ci il oktyabrın 1-də ABŞ dövlət departamenti Gürcüstan prezidenti Eduard Şevardnadzenin Bakıya səfəri zamanı Heydər Əliyevlə Bakı-Tbilisi-Ərzurum qaz kəməri ilə bağlı hər iki ölkənin imzaladığı hökumətlərarası sazişi dəstəkləyən bəyanat yaymışdır.

Qərb istiqamətində çəkiləcək yeni alternativ ixrac boru kəməri layihəsi də əvvəlki layihələr kimi əks qüvvələr tərəfindən ciddi müqavimətlə qarşılaşdı.

BTC neft kəmərinin çəkilməsi dövründə olduğu kimi Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihəsinin də gerçəkləşməsinə mane olmağa çalışan qüvvələr, xüsusilə də Rusiya, İran və Ermənistan, o cümlədən erməni lobbisi də əks təbliğatı yenə gücləndirmişdilər. Həmin dövrdə Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse prezidenti vəzifəsində işləyən, millət vəkili İlham Əliyev bu məsələ ilə əlaqədar olaraq demişdir:

“Bakı-Tbilisi-Ərzurum” qaz kəmərinin tikintisi zamanı da onlar eyni şəkildə hərəkət etdilər. Hər imkanda məsələ qaldırdılar ki, nə üçün kəmər Ermənistan ərazisindən keçmir? Ona görə ki, Ermənistan Azərbaycan torpaqlarını işğal etmişdir, qəsbkarlıq siyasəti yürüdür. Ona görə də bizim aramızda heç bir əməkdaşlıq ola bilməz! Bütün yollar Ermənistandan yan keçəcək” [81, 168].

2001-ci il martın 12-dən 16-dək olan tarixdə ümummilli lider Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri dövründə aparılan danışıqlar Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq, strateji tərəfdaşlıq əlaqələrinin inkişafında yeni mərhələ olmuşdur. Rəsmi səfər zamanı Türkiyə rəhbərləri ilə aparılmış danışıqlar və keçirilmiş görüşlər Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərləri layihələrinin gerçəkləşməsinə əhəmiyyətli təsir göstərmişdir.

2001-ci il martın 12-də Azərbaycan qazının Türkiyəyə nəql edilməsinə dair sazişin və Türkiyənin BOTAŞ şirkəti ilə ARDNŞ arasında imzalanmış müqavilənin Bakı-Tbilisi-Ərzurum boru kəmərinin gerçəkləşməsində xüsusilə böyük rolu olmuşdur.

2002-ci ilin mayında Türkiyə parlamenti Cənubi Qafqaz Boru Kəməri layihəsi üzrə Türkiyə ilə Azərbaycan arasında bağlan-

mış hökumətlərarası sazişi ratifikasiya etmiş, həmin ilin dekabrında isə Cənubi Qafqaz Boru Kəməri layihəsi üzrə Ətraf Mühit və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi sənədi Gürcüstan hökuməti tərəfindən təsdiq olunmuş və kəmərin tikintisi hüquqi cəhətdən qanuniləşdirilmişdir [93, 35-36].

Türkiyənin Böyük Millət Məclisində nitq söyləyən Heydər Əliyev diqqəti "Şahdəniz" yatağında böyük təbii qaz ehtiyatlarının aşkarlanmasına yönəldərək Azərbaycan qazının Gürcüstan və Türkiyəyə ixrac ediləcəyi haqqında məlumat vermişdir.

Azərbaycanın "Şahdəniz" yatağından əldə olunacaq qazın Gürcüstan üzərindən boru kəməri vasitəsilə Türkiyəyə nəql edilməsinə dair Türkiyə ilə Azərbaycan Respublikası arasında hökumətlərarası sazişin imzalanması boru kəmərlərinin gerçəkləşdirilməsi yönündə yeni bir mərhələnin əsasını qoydu. Bu saziş Türkiyə ilə Azərbaycan arasındakı siyasi-iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi sahəsində irəliyə doğru atılmış mühüm bir addım oldu.

"Şahdəniz" yatağının işlənməsi haqqında qərar bütün dünyada əks səda doğurdu. ABŞ dövlət departamenti "Şahdəniz" yatağının növbəti mərhələyə qədəm qoymasını alqışladı. 1,2 trilyondan artıq təbii qaz ehtiyatına malik olan bu yatağın mərhələlərlə işlənməsi nəzərdə tutulmuşdur. "Şahdəniz"in birinci mərhələ işlənməsində maksimum 8 milyard kubmetr, ikinci mərhələ işlənməsində isə 16 milyard kubmetrə çatdırılması proqnozlaşdırılmışdır.

"Şahdəniz"in birinci mərhələsinə işlənmə, hasilat və nəqletmə sahələri daxildir. Yataqdan əldə edilmiş hasilat sualtı kəmərlərlə Səngəçal terminalına daxil olur, terminalda isə qaz və kondensat emal edilərək ixrac olunur.

Səngəçal layihəsinin nəqletmə hissəsini yeni bir qaz ixrac sistemi Gürcüstandan keçməklə Azərbaycandan Türkiyənin sər-

hədinədək uzanan 690 [44, 8] kilometrlik Cənubi Qafqaz Boru Kəməri təşkil edir. Layihədə nəzərdə tutulduğu kimi CQBK qaz kəməri də BTC boru kəməri ilə eyni dəhlizdə çəkilmişdir. Bu ətraf mühitə, sosial sahəyə təsirin minimuma endirilməsinə, vəsaitə və vaxta qənaət etməyə imkan yaratmışdır. CQBK-nin əməliyyatçısı konsorsiumun ən iri sərmayədarı olan “BP Azərbaycan“ şirkətidir.

Cənubi Qafqaz Boru Kəməri layihəsinə əsasən “Şahdəniz” yatağında hasil olunacaq təbii qaz Səngəçal terminalından kəmər vasitəsilə Gürcüstan-Türkiyə sərhədinə, oradan isə dünya bazarına nəql ediləcəkdir.

Cənubi Qafqaz Boru Kəmərinin tikintisinə 2004-cü ilin oktyabrında başlanılmışdır. CQBK-nin 442 kilometri Azərbaycan Respublikasının, 248 kilometri isə Gürcüstan Respublikasının ərazisindən keçir. Bu boru kəmərinin tikintisində və “Şahdəniz” yatağının işlənməsində yeddi milli və beynəlxalq şirkət tərəfdaş qismində iştirak etmişdir. Şirkətlərin konsorsiumda payı göstərilən kimidir: BP (operator) 25,5%, Statoyl kommersiya operatoru 25,5%, NİCO – 10%, Total – 10%, LukAcip – 10%, TPAO – 9%, ARDNŞ – 10% [45, 39].

“BP-Azərbaycan” şirkəti yatağının işlənməsi və hasilat prosesi dövründə “Şahdəniz” layihəsinin əməliyyatçısı kimi fəaliyyət göstərir. “BP-Azərbaycan” layihənin istismar mərhələsində isə “Şahdəniz” layihəsinin həm də texniki əməliyyatçısı kimi iştirak edir. “Şahdəniz” birinci mərhələdə həyata keçirilən işlənmə əməliyyatları üzrə xərclər nəzərdə tutulduğu kimi ümumilikdə təxminən 4,1 milyard ABŞ dolları təşkil etmişdir.

2004-cü ildə əldə olunmuş mühüm nailiyyətlərə CQBK-nin tikintisi üçün istifadə olunacaq boruların Azərbaycana gətirilməsi və daha sonra sentyabrında boru kəmərinin çəkilməsi üzrə əsas işlərə başlanması aiddir. Şahdəniz yatağında iyul ayında üçüncü öncəqazma quyusunun qazılması başa çatdırılmış, Bakı

şəhərində avqust ayında "Yusif İbrahimov" üzən quru dokunun təmiri üzrə işlər tamamlanmış və noyabr ayında qazma avadanlığı dəsti Norveçdən Bakıya gətirilmişdir. Bunun ardınca həmin ilin, yəni oktyabrında TPS 500 platformasının Sinqapurdan yola salınmış dörd ədəd gövdə hissəsi iki aydan sonra Bakıya çatdırılmışdır. Azərbaycanda Cənubi Qafqaz Boru Kəmərinin qaynaq edilməsi üzrə işlərə oktyabrında başlanmış və artıq ilin sonu üçün layihənin 54 faizi [44, 19] tamamlanmışdır.

İlin sonunda Şahdəniz layihəsinin tərəfdaşları bildirmişlər ki, sözügedən layihənin təxmin edilən xərcləri 25 faiz artaraq daha öncə hesablanmış 3,2 milyard ABŞ dolları əvəzinə 4,1 milyard [44, 19] ABŞ dolları təşkil etmişdir. Bu artıma qismən həm neft sənayesindəki inflyasiya, həm də xarici valyuta üçün müəyyən edilmiş məzənnələrin dəyişməsi səbəb olmuşdur.

2005-ci ildə əsas diqqət TPS 500 platformasının montaj edilməsilə bağlı işlərin tamamlanmasına, sualtı boru kəmərlərinin çəkilməsinə, Səngəçal terminalının Şahdəniz sektorunun inşasına və CQBK-nin qalan seksiyasına yönəldilmişdir. "BP-Azərbaycan" şirkəti isə layihələrin uğurla reallaşdırılmasını davam etdirmişdir.

Polşanın paytaxtı Varşavada keçirilən Avropa iqtisadi sammitində iştirak edən Prezident İlham Əliyev Azərbaycanda həyata keçirilən ən iri dörd layihə haqqında məlumat verərək demişdir: "Həyata keçirilən dörd neft və qaz layihələri "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsi, "Bakı-Tbilisi-Ceyhan" neft kəmərinin və "Bakı-Tbilisi-Ərzurum" qaz kəmərinin çəkilişi üzrə hər gün 10 milyon dollar sərmayə yatırılır" [83, 24].

Azərbaycan Prezidenti İlham Əliyev BTC-nin tikintisi ilə bərabər Bakı-Tbilisi-Ərzurum boru kəmərinin də çəkilməsini daim diqqət mərkəzində saxlamışdır. O, Türkiyənin Təbii Ehtiyatlar naziri Hilmi Gülərin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə BTC və CQBK-nin Türkiyənin də enerji təhlükəsizli-

yində böyük rol oynayacağını göstərərək demişdir:

“Bakı-Tbilisi-Ceyhan” kəməri istifadəyə verildikdən sonra Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisinə başlanacaqdır ki, bu da təbii qazın qardaş ölkəyə və Avropaya çatdırılmasına imkan verəcəkdir” [83, 24].

2005-ci ildə əsas diqqət CQBK-nin qalan seksiyasına yönəldilmiş və boru kəmərinin inşası davam etdirilmişdir. Əsas nailiyyətlərə Azərbaycanda xəndəyin qazılmasının başa çatdırılması; magistral xəttin qaynaq edilməsi; boruların xəndəyə endirilməsi və üstünün torpaqla doldurulması; Azərbaycandakı hissəsinin dörddə üçünün hidrosınağı; Gürcüstanda isə boru kəmərinin yüksək hündürlükdə yerləşən əhəmiyyətli bir hissəsinin quraşdırılması və sınaqdan keçirilməsi daxildir. 2005-ci il üçün CQBK-nin layihə və əməliyyatlarına 1,1 milyard dollar vəsait xərclənmişdir. 2006-cı ilin başlanmasınadək boru kəmərinin inşası Azərbaycanda, demək olar ki, başa çatdırılmışdı.

2006-cı ilin yayında Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin istismara verilməsi Bakı-Tbilisi-Ərzurum qaz kəməri xəttinin tikintisinin aparılmasına əlverişli şərait yaratmış və onun tamamlanmasına inamı daha da artırmışdır. Ona görə də BTC neft kəməri istifadəyə verildikdən sonra BTƏ qaz kəmərinin tikintisi daha da sürətlənmişdir.

2006-cı il iyulun 13-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin təntənəli surətdə açılışı mərasimində nitq söyləyən Azərbaycan Prezidenti İlham Əliyev Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi ilə əlaqədar olaraq demişdir ki, “Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyətə başlaması bölgədə gedən proseslərə nə qədər də böyük təkan verdi. Bunun ardınca biz Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismarına çox yaxınıq. Bu layihə bir növ Bakı-Tbilisi-Ceyhanın kölgəsində idi. Ancaq bu gün hamı görür ki, onun nə qədər böyük strateji əhəmiyyəti var” [38].

Avropa enerji təhlükəsizliyi məsələlərinin ən mühüm məsələyə çevrildiyini nəzərə alsaq, Azərbaycan qazının Gürcüstana və Türkiyəyə, daha sonra isə Qərb ölkələrinə ixrac ediləcəyinin böyük strateji əhəmiyyəti olduğunu görərik. Bununla bağlı Prezident İlham Əliyev öz çıxışında qeyd etmişdir ki, "Qaz ehtiyatları ilə zəngin olan Azərbaycan Şahdəniz qaz yatağından çıxan qazı Avropaya göndərəcəkdir" [38].

Avropa İttifaqı ilə əməkdaşlığın genişləndirilməsində Azərbaycanda həyata keçirilən enerji layihələri əhəmiyyətli rol oynayacaqdır. Hələ 2006-cı ildə Prezident İlham Əliyevin Belçikaya işgüzar səfəri zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə strateji əməkdaşlığa dair imzalanmış "Anlaşma memorandumu" uğurla yerinə yetirilir.

ABƏŞ-in "BP-Azərbaycan" Strateji İcra Bölümünün rəhbərliyi 2006-cı ildə BTƏ boru kəmərinin tikintisini başa çatdırmaq üçün tərəfdaşlarla birlikdə öz fəaliyyətini daha da intensivləşdirmişdir. Səkkiz il "BP-Azərbaycan" şirkətinə rəhbərlik etmiş Deyvid Vudvord 2006-cı ildə təqaüdə çıxdıqdan sonra, şirkətin Strateji İcra Bölümünün yeni prezidenti Bill Şreyderin hesabat məlumatına görə bu ildə Cənubi Qafqaz Boru Kəmərinin istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

"BP-Azərbaycan" şirkətinin SİB-nin hesabat məlumatına əsasən CQBK-yə birinci istismar qazı 2006-cı il mayın 21-də, birinci kommersiya qazı isə 2006-ci il dekabrın 15-də verilmişdir. Beləliklə CQBK ilə Gürcüstana mavi qaz nəqlinə başlanmışdır. Bu ildə Cənubi Qafqaz Boru Kəməri layihəsinə sərf edilən əsaslı xərclər ümumilikdə 269 milyon dollar [46, 21] olmuşdur. "Şahdəniz"lə birlikdə CQBK-nin tikintisinə qoyulmuş əsaslı xərclər isə 1,04 milyard dollar təşkil etmişdir. Kifayət qədər sərmayə qoymaqla CQBK-nin ötürmə qabiliyyətini gündə 720 milyon kub futdan 1,9 milyard futadək və ya ildə 7,4 milyard kubmetrdən 20 milyard kubmetrədək [46, 21] artırmaq olar.

CQBK-nin tikintisi davam etdirilərək Türkiyənin qaz şəbəkəsinə qoşulması və sonra boru kəmərinin uzadılaraq Yunanıstana çatdırılması və Azərbaycan qazının bu ölkəyə ixrac edilməsi proqnozlaşdırılmışdır. Bununla da Azərbaycanın Avropa ölkələri ilə iqtisadi əlaqələrinin daha da intensivləşdirilməsi gözlənilirdi.

2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası uğurla davam etdirilərək, Gürcüstan-Türkiyə sərhədinə çatdırılmışdır. Bu ilin iyul ayında Cənubi Qafqaz Boru Kəməri vasitəsilə Türkiyənin "BOTAŞ" şirkətinin qaz nəqli sisteminə ilk Şahdəniz təbii qaz yanacağı verilmişdir.

Əvvəlcədən nəzərdə tutulmuş plana əsasən "Bakı-Tbilisi-Ərzurum" qaz kəməri uzadılaraq Türkiyənin qaz kəməri sisteminə birləşdirilməli və yeni qaz kəməri xətti tikilərək Türkiyə-Yunanıstan sərhədinə çatdırılmalı idi. Türkiyə ilə Yunanıstan qaz kəmərləri şəbəkələrini birləşdirəcək bu boru surətlə inşa edilərək 2007-ci ilin noyabrında Türkiyə-Yunanıstan sərhədinə çatdırılmışdır. Boru kəmərinin uzunluğu 296,5 kilometrdir, bunun 210 kilometri Türkiyənin, 86,5 [39] kilometri Yunanıstanın ərazisindən keçir. Layihənin ümumi dəyəri 250 milyon avrodur. İlkin mərhələdə boru kəməri ilə 250 milyon kubmetr, ikinci ildə 500 milyon kubmetr, üçüncü ildə 750 milyon kubmetr qaz nəql edilməli, sonrakı 15 il ərzində isə bu göstərici 12 milyard [39] kubmetrə çatdırılacaq.

2007-ci il noyabrın 18-də Türkiyə ilə Yunanıstan arasında inşa olunmuş qaz kəmərinin təntənəli açılış mərasimi keçirilmişdir.

Türkiyənin Ədirnə şəhərinin ərazisində Yunanıstanla sərhəddə yerləşən İpsala sərhəd-keçid məntəqəsində təşkil edilmiş tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş Naziri Rəcəb Tayyib Ərdoğan, Yunanıstanın Baş Naziri Konstantinos Karamanlis, Türkiyənin energetika və təbii ehtiyatlar

naziri Hilmi Gülər və ABŞ-ın energetika naziri Samuel Bodman və digər rəsmi şəxslər iştirak etmişlər.

Təntənəli açılış tədbirini Hilmi Gülər açaraq Türkiyə Yunanıstan qaz kəməri vasitəsilə Xəzər hövzəsindən, Orta Şərqdən və Türkiyəyə qonşu olan digər bölgələrdən təbii qazın Türkiyə və Yunanıstan ərazisi ilə Avropa bazarlarına ötürüləcəyini bildirmişdir. Türkiyə naziri kəmərin tikintisi ilə bağlı hökumətlərarası anlaşma, "Botaş" və "Depa" şirkətləri arasında alqı-satqı razılaşmasının imzalanması, texniki göstəricilər, ilkin mərhələdə və sonrakı illərdə qaz nəqlinin nəzərdə tutulan həcmi barədə məlumat vermişdir. Hilmi Gülər "Şahdəniz" layihəsi ilə bağı işlərin başa çatdırılmasında böyük əməyi olan Prezident İlham Əliyevə, habelə Baş Nazir Rəcəb Tayyib Ərdoğana təşəkkürünü bildirmişdir.

ABŞ-ın energetika naziri Samuel Bodman bildirdi ki, bu layihə çox əhəmiyyətli, iqtisadi cəhətdən çox səmərəlidir. O, son illər həyata keçirilən bir sıra beynəlxalq layihələrə və təşəbbüskarlığına görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edərək demişdir ki, ABŞ bu layihələrə böyük önəm verir.

Cənubi Qafqaz boru kəməri Azərbaycan, Türkiyə və Yunanıstan üçün böyük müvəffəqiyyətdir və yeni işbirliyi yaradacaq, enerji təhlükəsizliyini təmin edəcəkdir. Bunu gerçəkləşdirmək çox vacib idi. Hazırda Avropa ən böyük enerji bazarıdır və gələcəkdə də tələbat daha da artacaqdır.

Layihənin əhəmiyyətini qeyd edən Yunanıstanın baş naziri Konstantinos Karamanlis bunu dəstəklədiklərinə görə Avropa İttifaqının rəhbərliyinə təşəkkür etmişdir. O, məlumat vermişdir ki, gələcəkdə bu kəmər İtaliya sərhədinə qədər uzadılacaq və bununla əlaqədar sənədlər imzalanmışdır.

Konstantinos Karamanlis bu ilin avqustunda Azərbaycanla təbii qazın nəqli ilə əlaqədar sazişin imzalandığını da xatırlatdı, Azərbaycan-Türkiyə-Yunanıstan-İtaliya dördtərəfli işbirliyini ta-

rixi reallıq adlandırdı, bunun bütün ölkələr üçün çox əhəmiyyətli olduğunu söylədi. Dünyada enerji problemlərinin yarandığı bir vaxtda kəmərin işə düşməsini yüksək qiymətləndirən Baş nazir bunu həm də beynəlxalq işbirliyinin nümunəsi kimi səciyyələndirdi. O, daha sonra qeyd etmişdir ki, Türkiyə ilə əlaqələrin daha da sıxlaşdırılmasına çalışırıq və Türkiyənin Avropa İttifaqına qəbuluna böyük dəstək veririk.

Mərasimdə çıxış edən Türkiyənin Baş naziri Rəcəb Təyyib Ərdoğan iki qonşu ölkə arasında reallaşdırılan qaz kəmərinin açılış tədbirində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakını yüksək qiymətləndirmiş, Türkiyənin geosiyasi əhəmiyyətindən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələrindən danışan R.T.Ərdoğan Xəzər hövzəsinin təbii ehtiyatlarının Türkiyə və Yunanıstan ərazisi ilə Avropa bazarlarına çıxarılmasının yeni çoxtərəfli əməkdaşlığın əsasını qoyduğunu bildirmişdir. O, göstərmişdir ki, bütün işlərdə qarşılıqlı əməkdaşlığa önəm verən Türkiyə, bölgədə böyük enerji dəhlizinə çevrilir. Avropaya qaz nəqli layihəsinin növbəti mərhələsində boru xəttinin Adriatik dənizindən keçməklə İtaliyaya çatdırılmasından sonra Xəzər hövzəsi və Orta Şərq mənbələrindən Yunanıstana ildə 3,6 milyard kubmetr və İtaliyaya isə 8 milyard kubmetr qazın nəqli planlaşdırılır [39].

Rəcəb Tayyib Ərdoğan Azərbaycan nefti və qazının dünya bazarlarına çıxarılmasının beynəlxalq aləmdə əməkdaşlığın əsl nümunəsi olduğunu xüsusi qeyd etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev təntənəli açılış mərasimində nitq söyləmişdir. O, öz nitqində enerji sahəsində əməkdaşlıqdan danışaraq demişdir: “Bu gün Türkiyə ilə Yunanıstan arasında qaz xətlərinin birləşməsi bölgəyə yenilik gətiribdir enerji sahəsində mövcud olan əməkdaşlığın yeni formatı yaranıb və mən əminəm ki, bu başlanğıc çox uğurlu olacaqdır” [39].

Ölkəmizin rəhbəri bu başlanğıcı ilk addım adlandırmış və

ümidvar olduğunu bildirmişdir ki, bundan sonra yeni addımlar atılacaq, bölgədə sabitliyin, əməkdaşlığın, təhlükəsizliyin və, o cümlədən enerji təhlükəsizliyinin təmin olunması üçün bütün lazımi tədbirlər görüləcəkdir.

Əvvəllər neft ölkəsi kimi tanınan Azərbaycan Respublikası "Şahdəniz" qaz kondensatı yatağı aşkarlandıqdan sonra təbii qaz ixrac edən ölkə kimi tanınmağa başlamışdır. Bununla əlaqədar Prezident İlham Əliyev demişdir ki, "Azərbaycanın neft tarixi çox qədimdir. Ancaq qaz ölkəsi kimi Azərbaycan təzə-təzə özünü dünyaya təqdim edir. Biz o ölkəyik ki, hələ keçən il xaricdən 4,5 milyard kubmetr qaz idxal edirdik. Amma Azərbaycanda aparılan böyük işlər nəticəsində... bu gün Azərbaycan artıq qaz idxal etmir, əksinə öz qazını qonşu ölkələrin bazarlarına ixrac edir" [39].

Azərbaycan Bakı-Tbilisi-Ərzurum boru kəməri vasitəsilə üç ölkəyə – Gürcüstana, Türkiyəyə, 2007-ci il noyabrın 18-dən isə Yunanıstana da qaz ixrac edir. Prezident İlham Əliyev bu iş birliyini yüksək qiymətləndirərək belə xarakterizə etmişdir: "Bu gün üç ölkənin əməkdaşlığı məhz bu formatda müşahidə olunur. İstehsalçı, tranzit ölkə və qazı istehlak edən üç tərəf vahid formatda öz səylərini birləşdirir. Üç tərəfin maraqları tam şəkildə təmin olunur və əminəm ki, bu, bütün başqa ölkələr üçün nümunə ola bilər" [39].

Bakı-Tbilisi-Ərzurum boru kəməri ilə Azərbaycan qazının Türkiyə ərazisindən keçməklə Yunanıstana çatdırılması nəinki iki ölkə arasında iqtisadi əlaqələrin genişlənməsinə, hətta siyasi münasibətlərin də yaxşılaşmasına müsbət təsir göstərmişdir. Türkiyə ilə Yunanıstan arasında siyasi mülayimləşmənin baş verməsi bunun əyani sübutudur. Hər iki ölkənin baş nazirlərinin qarşılıqlı rəsmi səfərləri bu fikri bir daha təsdiq edir. Sevindirici haldır ki, Türkiyə ilə Yunanıstan arasında siyasi gərginliyin zəifləndirilməsi və iqtisadi əlaqələrin genişləndirilməsində Azərbaycan

Respublikasının Prezidenti cənab İlham Əliyev xoşməramlı vasitəçilik missiyasını yerinə yetirmişdir. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev demişdir: "Əminəm ki, bu gün burada, Türkiyə Yunanıstan sərhədində yaranan yeni əməkdaşlıq formatı daha da genişlənəcəkdir. Bu formata yeni ölkələr daxil olacaqlar. Əməkdaşlığın yeni formaları üzə çıxacaqdır" [39].

Azərbaycan-Yunanıstan münasibətlərinə aydınlıq gətirən ölkəmizin prezidenti göstərmişdir ki, Yunanıstanla Azərbaycan arasında mövcud olan dostluq münasibətləri, o cümlədən enerji sahəsində əməkdaşlıq daha da genişlənəcək və bütövlükdə bölgədə yeni bir əməkdaşlıq formatı yaradılacaqdır.

Cənubi Qafqaz Boru Kəməri istismara verildikdən sonra ahəngdar işləyir və ötürmə qabiliyyəti xeyli artırılmışdır. 2007-ci ilin sonunda CQBK-nin gündəlik qaz ötürmə qabiliyyəti 22,08 min kubmetrə çatdırılmışdır. İl ərzində kəmərin orta məhsuldarlığı gündə 8,970 milyon standart kubmetrdir [47, 18]. Kifayət qədər sərmayə qoymaqla gələcəkdə CQBK-nin məhsuldarlığının 20 milyard kubmetrə çatdırılması [47, 19] proqnozlaşdırılır.

"Şahdəniz" layihəsinin əməliyyatçısı olan "BP-Azərbaycan" şirkətinin məlumatına görə bu yataqdan gündə orta hesabla 22 milyon kubmetr qaz və 45,4 min barel [47, 21] kondensat çıxarılır. Yatağın birinci mərhələ işlənməsi dövründə hasilatın ən yüksək səviyyəsi ildə 9 milyard kubmetr qaz və gündə təxminən 50 min barel kondensat çıxarılır.

Layihənin ikinci işlənmə mərhələsində ildə 16 milyard kubmetr qaz istehsal ediləcəkdir. İkinci mərhələdə Bakı-Tbilisi-Ərzurum boru kəməri ilə Türkiyəyə və Qərb ölkələrinə qaz ixracı daha da artırılacaq və beləliklə də Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başlayacaqdır.

2008-ci ildə CQBK gündə 720 milyon kub fut, ildə isə 7,4 milyard kubmetr təbii qaz ötürmə qabiliyyətinə malik olmuşdur.

CQBK-nin ötürmə qabiliyyətinin 720 milyon kub futdan 1,9 milyard futadək artırılması proqnozlaşdırılmışdır [48, 21]. 2008-ci ildə "Şahdəniz"də faktiki qaz hasilatı 7,1 milyard kubmetr olmuşdur [49, 13].

2009-cu ildə "Şahdəniz"də qaz hasilatı nəzərdə tutulmuş 9 milyard kubmetrə qarşı 6,2 milyard standart kubmetr olmuşdur. 2008-ci illə müqayisədə qaz hasilatı 13 faiz azalmışdır [49, 13]. Səbəb kimi istehlakçıların az olması göstərilir.

2010-cu ildə yeni qurğular istifadəyə verildikdən sonra Şahdəniz yatağında 7,6 milyard kubmetr qaz (təxminən 269 milyard kub fut) və təxminən 16 milyon barel (2,01 milyon ton) [49, 14] kondensat hasil olunması proqnozlaşdırılır. Bu ildə 6.9 milyard kubmetr qaz, 14.7 milyon barel kondensat hasil edilmişdir. "BP-Azərbaycan" şirkətinin məlumatına əsasən bazar məhdudluğu ilə əlaqədar qaz hasilatı proqnozlaşdırıldığından aşağı olmuşdur [50, 9].

2009-cu ildə "BP Azərbaycan" şirkəti CQBK qurğularının tikintisi və istismarı üzrə məsul texniki operatorudur. CQBK-nin biznesin inkişafı və inzibati idarəetmə üzrə məsul operatoru "Statoyl" şirkətidir.

2010-cu ildə "Şahdəniz"in mərhələlərlə işlənməsi fəaliyyəti davam etdirilmişdir. Geoloji baxımdan mürəkkəb olan "Şahdəniz" yatağı çox yüksək təzyiqə malikdir və onun çoxsaylı rezervuar "horizontları" vardır və böyük ehtiyatlara malikdir.

2010-cu ildə Şahdəniz yatağından təxminən 6,9 milyard kubmetr (243,4 milyard futdan çox) qaz hasil edilmişdir ki, bu da 2009-cu illə müqayisədə 11 faiz çoxdur. [50, 11] Bu ildə isə ŞD-dən təxminən 14,7 milyon barel (təxminən 1,9 milyon ton) kondensat hasil edilmişdir. Kondensat hasilatı da əvvəlki illə müqayisədə 13 faiz çox olmuşdur. Çəkilmiş əsaslı xərclərin ümumi məbləği 10 milyon dollar olmuşdur.

2006-cı ildə ŞD-də hasilata başlanandan 2010-cu ilin sonu-

nadək təxminən 49,7 milyon barel [50, 11] (6,3 milyon ton) kondensat dünya bazarına ixrac edilmişdir. Respublikamız qaz ixracatının şaxələnməsi siyasətini həyata keçirir.

2010-ci ilin dekabrında ARDNŞ və ŞD tərəfdaşları arasında ŞD HPBS-nin sazişin müddətinin 2036-cı ilədək uzadılması yatağın tammiqyaslı işlənməsinə imkan verəcəkdir. Bu layihənin ŞD YTMİ kimi tanınan ikinci mərhələsini əhatə edir. Bunun nəticəsində ŞD “Mərhələ-1” layihəsindən hasil olunan illik 8 milyard kubmetr qazdan əlavə 16 milyard [50, 11] kubmetr qaz hasil ediləcəkdir.

“Şahdəniz” yatağının tammiqyaslı işlənməyə başlanması Azərbaycan Respublikasının yeni qaz kəməri layihələri irəli sürüb reallaşdıraraq, Avropanın enerji təhlükəsizliyində daha fəal rol oynayacağına zəmin yaradacaqdır.

## 3.5. Xəzər neftinin dünya bazarlarına ixracı və Azərbaycan Respublikasının beynəlxalq siyasi və iqtisadi mövqelərinin möhkəmlənməsi

Müasir dövrdə enerji təhlükəsizliyinin təmin edilməsi məsələsi bütün dünyanın, xüsusilə də Avropa ölkələrinin qarşısında duran qlobal problemlərdəndir. Çünki əsas enerji mənbələrindən olan neft və təbii qaza olan tələbat getdikcə artmaqdadır. Yuxarıda göstərildiyi kimi karbohidrogen ehtiyatları ilə zəngin olan Xəzər regionu ölkələri, o cümlədən Azərbaycan Respublikası XX əsrin sonlarından başlayaraq beynəlxalq miqyasda, xüsusilə Avropa İttifaqı dövlətlərinin maraq dairəsinə düşmüşdür.

Dünyanın əsas enerji regionlarında baş verən hadisələr və yaşanan gərginliklərlə bağlı enerjiyə böyük tələbatı olan Avropa İttifaqı ölkələrinin diqqəti karbohidrogen ehtiyatları ilə zəngin

olan, siyasi cəhətdən sabit, iqtisadiyyatı sürətlə inkişaf etməkdə olan, həm də özünü etibarlı tərəfdaş dövlət kimi tanıtmış Azərbaycan Respublikasına yönəlmişdir. Xatırladaq ki, ölkəmizdə təsdiq edilmiş neft ehtiyatlarının həcmi 2 milyard ton, qaz ehtiyatlarının həcmi isə 2,2 trilyon [18, 2] kubmetr təşkil edir.

Ümummilli lider Heydər Əliyevin yeni neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində davamlı sosial-iqtisadi yüksəlişdə olan Azərbaycan Respublikası neft-qaz hasilatı və ixrac edilməsi sahəsində ilbəil yeni nailiyyətlər qazanmaqdadır. Öz karbohidrogen ehtiyatlarını Avropa bazarlarına nəql etmək üçün respublikamız neft kəməri marşrutlarının çoxvariantlılığı siyasətini həyata keçirir. Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri istifadəyə verildikdən sonra Respublikamızdan Avropa bazarlarına xam neftin nəqli artmışdır. Bununla belə “Çıraq” yatağından ABƏŞ-in ilkin neft istehsalı sürətlə artdığı və mövcud boru kəmərləri ölkəmizin ixrac tələbatını ödəyə bilmədiyi üçün Bakı-Tbilisi-Ceyhan neft kəməri çəkilmişdir. 2006-cı ilin ortalarından başlayaraq Azərbaycan Respublikasından xam neftin Qərb ölkələrinə nəql edilməsi daha da artırılmışdır.

2008-ci ilin noyabrından [50, 8] Qazaxıstanın Tengiz yatağından ilkin neftin BTC neft kəməri ilə Avropa İttifaqı ölkələrinə nəql edilməsi respublikamızın tranzit əraziyə çevrilməkdə olduğunu göstərmişdir. Əlverişli geosiyasi məkanda yerləşməsi Azərbaycan Respublikasının tranzit əhəmiyyətini daha da artırmışdır.

QİBK, BTC, CQBK marşrutlarının uğurla həyata keçirilib istifadəyə verilməsi nəticəsində Azərbaycan Respublikası ardıcıl surətdə inkişaf edərək regionun aparıcı dövlətinə çevrilmiş, beynəlxalq nüfuzu daha da artmış, siyasi arenada özünə layiqli yer tutmuşdur. Ölkəmizdəki mövcud boru kəmərləri ahəngdar işləyir və neft-qaz ixracı sahəsində böyük nailiyyətlər əldə edilmişdir.

2010-cu ilin iyulunda [50, 13] nəqletmə sazişinin imzalanmasından sonra Türkmənistanın xam nefti də BTC boru kəməri ilə nəql edilməyə başlanılmışdır. Türkmənistan neftinin də Azərbaycan ərazisi ilə Avropa bazarlarına daşınması Transxəzər layihəsinin gerçəkləşməsinə inamı daha da artırmışdır. Mərkəzi Asiya Respublikalarının karbohidrogen ehtiyatlarının da ölkəmizin ərazisi ilə Qərb ölkələrinə ixrac edilməsi həyata keçirildikdən sonra Azərbaycan Respublikasının tranzit mövqeyi xeyli möhkəmlənəcəkdir.

Xatırladaq ki, 2010-cu ilədək Azərbaycandan 255,5 milyon ton neft, 22,2 milyard kubmetr [18, 2] qaz ixrac olunmuşdur. Bu ilin sentyabrınadək BTC boru kəməri ilə bir milyard barel və ya 146 milyon ton neft [50, 13] nəql edilmişdir.

2010-cu ildə “Şahdəniz” yatağının Tam Miqyaslı İşləmə üzrə mühəndis-layihəsi Azərbaycan və Türkiyə hökumətlərinin imzaladığı Anlaşma memorandumu ilə təsdiq edilmişdir. Bu memorandum Azərbaycan qazının Türkiyə ərazisindən keçməklə Avropa bazarlarına nəql edilməsi üçün tranzit şərtlərini tənzimləyən bir əsas olmuşdur. Bu ildə Cənubi Qafqaz Boru Kəmərinin orta ötürmə qabiliyyəti gündə təxminən 14 milyon kubmetr qaz və ya gündə təxminən 87000 barel neft ekvivalenti olmuşdur.

Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda axtarış-kəşfiyyat işlərinin genişləndirilməsi nəticəsində neftçilərimiz tərəfindən “Şahdəniz”dən sonra böyük həcmdə qaz ehtiyatlarına malik olan “Ümid” və “Abşeron” yataqları kəşf edilmişdir. Yeni qaz yataqlarının aşkarlanması respublikamızın maye yanacaq ixracı imkanlarının daha da artmasına səbəb olmuşdur. Böyük həcmdə qaz ehtiyatlarına malik olan ölkəmiz ixrac strategiyası planlarını gerçəkləşdirmək üçün yeni layihələr irəli sürüb həyata keçirməyə başlamışdır. Belə ən iri layihələrdən biri TANAP layihəsidir. Bu layihənin həyata keçirilməsi nəticəsində Avropa

ölkələrinə milyardlarla kubmetr təbii qaz ixrac ediləcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev TANAP layihəsi haqqında demişdir:

"İndi dünyada TANAP layihəsinə böyük maraq vardır. TANAP layihəsi sırf Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüs əsasında reallaşacaqdır" [40].

Son vaxtlarda Türkmənistan Respublikasının da öz karbohidrogen ehtiyatlarını Avropa bazarlarına daşımaq üçün Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş enerji layihələrinə qoşulmaq arzusunda olduğunu bəyan etməsi perspektivdə nəzərdə tutulmuş yeni layihələrin tezliklə gerçəkləşəcəyini göstərir. Regionun aparıcı dövlətinə çevrilmiş olan ölkəmiz etibarlı bir tərəfdaş kimi enerji sahəsində öz uğurlarını davam etdirir və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində fəal rol oynayır.

Azərbaycan Respublikası tərəfindən yeni daha iri enerji layihələrinin irəli sürülüb gerçəkləşməsi və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində fəal rol oynaması ölkəmizin siyasi-iqtisadi mövqelərini daha da möhkəmləndirmiş və beynəlxalq nüfuzunun artmasına səbəb olmuşdur.

Yeni neft strategiyasının uğurlarını inamla davam etdirən Azərbaycan Respublikası fəal enerji siyasəti həyata keçirir və öz qaz ixracı potensialını realizə etmək imkanına malikdir. Hal-hazırda Avropada enerji təhlükəsizliyi məsələlərinin həlli Azərbaycansız mümkün deyildir. Yeni enerji layihələrinin reallaşması nəticəsində ölkəmizin iqtisadiyyatına milyardlarla dollar investisiya yatırılacaq və bu layihələr Avropanın enerji xəritəsinə böyük dəyişikliklər edəcəkdir.


Əsrin müqaviləsi
17,12%
2,08%
17,01%
11,2%
9,81%
2,45%
10%
8,56%
1,75%
20%
British Petroleum
Ramco
Amoco
UNOCAL
Pennzoil
McDermott
Lukoil
Statoil
Türk petrolları şirkəti
Azərbaycan Neft Şirkəti


ABƏŞ və AÇG üzrə HPBS-nin podratçı tərəfləri
35,8%
11,6%
11,3%
11%
8,6%
8%
6,8%
4,3%
2,7
BP (operator)
SOCAR
Chevron
Inpex
Statoil
ExxonMobil
TPAO
Itochu
ONGC Videsh Ltd.


BTC layihəsinin tərəfdaşları
30,1%
25%
8,9%
8,7%
6,5%
5%
5%
3,4%
2,5%
2,5%
2,4%
BP (əməliyyatçı)
ARDNŞ
Yunokal
Statoyl
TPAO
ENİ
Total
İtoçu
İNPEX
KonokoFilips
Amerada Hess


Azəri-Çıraq-Günəşli layihəsində ölkələrin pay bölgüsü
34,14%
10%
10,28%
8,56%
6,75%
8%
5,63%
3,92%
10%
2,72%
BP (operator – İngiltərə
SOCAR – Azərbaycan
Chevron – ABŞ
Statoil – Norveç
TPAO – Türkiyə
Exxon-Mobil – ABŞ
Devon Enerqu – ABŞ
İtochu – Yaponiya
İnpex – Yaponiya
Delta Hess – Səudiyyə Ərəbistanı/ABŞ


Şahdəniz layihəsində ölkələrin pay bölgüsü
25,5%
25,5%
10%
10%
10%
10%
9%
BP (operator – İngiltərə
STATOIL – Norveç
SOCAR – Azərbaycan
LukAgip
NICO
TFE (Total) - Fransa
TPAO – Türkiyə


Azərbaycan Respublikasında neft hasilatı (mln ton)
Azərbaycan Respublikası üzrə
Xarici şirkətlərlə birgə
ARDNŞ
9,1
11,4
13,8
14,0
14,9
15,3
15,4
15,6
22,2
32,3
42,6
44,5
50,4
1997
1998
1999
2000
2001
2002
2003
2004
2005
2006
2007
2008
2009
0
10
20
30
40
50
60

**ARDNŞ üzrə neft hasilatı (mln. ton)**




**Azərbaycan Respublikasında qaz hasilatı (mlrd m³)**





Hacı Zeynalabdin Tağıyev



Ağamusa Nağıyev



Uilyam Noks Darsi
BP-nin yaradıcısı



Şəmsi Əsədullayev



İsa bəy Hacınski



Nabat Aşurbəyova



Murtuza Muxtarov



Kərbəlayı Abdulla Zərbəliyev



Seyid Mirbabayev



Heydər Əliyev və Bill Klinton ABŞ-Azərbaycan əlaqələri barədə birgə bəyanat imzalayırlar. Bundan əvvəl isə dövlət başçıları mühüm neft sazişini imzalamışdılar. 1 avqust 1997-ci il, Vaşinqton



AbŞ Prezidenti Corc Buşun  Heydər Əliyevlə görüşü də neft müqavilələrinin imzalanması üçün əhəmiyyətli olmuşdur.
26 fevral 2003-cü il, Vaşinqton



Azərbaycan Prezidenti Heydər Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının kraliçası II Yelizaveta ilə görüşü. London, Bukingem sarayı, 21 iyul 1998-ci il



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri Toni Bleyer ilə görüşü. London, 21 iyul 1998-ci il



Heydər Əliyev və Süleyman Dəmirəl. Bakı, 6 dekabr 1995-ci il



Heydər Əliyev və Rəcəb Tayyib Ərdoğan. Bakı, 7 yanvar 2003-cü il



Heydər Əliyev və Jak Şirak. Paris, 13 yanvar 1997-ci il



Heydər Əliyev və Vladimir Putin. Moskva, 24 yanvar 2002-ci il




400 səhifə həcmində və 4 dildə tərtib olunmuş müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını alıb. Müqavilədə dünyanın 8 ölkəsinin 13 ən məşhur neft şirkəti iştirak edib.
20 sentyabr 1994-cü il





Azərbaycan, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Türkiyə, Rusiya, Norveç və Səudiyyə Ərəbistanının 11 transmilli şirkətinin iştirakı ilə "Əsrin müqaviləsi" rəsmən imzalandı. 20 sentyabr 1994-cü il



“Gülüstan” sarayı, 20 sentyabr 1994-cü il



“Əsrin müqaviləsi”nin sənədləşdirilməsi prosesi



Azərbaycan Tarixi Muzeyində "Əsrin müqaviləsi" ilə bağlı Rəhbər Komitənin ilk iclası və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin burada çıxışı - 24 yanvar 1995-ci il



"Əsrin müqaviləsi" çərçivəsində "Çıraq" platformasından ilkin neft alındı. 7 noyabr 1997-ci il



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Çıraq-I" platformasında işə başlanılması, neftin alınması münasibətilə keçirilən təntənəli mərasimdə iştirak edib. 12 noyabr 1997-ci il



"Əsrin müqaviləsi" üzrə ilkin neftin çıxarılması münasibətilə keçirilən təntənəli tədbirdən görüntü. 12 noyabr 1997-ci il



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Çıraq-I" platformasında işə başlanılması, neftin alınması münasibətilə keçirilən təntənəli mərasimdə iştirak etmiş, xatirə lövhəsini açmışdır.
12 noyabr 1997-ci il




Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Xəzərneftqaz-98" beşinci beynəlxalq sərgi-konfransının açılış mərasimində iştirak edir. 2 iyun 1998-ci il



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Ukrayna Prezidenti Leonid Kuçmanın iştirakı ilə Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verilir. 17 aprel 1999-cu il



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı ilə "Əsrin müqaviləsi"nin imzalandığı 20 sentyabr "Neftçilər günü" elan olundu. 20 sentyabr 2001-ci il




İstanbul Sammiti günlərində ABŞ Prezidenti Bill Klintonun iştirakı ilə Bakı-Ceyhan əsas ixrac neft kəməri haqqında tarixi saziş və Trans-xəzər qaz kəməri haqqında sənəd imzalandı. 18-19 noyabr 1999-cu il




2001-ciilədək Xəzər dənizi şelfinin Azərbaycan sektorunda neft və qaz yataqları üzrə fəaliyyətə başlamış neft şirkətləri



Ümummilli lider Heydər Əliyev yapon mütəxəssisləri ilə "Azərikimya" IB-nin Buxar-generator Kompleksinin açılışında. 7 iyul 2001-ci il



"Azərikimya" IB-nin istismara verilən Buxar-generator Kompleksi. 7 iyul 2001-ci il



Səngəçalda Bakı-Tbilisi-Ceyhan kəmərinin inşasının başlanması. Mərasimdə Azərbaycan Prezidenti H.Əliyev, Gürcüstan Prezidenti E.Şevardnadze, Türkiyə Prezidenti Ə.N.Sezər və ABŞ-ın Xəzər məsələləri üzrə nümayəndəsi S.Menn iştirak etmişlər. 18 sentyabr 2002-ci il



Prezident Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməlini qoydu. 18 sentyabr 2002-ci il



Bakıda, Səngəçal terminalında ümummilli lider Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuş və tikintisinə başlanmışdır.
18 sentyabr 2002-ci il




Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin marşrutu



"Neftçilər günü"nə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə dəniz neftçıxarması ilə bağlı rəsm əsəri təqdim olunur. 22 sentyabr 2001-ci il




“Heydər Əliyevin neft strategiyası” miniatür kitabının təqdimatı keçirilib. 21 sentyabr 2013-cü il




“Əsrin müqaviləsi”nin 20 illiyi münasibətilə buraxılmış 100 manatlıq qızıl və 5 manatlıq gümüş xatirə sikkələri. “Cənub qaz dəhlizi”nin şərəfinə buraxılmış 5 manatlıq gümüş xatirə sikkəsi




Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. 13 iyul 2006-cı il








Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozonun rəhbərlik etdiyi nümayəndə heyəti Səngəçal terminalında və Xəzər Enerji Mərkəzində olmuşlar. 14 iyun 2014-cü il






2014-cü il sentyabrın 20-də Səngəçal terminalında Cənub Qaz Dəhlizinin təməli qoyulub. Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev, Bolqarıstan Prezidenti Rosen Plevneliyev, Yunanıstanın baş naziri Antonis Samaras, Gürcüstanın baş naziri İrakli Qaribaşvili, Monteneqronun baş naziri Milo Cukanoviç, Türkiyənin enerji və təbii qaynaqlar naziri Taner Yıldız, İtaliyanın iqtisadi inkişaf nazirinin müavini Klaudio Deviçenti, Albaniyanın sənaye və energetika naziri Damian Qiknuri, BP şirkətinin icraçı direktoru Robert Dadli və digər rəsmi şəxslər, şirkət nümayəndələri iştirak ediblər.




Azərbaycan Prezidenti İlham Əliyev 22-ci Xəzər neft və qaz sərgisində iştirak etmişdir. 2 iyun 2015-ci il




Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili Türkiyənin Qars vilayətinin Selim rayonunda Trans-Anadolu qaz boru kəməri – TANAP-ın təməlinin qoyulması münasibətilə təntənəli mərasimdə iştirak ediblər. 17 mart 2015-ci il




Prezident İlham Əliyev "Şahdəniz-2" layihəsi üzrə dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib. 1 sentyabr 2016-cı il




Prezident İlham Əliyev "Şahdəniz-2" layihəsi üzrə dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib. 1 sentyabr 2016-cı il



SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və BP-nin əməliyyatçısı olduğu ABƏŞ (Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti) Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yatağının gələcək işlənməsi üçün niyyət məktubu imzalayıblar. 23 dekabr 2016-cı il







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bibiheybət mədəninin ərazisində dünyada sənaye üsulu ilə qazılmış ilk quyunun bərpadan sonrakı vəziyyəti ilə tanış olub. 26 aprel 2017-ci il



Azərbaycan Respublikasının Prezidenti Prezident İlham Əliyev Azərbaycan Dövlət Neft Şirkətinin Sumqayıtda inşa olunan karbamid zavodunda tikinti işlərinin gedişi ilə tanış olub.



Prezident İlham Əliyev Heydər Əliyev adına yarımdalma qazma qurğusunun açılışında iştirak edib. 8 may 2017-ci il





Prezident İlham Əliyev Heydər Əliyev adına yarımdalma qazma qurğusunun açılışı mərasimində SOCAR-ın və “Caspian Drilling” Şirkətinin rəhbərliyi, layihədə çalışanlar, pay bölgüsü sazişlərində iştirak edən xarici şirkətlərin nümayəndələri ilə görüşüb. 18 may 2017-ci il




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev adına qazma qurğusunun açılışında iştirak edib. 18 may 2017-ci il



Azərbaycan Prezidenti İlham Əliyev "Şahdəniz-2" üçün inşa olunan yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin iyunun 1-də Xəzər dənizindəki "Şahdəniz" müqavilə sahəsinə yola salınması mərasimində iştirak edib. 1 iyun 2017-ci il



Neft və qaz emalı və nəqlinin həyata keçirildiyi Səngəçal terminalından görüntü




Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirilib. 14 sentyabr 2017-ci il



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Böyük Britaniyanın Baş Naziri xanım Tereza Meyin iştirakı ilə SOCAR və BP Xəzər dənizinin Azərbaycan sektorunda Şimali Abşeron hövzəsindəki D230 blokunun birgə kəşfiyyatı və işlənməsi üçün hasilatın pay bölgüsü haqqında yeni saziş (HPBS) imzalayıblar. 26 aprel 2018-ci il







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 29 may 2018-ci ildə Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirak edib. Həmçinin XXV Beynəlxalq Neft və Qaz sərgisinin açılışı olub. Mərasim Bakı Ekspo Mərkəzində canlı yayımlanıb. Mərasimdə Prezident İlham Əliyev, OPEC-in baş katibi Məhəmməd Barkindo, Qaz İxrac Edən Ölkələr Forumunun baş katibi Yuri Sentyurin və BP Group Upstreamin baş icraçısı Bernard Luney çıxış ediblər. Sonda Prezident İlham Əliyev Cənub Qaz Dəhlizinin açılışını edib




Prezidrnt İlham Əliyev Səngəçal terminalında Cənub Qaz Dəhlizinin açılışını etmişdİr. 12 may 2018-ci il



Prezident İlham Əliyev Azərbaycan neft sənayesinin inkişafında xidmətlərinə görə BP şirkətinin baş icraçı direktoru Robert Dadlini Azərbaycan Respublikasının "Dostluq" ordeni ilə təltif edib. 14 sentyabr 2017-ci il

# NƏTİCƏ

“Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yaranması və onun Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda fəaliyyəti” (ABƏŞ) mövzusu Avropada və dünyada enerji təhlükəsizliyinin təmin edilməsi probleminə həsr edilmişdir. Müəllif ABƏŞ-in Azərbaycan hökuməti və ARDNŞ-lə tərəfdaşlıqda birgə fəaliyyət göstərərək Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda yerləşən neft-qaz yataqlarının uğurla işlənməsini, neft-qaz yanacağının xarici bazarlara ixrac edilməsini və ölkəmizin iqtisadiyyatının inkişafını sürətləndirilməsini elmi dəlillər və faktlarla izah etməyə çalışmışdır.

Araşdırılan 1993-2010-cu illər dövründə Azərbaycan Respublikası özünün ən çətin anlarını yaşamış və müstəqilliyin ilk illərində AXC-Müsavat iqtidarının səriştəsizliyi, fəaliyyətsizliyi, yol verdiyi səhvlər nəticəsində ölkəmizdə nəinki iqtisadi durğunluq yaranmış, hətta kəskin siyasi böhran baş verməsi nəticəsində vətəndaş müharibəsi başlanması təhlükəsi qarşısında qalmışdır. Yaranmış ağır vəziyyətlə əlaqədar olaraq xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkəni fəlakətdən qurtarmaq üçün ikinci dəfə hakimiyyətə gətirilməsi və xilaskar missiyasını öz üzərinə götürməsi dəlillərlə göstərilmişdir.

Ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gətirildikdən sonra öz ilk bəyanatlarında ölkənin bazar iqtisadiyyatı yolu ilə inkişaf edəcəyini bildirmiş, ölkəni böhran və tənəzzül vəziyyətindən qurtarmaq üçün məqsədyönlü düşünülmüş tədbirlər həyata keçirmişdir. Vətəndaş müharibəsi təhlükəsinin, dövlət

çevrilişi cəhdlərinin və təxribatların qarşısı alınıb, 1994-cü ilin mayında cəbhələrdə atəşkəs əldə edildikdən sonra ölkə daxilində ictimai-siyasi sabitlik yaradılmışdır. İctimai-siyasi sabitlik yaradıldıqdan sonra bir neft ölkəsi kimi xarici dövlətlərin Azərbaycan Respublikasına inamı və marağı artmış, siyasi-iqtisadi əlaqələri genişləndirmişlər.

AXC-Musavat cütlüyü hakimiyyəti dövründə xarici neft şirkətləri ilə aparılmış olan danışıqlar nəticəsində hazırlanmış müqavilə layihəsi ölkənin mənafeyini əks etdirmədiyi üçün təsdiq edilməmiş və ümummilli lider Heydər Əliyev tərəfindən danışıqların dayandırılması haqqında qərar qəbul edilmişdir. 1993-cü ilin iyulundan danışıqların yeni mərhələsi başlanılmış və ölkənin mənafeyinə uyğun olan müqavilə layihəsi hazırlanmışdır. Həmin müqavilə layihəsi diqqətlə nəzərdən keçirildikdən sonra ARDNŞ-lə xarici neft şirkətlərinin yaratdıqları konsorsium arasında keçirilməsi nəzərdə tutulmuş Bakı sammitinə təqdim edilmişdir. Beləliklə, 1994-cü il sentyabrın 20-də Bakı sammitində ARDNŞ-lə 11 xarici neft şirkətinin yaratdıqları konsorsium arasında Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda yerləşən "Azəri", "Çıraq", dərinsulu "Günəşli" (AÇG) yataqlarının birgə işlənməsi haqqında 30 il müddətinə Hasilatın Pay Bölgüsü Sazişi imzalanmışdır. Az sonra bu neft sazişi bütün dünyada əks-səda doğurmuş və "Əsrin müqaviləsi" adlandırılmışdır. "Əsrin müqaviləsi"nin imzalanması ilə ümummilli lider Heydər Əliyevin yeni neft strategiyası başlanılmışdır.

XX əsrin 90-cı illərində ümummilli lider Heydər Əliyev tərəfindən hələ 70-ci illərdə bünövrəsi qoyulmuş neft strategiyasının hazırlanması, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ilə yeni neft strategiyasının həyata keçirilməyə başlanması, dünyanın qabaqcıl ölkələrinin iri neft şirkətləri ilə ARDNŞ arasında Xəzərin Azərbaycan Respublikası sektorunda "Azəri", "Çıraq" neft yataqlarının və dərinsulu "Günəşli"

neft yatağının bir hissəsinin kəşfiyyatı, birgə işlənməsi və hasilatın pay bölgüsü sazişinin imzalanması və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) yaradılması ölkəmizin beynəlxalq miqyasda nüfuz qazanmasına və ona göstərilən etimadın artmasına səbəb olması əsərdə elmi cəhətdən ümumiləşdirilmişdir.

"Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan Respublikasına inamı daha da artırmış bir sıra qabaqcıl ölkələr yeni neft müqavilələrinin imzalanması təklifləri ilə çıxış etmişlər. Yeni neft müqavilələrinin imzalanması nəticəsində ölkəmizə investisiya axını baş vermiş, ABƏŞ-lə ARDNŞ-in müştərək fəaliyyəti böyük nailiyyətlərlə nəticələnmişdir.

Dünyanın ən inkişaf etmiş dövlətləri və onların iri neft şirkətləri ilə əlaqələrinin genişləndirilməsi nəticəsində ölkəmizə ən müasir qabaqcıl neft texnika və texnologiyası gətirilmiş və bu Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda dərinsulu neft yataqlarının işlənməsinə səbəb olmuşdur. Lakin neft sazişinin imzalanmasından sonra da əks qüvvələr bu sazişin həyata keçirilməsinə mane olmaqda davam etmiş, Azərbaycan Respublikasına təzyiq göstərməyə cəhd etmişdilər. Bu səbəbdən də ölkəmiz dünyanın ən inkişaf etmiş güclü dövlətlərinin neft şirkətləri ilə yeni neft müqavilələrinin imzalanmasına üstünlük vermişdir. Hadisələrin gedişi göstərmişdir ki, respublikamız ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya kimi güclü dövlətlərin şirkətləri ilə yeni neft müqavilələri imzalamaqla düzgün seçim etmişdir. Çünki məhz ABŞ və digər ən yüksək inkişaf etmiş dövlətlərin güclü dəstəyi sayəsində Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmış Azərbaycanın yeni neft strategiyasını inamla həyata keçirmək mümkün olmuşdur.

"Əsrin müqaviləsi" üzrə Rəhbər Komitənin ilk iclasında neft sazişini həyata keçirmək üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin və Məsləhət Şurasının yaradılaraq uğurla

fəaliyyətə başlaması, AÇG yataqlarının tezliklə işlənilməsinə əlverişli şərait yaratmışdır. ABƏŞ-in qarşısında duran başlıca vəzifələr, yəni Xəzər dənizində seysmik tədqiqatların aparılması qiymətləndirilmə quyularının qazılması, ətraf mühitin vəziyyətinin tədqiq edilməsi, istismarda olmuş köhnəlmiş qazma qurğularının modernləşdirilərək yenidən işə salınması bir sıra infrastruktur tikililərinin başa çatdırılması ilkin neftin ixrac variantının müəyyənləşdirilməsi və əsas ixrac boru kəməri ilə bağlı məsələlərin araşdırılması və s. problemlər vaxtında həll edilmişdir. İlk növbədə başlıca vəzifələrdən biri 18 aydan gec olmayaraq "Çıraq" yatağından ilkin neft hasil edilməsi idi. Həyata keçirilmiş təcili tədbirlər nəticəsində bu vəzifə vaxtında yerinə yetirilmiş və ABƏŞ 1997-ci il sentyabrın 12-də "Çıraq" yatağından ilkin neft hasil etməyə başlamışdır. ABƏŞ-in ilkin neft hasil etməsi ilə əlaqədar olaraq ixrac boru kəmərinin çəkilməsi məsələsi gündəmə gəlmiş və bu neftin ixrac edilməsi üçün ümummilli lider Heydər Əliyevin məsləhəti və qətiyyəti sayəsində Şimal və Qərb marşrutları müəyyənləşdirilmişdir. Alternativ Qərb marşrutunun "Bakı-Supsa" boru kəməri layihəsinin təklif edilməsi ciddi müqavimətlərlə qarşılansa da, ümummilli lider Heydər Əliyev bu layihənin həyata keçirilməsində israrlı olduğunu təsdiq etmişdir. "Azəri", "Çıraq" yataqlarının və dərinsulu "Günəşli" yatağının birgə işlənməsi, xüsusilə "Çıraq" yatağından hasil edilmiş ilkin xam neftin dünya bazarlarına ixrac edilməsi, Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı dəniz yataqlarının respublikamız tərəfindən müvəffəqiyyətlə işlənməsinin mümkünlüyünün bütün dünyaya nümayiş etdirilməsi, ölkəmizə qarşı münasibətlərin müsbət istiqamətdə dəyişməsi faktlar və elmi dəlillərlə əsaslandırılmışdır.

Xatırladaq ki, "Çıraq" yatağından ABƏŞ-in ilkin neft hasilatına başlamasından sonra xam nefti xarici bazarlara ixrac etmək üçün boru kəmərlərinin çəkilməsi gündəmə gəlmiş və

ümummilli lider Heydər Əliyev çox uzaqgörənliklə Rusiyanın ərazisindən keçməklə Şimal (Bakı-Novorossiysk) və Gürcüstan üzərindən keçəcək Qərb (Bakı-Supsa) marşrutlarını müəyyənləşdirmişdi.

ABƏŞ tərəfindən "Çıraq" yatağından ilk neft hasil edildikdən sonra, Bakı-Novorossisyk neft kəməri bərpa edilərək işə salınmışdır. Bundan az sonra isə 1999-cu ilin aprelində buraxılış qabiliyyəti ildə 5 milyon ton olan Bakı-Supsa neft kəməri tikilərək istifadəyə verilmişdir. Xatırladaq ki, ümummilli lider Heydər Əliyevin təkidi və qətiyyətli mövqeyi nəticəsində Qərb İxrac Boru Kəmərinin (Bakı-Supsa) çəkilməsinə başlanılmış və cəmi 30 ayadək inşası başa çatdırılmışdır. Bakı-Supsa boru kəmərinin istismara verilməsi Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi və siyasi əlaqələrin daha da möhkəmlənməsinə səbəb olmuşdur. Lakin, neft hasilatının ilbəil artması ilə əlaqədar olaraq yeni daha iri həcmli əsas ixrac boru kəmərinin inşası məsələsi qarşıya çıxmışdır. Yeni layihəyə əsasən boru kəmərinin Azərbaycan, Gürcüstan və Türkiyə əraziləri üzərindən keçməklə Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanına çatdırılması nəzərdə tutulurdu. Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri layihəsi Azərbaycan Respublikasının əleyhinə olan qüvvələr tərəfindən ciddi müqavimətlə qarşılanmış və böyük maneələrlə rastlaşmışdır. Lakin bütün maneələrə və təzyiqlərə baxmayaraq ümummilli lider Heydər Əliyev BTC neft kəməri layihəsinin alternativinin olmadığını sübut etmişdir.

Ümummilli lider Heydər Əliyev nəinki yeni neft müqavilələrinin imzalanmasında bilavasitə iştirak etmiş həm də, həmin müqavilələrin həyat keçirilməsini daim nəzarətdə saxlamışdır. Bu məqsədlə ABƏŞ-in "Britiş Petroleum" və "Şahdəniz LTD" şirkətlərinin rəhbərləri ilə səmərəli görüşlər keçirilmişdir.

Ümummilli lider Heydər Əliyev neft müqavilələrinin imzalanması və həyata keçirilməsi məsələləri ilə əlaqədar olaraq xari-

ci ölkələrə rəsmi səfərləri dövründə nəinki neft sazişlərinin yerinə yetirilməsi məsələləri ilə məşğul olmuş, hətta diplomatik qabiliyyətindən məharətlə istifadə edərək Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasına səy göstərmişdir. Bununla belə, xatırladaq ki, o ABŞ-a rəsmi səfəri dövründə Prezident B.Klinton və digər rəhbərlərlə görüşlərində, həm də ABŞ-ın ən iri "AMOKO" Korporasiyasının rəhbərləri ilə, həmçinin bir sıra görkəmli konqresmenlərlə görüşlərində 1992-ci ildə ABŞ Konqresinin Azərbaycan Respublikası əleyhinə qəbul etdiyi ədalətsiz 907 saylı qərarın ləvğ edilməsinin vacibliyini nəzərə çatdırmışdır. Onun ABŞ-a rəsmi səfəri dövründə apardığı danışıqlar sonralar ədalətsiz 907-ci düzəlişin fəaliyyətinin dayandırılmasında mühüm rol oynadı.

Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsində ABƏŞ, xüsusi ilə də "Britiş Petroleum" (BP) şirkəti həlledici rol oynamışdır. Xatırladaq ki, "Əsrin müqaviləsi" imzalanarkən pay bölgüsündə ən çox yer BP şirkətinə verilmişdi. Ona görə də, BP şirkəti 1999-cu ilin iyunundan ABƏŞ-in əməliyyatçılığını öz üzərinə götürmüşdür. BP şirkəti Norveçin "Statoyl" şirkəti ilə alyansda fəaliyyət göstərir. Şirkət öz mövqeyini daha da gücləndirmək məqsədi ilə ABŞ-ın "AMOKO" şirkəti ilə birləşmiş və səhm kapitalının əksəriyyəti də ona məxsusdur. Bu səbəbdən də, ABƏŞ-in nailiyyətləri 1999-cu ilin iyunundan başlayaraq "BP-Azərbaycan" şirkətinin timsalında göstərilmişdir.

Ümummilli lider Heydər Əliyevin yeni neft strategiyasının uğurla həyata keçirilməsi, onun siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla və ardıcıllıqla davam etdirilməsinin Azərbaycana böyük uğurlar gətirməsi nəticəsində neft istehsalının surətli artımı nəinki ölkəmizin inkişafını daha da sürətləndirmiş, həttaiqtisadiyyatın qeyri neft sektorunun da inkişafına əlverişli şərait yaratması maraqlı faktlarla izah edilmişdir.

Bakı-Novorossiysk neft kəməri daha az ötürmə gücünə malik olduğu üçün və bu xətt Şimali Qafqazın qaynar ərazilərindən keçdiyinə, eləcə də baha başa gəldiyinə görə daha təhlükəsiz, Rusiyadan yan keçən alternativ və çoxvariantlı boru kəmərlərinin çəkilməsi məsələsinin gündəmə gəlməsi və bu vəzifənin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inamla yerinə yetirilməsi dəlillərlə və faktlarla göstərilmişdir.

Əsas ixrac neft kəməri BTC istifadəyə verildikdən sonra tezliklə Bakı-Tbilisi-Ərzurum qaz kəməri də istifadəyə verilmişdir. İxrac neft-qaz kəmərlərinin istifadəyə verilməsi nəinki tərəfdaş ölkələrlə iqtisadi əlaqələrin dərinləşməsinə səbəb olmuş, həm də dostluq əlaqələrinin möhkəmlənməsinə səbəb olmuşdur. Məsələn, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum boru kəmərləri Azərbaycan gürcü və Türkiyə xalqları arasında dostluq əlaqələrini daha da genişləndirmişdir.

Araşdırılan kitabda Bakı-Supsa neft kəmərinin istifadəyə verilməsinin daha böyük həcmdə neft nəqletmə gücünə malik olan Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin gerçəkləşməsinə əlverişli zəmin yaratması, Azərbaycan-Gürcüstan və Türkiyənin səmərəli əməkdaşlığı və işbirliyi, həmin ölkələrin rəhbərlərinin iradəsi nəticəsində BTC boru kəmərinin və BTƏ qaz kəmərinin tikilib istifadəyə verilməsi elmi dəlillərlə göstərilmişdir. BTC neft kəmərinin və Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz kəməri layihələrinin həyata keçirilərək reallaşdırılmasında Azərbaycan Prezidenti İlham Əliyev əzmkarlıq göstərmiş, bu boru kəmərlərinin tikilib başa çatdırılmasında böyük rol oynamışdır.

Bununla belə araşdırmada ABŞ-ın və digər ən yüksək inkişaf etmiş Qərb dövlətlərinin, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərlərinin və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsinə güclü dəstək verdikləri xüsusi qeyd edilmişdir. Ölkə Prezidenti İlham Əliyev ABŞ başda olmaqla Qərb ölkələrinin dəstəyinin Azərbaycan Respublikasının həyata keçirdiyi enerji layihə-

lərinin gerçəkləşdirilməsində mühüm rol oynadığını yüksək qiymətləndirmiş, təntənəli mərasim və yığıncaqlardakı çıxışlarında dəfələrlə öz minnətdarlığını bildirmişdir.

Ölkəmizin Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində fəal rol oynamağa başlaması, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi ilə bağlı təntənəli mərasim keçirilməsi və uğurla fəaliyyət göstərməsi Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin də çəkilməsinə müsbət təsir göstərmişdir. Bu xətt istifadəyə verildikdən sonra Gürcüstana, Türkiyəyə daha sonra Yunanıstana Azərbaycan qazı ixrac edilməyə başlanılmışdır. Qeyd edilən ixrac boru kəmərlərinin istifadəyə verilib fəaliyyətə başlanılmasından sonra ölkəmizin dünya və Avropaya inteqrasiyası daha da sürətlənmiş və dərinləşmişdir.

Xüsusi qeyd etmək lazımdır ki, ölkəmizdən çəkilən neft-qaz kəmərləri nəinki ölkəmizlə digər tranzit ölkələrin münasibətlərini yaxşılaşdırmış, hətta boru kəməri keçən ölkələrin də münasibətlərinə müsbət təsir göstərmişdir. Məsələn, Bakı-Tbilisi-Ərzurum qaz kəməri xətti istifadəyə verilənə qədər Türkiyə ilə Yunanıstan arasında münasibətlər soyuq və gərgin olmuşdur. BTƏ-nin çəkilməsi ilə əlaqədar olaraq Türkiyə ilə Yunanıstan arasında iqtisadi əlaqələr yaxşılaşmağa başlamışdır. Bu əlaqələrin genişləndirilməsində və Türkiyə ilə Yunanıstan arasında siyasi mülayimləşmənin baş verməsində Azərbaycan Prezidenti İlham Əliyev xoşməramlı missiya vəzifəsini yerinə yetirmişdir.

“Azəri”, “Çıraq”, “Dərinsulu Günəşli” yataqlarının mərhələlərlə işlənməsi nəticəsində Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin istismara verilməsi ilə Azərbaycan Respublikası transregional əməkdaşlığın inkişafı işinə öz töhfəsini vermişdir və TRASEKA proqramı, Böyük İpək Yolunun bərpası, yeni boru kəmərləri layihələrinin həyata keçirilməyə başlanması Transxəzər layihəsinin də tezliklə reallaşmasına müsbət təsir göstərəcəkdir.

Transxəzər layihəsinin gerçəkləşməsi həyata keçirilərsə nəinki Qazaxıstan, hətta Mərkəzi Asiya Respublikalarının karbohidrogen ehtiyatlarının da Avropa bazarlarına daşınmasına səbəb olacaq, Azərbaycanın tranzit rolunu daha da artıracaqdır.

Neft və qaz boru kəmərlərinin uğurla həyata keçirilməsi, yeni alternativ boru kəmərləri layihələrinin yaranması Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilib başa çatdırılması Azərbaycan Respublikasının böyük tranzit ölkəsinə çevrilməsini daha da sürətləndirməkdədir.

Azərbaycan Respublikası ərazisinin geosiyasi və əlverişli coğrafi mövqeyi nəinki özünün, hətta Mərkəzi Asiya respublikalarının da karbohidrogen ehtiyatlarının Avropa bazarlarına daşınmasına böyük imkan yaratmışdır. Türkmənistanın Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş ixrac enerji layihələrinə qoşulacağını bəyan etməsi bu fikrin əyani sübutudur. Bu proqramın həyata keçirilməsi ölkəmizə böyük iqtisadi fayda verəcək və ən etibarlı tərəfdaş dövlət kimi onun nüfuzunu artıracaqdır.

Tədqiqat işini əhatə edən tarixi dövrdə ümummilli lider Heydər Əliyevin yeni neft strategiyasının hazırlanıb həyata keçirilməsilə əlaqədar olaraq Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, ARDNŞ-lə tərəfdaşlıqda işləyərək ən müasir texnika və texnologiyadan istifadə etməklə Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda rekord həcmdə neft hasilatına nail olmuşdur. Azərbaycan Respublikası ən iri enerji layihələrini gerçəkləşdirərək öz neft-qaz xammalını boru kəmərləri vasitəsilə xarici bazarlara ixrac edərək Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynamağa başlamışdır. Bunun nəticəsində Respublikamızın dünya ölkələrinə inteqrasiyası dərinləşmiş, siyasi və iqtisadi qüdrəti güclənmiş və beynəlxalq nüfuzu daha da artmışdır.

Müstəqilliyin əvvəllərində Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi dövrlərində ümummilli lider Heydər Əliyev tərəfindən yeni neft strategiyasının hazırlanıb

həyata keçirilməsi ilə əlaqədar olaraq xarici ölkələrin iri neft şirkətləri ilə danışıqlar aparılıb, onların birləşdiyi konsorsiumla ARDNŞ arasında «Əsrin müqaviləsi»nin imzalanması və həyata keçirilməyə başlanması bir neft ölkəsi kimi Azərbaycan Respublikasının beynəlxalq miqyasda tanınmasına səbəb oldu. Bundan sonra ABƏŞ-in yaradılması və onun ARDNŞ ilə Xəzərin Azərbaycan Respublikası sektorunda neft yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatı pay bölgüsü sahəsində müştərək fəaliyyəti nəticəsində müasir texnika və texnologiyadan istifadə etməklə ən dərin hasilat quyuları qazılaraq böyük nailiyyətlər əldə edildi və neft hasilatı ilbəil sürətlə artmağa başladı. İlk dəfə olaraq respublikamızda 2009-cu ildə ABƏŞ və ARDNŞ ilə birlikdə rekord həcmdə 50 milyon tondan artıq neft hasil edildi. Şahdəniz qaz-kondensat yatağı işlənməyə başlanıldıqdan sonra isə Azərbaycan Respublikası özünü dünyaya həm də qaz ölkəsi kimi təqdim etdi. Xatırladaq ki, ilkin neft hasilatına başlanıldıqdan sonra respublikamızdan xarici bazarlara neft ixracı, Şahdəniz qaz-kondensat yatağı işlənilməyə başlanıldıqdan sonra isə təbii qazın nəql edilməsi imkanı yarandı, ixrac neft-qaz kəmərlərinin çəkilməsi tələbatı yarandı.

Dünya okeanlarına və dənizlərə birbaşa çıxışı olmayan, lakin əlverişli geosiyasi coğrafi mövqedə yerləşən Azərbaycan Respublikası öz karbohidrogen ehtiyatlarını dünya bazarlarına daşımaq üçün əks qüvvələrin müqavimətinə baxmayaraq, ən səmərəli və təhlükəsiz istiqamətlər müəyyənləşdirib, alternativ neft-qaz boru kəmərlərinin çəkilişini çox uğurla həyata keçirdi. 1999-cu ilin aprelində Bakı-Supsa neft kəməri, 2006-cı ilin iyulunda Bakı-Tbilisi-Ceyhan, 2007-ci ilin noyabrında Bakı-Tbilisi-Ərzurum boru kəmərlərinin istifadəyə verilməsinin böyük tarixi əhəmiyyəti oldu. Həmin neft-qaz kəmərlərinin istifadəyə verilməsi, uğurla fəaliyyət göstərməsi yeni strateji enerji layihələrinin irəli sürülməsinə təkan verdi və sonralar yeni layihələrin yaranması

bunun əyani sübutudur.

Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda aşkarlanmış olan bir sıra neft yataqları müəyyən səbəblərdən işlənməyə cəlb edilməmişdir. Belə yataqlardan biri külli miqdarda neft ehtiyatlarına malik olan «Kəpəz» yatağıdır. Məlum olduğu kimi hələ keçən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin Azərbaycanda birinci hakimiyyəti dövründə onun təşəbbüsü ilə Xəzər dənizində geoloji axtarış-kəşfiyyat işləri həyata keçirilərkən “Azəri” “Çıraq” “Günəşli” və “Kəpəz” neft yatağı aşkarlanmışdı. Bu yataq respublikamızın geoloqları və neftçiləri tərəfindən aşkarlanmışdır və Azərbaycanla Türkmənistan arasında dənizin orta sahəsində yerləşir. Bununla belə dövlət müstəqilliyi əldə edildikdən sonra «Kəpəz» yatağı hələ də işlənməyə cəlb edilməmişdir. Səbəb odur ki, «Kəpəz» yatağı Xəzərin Azərbaycan Respublikası sektorunun orta xəttində yerləşir və Türkmənistan Respublikası da bu yatağa iddialıdır. Ümummilli lider Heydər Əliyev bu məsələyə həssaslıqla və humanistcəsinə yanaşaraq hələ 90-cı illərin ortalarında «Kəpəz» yatağının Türkmənistan Respublikası ilə müştərək işlədilməsini təklif etmişdi. Lakin Türkmənistan Respublikasının həmin dövrdəki rəhbəri Saparmurad Niyazov bu humanist təkliflə razılaşmamışdır. 1997-ci il avqustun əvvəllərində ümummilli lider Heydər Əliyev ABŞ-ın paytaxtı Vaşinqtonda ARDNŞ-lə ABŞ-ın «Amoko», «Şevron», «Eksson» və «Mobil» şirkətləri arasında yeni neft müqaviləsinin imzalanması mərasimində iştirak edərkən verilən suallara cavabında «Kəpəz» yatağının Türkmənistanla müştərək işlədilməsi təklifini bir daha təsdiq etmişdi. Türkmənistan Respublikasının həmin dövrdəki başçısı Saparmurad Niyazov sonra da bu təkliflə də razılaşmamışdı. Əlbəttə bu problemi digər dövlətlərin təcrübəsindən istifadə etməklə asanlıqla həll etmək mümkündür.

Artıq uzun illərdir ki, Böyük Britaniyanın «Britiş Petroleim» və Norveçin «Statoyl» şirkətləri Şimal dənizində yerləşən neft-

qaz yataqlarının işlənməsində müştərək fəaliyyət göstərirlər. Həmin neft şirkətlərinin Şimal dənizində qarşılıqlı fayda əsasında çox uğurla və səmərəli fəaliyyət göstərmələrinin nəticələrini nəzərə alaraq «Kəpəz» neft yatağının Azərbaycan Respublikası və Türkmənistan Respublikası tərəfindən qarşılıqlı fayda əsasında müştərək işlənməsini məqsədəuyğun hesab etmək olar. son məlumatlara əsasən "Kəpəz" neft yatağının müştərək işlənməsinə dair Azərbaycan Respublikası ilə Türkmənistan arasında razılıq əldə edilmişdir.

Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmış olan Azərbaycanın yeni neft strategiyası «Əsrin müqaviləsi»nin imzalanmasından başlayaraq inamla həyata keçirilməyə başlanılmış, proqnozlaşdırılmış başlıca problemlər öz həllini tapmışdır. Karbohidrogen ehtiyatları ilə zəngin olan, siyasi cəhətdən sabit və iqtisadiyyatı dinamik surətdə inkişaf edən Azərbaycan Respublikası neft-qaz kəmərlərinin çoxvariantlılığı və şaxələndirilməsi siyasətini çox uğurla həyata keçirir. Əlverişli geosiyasi coğrafi mövqeyə malik olması respublikamızın tranzit əhəmiyyətini getdikcə daha da artırır. Özünü həm də etibarlı tərəfdaş dövlət kimi tanıtdıran Azərbaycan Respublikası Xəzərin neft-qaz ehtiyatlarını boru kəmərləri vasitəsilə xarici bazarlara nəql edərək, Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynamağa başlamışdır. Bunun nəticəsində respublikamızın dünya iqtisadiyyatına inteqrasiyası daha da dərinləşmiş, iqtisadi əlaqələri genişlənmiş, beynəlxalq nüfuzu daha da artmışdır.

# SÖZARDI

## AZƏRBAYCANLA BP ARASINDA ƏMƏKDAŞLIĞIN YENİ MƏRHƏLƏSİ

Qədim neft diyarı olan Azərbaycan zəngin tarixi ənənələrə malik olan ölkədir. Əsrlər boyu burada neft əl və kustar üsulu ilə çıxarılmış, qiymətli xammal kimi satış üçün uzaq ölkələrə daşınmışdır. Neft sənayesinin inkişafı öz başlanğıcını buradan götürmüşdür. XIX əsrin ortalarından sənaye üsulu ilə inkişaf etməyə başlanıldıqdan sonra neftin hasilatı, emalı və nəqli sahəsində yeniliklər dünyada ilk dəfə Bakı neftçiləri tərəfindən tətbiq edilmişdir. Çar Rusiyasının və keçmiş Sovet imperiyasının başlıca yanacaq bazası olan və sənayesinin inkişafında mühüm rol oynayan Bakı neftindən azərbaycanlı sahibkarlardan Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev, Murtuza Muxtarov və xarici sahibkarlardan «Nobel qardaşları»nın az miqdarda xeyriyyəçilik fəaliyyətlərini nəzərə almasaq, Azərbaycan xalqı uzun müddət bəhrələnə bilməmişdir. Yalnız XX əsrin sonlarında müstəqillik əldə etdikdən sonra xalqımızın öz təbii sərvətlərindən bəhrələnmək imkanı yaranmışdır.

Müstəqillik illərinin əvvəllərində Azərbaycan nefti haqqında xarici ölkələrin mətbuat səhifələrində məlumatlər dərc edilməsinə baxmayaraq, AXC-Müsavat cütlüyü iqtidarının səriştəsizliyi nəticəsində ölkədə yaranmış siyasi və iqtisadi böhranla

əlaqədar olaraq ictimai-siyasi sabitlik olmadığı üçün ən yüksək inkişaf etmiş ölkələrin iri neft şirkətləri ölkəmizin neft sənayesini inkişaf etdirmək üçün sərmayə yatırmaq istəmirdilər.

Xatırladaq ki, Ümummilli Lider Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidi tələbilə ikinci dəfə Azərbaycanda hakimiyyətə gətirildikdən sonra onun rəhbərliyilə vətəndaş müharibəsinin və silahlı dövlət çevrilişi cəhdlərinin qarşısı alınıb ictimai-siyasi sabitliyə nail olunduqdan sonra iqtisadi islahatlar həyata keçirilməyə başlandı. Ölkəni bürümüş olan ağır böhran vəziyyətindən qurtarmaq üçün tezliklə ölkənin neft yataqlarını işlənməyə cəlb etmək məqsədilə ən yüksək inkişaf etmiş ölkələrin iri neft şirkətlərilə danışıqlara başlandı. Əvvəlki sətirlərdə göstərildiyi kimi 1993-cü ilin iyulun ikinci yarısından başlanan danışıqların sonrakı mərhələsində Xalq Cəbhəsi-Müsavat cütlüyü iqtidarı dövründə hazırlanmış müqavilə layihəsindən fərqli olaraq Azərbaycan Respublikasının maraqlarını təmin edən müqavilə layihəsi hazırlandı. 1994-cü il sentyabrın 20-də «Azəri», «Çıraq» və dərinsulu «Günəşli» yatağının müştərək işlənməsinə dair Azərbaycan Respublikası Dövlət Neft Şirkəti – Sokarla 11 xarici neft şirkətini birləşdirən konsorsium arasında Hasilatın Pay Bölgüsü sazişi imzalandı. «Əsrin müqaviləsi» adını almış olan həmin neft sazişi imzalandıqdan sonra yaradılmış Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətində Böyük Britaniyanın «Britiş Petroleum» BP şirkəti 34,1[1] faiz pay bölgüsünə malik olmuşdu. Az bir müddət ərzində BP şirkəti «Əsrin müqaviləsi»nin həyata keçirilməsində aparıcı rol oynayaraq öncül bir şirkətə çevrilmişdir. 1999-cu ilin iyunundan "BP-Azərbaycan" şirkəti ən böyük sərmayədar kimi əməliyyatçılığı öz üzərinə götürmüşdür.

BP Azərbaycan şirkəti Norveçin «Statoyl» şirkəti ilə alyansda fəaliyyət göstərir. BP və Statoyl şirkətləri neft sahəsində

---

[1] "BP-Azərbaycan" Davamlı İnkişaf haqqında hesabat. Arx., 2004, s.17.

əməkdaşlıq etmək üçün Azərbaycana gələn ilk şirkətlərdir. Neft sazişi imzalandıqdan sonra BP və Statoyl şirkətləri yeni texnika və texnologiyanı ölkəmizə gətirərək müqavilə öhdəliklərini yerinə yetirməyə başlamışlar. BP və Statoyl şirkətləri ilə əlaqələri yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyev demişdir ki, «bu əlaqələri inkişaf etdirəcəyik və genişləndirəcəyik».[1]

Beynəlxalq miqyasda da öz mövqeyini gücləndirmək üçün Böyük Britaniyanın BP şirkəti ABŞ-ın «Amoko» şirkəti ilə birləşərək daha iri enerji layihələri həyata keçirməkdədirlər. «Əsrin müqaviləsi» çərçivəsində nəhəng karbohidrogen ehtiyatlarına malik olan «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinliyində yerləşən hissəsinin işlənməsi "BP-Azərbaycan" şirkətinin Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda həyata keçirdiyi ən böyük neft layihəsidir. "BP-Azərbaycan" şirkətinin bilavasitə iştirakı ilə dənizdəki köhnə neft platformaları ən müasir texnika əsasında yenidən qurularaq işlək vəziyyətinə gətirilmiş və yeni platformalar tikilmişdir. Şirkətin səyləri nəticəsində respublikada neft hasilatının azalmasının qarşısı alınmış, 1997-ci ilin noyabrından isə ilkin neft çıxarılmağa başlanılmışdır.

İlkin neft hasilatına başlanıldıqdan sonra neftin illik həcmi surətlə artmış və bu qiymətli xammalın xarici bazarlara ixrac edilməsi imkanı yaranmışdır. Respublikamızda neft hasilatı dinamik surətdə artmaqdadır. 1997-ci ildə 9 milyon ton neft hasil edilmişdisə, 2010-cu ildə "BP-Azərbaycan" şirkəti SOCAR-la birlikdə hasilatı 50,4[2] milyon tona çatdırmışdır. Bunun 40 milyon tondan çoxu "BP-Azərbaycan" şirkətinin payına düşür.[3]

Bakı-Novorossiysk neft kəməri bərpa edilərək fəaliyyətə başladıqdan və Bakı Supsa boru kəməri çəkildikdən sonra Azər-

---

[1] Azərbaycan. 1988, 1 aprel.
[2] Respublika. 2016, 20 sentyabr.
[3] Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, İllik Hesabat, arx. 2010.

baycan Respublikası neft ixrac edən ölkəyə çevrilmişdir. Bakı-Supsa boru kəmərinin tikintisinin uğurla başa çatması yeni Əsas İxrac Boru Kəmərinin çəkilməsinə inamı artırmış və 2006-cı ildə illik ixrac qabiliyyəti 50 milyon ton olan Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verilmişdir. BTC-nin istifadəyə verilməsindən sonra isə Cənubi Qafqaz Boru kəmərinin və ya Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi 2007-ci ilin aprelində başa çatdırılmış və respublika həm də qaz ixrac edən ölkəyə çevrilmişdir.

«Azəri», «Çıraq», dərinsulu «Günəşli» neft yataqlarının və «Şahdəniz» qaz-kondensat yatağının uğurla işlənməsi nəticəsində "BP-Azərbaycan" şirkəti SOCAR-la tərəfdaşlıqda işləyərək ölkəmizin neft-qaz sənayesinin sürətli inkişafına nail olmuşdur. Neft-qaz sənayesinin inkişafı isə iqtisadiyyatın digər sahələrinin, o cümlədən qeyri-neft sektorunun inkişafına təkan vermişdir. İqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycan Respublikası az müddət ərzində Cənubi Qafqazın lider dövlətinə çevrilmişdir. Azərbaycan hökuməti və SOCAR-la tərəfdaşlığa işləyən "BP-Azərbaycan" şirkəti indiki mərhələdə də inamla fəaliyyət göstərərək respublikamızın sosial-iqtisadi inkişafına öz dəyərli töhfələrini verməkdədir. "BP-Azərbaycan" şirkəti etibarlı bir tərəfdaş və investor kimi Azərbaycanda həyata keçirilən bütün neft-qaz enerji layihələrinə önəm vermişdir. 23 illik fəaliyyəti dövründə "BP-Azərbaycan" şirkəti Azərbaycan Respublikasına böyük faydalar gətirmiş və öz öhdəliklərini inamla yerinə yetirmişdir.

1994-cü ilin sentyabrında «Əsrin müqaviləsi» imzalanarkən Xəzərin Azərbaycan Respublikası sektorunda yerləşən «AÇG» yatağının karbohidrogen ehtiyatlarının 500 milyon ton olduğu hesablanmışdı. Lakin sonrakı hesablamalar nəticəsində 600 milyon tondan çox neft ehtiyatlarının olduğu müəyyənləşdirildi. Daha sonrakı axtarış-kəşfiyyat işləri göstərdi ki, yataqdakı quyuların dərinliklərində hələ külli miqdarda neft ehtiyatları vardır.

Azərbaycan Prezidenti İlham Əliyevin işgüzar fəaliyyəti və Böyük Britaniya hökuməti, həm də BP şirkətinin rəhbərliyi ilə apardığı səmərəli danışıqlar nəticəsində 1994-cü il sentyabrın 20-də imzalanmış neft müqaviləsinin müddətinin 2050-ci ilədək uzadılması məqsədəuyğun hesab edilmişdir.

2017-ci il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Saziş»in imzalanması mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti mərasimdə iştirak edib və nitq söyləmişdir.

İmzalanacaq kontrakta əsasən «Azəri-Çıraq-Günəşli» neft yatağının işlənilməsinin 2050-ci ilədək uzadılması və bu kontraktın Azərbaycan üçün daha əlverişli olması haqqında məlumat verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev imzalanma mərasimindəki çıxışında demişdir: «Kontrakt imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 milyard dollar həcmində bonus ödəniləcək; SOCAR-ın payı 11,6 faizdən 25 faizə qaldırılır və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək».[1]

Uzadılmış yeni neft sazişi Azərbaycanın maliyyə imkanlarını daha da artıracaq və gələcək inkişafına əhəmiyyətli təsir edəcəkdir. Son hesablamalara görə «Azəri-Çıraq» dərinsulu «Günəşli» yatağında neft ehtiyatları 500[2] milyon tondur. Bununla belə bu böyük neft yatağında ehtiyatların daha çox olması ehtimal edilir.

---

[1] Azərbaycan, 2017, 14 sentyabr.
[2] Yenə orada.

Azərbaycan Prezidenti İlham Əliyevin öz nitqində 1994-cü ildə imzalanmış neft sazişinin – "Əsrin müqaviləsi"nin əhəmiyyətindən danışarkən qeyd etmişdir ki, «Əgər biz 1994-cü ildən neft-qaz sahəsində xronologiyaya baxsaq görərik ki, ancaq uğurlar xronologiyasıdır».[1]

Azərbaycan Respublikasının Prezidentinin nitqində ilk neft müqaviləsi imzalandıqdan sonra neft-qaz sahəsində əldə edilmiş bütün nailiyyətlər sadalanmış və daha sonra göstərilmişdir ki, uğurla həyata keçirilmiş enerji layihələri – Trans Anadolu Qaz kəməri və reallaşdırılmaqda olan Trans Adriatik Qaz kəməri kimi yeni layihələrin irəli sürülüb yerinə yetirilməyə başlanılmasına səbəb olmuşdur. Xatırladaq ki, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayacaq və onun həm də enerji xəritəsini dəyişdirəcək TANAP layihəsi reallaşdırılmış və 2018-ci ildə istifadəyə verilmişdir. TAP layihəsi isə uğurla gerçəkləşdirilməkdədir və 2020-ci ildə istifadəyə veriləcəkdir. Hər iki layihə Türkiyə və Azərbaycan Respublikasının sıx əməkdaşlığı və işbirliyi nəticəsində yaranmış XXI əsrin ən böyük tarixi enerji layihələrindəndir.

Əldə olunmuş nailiyyətləri iftixarla sadalayan ölkə başçısı İlham Əliyev daha sonra qeyd etmişdir: «Bundan əlavə, dünyanın ən böyük səngəçal neft-qaz terminalı tikilmişdir. Gəmiqayırma zavodu tikilmişdir, hansı ki, indi Azərbaycanda istənilən növ gəminin istehsalı mümkündür. Dünyanın ən böyük qazma qurğularından biri – Heydər Əliyevin adını daşıyan qazma qurğusu istifadəyə verilmişdir».[2]

«Əsrin müqaviləsi»nin reallaşdırılması nəticəsində Azərbaycanda böyük maliyyə resursları 1999-cu ildən fəaliyyətə başlamış Azərbaycan Dövlət Neft Fondunun valyuta ehtiyatları-

---

[1] Azərbaycan, 2017, 14 sentyabr.
[2] Yenə orada.

nın artırılmasında böyük rol oynayır. «Əsrin kontraktı»nın uzadılması, «Şahdəniz» layihəsinin və «Cənub qaz dəhlizi»nin icrası nəticəsində ölkəmizin maliyyə resursları daha artacaqdır.

Neft müqaviləsinin uğurla reallaşdırılaraq ölkəmizin neft-qaz sənayesinin sürətli inkişafı, şaxələndirilmiş boru kəmərləri vasitəsilə karbohidrogen ehtiyatlarının Avropa bazarlarına daşınmasında da BP şirkəti aparıcı rol oynamışdır. Mərasimdəki çıxışında BP şirkətinin Azərbaycan Respublikasındakı fəaliyyətini yüksək qiymətləndirən ölkə Prezidenti İlham Əliyev demişdir: «BP şirkətinin fəaliyyətini qeyd etmək istəyirəm. Bizimlə BP arasında əməkdaşlarımızın da 23 illik tarixi var. Yəni BP bizim bütün əsas layihələrimizdə əsas tərəfdaş və investor kimi fəaliyyət göstərir. Həm «Azəri-Çıraq-Günəşli»də, Bakı-Tbilisi-Ceyhan layihəsində, «Cənub qaz dəhlizi layihəsində».

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti – SOCAR-la BP arasında ilk neft sazişi imzalandığı andan başlayaraq qarşılıqlı etimad və sıx əməkdaşlıq nəticəsində yaranmış işgüzar münasibətlər indi də davam etməkdədir.[1]

Yeni neft Sazişinin imzalanması mərasimində iştirak edən Böyük Britaniyanın dövlət naziri Alan Dinkan öz çıxışında dedi ki, ötən iyirmi üç il ərzində Azərbaycana milyarlarla dollar sərmayə yatırılmış və üç milyard bareldən çox neft dünya bazarlarına çıxarılmışdır. Beləliklə, «Azəri-Çıpraq-Günəşli» yatağı Azərbaycanın iqtisadi inkişafına böyük tövhə verdi. Sonra Alan Dunkan Böyük Britaniyanın Baş naziri xanım Tereza Meyin Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubunu oxudu. O, öz məktubunda BP ilə SOCAR arasında imzalanmış müqavilənin yeniləşməsi ilə əlaqədar Azərbaycan Prezidentini təbrik edir və daha sonra həmin məktubda deyilir: «Bu müqavilənin yeniləşməsi növbəti onilliklər üçün Böyük Britaniya və Azər-

[1] Azərbaycan, 2017, 14 sentyabr.

baycan arasında mövcud olan dərin və xüsusi əməkdaşlığı daha da gücləndirəcəkdir».

Mərasimdə çıxış edən BP şirkətinin baş icraçı direktoru Robert Dadli əldə edilmiş nailiyyətlərə görə Azərbaycan Prezidenti və hökumətinə minnətdarlığını bildirərək qeyd etdi ki, bütün bu nailiyyətlər yalnız mərhum Prezident Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində mümkün olmuşdur. 1994-cü ildə imzalanmış və haqlı olaraq «Əsrin müqaviləsi» adlandırdığımız saziş məhz onun uzaqgörənliyinin bəhrəsidir. O, daha sonra demişdir ki, bu vaxtadək Azərbaycanın dənizdəki neft ehtiyatlarının işlənməsinə 33 milyard dollar investisiya qoyulmuş və 3,3 milyard barel neft hasil edilmişdir.

«Azəri-Çıraq-Günəşli» neft yatağının işlənilməsinin 2050-ci ilə qədər uzadılması sazişini «Yeni əsrin müqaviləsi» adlandıran Robert Dadli bütün tərəfdaşlara minnətdarlıq edərək bildirmişdir ki, növbəti 32 il ərzində birgə işləyərək və «AÇG» üzrə potensial olaraq 40 milyard dollardan artıq həcmdə yeni sərmayə qoyaraq, biz Azərbaycanın neft və qaz hasilatının uzunmüddətli gələcəyini təmin etməyə davam edəcəyik.

Mərasimdə iştirak edən Gürcüstanın Energetika naziri Elia Eloşvili öz çıxışında demişdir ki, Gürcüstan etibarlı tranzit ölkə və Azərbaycanın strateji tərəfdaşı olaraq əməkdaşlığımızın bundan sonra da genişlənməsinə səy göstərəcək. Gürcüstan bu sazişin imzalanmasını alqışlayır və əməkdaşlığımızın bundan sonra da inkişaf etməsi üçün Azərbaycan ilə strateji tərəfdaşlığını daha da möhkəmləndirəcək.

Mərasimin iştirakçısı Yaponiyanın xarici işlər nazirinin parlamentari müşaviri Manaba Hori çıxış edərək AÇG» neft yataqları üzrə Hasilatın pay Bölgüsü müqaviləsinin 2050-ci ilədək uzadılması münasibətilə bütün tərəfləri təbrik edərək qeyd etdi ki, Yaponiya adından İMPEX və İTOÇU korporasiyaları «Azəri-Çıraq-Günəşli» neft yataqlarının işlənməsində iştirak edib.

Mən səmimi qəlbdən ümid edirəm ki, bu Yaponiya şirkətləri layihənin uğur qazanması üçün Azərbaycan hökuməti və konsorsiumla əməkdaşlığı davm etdirəcəkdir.

Mərasimin sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və nümayəndə heyətləri başçılarının iştirakı ilə "Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş saziş" imzalandı.

XXI əsrin tarixi neft sazişini Azərbaycan hökumətinin, SOCAR-ın, «BP», "Chevron», «İMPEX», «Statoyl», «ExxonMobil», «TP», «İTOÇU» və «ONGC Videsh» şirkətlərinin təmsilçiləri imzaladılar.

BP şirkəti ümumiyyətlə götürdükdə Azərbaycanla Böyük Britaniya arasında siyasi, iqtisadi, ticarət və digər sahələrdə əlaqələrin yaradılıb genişləndirilməsində böyük rol oynamışdır. Əvvəlki sətirlərdə qeyd edildiyi kimi BP və Norveçin «Statoyl» şirkətləri əməkdaşlıq etmək üçün Azərbaycana gələn ilk şirkətlərdir. Azərbaycanla Böyük Britaniya arasında dostluq və əməkdaşlıq əlaqələrinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən yaradılmışdır. 1994-cü ilin fevralında onun Böyük Britaniyaya səfəri zamanı Baş nazir Meycorla dövlətlərarası müqavilə imzalandıqdan sonra müxtəlif sahələrdə əlaqələr genişlənməyə başlamışdır.[1]

Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmış olan Azərbaycanın yeni neft strategiyası ən yüksək inkişaf etmiş ölkələrlə, o cümlədən Böyük Britaniya ilə əlaqələrin inkişaf etdirilməsində böyük rol oynamışdır.

1998-ci il iyulun 21-də Londonda ümummilli lider Heydər Əliyev və Böyük Britaniyanın Baş naziri Toni Bleyerin iştirakı ilə xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı

[1] Azərbaycan, 1998, 22 iyul.

«Araz», «Alov» və b. yataqların işlənməsi ilə əlaqədar «BP», «Statoyl» və SOCAR arasında müqavilə imzalandıqdan sonra iqtisadi əlaqələr daha da genişləndirilmişdir.

Sonrakı mərhələdə Azərbaycanla Böyük Britaniya əlaqələrinin genişləndirilməsində Azərbaycan Prezidenti İlham Əliyevin rəsmi səfərləri və işgüzar görüşləri də böyük rol oynadı. Azərbaycan Prezidenti İlham Əliyev 2009-cu il iyulun 12-dən 15-dək Böyük Britaniyada səfərdə olmuşdur. Səfərin nəticələri göstərdi ki, Böyük Britaniya Azərbaycan üçün mühüm ölkə, strateji tərəfdaşdır. İyulun 13-də Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyanın baş naziri Qordon Braunla görüşü olmuşdur. Qordon Braun Prezident İlham Əliyevlə görüşdəki söhbətində Azərbaycanla müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığı yüksək qiymətləndirmişdir.

Rəsmi səfərdə olarkən Azərbaycan Prezidenti İlham Əliyev Londonda Kral Beynəlxalq Münasibətlər İnstitutunda keçirdiyi görüşdə "Azərbaycan üçün xarici siyasət çağırışları" mövzusunda çıxış etdi. O, öz çıxışında qeyd etdi ki, "bu mənim Böyük Britaniyaya ikinci səfərimdir, münasibətlərimiz uğurla inkişaf edir və Birləşmiş Krallıq bizim üçün strateji tərəfdaş, mühüm ölkə və Azərbaycanda ən böyük sərmayədarlardan biridir".[1]

BP şirkəti Azərbaycanla Böyük Britaniya arasında iqtisadi və müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsində mühüm rol oynamaqda davam edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci il aprelin 26-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin dəvəti ilə Londona rəsmi səfərə gəlmişdir.

Prezident İlham Əliyevin Baş nazir xanım Tereza Mey ilə görüşü olub. Baş nazir xanım Tereza Mey prezident seçkilərində qələbəsi münasibətilə İlham Əliyevi təbrik etdi və görüşdən

[1] Azərbaycan, 2009, 14 iyul.

məmnunluğunu ifadə edərək bildirdi ki, Azərbaycan Prezidentinin bu səfəri iqtisadi və ticarət, enerji, təhlükəsizlik məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacaq. Xanım Tereza Mey SOCAR ilə BP şirkəti arasında imzalanmış sazişin əməkdaşlığın genişlənməsi baxımından önəmini vurğuladı və Azərbaycanın Əfqanıstanda Sülhməramlı əməliyyatlarda iştirakını və verdiyi dəstəyə görə minnətdarlığını bildirdi.[1]

Azərbaycan Prezidenti cənab İlham Əliyev təbrikə görə minnətdarlığını bildirərək qeyd etdi ki, Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin gündəliyi çox genişdir və ölkələrimiz müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, ticarət, sərmayə qoyuluşu sahələrində fəal əməkdaşlıq həyata keçirir. Daha sonra o bildirdi ki, hazırda ticarət əlaqələrinin genişləndirilməsi və şaxələndirilməsi istiqamətində fəal iş aparılır və bunun üçün böyük potensial var. Böyük Britaniyanın bir çox şirkətləri uzun illərdir ki, Azərbaycan Respublikasında fəaliyyət göstərir. SOCAR-BP əməkdaşlığı strateji xarakter daşıyır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin Böyük Britaniyaya rəsmi səfəri çox uğurlu olmuş və ikitərəfli əməkdaşlığımızın daha da genişlənməsinə əhəmiyyətli təsir göstərmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında enerji sahəsindəki əməkdaşlıq müntəzəm surətdə həyata keçirilir və uğurla inkişaf etməkdədir. Bu əlaqələrin möhkəmləndirilib daha da dərinləşdirilməsində BP şirkəti mühüm rol oynayır.

Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyanın digər rəsmi şəxslərilə, o cümlədən BP şirkətinin rəhbərləri ilə danışıqları çox uğurlu keçmiş, ölkələrimiz arasındakı strateji tərəfdaşlıq əlaqələri daha da möhkəmləndirilmişdir.

---

[1] “Azərbaycan” qəzeti, 2018, 27 aprel.

# İSTİFADƏ OLUNAN MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası yolları. Bakı: Elm, 2005, - 252 s.
2. Abdullayev Ə.İ. Dəniz neft-qaz istehsalında ətraf mühitin mühafizəsi. Bakı: Elm, 2007, - 472 s.
3. Abdullayev M.C. Milli neft strategiyası Azərbaycanın beynəlxalq nüfuzunu möhkəmlədir // "Azərbaycan" qəzeti, 17 may.
4. Abdullayev V.İ. O böyük siyasətə hazırdır. Bakı: Azərnəşr, 2000, - 96 s.
5. Abdullayev V.İ. Sülh və sabitlik prezidenti. Bakı: Təhsil, 2004, - 279 s.
6. Atakişiyev M.C. Azərbaycan sosial-iqtisadi tərəqqi yolunda. Bakı: Təhsil, 2003, - 264 s.
7. Atakişiyev M.C. Azərbaycanın yeni neft strategiyası və iqtisadi yüksəliş. Bakı: Azərbaycan, 2004, - 264 s.
8. Azərbaycan-ABŞ Dostluq və tərəfdaşlıq yollarında. Bakı: 2000, - 182 s.
9. Azərbaycan-Böyük Britaniya: Əməkdaşlıq və tərəfdaşlıq (1991-2001). Bakı: Əbilov, Zeynalov və oğulları, 2001, - 451 s.

9a. Azərbaycan nefti. Tərtibatçı Cəbi Bəhramov, Rafiq Abdullayev. Bakı: 2010. 352 s.

10. "Azəri, Çıraq və Dərinsulu Günəşli" yataqlarının tammiqyaslı işləmə layihəsinin birinci fazası. Bakı: 2002, - 374 s.

11. "Azəri-Çıraq" yatağının və "Günəşli" yatağının dərin sularının tammiqyaslı işlənməsinin 1-ci fazasının və "Şahdəniz" qaz yatağının tammiqyaslı işlənməsinin 1-ci mərhələsinin ilkin mühəndis inşaat işləri. Bakı: 2001, - 81 s.
12. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti İllik Hesabat, arx. 2004.
13. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti İllik Hesabat, arx. 2005.
14. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti İllik Hesabat, arx. 2006.
15. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti İllik Hesabat, arx. 2007.
16. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti İllik Hesabat, arx. 2008.
17. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti İllik Hesabat, arx. 2009.
18. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, İllik Hesabat, arx. 2010.
19. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1995-ci il, 24 yanvar.
20. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1997-ci il, 6 mart.
21. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1998-ci il, 1 aprel.
22. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1998-ci il, 15 avqust.
23. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1998-ci il, 11 dekabr.
24. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1999-cu il, 21 fevral.
25. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1999-cu il, 12 mart.
26. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1999-cu il, 18 aprel.
27. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1999-cu il, 20 aprel.
28. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 1999-cu il, 22 aprel.
29. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 2001-ci il, 24 mart.
30. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 2001-ci il, 8 mart.
31. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 2001-ci il,19 mart.
32. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 2001-ci il, 17 may.

33. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 2001-ci il, 23 sentyabr.
34. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 2001-ci il, 25 mart.
35. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 2002-ci il, 19 sentyabr.
36. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 2004-cü il, 4 dekabr.
37. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 2006-cı il, 28 may.
38. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 2006-cı il, 14 iyul.
39. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 2007-ci il, 20 noyabr.
40. "Azərbaycan" qəzeti, Bakı, AzərTac, 2012-ci il, 11 oktyabr.
41. Azərbaycan tarixi. 7 cilddə. VII c. Bakı: Elm, 2008. - 608 s.
42. Bəhramov C.Ə. Azərbaycan dəniz neftçıxarma sənayesinin yaranması və inkişafı tarixi (1949-1960-cı illər). Tarix elm. nam. alimlik dərəcəsi almaq üçün diss. Bakı: 1999, - 168 s.
43. Bəzi ümumi qaydalar: BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə boru kəmərləri haqqında xəyalları. Bakı: 2003, - 271 s.
44. "BP-Azərbaycan" Davamlı İnkişaf haqqında Hesabat, arx. 2004.
45. "BP-Azərbaycan" Davamlı İnkişaf haqqında Hesabat, arx. 2005.
46. "BP-Azərbaycan" Davamlı İnkişaf haqqında Hesabat, arx. 2006.
47. "BP-Azərbaycan" Davamlı İnkişaf haqqında Hesabat, arx. 2007.
48. "BP-Azərbaycan" Davamlı İnkişaf haqqında Hesabat, arx. 2008.
49. "BP-Azərbaycan" Davamlı İnkişaf haqqında Hesabat, arx. 2009.
50. "BP-Azərbaycan" Davamlı İnkişaf haqqında Hesabat, arx. 2010.
51. "Ədalət" qəzeti. Bakı: 1995, 12 oktyabr.
52. Əliyev T., Məlikov Y., Əhmədov B. Neft emalı və neft-kimya sahələrinin ekoloji problemləri. Bakı: Elm, 2005, - 226 s.
53. Əliyev T., Sucayev F. Azərbaycanda qaz emalı və satışının

təşkilinin bəzi məsələləri. Bakı: Təhsil, NTM, 2002, - 50 s
54. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. Birinci kitab. Bakı: "Azərbaycan" nəşriyyatı, 1997, - 239 s.
55. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. İkinci kitab. Bakı: "Azərbaycan" nəşriyyatı, 1997, - 264 s.
56. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. Dördüncü kitab. Bakı: "Azərbaycan" nəşriyyatı, 1997, - 480 s.
57. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. Beşinci kitab. Bakı: "Azərbaycan" nəşriyyatı, 1997, - 328 s.
58. Əliyev H.Ə. Gürcüstan və Azərbaycan xalqlarının dostluğu dünyada nümunədir. Bakı: 2011, - 270 s.
59. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Birinci kitab. Bakı: Azərnəşr, 1997, - 612 s.
60. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. İkinci kitab. Bakı: Azərnəşr, 1997, - 604 s.
61. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Üçüncü kitab. Bakı: Azərnəşr, 1997, - 488 s.
62. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Dördüncü kitab. Bakı: Azərnəşr, 1997, - 528 s.
63. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. Bakı: Azərnəşr, 1998, - 500 s.
64. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Altıncı kitab. Bakı: Azərnəşr, 1998, - 512 s.
65. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Yeddinci kitab, Bakı: Azərnəşr, 1998, - 520 s.
66. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. Bakı: Azərnəşr, 1998, - 488 s.
67. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab. Bakı: Azərnəşr, 2000, - 466 s.
68. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Onuncu kitab. Bakı: Azərnəşr, 2002, - 472 s.
69. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Onbirinci kitab. Bakı:

Azərnəşr, 2003, - 452 s.
70. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Onüçüncü kitab. Bakı: Azərnəşr, 2004, - 520 s.
71. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Onbeşinci kitab. Bakı: Azərnəşr, 2005, - 528 s.
72. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Onaltıncı kitab. Bakı: Azərnəşr, 2005, - 552 s.
73. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Onyeddinci kitab. Bakı: Azərnəşr, 2006, - 258 s.
74. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Onsəkkizinci kitab. Bakı: Azərnəşr, 2006, - 552 s.
75. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Ondoqquzuncu kitab. Bakı: Azərnəşr, 2006, - 528 s.
76. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. İyirminci kitab. Bakı: Azərnəşr, 2007, - 536 s.
77. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Otuzuncu kitab. Bakı: Azərnəşr, 2010, - 520 s.
78. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Otuzikinci kitab, Bakı: Azərnəşr, 2010, - 512 s.
79. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Otuzüçüncü kitab. Bakı: Azərnəşr, 2011, - 480 s.
80. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Otuzaltıncı kitab. Bakı: Azərnəşr, 2011, - 512 s.
81. Əliyev İ.H. Azərbaycanıma inanıram. Bakı: Azərnəşr, 2007, - 376 s.
82. Əliyev İ.H. İnkişaf məqsədimizdir. Üçüncü kitab. Bakı: Azərnəşr, 2009, - 343 s.
83. Əliyev İ.H. İnkişaf məqsədimizdir. Dördüncü kitab. Bakı: Azərnəşr, 2009, - 24 s.
84. Əliyev İ.H. İnkişaf məqsədimizdir. Beşinci kitab. Bakı: Azərnəşr, 2010, - 392 s.
85. Əliyev İ.H. İnkişaf məqsədimizdir. Altıncı kitab. Bakı: Azər-

nəşr, 2011, - 416 s.
86. Əliyev İ.H. İnkişaf məqsədimizdir. Səkkizinci kitab. Bakı: Azərnəşr, 2011, - 190 s.
87. Əliyev İ.H. İnkişaf məqsədimizdir. Onuncu kitab. Bakı: Azərnəşr, 2012, - 100 s.
88. Əliyev İ.H. Mən istənilən səviyyədə istənilən mübarizəyə hazıram. Bakı: Azərbaycan nəşriyyatı, 2001, - 480 s.
89. Əliyev N.A., Şahbazov E.Q. Heydər Əliyev və Azərbaycan neftinin inkişafı. Bakı: Azerbaijan international, 1997, - 17 s.
90. Əliyev N.A. Azərbaycanın sənaye və yanacaq enerji kompleksinin vəziyyəti və inkişaf istiqamətləri. Bakı: Azərbaycan, 2006, - 72 s.
91. Əliyev N.A., Məmmədov M. Yanacaq enerji kompleksinin inkişafı və idarə edilməsində iqtisadi proqramlaşdırma amili. Bakı: "Kooperasiya" nəşriyyatı, 2013. - 319 s.
92. Əsrin müqaviləsi 5 il 1994-1999. Bakı: ARDNŞ, 1999, - 17 s.
93. Əsrin müqaviləsi 10 il. Bakı: ARDNŞ, 2004, - 36 s.
94-95. Hacızadə E.M. Azərbaycanın təbii qaz potensialı. Bakı: Elm, 2001, - 186 s.
96. Heydər Əliyevin Neft strategiyası. 1-ci hissə. Bakı: 2001 - 491 s.
97. Heydər Əliyevin Neft strategiyası. 2-ci hissə. Bakı: 2001, - 467 s.
98. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı: Azərnəşr, 1998, - 385 s.
99. Həsənov S. Dövlətlərarası münasibətlərdə Xəzərin statusu məsələsi. Bakı: Elm, 2002, 125, - 176 s.
100. Həmidov H. Böyük "İpək yolu" Azərbaycanın beynəlxalq münasibətlərində. Bakı: Qartal, 2001, - 112 s.
101. Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı: Azərnəşr, 1998, - 315 s.

102. Hüseynova İ.M. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı: Çaşıoğlu, 2008, - 672 s.
103. Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, - 472 s.
104. Hüseynova İ.M. Müstəqilliyimizin təminatçısı. Bakı: Təhsil, 2003, - 504 s.
105. Xəlilov Q.P. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ekoloji təhlükəsizliyinin beynəlxalq hüquq və dövlətdaxili qanunvericilik problemləri. Bakı: Elm və Təhsil, 2009, - 391 s.
106. İlham Əliyev bu günün və gələcəyin uğur faktorudur. Bakı: Azərbaycan, 2001, - 552 s.
107. İsayev A. Neft və qaz sənayesinin iqtisadiyyatı. Bakı: Azərnəşr, 2008, - 299 s.
108. İsmayılov M.Ə. Azərbaycanın neft sənayesinin inqilabaqədərki tarixi. Bakı: Elm, 1991, - 282 s.
109. İsmayılov İ.Z. Azərbaycan nefti XX əsrdə. Bakı: Azərbaycan Neft Akademiyası, 2007, - 65 s.
110. İsrafiloğlu N.R. Neft qlobal münaqişələr mənbəyi. Bakı: Şərq-Qərb, 2009, - 462 s.
111. Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, - 328 s.
112. Mahmudov Y.M. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı: Təhsil, 2011, - 547 s.
113. Mehdiyev R.Ə. XXI əsrdə milli dövlətçilik. Bakı: Yeni nəşrlər evi, 2003, - 248 s.
114. Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: XXI-Yeni nəşrlər evi, 2005, - 464 s.
115. Mehdiyev R.Ə. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti. Bakı: Şərq-Qərb, 2008, - 215 s.
116. Mehdiyev R.Ə. Yeni siyasət: inkişafa doğru. 1-ci kitab, Bakı: 2008, - 581 s.

117.Mehdiyev R.Ə. Yeni siyasət: inkişafa doğru. 2-ci kitab, Bakı: 2008, - 343 s.
118.Mehrəliyev E.Q. Beynəlxalq siyasətdə neft amili. Bakı: Mütərcim, 2005, - 48 s.
119.Məmmədov Ə.M. Müstəqil Azərbaycan dövlətinin bərpası və möhkəmləndirilməsi uğrunda mübarizə (1980-1997-ci il): tarix elm. dok. alim. dər. almaq üçün dis. Bakı: 2005, - 353 s.
120.Məmmədov İ.M., Məmmədov Ç.İ. Azərbaycan tarixi (XX əsr - XXI əsrin əvvəlləri). Bakı: UniPrint, 2009. - 324 s.
121.Məmmədov M. III Respublika: milli inkişaf modeli və strategiyası. Bakı: Nurlan, 2008, - 200 s.
121a.Mirbabayev M.F. Azərbaycan neftinin qısa tarixi. Bakı: Azərnəşr, 2007. - 296 s.
122.Mirzəyev M.Ə., Mirzəliyev C.X. "Qara qızıl" ağ səadət rəngində. Birinci kitab. Bakı: "Azərbaycan" nəşriyyatı, 2001, - 336 s.
123.Mirzəyev M.Ə., Mirzəliyev C.X. "Qara qızıl" ağ səadət rəngində. İkinci kitab. Bakı: "Azərbaycan" nəşriyyatı, 2001, - 344 s.
124.Mirzəyev M.Ə., Mirzəliyev C.X. "Qara qızıl" ağ səadət rəngində. Üçüncü kitab. Bakı: "Azərbaycan" nəşriyyatı, 2002, - 346 s.
125.Mirzəyev M.Ə., Mirzəliyev C.X. "Qara qızıl" ağ səadət rəngində. Dördüncü kitab. Bakı: QAPP POLİQRAF korporasiya, 2003, - 320 s.
126.Mirzəyev M.Ə., Mirzəliyev C.X. "Qara qızıl" ağ səadət rəngində. Beşinci kitab. Bakı: "MBM" MMC mətbəəsi, 2004, - 208 s.
127.Mirzəyev M.Ə., Mirzəliyev C.X. "Qara qızıl" ağ səadət rəngində. Altıncı kitab. Bakı: "Azərbaycan" nəşriyyatı, 2006, - 240 s.

128. Mirzəyev M.Ə., Mirzəliyev C.X. Neft haqqında nə bilirsiniz. Bakı: MBM, 2005, 208 s.
129. Mirzəyev R.Ş. Heydər Əliyev və müstəqil Azərbaycan dövlətinin yeni neft strategiyası. Bakı: Göytürk, 1999, - 157 s.
130. Mirzəyev R.Ş. Əsrin müqaviləsindən başlanan yol. Bakı: 2000, - 370 s.
131. Mustafayev R.Ş. Azərbaycan dövlətçiliyi: özümüzü və dünyanı dərketmə yolunda. Bakı: Azərnəşr, 1995, - 233 s.
132. Müstəqil dövlətimiz və parlamentimiz = Our independent state and the parliament / Azərbaycan Respublikası Milli Məclisi; məsul red. M.N.Ələsgərov. - Bakı: Milli Məclisin nəşri, 2001. - 552 s.
133. Nadirov A.A. Azərbaycan iqtisadiyyatının daima yüksələn müstəqillik dövrü. Bakı: 2012, - 359 s.
134. Neft haqqında 100 sual -100 cavab. Bakı: 2003, - 153 s.
135. Neft və Azərbaycanın gələcəyi: Gənc alim və tələbələrin elmi-tədqiqat işləri. Bakı: n.y., 1998, - 200 s.
136. Novruzoğlu R. Azərbaycanın neft strategiyası xarici kəşfiyyatın maraq dairəsində və milli təhlükəsizliyimiz. Bakı: Qanun, 2001, - 468 s.
137. Rəsulov A.B. Azərbaycanda neft sənayesinin inkişafı tarixindən. Bakı: Azərnəşr, 1962, - 151 s.
138. Sadıqlı F. BP-nin ən böyük layihələri Azərbaycandadır // "Azərbaycan" qəzeti, Bakı, 2001-ci il, 17 may.
139. Salayev S.H. Neft axtarışlarının çətinlikləri və romantikası. Bakı, Elm, 1990, - 94 s.
140. Səmədzadə Z., Balayev R. və b. Xəzər nefti: Azərbaycanın strategiyası, regionun gələcəyi. Bakı: Polygraphic production, 2007. - 205 s.
141. Səfərov S.İ. Müstəqillik və iqtisadiyyat. Bakı: Azərnəşr, 2001, - 325 s.
142. Səfərov S.İ. Yeni Azərbaycan: iqtisadiyyat, siyasət, dina-

mizm. Bakı: Azərnəşr, 2003, - 290 s.

143. Səfərov S.İ. İlham Əliyev ümummilli liderliyə layiqli şəxsiyyət. Bakı: "Qismət", 2003, - 207 s.

143a. Tağıyev C.O. XX əsrin sonu, XXI əsrin əvvəllərində Azərbaycan nefti və neft kəmərləri: tarix elm. nam. alim. dərəc. almaq üçün diss. Bakı: 2004, - 170 s.

144. Vəliyev D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008, - 426 s.

145. Yaqubzadə M. Azərbaycandakı neft layihələri uğurla reallaşdırılır // Xalq qəzeti, 2004, 22 dekabr.

146. Yüzbaşova C., Abdullayev Z. Azərbaycanın neft-qaz strategiyası: problemlər və proqnozlar. Bakı: Nurlan, 2006, - 755 s.

**Rus dilində**

147. Алигусейнов М.А. Прошлое и настоящее азербайджанской нефти. Баку: Азернешр, 1987. – 127 с.

148. Алиев И.Г. Каспийская нефть Азербайджана. Москва: 2003. – 710 с.

149. Алиев Н.А. ОЭТ Баку-Тбилиси-Джейхан: от видения к реальности. Баку: Азербайджан, 2001. – 168 с.

150. Алиев Н.А. Нефть и нефтяной фактор в экономике Азербайджана в XXI веке. Баку: Letter press, 2010. – 243 с.

151. Алиев Т.Н. Организации управления потенциалом нефтегазодобывающей отрасли. Баку: Элм, 2001. – 168 с.

152. Алиханов Э.Н. Нефтяные и газовые месторождения Каспийского моря. Баку: Азернешр, 1964 – 383 с.

153. Амманиязов К.Н. Каспийское море – Геология и нефтегазоносность. Москва: Наука, 1987. – 295 с.

154. Габуев А. Извилистыми трубами // Коммерсант-Власть, №17. Москва: 6 мая 2013 г. 9-14 с.

155. Гулиев М.Е. Энергетическая проблема во внешнеполитической стратегии стран СНГ. Санкт-Петербург: Санкт-Петербургский Государственный Университет, 2005. – 98 с.
156. Данников В.В. Холдинги в нефтегазовом бизнесе: стратегия и управление. Москва: ЭЛВОЙС, 2004. – 464 с.
157. Джаббаров Ф.Р. Бакинская нефть в политике советской России (1917-1922). Баку: 2009. – 258 с.
158. Джанахмедов Ф.Х. Нефтяная трибология. Баку: 2003. – 326 с.
158а. Ергин Д. Добыча. Всемирная история борьбы за нефть, деньги и власть. Москва: Альпина Паблишер, 2013, 944 с.
159. Жильцов С.С. Геополитика Каспийского региона. Москва: Международные отношения, 2003. - 280 с.
160. Жильцов С.С., Зонн И.С. Каспийская трубопроводная геополитика. Москва: Восток Запад, 2011 - 320 с.
161. Заславский И. Дело труба: Баку-Тбилиси-Джейхан и Казахстанский выбор на Каспии. Москва: Европа, 2005 – 192 с.
162. Зонн И.С., Жильцов С.С., Ушков Ф.М. Геополитика Каспийского региона. Москва: Международные отношения, 2003. – 276 с.
163. История Азербайджана, том 2. Баку: Изд.Академии Наук Азербайджанской ССР, 1960, 953 с.
164. История Азербайджана, том 3, часть 1. Баку: Изд.Академии Наук Азербайджанской ССР, 1963, - 539 с.
165. История Азербайджана, том 3, часть 2. Баку: Изд. Академии Наук Азербайджанской ССР, 1963, - 528 с.
166. История СССР: Эпоха социализма. Москва: Политическая литература, 1964, – 61 с.

167. Керимов М.З. Нефть и море. Баку: Элм, 1997. – 73 с.
168. Козик Л.П. Экономика и нефтегазовый комплекс Содружества Независимых Государств. Минск, УОМИТСО, 2007. - 188 с.
169. Курбанов Р.А. Правовое регулирование иностранных инвестиций в нефтяной промышленности. Москва: Юриспруденция, 2005. – 344 с.
170. Лоран Э. Нефтяные магнаты: кто делает мировую политику. Москва: Алгоритм, 2010. - 333 с.
171. Мамедов И.А. Великий шелковый путь и Азербайджан. Баку: Элм, 2005. – 118 с.
172. Мехтиев Р. Межнациональные отношения на исходе XX столетия. Баку: Азернешр, 1995 – 222 с.
173. Мир-Бабаев М. Краткая история Азербайджанской нефти. Баку: Азернешр, 2009 - 376 с.
174. Мирзаджанзаде А.Х., Алиев Т.Р. Добыча нефти, газа и газоконденсата в море. Баку: Азнефтехим, 1983 – 61 с.
175. Мирзоев М.А. На шельфе Каспия. Баку: Сабах, 1993 – 204 с.
176. Мурадалиева Э.Б. Кровь земная и нефть Азербайджана и история. Баку: Мутарджим, 2005, - 256 с.
177. Нурсултанова Л.Н. Нефтная промышленность современного Казахстана (1991-2010 гг.). Алматы: Нурай Принт сервис, 2011, - 300 с.
178. Остальский А. Нефть чудовище и сокровище. Санкт Петербург: Амфора, 2009. - 254 с.
179. Сафаров Г.А. Экономические проблемы эффективности производства в нефтедобычу и методы их решений. Баку: Элм, 2004 – 306 с.
180. Судо М.М. Нефть и углеводородные газы в современном мире. Москва: НКИ, 2008 – 254 с.
181. Сулейманов А.Б. Эксплуатация морских нефтегазовых

месторождений. Москва: 1986 – 284 с.
182. Султанов Ч.А. Выстояли бы СССР и Европа против фашизма в случае потери Бакинской нефти. Баку: Нафта-Пресс, 2005. – 371 s.
183. Султанов Ч.А. Нефтегазовые стратегии и политика в XXI веке. Баку: Нурлан, 2008 – 703 с.
184. Султанов Ч.А. Нефть. Баку: Нафта-Пресс, 2000 – 274 с.
185. Сухецкий С.П. Нефтяной бизнес: влияние налоговой нагрузки на инвестиционный процесс. Москва: УРСС, 2005 – 136 с.
186. Тарлинский В. Трубопроводы – инструмент геополитики. Москва: МИК, 2009 – 381 с.
187. Шумилин А.И. Энергетическая стратегия России и США на Ближнем Востоке и Центральной Азии. Москва: Международные отношения, 2008 –166 с.
188. Шахбазов Э.К. Управление рисками в проблеме обеспечения энергетической безопасности. Баку: Карабах, 2007. – 143 с.
189. Экономидес М., Олини Р. Цвет нефти Крупнейший мировой бизнес: история, деньги и политика. Москва: ОМП Бизнес, 2004. – 252 с.
190. Экономические вопросы нефти и газа. Баку: “Зия”, Нурлан, 2001. – 652 с.
191. Юсифзаде Х.В. Разработка и разведка морских нефтегазовых месторождений. Баку: Азернешр, 1979. – 149 с.
192. Юсифзаде Х.В. Годы и вехи моей жизни. Баку: Оскар, 2010, – 313 с.

# İXTİSARLAR

| | | |
|---|---|---|
| ABƏŞ | – | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti |
| ABŞ | – | Amerika Birləşmiş Ştatları |
| AÇDG | – | Azəri-Çıraq-Dərinsulu Günəşli |
| AÇG | – | Azəri-Çıraq-Günəşli |
| AXC | – | Azərbaycan Xalq Cəbhəsi |
| AXC | – | Azərbaycan Xalq Cümhuriyyəti |
| AMEA | – | Azərbaycan Milli Elmlər Akademiyası |
| ARDNŞ | – | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| ATƏT | – | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| AzBTC | – | Azərbaycanın Bakı-Tiflis-Ceyhan neft kəməri |
| Azərkimya | – | Azərbaycan Kimya İstehsalat Birliyi |
| Azərneftyağ | – | Azərbaycan Neft Yağ İstehsal Birliyi |
| AZN | – | Azərbaycan manatı |

| | | |
|---|---|---|
| BB | – | Biznes Bölmələri |
| BDDÖZ | – | Bakı Dərin Dəniz Özülləri zavodu |
| BDU | – | Bakı Dövlət Universiteti |
| BNEZ | – | Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu |
| BNK | – | Bakı-Novorossiysk kəməri |
| BOTAŞ | – | Boru Hatları İle Petrol Taşıma Anonim Şirketi |
| BP | – | British Petrolieum |
| BSİBK | – | Bakı-Supsa İxrac Boru Kəməri |
| BSNK | – | Bakı-Supsa neft kəməri |
| BTC | – | Bakı-Tbilisi-Ceyhan |
| BTCKO,BTCK$^{o}$ | – | Bakı-Tiflis-Ceyhan neft kəməri şirkəti |
| BTƏ | – | Bakı-Tbilisi-Ərzurum |
| BYƏ | – | Boru Kəmərini Yoxlama Ərsini |
| CQBK | – | Cənubi Qafqaz Boru Kəməri |
| DRES | – | Dövlət Rayon Elektrik Stansiyası |
| DSG | – | Dərinsulu Günəşli |
| ƏİBK | – | Əsas İxrac Boru Kəməri |
| ƏMSSTQ | – | Ətraf Mühit və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi |
| ƏŞ | – | əməliyyat şirkətləri |

| | | |
|---|---|---|
| GBKŞ | – | Gürcüstan Boru Kəməri Şirkəti |
| HPB | – | Hasilatın Pay Bölgüsü |
| HPBS | – | Hasilatın Pay Bölgüsü Sazişi |
| İB | – | İstehsal Birliyi |
| İƏ | – | İntellektual Ərsinləmə |
| İNL | – | İlkin Neft Layihəsi |
| KİV | – | kütləvi informasiya vasitələri |
| QA | – | Qərbi Azəri |
| QİBK | – | Qərb İxrac Boru Kəməri |
| LTD | – | limited |
| MA | – | Mərkəzi Azəri |
| MAM | – | müqaviməti azaldan maddə |
| MDB | – | Müstəqil Dövlətlər Birliyi |
| MEA | – | Milli Elmlər Akademiyası |
| MİMP | – | Məcburi İşlərin Minimum Proqramı |
| NATO | – | North Atlantic Treaty Organization – Şimali Atlantika Müqaviləsi Təşkilatı |
| NEZ | – | Neft Emalı Zavodu |
| SİB | – | Strateji İcra Bölümü |
| SOCAR | – | State Oil Company of Azerbaijan Republic – ARDNŞ – Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |

| | | |
|---|---|---|
| SSRİ | – | Sovet Sosialist Respublikaları İttifaqı |
| STGP | – | Səngəçal terminalının genişləndirilməsi proqramı |
| ŞA | – | Şərqi Azəri |
| ŞD | – | Şahdəniz |
| ŞİBK | – | Şimal İxrac Boru Kəməri |
| TANAP | – | Trans Anatolian Pipeline – Trans Anadolu Boru Kəməri |
| TAP | – | Trans Adriatic Pipeline – Trans Adriatic Boru Kəməri |
| TPAO | – | Türk Petrolları Anonim Ortaqlığı |
| TRASEKA | – | Transport Corridor Europe-Caucasus-Asia – Avropa-Qafqaz-Asiya dəhlizi |
| YTİ | – | Yataqların Tammiqyaslı İşlənməsi |

# MÜNDƏRİCAT

**GİRİŞ** ........................................................................ 3

**I FƏSİL. Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının neft strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi. Əsrin müqaviləsi** ........................................................ 27

1.1. Sovet imperiyasının süqutu və Azərbaycan Respublikasının neft strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi ........................ 27

1.2. “Əsrin müqaviləsi”nin imzalanması və Azərbaycan Respublikasının neft ixrac edən ölkəyə çevrilməsi ................................................ 33

**II FƏSİL. ABƏŞ-in yaradılması və onun fəaliyyətinin əsas istiqamətləri** ................................................ 90

2.1. ABƏŞ-nin Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda ARDNŞ-lə birgə fəaliyyətə başlaması ............................................ 90

**III FƏSİL. Azərbaycan neftinin dünya bazarlarına ixracı məsələləri** ............................................... 149

3.1. Azərbaycan neftinin dünya bazarlarına nəql edilməsi üçün neft-qaz kəmərlərinin çəkilişinə başlanılması ....................................................... 149

3.2. Bakı-Supsa neft kəməri ...................................... 152

3.3. Bakı-Tbilisi-Ceyhan neft kəməri ......................... 164
3.4. Bakı-Tbilisi-Ərzurum qaz kəməri........................ 186

3.5. Xəzər neftinin dünya bazarlarına ixracı və Azərbaycan Respublikasının beynəlxalq siyasi və iqtisadi mövqelərinin möhkəmlənməsi ........... 201

**NƏTİCƏ** ........................................................................ 213

**Sözardı** ........................................................................ 225

**İstifadə olunmuş mənbələr və ədəbiyyat** ............................ 236

**İxtisarlar** ........................................................................ 249

Kompüter yığımı: Səbinə Məmmədova
Kompüter dizaynı: Elmar Məhərrəmov

Yığılmağa verilmişdir: – 5 iyun 2018
Çapa imzalanmışdır: – 12 avqust 2018

Sifariş: №
Formatı: 60/84 – $^{1}/_{16}$. Həcmi: 18 ç.v. Tirajı: 500
Qarnitur «Times New Roman»

Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap edilmişdir.
Müəssisənin direktoru professor **N.B.Məmmədli**
Tel. 497-16-32; 427-44-61; 417-41-89; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev küç., 8-ci döngə, ev 4

*Məsimov Abbas Xuda oğlu*

***“BP-Azərbaycan” Beynəlxalq Əməliyyat Şirkətinin yaranması və fəaliyyəti***